всей видимости, еще впереди. Основу миграционного цунами составляют жители стран, которые Запад осчастливил демократическими преобразованиями, попутно ввергнув в пучину нескончаемых гражданских войн, в некоторых случаях уничтоживших сами государства. Но немало среди переселенцев и таких, жизни которых на родине ничто не угрожает, но которые, тем не менее, предпочли покинуть свою страну, – их обычно причисляют к экономическим мигрантам. По мере развития событий становится все более очевидно, что захлебывающейся в мигрантских потоках Европе следует проанализировать весь комплекс породивших их причин, при этом не подменяя причины следствиями. Заигравшийся в опасные геополитические игры Запад вряд ли предвидел, что его действия на мировой арене бумерангом ударят по нему самому. Впрочем, на этот счет существуют и иные мнения: на определенные размышления наводит тот факт, что плоды недальновидной (а может, и целенаправленной) политики пожинает не весь Запад в целом, а лишь Старый Свет, покорно исполняющий указания своего "исключительного" старшего партнера. Оскудевшая европейская мысль не дает себе труда (либо вообще неспособна) разобраться в подоплеке процессов, разворачивающихся как на собственном континенте, так и в непосредственной близости от него. Интеллектуальный вакуум заполняется творениями ангажированных заокеанских политологов, предлагающих обывателям нужные заказчикам трактовки событий.

Не выдерживает критики попытка усмотреть в современных процессах проявление пресловутого "столкновения цивилизаций" по Хантингтону. Такая интерпретация событий является в лучшем случае упрощением, но скорее – намеренным искажением исторических феноменов. Малопродуктивными представляются в этой связи дискуссии на тему современных религиозных войн – какие сегодня могут быть религиозные войны, тем более – с участием Европы? Ведь говорить о глубокой религиозности современной Европы и Западного мира в целом не приходится – слишком уж мало

общего у сегодняшних западных ценностей с традиционными христианскими ценностями и идеалами. С другой стороны, нет оснований для обвинений в агрессивности и насильственном насаждении собственных взглядов подлинных последователей иных традиционных религий, еще живущих в этом мире и старающихся соотносить собственный жизненный путь с предписаниями своих Священных Книг. Не здесь следует искать корни разгорающихся в мире и уносящих тысячи жизней военных конфликтов: вырастают эти конфликты на принципиально иной почве. Борьба за доступ к ресурсам и рынкам сбыта – вот основа большинства кровавых столкновений, однако нынешние поводыри человечества, которых правильнее было бы назвать манипуляторами массовым сознанием, старательно камуфлируют истинные причины роста напряженности. Весьма неприглядные, часто циничные мотивы преподносятся обывателю в красивой упаковке в виде демократических идей и общечеловеческих ценностей.

Критики хантингтоновской теории столкновения цивилизаций ссылаются на гетерогенность отдельных цивилизаций, не позволяющую рассматривать их в качестве устойчивых однородных структур. Как представляется, возможны и другие возражения против подобных теорий, а именно: еще сохраняющиеся региональные особенности (включая своеобразие традиций и ментального склада, конфессиональные особенности и самобытность культуры) настолько быстро теряют свое значение в условиях нарастающей тотальной унификации (а точнее – вестернизации) человеческого сообщества, что уже в ближайшее время превратятся в реликты былых цивилизаций, в лучшем случае – в предмет научных исследований этнологов. Соответственно, все дискуссии не только о столкновении, но и вообще о сосуществовании полноценных, уникальных цивилизаций в постнеклассическую эпоху теряют всякий смысл. Стремительно глобализирующийся и унифицирующийся мир превратился практически в единую цивилизацию западного типа,

основанную на западных ценностях, западной идеологической платформе и западных институтах, с небольшими, можно сказать, непринципиальными, поправками на местные традиции. Весь мир сегодня – это единая цивилизация потребления, к каким бы традиционным цивилизациям по привычке не причисляли себя входящие в нее социальные группы. Что дает нам право это утверждать? В первую очередь – тот факт, что ни одна традиционная религия, ни одно традиционное общество не провозглашали материальное обогащение в качестве главной ценности и смысла жизни, тогда как именно оно стало главным приоритетом для большинства современников.

Наш мир – это мир денег. Деньги – нынешняя религия, нынешняя мораль, ключ к вожделенным материальным благам, власти, популярности, ставшими смыслом жизни для подавляющей части населения планеты. Западный мир, первым превратившийся в общество потребления, агрессивно внедряет ценности консьюмеризма, приправленные идеями либерализма, по всему миру. В чем немало преуспел и за что сейчас расплачивается собственным спокойствием и привычным комфортом. Массированная пропаганда стандартов общества потребления, обеспеченная всей мощью современных информационных средств, имела вполне предсказуемые последствия, а именно: жители тех стран, где достижение этих стандартов в обозримом будущем не предвидится, массово потянулись туда, где эти стандарты действуют и где рекламируемые материальные блага завлекают с каждой витрины.

Теряя по дороге все самое ценное, чем они обладали, прежде всего – духовное наследие собственных предков, культурные ценности, наполненные мудростью веков этические нормы, мигранты сохраняют в качестве признаков этнической и конфессиональной идентичности лишь внешнюю атрибутику своей культуры. Эта последняя резко контрастирует с местными обычаями, а потому вызывает неприятие со стороны коренного населения принимающих стран. Благополучно распрощавшись с ценностями собственной

культуры и прибыв в долгожданный потребительский рай, иммигранты обнаруживают, что все там далеко не так радужно, как представлялось. К тому же, многие мигранты не имеют желания работать на благо своей новой родины; оправдывая свои иждивенческие настроения, они обвиняют (и не без основания) принимающую страну в разрушении их собственных государств. Соответственно, несостоятельна звучащая иногда идея о пользе для Европы свежей крови, якобы призванной оживить европейскую экономику, придать новый, пассионарный толчок ее развитию. Подобное происходило в средневековой Европе, но абсолютно исключено в наше время.

Взаимное недовольство нарастает, умело подогреваемое определенными силами, и со временем выливается в открытые столкновения. И это, разумеется, не столкновения цивилизаций, а столкновения между реальными и потенциальными потребителями – теми, кто успел получить достаточное количество благ от единственной, доминирующей западной цивилизации и разочарованными соискателями этих благ, которые для Запада так и останутся маргиналами, представителями недоцивилизованных (то есть недовестернизированных) народов.

Незначительная часть иммигрантов вписывается в западное общество, перенимает его уклад жизни, начинает существовать по его законам, однако подавляющее большинство переселенцев не желает интегрироваться в местную среду, и в этом западные аналитики усматривают основную причину противостояния. Действительно, все было бы по-другому, если б Европа, превратилась в очередной "плавильный котел", подобно Америке с ее процессом культурной ассимиляции, аккультурации, а точнее – американизации иммигрантов. Какой продукт получился на выходе американской плавки, весь остальной мир сегодня имеет возможность не просто наблюдать со стороны, но и испытывать на себе – впрочем, с учетом изначальных ориентиров, исторического фона, культурно-ценностных и иных факторов трудно было бы

здесь ожидать чего-либо иного. Гораздо важнее с общецивилизационной точки зрения процессы, происходящие в Европе.

Вряд ли будет преувеличением сказать, что еще относительно недавно миллионы людей во всем мире в той или иной степени воспитывались на произведениях европейских писателей, сопереживали героям европейских драматургов, восхищались творениями европейских художников и композиторов. Начиная с античности, представители европейской гуманистической мысли размышляли о соотношении добра и зла, обсуждали вопросы всеобщего блага и справедливости... Казалось, творения европейских авторов во все времена будут пробуждать в людях лучшие чувства, служить стимулом к интеллектуальным поискам. Казалось также, что Европа будет и далее рождать мыслителей, подвергающих критическому осмыслению происходящие в мире процессы, анализирующих место и роль в них человека – ведь еще в XX веке мы слышали голоса европейских писателей и философов, обеспокоенных путем, по которому идет западная цивилизация.

Что же мы видим сегодня? "Вечное" искусство европейских гениев практически не востребовано членами информационного общества, в первую очередь – "сетевой" молодежью, воспитанной в совершенно ином духе, с совершенно иными ценностными ориентирами. Не менее важно то, что европейская интеллектуальная мысль к настоящему времени до крайности оскудела, полностью лишилась гуманистического измерения и вместо того, чтоб поднимать обывателя над суетностью повседневной жизни, сама наполнилась этой суетностью. В середине прошлого века К. Г. Юнг констатировал: "Духовная ситуация Запада неустойчива, и опасность тем больше, чем сильнее наша слепота к безжалостной истине об иллюзорности красот нашей души. Западный человек живет в густом облаке фимиама, воскуряемого им самим так, что в этом дыму ему не разглядеть собственного отражения" (**3**). За прошедшие десятилетия фимиам стал еще гуще, а желание вглядеться в свое отражение

в зеркале эпохи у Запада и вовсе исчезло – возможно, чтобы потом на зеркало не пенять?

В наше время, когда человечество столкнулось с целым рядом новых вызовов, мало кто в Европе всерьез задумывается о тупиковости общецивилизационного развития, которая стала заметнее, чем столетие назад. Даже рассуждая о событиях, непосредственно затрагивающих их самих, европейцы не утруждают себя глубоким, комплексным анализом создавшейся ситуации. Гораздо легче, рассматривая лишь верхушку айсберга, предлагать очередное тривиальное решение серьезной проблемы, выступать с громкими заявлениями, призывающими к тем или иным радикальным мерам. Вряд ли такие подходы, реализуемые нынешними европейскими правителями, позволят адекватно реагировать на современные вызовы. Впрочем, способны ли вообще эти политики предложить нечто конструктивное?

Малопривлекательная картина откроется взору непредвзятого наблюдателя, пожелавшего взглянуть на европейскую "верхушку" – тех, кто определяет политический курс континента. С европейского небосклона исчезли сильные, харизматичные лидеры; политическая элита современной Европы – это клуб посредственностей, страдающих политической несамостоятельностью, не обремененных высокими морально-нравственными принципами, а часто и необходимым интеллектуальным потенциалом. Все перечисленное мешает им просчитать возможные последствия своих действий даже на шаг вперед, не говоря уже об отдаленных последствиях своей политики. Неужели они всерьез полагают, что в любой момент смогут отыграть назад? Такие личности вряд ли способны осознать тот факт, что своей политикой могут в самое ближайшее время завести Старый Свет в исторический тупик.

Мессианские устремления и далеко идущие геополитические планы Европа реализовывала во все периоды своей истории, с античных времен присвоив себе монопольное право "цивилизовывать" остальные народы. Колонизация Европой

других народов в прошлые столетия сопровождалась насаждением тогдашних ценностей, тогдашней, еще живой европейской культуры. С утратой Европой лидерских позиций в Западном мире произошла окончательная девальвация культуры; "западные ценности", лишенные культурной составляющей и ориентированные на запросы общества потребления, ничего по-настоящему ценного для человеческой цивилизации не представляют. Сегодняшняя ментальная колонизация Западом жителей остальных стран, направленная на насаждение идеалов консьюмеризма, стала успешно плодоносить – зачем же тогда возмущаться ее плодами?

Итак, вернемся к процессам, вызывающим обоснованную тревогу у европейцев. Отказавшись "переплавлять" прибывающих мигрантов на собственной культурной основе, Европа выдвинула мультикультурную модель гармоничного сосуществования местных жителей и переселенцев, предполагающую сохранение в обществе культурных различий между его членами. На смену "плавильному котлу" пришли другие метафоры – "мозаика", "салатница" и т.п. Как показала практическая реализация модели мультикультурализма, отдельные фрагменты получившейся мозаики никак не стыкуются между собой, отчего вместо запланированной гармоничной картины получилось нечто хаотичное, противоречивое, расползающееся по всем швам. Общество превратилось в совокупность насыщенных взаимной неприязнью членов, и все попытки исправить ситуацию будут обречены на провал, если продолжать применять привычные однобокие подходы и рассматривать только феномены, лежащие на поверхности.

Анализируя перспективы мультикультурного сосуществования коренных европейцев и иммигрантов, возникает естественный вопрос: какие конкретно культурные особенности подразумевает понятие мультикультурализма? При ближайшем рассмотрении оказывается, что нет оснований говорить о сохранении глубинных, сущностных элементов соответствующих культурных традиций, поскольку современные представители обеих взаимодействующих сторон в большинстве своем уже

не являются носителями этих культурных традиций. Культурной идентичности лишены обе взаимодействующие стороны, причем Европу избавила от ее культурной идентичности Америка, в ценностной шкале которой культурный компонент отсутствует изначально. В этой связи представляются запоздалыми переживания по поводу "похищения Европы" инокультурными представителями: это "похищение" произошло значительно раньше, когда европейцы перечеркнули наиболее ценные компоненты собственной культуры, выбросили за ненадобностью гуманистические завоевания своих мыслителей. Разумеется, не пощадили они и культурные достижения всех остальных народов. Стараниями западных цивилизаторов культурное разнообразие стремительно исчезает, традиционные культуры, теряя ценное самобытное ядро, сохраняют лишь скорлупу, а значит, речь может идти о взаимодействии внешних оболочек культурных традиций. В этом контексте и употреблено нами понятие "бескультурного мультикультурализма".

Симптоматично то, что политика мультикультурализма, не предполагая подлинного уважения к чужой культуре, заменила его суррогатами – безжизненными понятиями толерантности и политкорректности. Не в этом ли причина нежизнеспособности этой политики в ее современной западноевропейской интерпретации? Справедливости ради заметим, что мы несколько поспешили обвинить европейцев в забвении былого опыта – достаточно вспомнить "политкорректность" древних афинян, прикрывавших, согласно Плутарху, отдельные малоприятные явления более пристойными именами (2). Впрочем, некоторые неоднозначные демократические ценности и свободы также родом из античности; жаль, что при этом все высокое и по-настоящему ценное осталось за бортом.

На самом деле мультикультурная модель вполне может быть реализована, хотя и на принципиально иной основе, о чем свидетельствует исторический опыт. Ретроспективный взгляд на историю различных регионов Земли позволяет

увидеть примеры успешного симбиоза культур, гармоничного сосуществования разных этнических и конфессиональных обществ. В качестве одного из таких примеров можно привести Кавказ, где на протяжении веков совместно проживали представители самых разных этнических групп и конфессий (**1**).

Касательно взаимоотношений европейцев с представителями стран Востока, хотелось бы еще раз напомнить об историческом периоде, когда последние несли в Европу достижения своих ученых и мыслителей, способствуя развитию познания и в целом – цивилизационному прогрессу. К сожалению, современные мигранты мало чем могут обогатить мировую культурную сокровищницу. Немногим лучше обстоит дело и с коренными европейцами – как указывалось выше, современная Европа испытывает стагнацию по многим параметрам – в первую очередь, интеллектуальным и этическим. Достаточно вспомнить такие плоды пресловутых прав и свобод, как циничное глумление над своими и чужими святынями. При отсутствии у взаимодействующих сторон понимания ценности как собственного культурного опыта, так и чужих культурных традиций трудно ожидать позитивных результатов от таких контактов. Рано или поздно они должны были привести к конфронтации, как это имеет место в сегодняшней Европе.

Против чего протестуют европейцы и что они на самом деле защищают? Ценные элементы своей многовековой культуры, моральные принципы своей религии, духовные завоевания своих выдающихся мыслителей? Или привычку жить с максимальным комфортом, желание оградить себя от реальных и потенциальных угроз? Несомненно, последнее важно для любого члена общества, но достаточно ли? И с другой стороны – чего пытаются добиться пришельцы: опять-таки защиты ценных завоеваний традиционной культуры или скорейшего доступа к вожделенным материальным благам? Как коренным европейцам, так и вновь прибывшим переселенцам не помешало бы задать себе вопрос: действительно ли они

являются носителями культурных традиций своих предков, следуют ли они этическим принципам, позволявшим их народам развиваться и взаимодействовать в прежние эпохи?

Несущие в мир идеологию консьюмеризма, западные миссионеры фактически подорвали глубинные основы существования народов, перечеркнув традиционные ценности и заменив их на весьма сомнительные, не прошедшие испытание временем ценности и идеалы. Религиозные нормы утратили значение, новые этические системы не сформированы. Разрушение традиционных нравственных ориентиров привело к тому, что современники утеряли способность различать добро и зло. Стоит ли удивляться тому, что кумирами больших социальных групп, прежде всего молодежи, нередко становятся моральные уроды. Беспощадная конкуренция за иллюзорные ценности, катастрофическое снижение планки духовности, господство бездушной, бессодержательной массовой культуры – вот те реалии, которые формируют облик человека XXI века. Рыночные подходы, по определению лишенные гуманистической составляющей, укоренились во всех областях. Коммерциализированы даже такие сферы, как медицина, фармакология и некоторые другие, где благо человека по определению должно быть главным приоритетом. Приоритетным и неприкосновенным остается лишь право членов общества на обогащение – даже в тех случаях, когда обеспечение этого права для одних лишает других членов общества права на жизнь. В условиях свободного рынка и свободного западного общества с его шкалой ценностей изменить такую ситуацию невозможно, как невозможно взывать к совести отдельных личностей, поскольку понятие совести в современном лексиконе отсутствует. Гордясь своими свободами, Запад не заметил, что стал полностью свободным, в том числе, и от морали, духовности, культуры в высоком смысле.

Напомним еще одно наблюдение К. Г. Юнга: "Современный человек не понимает, насколько его "рационализм" (расстроивший его способность отвечать божественным

символам и идеям) отдал его на милость психической "преисподней". Он освободил себя от суеверий (как он полагает), но при этом до опасной степени утратил свои духовные ценности. Его моральная и духовная традиция распалась, и теперь он расплачивается за это повсеместное распадение дезориентацией и разобщенностью. Антропологи часто описывали, что происходит в первобытных обществах, когда их духовным ценностям наносит удар современная цивилизация. Люди теряют смысл своей жизни, их социальная организация распадается, а сами они морально разлагаются. Теперь мы сами в подобном состоянии. Но в действительности мы так и не поняли, что потеряли" (**4**). Современники, и, прежде всего – европейцы, оказались сегодня еще дальше от этого понимания, чем были их предки, жившие в веке двадцатом.

Дальнейшее следование этим путем, несомненно, окажет губительное влияние не только на Европу, но и на остальные народы. Что же касается Европы, то сегодня, скорее всего, звучит заключительный аккорд ее прощальной песни. Раскультуривание, разрыв преемственных связей поколений, отсутствие интеллектуальной элиты – ключевые факторы, способствующие исчезновению Европы – той Европы, которая существовала на протяжении предыдущих тысячелетий и в значительной степени определяла поступательное движение всей человеческой цивилизации.

Трудно сказать, насколько обратимы развивающиеся процессы в масштабах всего человечества и каков запас прочности у цивилизации, однако если не начать уже сегодня анализировать весь комплекс современных вызовов, максимально объективно высвечивая причинно-следственные связи, завтра может оказаться поздно. Важно понимать и другое: если в массовом сознании понятие счастливой жизни будет по-прежнему ассоциироваться исключительно с материальным богатством, а духовная планка будет продолжать опускаться, то процесс раскультуривания и расчеловечивания цивилизации будет только нарастать.

Очевидно, что для коренного изменения ситуации усилий только политических лидеров (даже если б таковые были в наличии) недостаточно – необходимо глубокое философское осмысление всего многообразия разворачивающихся событий в их взаимосвязи.

## Литература:

1. Мирзаева, В., Абасов, А. Кавказ – регион пересечения западной и восточной культурной традиции / В. Мирзаева, А. Абасов // Культура: эпоха постнеклассики и постмодернизма. – Баку: Элм ве техсил, 2015. – С. 122-132.
2. Плутарх. Сравнительные жизнеописания в двух томах. – Москва: Наука, 1994. Т. I.
3. Юнг, К. Г. Проблема души современного человека / К. Г. Юнг // Архетип и символ. – Москва: Ренессанс, 1991. – С. 217.
4. Юнг, К. Г. Подход к бессознательному / К. Г. Юнг // Архетип и символ. – Москва: Ренессанс, 1991. – С. 85.

**Əbülhəsən Abbasov**

## Fəlsəfə və geosiyasət qlobal çağırışlar qarşısında

1986-cı ildə Türkiyənin Fəlsəfə cəmiyyəti tərəfindən təşkil olunmuş beynəlxalq seminar belə bir aktual mövzuya həsr edilmişdir: "Fəlsəfə dünya problemləri qarşısında". 17 il sonra, 2003-cü ilin avqustunda, fəlsəfə üzrə keçirilmiş XXI Ümumdünya Konqresi də eyni mövzu ilə bilavasitə bağlı olmuşdur. Hər iki hadisəni və bu arada həyata keçirilmiş digər tədbirləri vaxtilə (1982-ci ildə) YUNESKO-nun 1982-1989-cu illər üçün hazırladığı "Orta müddətli plan"ında vurğulanan vəzifələrin reallaşması istiqamətində təsirli addım kimi qiymətləndirmək olar. Elə həmin "Plan"ın ortaya çıxması ilə əlaqədar beynəlxalq elmi və siyasi disskusiyalara "dünya problemləri" ifadəsi gətirilmişdir. Ciddi fəlsəfi refleksiyaya duyulan zərurət də bu "Plan"da öz əksini tapmışdır.

Nəinki filosoflar, tanınmış fikir sahibləri, həmçinin bir çox içtimai-siyasi xadimlər, dövlət başçıları cərəyan edən proseslərə fəlsəfənin bilavasitə müdaxiləsini zəruri hesab edirlər. "Fəlsəfə işə qarışmalıdır!" fikri son illər xüsusilə tez-tez səslənir. Analoji fikirlər XXII Dünya Fəlsəfə Konqresində (30 iyul-5 avqust 2008-ci il, Seul, Koreya) də səslənmişdir. «Bu gün fəlsəfəni yenidən düşünərkən» adı altında keçirilmiş Seul Konqresi, bütün mövzu rəngarəngliyinə baxmayaraq, bir daha dünya problemlərinin həllində fəlsəfənin rolunu önə çəkmişdir. Hələ tədbirin açılışında Konqresin Prezidenti Peter Kemp iştirakçılara müraciətində demişdir: "Axı, fəlsəfə həm də sağlam zəkanın yol göstərənidir. Və o, yalnız bu şərtlə yaşaya bilər ki, bizim zamanımızda bəşəriyyətin məhz nələr üzərində diqqətini cəmləməli olduğu rasional diskusiyalarını yeniləşdirməyi bacarsın. Deməli, bu gün fəlsəfəni yenidən düşünmək – bəşəriyyətin mövcud durumuna münasibətdə bizim fəlsəfi idrak qabiliyyətimizi yenidən sınağa çəkmək deməkdir" (**15, s.147**). Fəlsəfə, şübhəsiz, sülh və rifahı təminatlandıran dünya nizamını yaratmaq üçün bizim səylərimizi ruhlandıran qüdrətli **Söz** kimi fəaliyyət göstərə bilər.

Bəs, konkret olaraq, fəlsəfənin bəşəri problemlərin həllində rolu nədən ibarət olmalı, yaxud ibarətdir?

Bu rolların əsas bir qrupu konseptual məsələlərlə bağlıdır ki, burada da, ilk növbədə, "**dünya problemləri**" anlayışına aydınlıq gətirmək lazımdır. Tanınmış filosof, Beynəlxalq Fəlsəfə Cəmiyyətləri Federasiyasının prezidenti, İ. Kuçuradi bura iki növ problemləri aid edir. "Bunlardan biri müəyyən *faktlarla* bağlıdır - bu gün bəşəriyyətin bir tam kimi çatdığı sivilizasion səviyyəyə baxmayaraq, həmin bu bəşəriyyətin əhəmiyyətli hissəsinin mövcud olduğu *dalanların* müxtəlif aspektlərilə: aclıq, müalicə oluna biləcək xəstəliklərdən ölüm faizinin yüksəkliyi, savadsızlıq, əsas hüquqların müdafiəsi sahəsində ayrı-ayrı insanlar və qruplar arasında kəskin fərqlər, işgəncələr və s." (**7, s. 6**). İkinci tip «dünya problemləri»nə İ. Kuçuradi həmin bu faktlarla bağlı ortaya çıxan gümanları, yaxud "dalanlar"dan gözlənilən çıxış yollarını aid edir. Bu kateqoriyaya, onun fikrincə, inkişaf, sülh, insan hyquqları, demokratikləşmə kimi problemlər daxildir.

Daha sonra İ. Kuçuradi göstərir ki, bu iki tip bəşəri problemlərin tədqiqi müxtəlif növ idraki fəaliyyət tələb edir: məsələn, faktlar səciyyəsi daşıyan problemləri *izah* etmək lazımdır, nəzərdə tutulan həlli yollarını isə - *əsaslandırmaq.* İzah etmək və əsaslandırmaq - epistemoloji fəaliyyətin iki müxtəlif növüdür. Alimin fikrincə, faktın düzgün diaqnozunu qoymaq fəlsəfənin ümdə vəzifələrindən biridir. Nəhayət, İ. Kuçuradi "dünya problemləri" məfhumuna belə tərif verir: "Dünya problemləri - ayrı-ayrı ölkələrdə və bütövlükdə dünyada sosial, iqtisadi, siyasi münasibətlərin necə qurulmasından asılı olaraq yaranan hadisələrin spesifik çarpazlaşmasından törəyən faktlardır" (7). İ. Kuçuradinin baxışları ilə ümumən razılaşsam da, fəlsəfənin konseptual məsələlərlə bağlı roluna dair bir sıra ciddi əlavələr etmək istərdim.

Konseptuallıqdan söhbət gedirsə, ilk növbədə, **hissədən** (faktdan) yox, **tam**dan (faktlar sisteminin özündən, bu sistemin məğzindən, ontoloji məzmun-mahiyyətindən və buna müvafiq qnoseologiyadan, habelə, aksiologiyadan) danışılmalıdır. Əfsuslar olsun ki, hörmətli filosof məsələyə belə yanaşmır, həqiqətən də müasir dünya problemlərinin **substansiyasını** təşkil edən mövzuya, demək olar ki, toxunmur.

Faktlar ümumi bir tamın (substansiyanın) təzahürləridir, tamın öz-özünə münasibətinin və özündən kənara (tam - ətraf mühit) proyeksiyasının nəticəsi olaraq ortaya çıxan "məhsuldur". Onlar, filosofun dediyi kimi, bəşəriyyətin böyük bir hissəsinin gəlib düşdüyü dalanların müxtəlif aspektləri, lapdan yaranan "özündə şeylər" deyil. O ki qaldı "dalanlara", heç bir dərindən düşünən adam bunların yalnız bəşəriyyətin bir hissəsinə (filosof, yazısından göründüyü kimi, bura yoxsul, əzilən, günahsız qırılan və digər bu qəbildən olan insan qruplarını, xalqları və reqionları aid edir) şamil edilməsinə razı olmaz, çünki, necə deyərlər, varlının da öz dərdi var!. "Dalanlar" ifadəsini işlətmək olar, bəlkə də - zəruridir, ancaq onlar hər bir insanın, hər bir sosial, siyasi, dini, etno-mədəni və s. qrupun, bütöv dünyanın tərkibində olan xalqların və ölkələrin qismətidir. Heç bir şəxs, sosial qrup, sinif, xalq və ölkə bu məsələdə imtiyazlı deyil və hansısa sirli qüvvə tərəfindən sığortalanmayıb.

Digər tərəfdən: bəli, aclıq, səfalət, hüquqların pozulması, tibbi yardımsızlıqdan çoxlu ölüm halları (faktlar) var və bu gün onlar olduqca diqqəti çəkən, ürək ağrıdan, həllinə insanları, dövlətləri səsləyən problemlərdir. Dünya da onlara həssas olmalı, həllinə çalışmalıdır. Lakin bu problemlər müasir dünyanın bilavasitə səciyyəvi problemləri deyil. Belə ki, onlar yüz il, üç yüz il və min il bundan qabaq da mövcud olub. Heç kim elə bir tarixi dövr göstərə bilməz ki, həmin zaman kəsiyində tam firavanlıq təmin edilsin, aclıqdan, soyuqdan, müalicəsizlikdən ölən olmasın. İkinci bir tərəfdən, bu problemləri təkrar-təkrar sadalamağın fəlsəfi refleksiyanın konseptual müstəvidə rolunun həyata keçirilməsinə nə dəxli var? Əslinə qalsa, burada fəlsəfəlik də bir şey yoxdur, xüsusən də hansısa anlaşılmayan, mücərrəd «konseptuallıq» yüksəkliyindən yerə enmək istəməyən fəlsəfəçilik üçün. Elə A. Eynşteyn, V. Heyzenberq, B. Rassel, G. Gess, M. Şoloxov, P. Kapitsa və bir çox görkəmli şəxsiyyətlərin nümunəsini davam etdirərək dünya xalqlarına, dövlət başçılarına, parlamentlərə, nəhayət, BMT-yə müraciət etmək, məsələlərə ciddi münasibətin göstərilməsini xahiş və tələb etmək daha məqsədəuyğun olardı.

Dünya dərdi, həqiqətən, insan dərdidir və bu dərd yalnız bir parça çörəyin olub-olmamasından ibarət deyil. Azmı vaxtlar, günlər olub ki, adamlar bir qara çörək parçasını bölüşdürüb, ancaq xoşbəxt olublar, süfrə arxasından sevgi-məhəbbətlə durublar, insanlıqlarını itirməyiblər? Yox, məsələ yalnız maddi təminat çətinliklərində, fizioloji məqamlarda deyil. **Problematiklik ifrat dərəcədə maddiləşmiş və sürətlə maddiləşməkdə davam edən sivilizasiyanın həm lokal, həm də qlobal miqyasda ruha, ideal olana, müqəddəs sayılana divan tutmasında, sırf maddiyyat prizmasından, kapital amili müstəvisində insanları sayıb-seçməsində, çeşidləməsindədir**.

Nəzərə alsaq ki, sivilizasiyalaşmaq müəyyən mənada və xeyli dərəcədə mədəniyyətləşmədir, onda məntiqi olaraq deyə bilərik : müasir dünyada **maddiləşmiş və maddiləşməkdə** davam edən qlobal «mədəniyyətləşmə» həyata keçirilir. Tamamilə asosial, antiinsani mahiyyət daşıyan, məqsədyönlü surətdə günbəgün içtimai və fərdi şuurda entropiyanı (nizamsızlığı, destrukiyanı, çürü-

məni) artıran, hiss və zövqləri qəbahətlər istiqamətində formalaşdıran bir dəhşətli proses!

Müasir dünyanın səciyyəvi, ən təsiredici problem-faktından söhbət gedirsə, ilk növbədə, məhz bu problemi və onun kökündə dayanan əsas səbəbləri qeyd edərdim. Ən başlıca səbəb isə, fikrimcə, məqsədli surətdə təşviq və təbliğ olunan "**kapital-gəlir ideologiyası**"dır. Bu ideologiya artıq dünya xalqlarını öz təsiri altına almış, insanların düşüncə və həyat tərzinə hakim kəsilmiş və dayanmadan insanlar, xalqlar, ölkələr üzərində öz nəzarətini həyata keçirməkdədir.

Bütün tarixi keşməkeşlərə, qanlı müharibə və inqilablara baxmayaraq, indiyə qədər bəşəriyyətin hərəkət dinamikası bir aparıcı və ümdə «proqram»ın reallaşdırılmasına xidmət edib: **ibtidaidən — aliyə doğru, primitiv düşüncədən — yüksək elmi idraka doğru**. Məqsəd düşünən və bu düşüncə qabiliyyətini artıran, yüksək zövqə və zəkaya sahib varlıqların formalaşması olub. İnsan məhz bu proqram-məqsədin, əsrlərlə davam edən təkamülün nəticəsi, məhsuludur. Müasir dünyada isə nə baş verir? **O baş verir ki, insanı ali səviyyədən bəsit duyğular və instinktlər səviyyəsinə endirmək cəhdi reallaşdırılır**. Bir növ indiyə qədər gedilən yolu bəşəriyyətə tərsinə oxutmaq (özü də - zorən, məkr və inadkarlıqla!) istəyirlər, adını isə qloballaşmanın obyektiv, ayrılmaz atributu qoyurlar. Üstəlik, bu atributa deqradasion-parazitar mentallığın güclənməsi istiqamətində məqsədli surətdə yaydıqları postmodernizm-postsrukturalizm vasitəsilə fəlsəfi əsas və mədəni libas yaratmağa çalışırlar. Həqiqətənmi bəşəriyyət belə atributa, bu vicdansız və vicdansızlaşdıran qlobalizasiyaya, postmodernizmə ehtiyaclıdır? Əsla yox! Bu, yalnız və yalnız bir qrup başını itirmiş, lakin böyük səlahiyyətlərə malik ekstremistlərə, dünya xalqlarına divan tutan super güclərə, onların antibəşəri siyasətindən bəhrələnənlərə, bütün dünya üzrə öz mafiya şəbəkələrini yaratmış korporasiya və şirkətlərə lazımdır, hakimiyyətə gəlmək üçün və yaxud hakimiyyətdə qalmaq naminə bir göz qırpımında təmsil etdiyi xalqın milli maraqlarını qurban verən, onların suveren hüquqlarının qəddərcasına tapdalanmasına hazır olan psevdodemokratlara və yalançı vətənpərvərlərə

gərəklidir. Və bu mağara instinktlərindən, qeyri-insani canbirliyindən qaynaqlanan **gərəklər** ucbatından məqsədli surətdə cürbəcür alçaq məxluqlardan «milli qəhrəman»lar hazırlanıb, hansısa bir qrup avantüristlərə «kart-blanş» verilib, hiyləgərlik və kəmsavadsızlıq nümunəsi olan adamlar ortaya çıxarılıb, gecə-gündüz onların vasitəsilə insanlara qarşı informasion pressinq, düşüncələri lümpenləşdirmə siyasəti həyata keçirilib.

Dünya problemləri kompleksinə daxil olan "qlobal siyasi arxitektura", "qeosiyasət və geostrategiya", habelə, beynəlxalq həyat və beynəlxalq hüquq, sivilizasiyalararası münasibətlər kimi ümumbəşəri məsələlərin qoyuluşunda və həllində bu səciyyə hökmən nəzərə alınmalıdır. Burada vacib olan odur ki, dünyanın yenidən formatlaşması prosesində (bu, bir zərurətdir!) aparıcı geopolitik güclər həmin qeyd etdiyim amillərdən daha da məharətlə istifadə etməyə çalışacaqlar və gördüyümüz kimi, artıq bunu edirlər. Böyük güclərlə müqayisədə Azərbaycan kimi kicik dövlətlər alovlandırılmış qlobal "soba"nın yanacağına çevrilməmək üçün ehtiyatlı tərpənməli, qabaqlayıcı tədbirlər həyata keçirməlidir.
"Soyuq müharibə" qurtarsa da, dünyanın mütərəqqi inkişafının təminatçısı ola biləcək yeni «davranış kodeksi» ortaya qoyulmur. Əksinə, beynəlxalq münasibətləri indiyə qədər az-çox tənzimləyən norma və prinsiplər də kobutcasına pozulur. Bu mənada xüsusi narahatçılıq doğuran problemlərdən biri **suverenlik** məsələsidir. Hal-hazırda suverenliyin həm fəlsəfi-siyasi anlamında və onun beynəlxalq hüqüq səviyyəsində şərhində, həm də dövlətlərarası əlaqələr sistemində etibarlı təminat əldə edərək praktiki reallaşmasında kəskin problem və ziddiyyətlər özünü göstərməkdədir. Xüsusən də ABŞ-ın İraqa, Afqanıstana qarşı təcavüzü, sonralar isə bu qlobal hegemonun başçılığı ilə Avropa və bir sıra region ölkələrinin Tunis və Misirin, Liviya və Suriyanın, Yəmənin daxili işlərinə kobudcasına müdaxilə etməsi, demokratiyanın gətirilməsi adı altında həmin ölkələrin viranə qoyulması suverenlik məsələsində problematikliyi olduqca qabartmışdır.

Suverenlik ideyası bir prinsip kimi öz ilk təsbitini 367 il bundan əvvvəl, 24 oktyabr 1648-ci ildə, Vestfal sülh müqaviləsinin bağlanması ilə tapmışdır. Həmin saziş mövcud beynəlxalq

münasibətlər sisteminin başlanğıcını qoymuşdur. O vaxtdan keçən müddətdə, bütün keşməkeşlərə baxmayaraq, suverenlik prinsipi yenilməz qalmışdır. Bu mənada ki, heç bir dövlət və ya ölkə başçısı bu prinsipi, özlülüyündə bir ideya kimi, dövlətlərarası münasibətlərin etiraf olunmuş norması kimi şübhə altına almamışdır. Əksinə, suverenlik prinsipi beynəlxalq münasibətlər sisteminin dünyagörüşü əsaslarının mühüm tərkib hissəsi kimi təqdir edilmişdir. Lakin, bununla belə, əməli hərəkətlər, praktiki davranışlar səviyyəsində suverenlik prinsipinə dəfələrlə qəsdlər edilmiş, onun təminat qazanmasında və həyata keçirilməsində ayrı-seçkiliyə, ikili standartlara, açıq-aşkar laqeydliyə yol verilmişdir. Sözdə, nəzəri müstəvidə təqdir olunan əməli fəaliyyətdə pozulmuşdur, bəzən də çox qəddarcasına. Bir sözlə, suverenlik ideyasını reallıqlarla tutuşdurduqda kəskin uzlaşmamazlığın olduğunu etiraf etməmək mümkün deyil. Son illərdə ideya və reallıqlar arasında baş verən ziddiyyətlər, barışmazlıqlar nəinki azalmış, əksinə, daha da artmış və şiddətlənmişdir. Və bu gün həm Qərbdə, həm də Şərqdə süverenliklə bağlı problematiklik bir çoxlarını düşündürməyə başlamışdır.

Vaxtilə rus alimi Vladislav İnozemtsev "XXI əsr dünya nizamı haqqında bir neçə hipotez" əsərinin "Suverenitet, demokratiya, insan haqları: uzlaşmayan üçluk" adlı birinci hissəsində mövcud beynəlxalq əlaqələr sisteminin dərin böhranını qeyd edərək, suverenlik prinsipinin yenidən baxılması zərurətini göstərirdi. Problemin xüsusi araşdırmaya ehtiyaclı olması fikrini tam dəstəkləyərək, bildirmək istərdim ki, onun əsaslandırmağa çalışdığı bir çox mülahizələrlə razılaşmaq qeyri-mümkündür. O, başlanğıcdan səhv müddəalardan çıxış edərək, ümumən qəbul edilməz, olduqca ziyanlı fikirlər irəli sürür. V. İnozemtsevin qənaətinə görə, "əgər beynəlxalq ictimaiyyət insan haqlarının müdafiəsini özünün məqsədi kimi etiraf edirsə, suverenlik prinsipini öz gücünü itirmiş elan etmək lazımdır", yox "əgər beynəlxalq ictimaiyyət suverenlik prinsipini qəbul edirsə, yalnız kollektiv təhlükəsizlik haqqında sazişin bağlanılması zəruridir" (**6, s. 5**).

O, inadkarlıqla vurğulayır ki, suverinitet hec də demokratiyanın, insan hüquq və azadlıqlarının təmin olunmasını nəzərdə tutmur, yəni, bu üçlük bir-birilə uzlaşmır. Saxta arqumentlərə söykə-

nərək formulə etdiyi psevdomövqelərin qarşılıqlı dolaşıqlarında itib-batan V. İnozemtsev nəticədə belə bir fikir söyləməyə məcbur olur: “Təəssüflər olsun ki, yeni dünya nizamının yaranması üçün nə birinci, nə də ikinci yanaşmanın reallaşdırılması sualına cavab vermək mümkün deyil” (**6, s. 6**). Bu, bir tərəfdən, alimin öz təfəkkürünün məhsulu olan psevdosuallar qarşısında acizliyinin üstüörtülü etirafıdırsa, digər tərəfdən, Rusiya ziyalılarının konkret nümayəndəsinin, həm də bütövlükdə Rusiya ictimai fikrinin reaksion ab-havaya tutulmasının, imperiyapərəstliklə zəhərlənməsinin sübutudur. Heç də təəccüblü deyil ki, V. İnozemtsev suverenlik hüququnun bütün ölkə və xalqlara şamil edilməsində müasir beynəlxalq münasibətlər sisteminin ən başlıca qəbahətini görür. Onun açıqca söylədiyi fikir bundan ibarətdir: dünya xaosa yuvarlanır, burada isə əsas günahkarlar o kəslərdir ki, bütün ölkələri beynəlxalq ictimayyətin suveren üzvü kimi tanımışlar və hər bir xalqın özünəlayiq hökumət (siyasi hakimiyyət) təşkil etməsini alqışlamışlar (**6, s.7**). İnozemtsevin bu fikrinin məntiqi davamı, konkret olaraq, o deməkdir ki, Rusiya kimi «suverenlik hüququna layiq olanlar», yəni, tarixən imtiyazlılar, indən sonra da, suverenliyə aparan qapıları bağlamalı, başqa dövlətlərin, xalqların işinə istədiyi kimi qarışmalı, hətta onların siyasi hakimiyyətlərini seçib-müəyyənləşdirməli, dövlət quruluşlarını və idarəetmə fəlsəfələrini formalaşdırmalıdır.

Elə bu iddia ilə də bir neçə il öncə Rusiyanın hərbi maşını, xüsusi xidmət orqanları öz qanuni hüquqları, milli azadlığı uğrunda mübarizəyə qalxmış çeçen xalqını qılıncdan keçirdi, faktiki olaraq, genosidə məruz qoydu, hətta merkantil maraqlar zəminində Vaşinqtonla sövdələşməyə gedərək (B. Yeltsin və B. Klinton əlbirliyini və s. nəzərdə tuturam!), onun C. Dudayev, A. Məshədov, Ş. Basayev kimi bir çox liderlərini, qəhrəman oğullarını, şərəfli şəxsiyyətlərini məhv etdi, genofonduna ölümcül zərbə vurdu, “sivil” deyilən dünyanın gözü qarşısında hər cür cinayətə əl atdı. Bütün bunları Kreml hakimiyyəti, elə rusların özünün, deqradasiyaya uğradılmış etnosun ziyanına olsa da, etdi. Yeri gəlmişkən, bu il bütün bəşəriyyətin fəxri sayılmalı görkəmli şəxsiyyət Cövhər Dudayevin ölümündən 20 il keçir, o, 21 aprel 1996-cı ildə

namərdcəsinə qətlə yetirilmişdir. Bu tarix bizim üçün də anım tarixidir!

Sonralar isə şovinizm, aqressivlik psixozuna tutulmuş Rusiya hakimiyyəti Ukraynanı söküb-dağıtmaqdan çəkinmədi, Krımı, Sevastopolu öz tarixi torpaqları elan edərək mənimsədi, gələcək gediş yolunu özü müəyyənləşdirmək istəyən xalqı ağır vəziyyətə salmağa, içəridən parçalamağa başladı, vətəndaş qırğınına sürüklədi, Novorossiya çətiri altında Donetsk və Luqansk vilayətlərində "Xalq Respublikaları" yaradıb, mərkəzi hakimiyyətə qarşı qoydu. Fitnə-fəsadından, məkrli niyyətlərindən çəkinməyən Kreml hakimiyyəti iki il ərzində "qardaş xalq"ın, körpə-uşaq, ahıl demədən, on minlərlə nümayəndəsini məhv etdi, bir çox hallarda da bir-birinin əli ilə. "Opolçentsı" adlandırdıqları quldurların-separatçıların hər cür texnika-silahla, hərbi sürsatla təmin edilməsi, hətta rus ordu bölmələrinin, mütəxəssis və hərbçilərin, könüllülərin, təxribatçı dəstələrin, provokator və xəfiyyəçilərin, kəşfiyyat agentlərinin açıq-aşkar və gizli surətdə Ukraynaya göndərilməsi, beləliklə də, məkrli müdaxilə nəticəsində vəziyyətin kritik həddə çatdırılması və sairə - bütün bunlar təkzibolunmaz faktlardır.

Həmin Kreml, bu məşum hərbi-siyasi rejim çeçen-inquşların və Ukrayna xalqının başına gətirdiyi faciələr arası, 2008-ci ildə, Gürcüstanın suverenliyinə qəsd etmiş, Abxaziya və Cənubi Osetiyanı müstəqil respublikalar kimi tanıyaraq, faktiki, Gürcüstandan ayırmış və öz "tarixi torpaqları"nın tərkibinə qatmışdı. Yenə də, güya ki, dünyada demokratiya və azadlığın sarsılmaz qarantı olan ABŞ və mədəni-sivil Avropa biganəlik, laqeydlik sərgiləmiş, prezident M. Saakaşviliyə, öz demokratları olsa da belə, heç bir əməli kömək göstərməmişlər. Mən heç bu hadisələrdən çox-çox əvvəl Dağlıq Qarabağ ermənilərinin Kremlin "sülhpərvər" siyasəti sayəsində bəxtəvərliyə yetişdiyini, Azərbaycan ərazisində yeni erməni dövləti quraşdırdıqlarını xatırlatmaq istəmirəm – kifayət qədər deyib-yazmışam! Moldovanın daxilində rus hərbi-siyasi maşınının birbaşa əli ilə yaradılmış Dnestryanı Respublikanı da bu bədnam təcavüz-işğal-fitnəkarlıq sırasında göstərmək olar.

Vəziyyət indi o həddə çatıbdır ki, dünya ekspertləri, hərbçi və siyasətçiləri Rusiyanın atom silahından istifadə etmək niyyətinin

olmasından danışır və ehtiyatlanırlar. Məsələn, 7 noyabr 2015-ci il tarixində "Virtualaz.org" saytında "Pentaqon: Rusiya nüvə silahı tətbiq etməyə hazırlaşır" (**16**) başlıqlı məqalə verilib. Saytın yazdığına əsasən, ABŞ Müdafiə Nazirliyinin sabiq yüksək vəzifəli əməkdaşı, müdafiə nazirinin müşaviri Evelin Farkas hərbi mövzuda ixtisaslaşmış amerikalı jurnalistlərlə deyib ki, Putin nüvə silahından istifadəni ciddi nəzərdən keçirir. Onun sözlərinə görə, NATO, ABŞ və Rusiyanın iştirakı ilə baş verə biləcək müharibə bəşəriyyətin sonunu gətirməsə belə, dünya üçün olduqca fəlakətli olar və insanlığın gələcək firavan yaşayışını təhdid edərdi.

Məqalədə qeyd edilir ki, Evelin Farkas 2015-ci ilin avqustunda Bakıda səfərdə olub. Onun Bakıya səfəri mümkün Rusiya təhdidlərinə qarşı Azərbaycana ABŞ hərbi yardımının göstərilməsi məsələlərinin müzakirəsi ilə əlaqəli imiş. Səfərdən qayıdandan az sonra istefaya çıxdığını elan edib. O, Pentaqonda Rusiya və Avrasiya regionu ölkələri üzrə kurator işləyib.Verilən məlumata görə, E. Farkas Moskvaya qarşı sərt addımların qatı tərəfdarı kimi çıxış edib və bu məsələdə müdafiə naziri ilə aralarında ziddiyyətlər yaşanıb. Saytın yazdığına görə, Evelin Farkasın fikirlərindən sitat gətirən "ValueWalk" portalı qeyd edir ki, Rusiya Sovet İttifaqı ilə müqayisdə nüvə silahı ilə daha təhlükəli davranır. "Biz dayanıb gözləməli deyilik. Rusiyanı bu addımdan çəkindirəcək addımlar atmalıyıq"- E.Farkas deyib. Keçmiş Pentaqon vəzifəlisinin fikrincə, bugünkü Rusiya, Leonid Brejnevin Siyasi Bürosuna nisbətən, daha təhlükəli və proqnozlaşdırılmayandır.

Məqalədə o da bildirilir ki, ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri, general Mark Milley də Rusiyanın nüvə silahından istifadə riskinin yüksək olduğunu deyib. Generalın fikrincə, Rusiya hazırda ABŞ-ı məhv edə biləcək nüvə potensialına sahib yeganə ölkədir. Mark Milley Rusiyanın siyasətinin "aqressiv" olduğunu və Birləşmiş Ştatların maraqlarını təhdid etdiyini söyləyib. General xəbərdarlıq edib ki, Rusiya prezidenti Vladimir Putinin etdiyi hərəkətlər Moskvanın nüvə silahını tətbiq etməyə hazır olduğunu göstərir.

ABŞ rəsmiləri və ekspertlərinin ehtiyatlanmaları ilə razılaşmaq məcburiyyətindəyik. Bunu gedişatın dinamikası diktə edir, an-

caq o da danılmaz həqiqətdir ki, proseslərin belə təhlükəli məcrada cərəyan etməsində və qlobal durumun fəlakətli xarakter almasında məhz ABŞ-ın rolu, bəlkə də, həlledici olmuşdur. Son onilliklər ərzində bu ölkənin "xarici siyasət neoliberalizmi" heç də ürək açan, bəşəri ədalətə və sülhə xidmət edən deyildir. Əlamətdardır ki, hələ XXI əsrin əvvəllərində C. Soros öz kitablarında ABŞ-ın siyasətini, prezident C. Buşun özünü ciddi tənqid atəşinə tutmuşdur. O, "Amerikan üstünlüyünün sabun köpüyü" adlı əsərində yazırdı: "Yer üzərində ən güclü ölkədə hakimiyyət sosial darvinizmin ən vəhşi formasını rəhbər tutan ekstremistlərin əlindədir. Buş administrasiyasının rəhbər tutduğu azadlıq və demokratiya konsep-siyası ilə azadlıq və demokratiyanın real prinsipləri arasında ziddiy-yətlər var. Prezident Buş deyəndə ki, o isə kifayət qədər tez-tez de-yir, azadlıq qələbə çalasaq, həqiqətdə Birləmiş Ştatların qələbəsini nəzərdə tutur… Prezident Buş azadlıq və «amerikan dəyərləri» arasında bərabərlik işarəsi qoyur. Nəyin yaxşı, nəyin pis olması barədə onun bəsit baxışı vardır. İraqa hücum Buş doktrinasının ilk praktiki istifadəsi oldu" (**5, s. 6**).

ABŞ-ın xarici siyasəti, xüsusən, oğul-prezident Corc Buş zamanından bir çox istiqamətlərdən və bir çoxları tərəfindən tənqid edilirdi. Onu birbaşa terrorist ölkə olmaqda da suçlayanlar az deyildir. Məsələn, tanınmış yazıçı-publisistlər Z.Sardar, M.V.Devis "Nə üçün insanlar Amerikaya nifrət edirlər?" əsərində yazırdılar: "Dünyanın əksər hissəsi, haqlı olaraq, ABŞ-ın simasında terrorist ölkə görur" (**9, s. 31**). Analoji fikirlərlə politoloq C.Stiqlits çıxış edirdi (**10**). Şübhəsiz ki, Amerikaya yönəlmiş "terrogen nifrətin" (**8, s. 84**) real səbəbləri vardır. Başlıca səbəblərdən biri isə, artıq qeyd etdiyim kimi, müasir beynəlxalq münasibətlər sistemində suverenlik prinsipinin etirafı və ödənilməsi problemi ilə bağlıdır. Daha geniş konseptual kontekstdən yanaşsaq, başlıca səbəb dünyanın ümumbəşəri ədalətə, rasional tələblərə cavab verən **yeni "davranış kodeksi"nə, geosiyasi fəlsəfəyə** ehtiyaclığı məsələsi ilə əlaqədardır.

Müasir dünya yeni "davranış kodeksi"nə ehtiyaclıdırsa, deməli, ilk növbədə beynəlxalq əlaqə və münasibətləri tənzimləyən **beynəlxalq hüququn** özünə yenidən baxılmalıdır. Həm bütövlük-

də, həm də müxtəlif kontkestlərdə, səviyyə və aspektlərdə, o cümlədən, suverenlik prinsipi kontekstində. Aydındır ki, belə ümdə, taleyüklü və köklü problemin həlli üçün müvafiq fəlsəfi baza, epistemoloji sistem gərəkdir. Düşünürəm ki, bu missiya üçün mürəkkəblik fəlsəfəsinə əsaslanan və tənqidi-sinergetik təfəkkür konsepsiyasından qaynaqlanan postneoklassik epistemologiya daha məqbul və yetərlidir.

Görkəmli filosof Yurgen Habermas "Beynəlxalq hüququn keçmişi və gələcəyi barədə mübahisə. Milli konteksdən postmilli kontekstə keçid" əsərində yazır: "Problem artıq onda deyil ki, millətlərarası münasibətlərdə ədalət ümumiyyətlə mümkündürmü, ondadır ki, belə ədaləti həyata keçirmək üçün hüquq yararlı vasitədirmi? Liberal və qlobal müdaxiləyə malik böyük dövlət *beynəlxalq hüququn* prosedurlarını öz *əxlaqi arqumentləri* ilə əvəzlədiyi bir zamanda beynəlxalq hüquq hələ də hansısa rol oynayırmı?" (**13, s.12**).

Y. Habermas yaranmış situasiyadan çıxış yolunu beynəlxalq münasibətlərin kosmopolit hüquq istiqamətində konstitusionallaşmasında görür, beynəlxalq siyasətdə milli kontekstdən postmilli kontekstə keçidin artıq özünü bildirən və bir zərurət kimi gələcəkdə tam reallaşmaya qadir proses olduğunu əsaslandırmağa çalışır. Bu mövqedən çıxış edən alim İmmanuil Kantın konstitusionallaşma proyektinin, kosmopolitik ideya üzərində qurulsa da belə, məhdudluğunu, qeyri-reallığını (sosial zamanın cərəyanı, bəşər tarixinin inkişafı baxımından) qeyd edir. İ. Kant, Y. Habermasın fikrincə, "öz dövrünün uşağı kimi" üç mühüm faktoru görə bilməmişdir:

1) Yeni tarixi şüurun yüksəlişinə və mədəni fərqlərin anlaşılmasının artmasına hissiyatsız qalan Kant, XIX və XX əsrlərin millətçilik potensialının kinetik duruma keçidini və partlayışını öncədən görə bilməzdi.

2) Avropa sivilizasiyasının və irqinin üstünlüyü fikri ilə buxovlanmış Kant o faktın nəticələrini nəzərə almırdı ki, beynəlxalq hüquq bir neçə imtiyazlı xristian millətlərinin ölçüsü üzrə "biçilib-tikilmişdir" - bütün yerdə qalan dünya kolonizasiya və mis-

sionerlik üçün açıq qaldığı halda, yalnız bunlar bir-birilərinə bərabər tərəf kimi baxırdılar.
3) Kant, həmçinin, beynəlxalq hüququn ümumi xristian mədəniyyətinin hüquqdan kənar fonunda asılılığını anlaya bilməmişdir; bunun hesabına, heç olmasa, zorakılığı hökumətlərarası məhdud müharibələr çərçivəsində saxlamaq mümkün olmuşdur.

Bütün bu "ləkələr", Habermasa görə, beynəlxalq hüququn kosmopolit hüququna çevrilməsi perspektivinə hesablanmış Kant proyektinin çatışmazlıqlarını göstərir ki, sonrakı dövrlərdə onlar özlərini tam aydınlığı ilə büruzə vermişlər.

Habermas problemlərlə bağlı bir səciyyəvi baxışa da – görkəmli alman hüquqşunası, filosofu, siyasət nəzəriyyəçisi Karl Şmittin (1888-1986) mövqeyinə də nəzər yetirir. Qısaca formulə etsək, K. Şmitt, ümumiyyətlə, kosmopolit hüquq ideyasının beynəlxalq münasibətlər sistemində reallaşmasını mümkün hesab etmir. Şmittin qənaətinə görə, millətlər üçün hüquq və ədalətin hər bir anlayışı həmişə mübahisəli olacaqdır, burada heç vaxt konsensus baş tutan deyil. O, bu fikrində israrlıdır ki, millətlər arasında antaqonizm daim mövcud olacaqdır. Qeyd edim ki, K. Şmittin mövqeyini daha realist sayan və bölüşdürən şəxslər, bəlkə də, çoxluq təşkil edir. Y.Habermas isə Şmittin kontrarqumentlərini ciddi hesab etsə də, onunla razılaşmaq istəmir və opponentinin yanaşmasını «siyasi ekzistensializm»in bir növü sayır.

Düşünürəm ki, yaranmış tarixi şəraitdə və gələcək ən azı yüzillik perspektivdə K.Şmittin mülahizələrinin özünü doğruldacağı daha inandırıcı görünür. Bir az da dəqiq deyə bilərik: **beynəlxalq hüquqda ciddi dəyişikliklərə zərurət vardır, lakin bu dəyişiklikləri millətlərin, necə deyərlər, üzərindən sıçramaqla, sivilizasion-mədəni məxsusluqları hansısa mücərrəd ümumi qazanda əritməklə, kosmopolit fəlsəfi əsas** (guya ki!) **yaratmaqla əldə etmək mümkün deyil**. Əks halda, dəyişikliklər cəhdi, sadəcə olaraq, vaxt və intellektual enerji itkisinə, proseslərin tamamilə çərçivədən çıxmasına, beynəlxalq miqyaslı xaosun qarşısıalınmaz dərəcədə tüğyan etməsinə və deməli, bəşəriyyətin məhvinə gətirib çıxara bilər. Yeni davranış kodeksinə, adekvat beynəlxalq hüquq sisteminə, qlobal siyasi arxitekturanın

yaranmasına yol elə ilk növbədə milli olana hörmət və qayğıdan, xalqların millətləşməyə güclü ehtiyacından və onların bu istiqamətdə yaşayıb-yaratmaq hüquqlarının etirafından və təminatından keçir. Xalqlar üçün nə yaradılırsa, onların kimliyi ilə hesablaşmalı, uzlaşmalıdır! Yeni – postneoklassik fəlsəfənin mühüm bir tələbi də məhz bundan ibarətdir: fikirdə və əməldə daha çox gerçəkliyə yaxınlaşmaq, reallığı daha dərindən anlamaq və ona həssas yanaşmaq; təbii-tarixi varlıqlarla münasibətdə, L. Zadənin təbirincə desək, "yumşaq hesablamalar"a üstünlük vermək! Bəşəri təkəmülün cərəyanına sərgilənən baxış və əməldə hökmran mövqedən, diktatdan əl çəkmək! (**4, s. 34-46; 2, s. 276-283**).
Bəli, bugün və gələcək üçün elə bir yenidən işlənilmiş, kamil beynəlxalq hüquq sistemi lazımlır ki, dövlətlər, ölkələr, xalqlar vahid dünyada vahidləşə, daha da yaxınlaşa bilsinlər, bir-birini anlamaq qabiliyyətlərinə malik olsunlar, bir sözlə, Karl Yaspersin təbirincə desək, "**kvantitativlik**" (**14, s. 142**) əldə etsinlər. Bununla belə, böyük mütəfəkkir Konfutsinin irəli sürdüyü mühüm bir prinsipi - **müxtəliflik vasitəsilə vahidliyə cəhd və onu əldə etmək prinsipini** unutmamalıyıq. K.Yaspersin başqa məqsədlə istifadə etdiyi anlayışlardan yararlanaraq, deyə bilərik: xalqların **"kvantitativliyi"** naminə onların "**kvalitativliyinə**" daha həssas və qayğıkeş olmaq gərəkdir.

Hər bir xalq öz daxili strukturlaşmasına, fərqləndirici xüsusiyyətlərinə, ənənə və keçdiyi sivilizasion yola, tarixin qalın qatlarına gedən köklərə, yaddaş koduna malikdir, öz həyati qayda-qanunlarında, təfəkkür və əxlaq tərzində özünü anlayır, fəaliyyət göstərir və güc toplayır, bu səviyyədən də dünyanı özünün refleksiya, əlaqə, əməkdaşlıq, ünsiyyət obyektinə çevirir, başqa xalqlarla tərəf-müqabillik edir, ya dostluq, ya da düşmənçilik münasibətində olur və s. Etno-milli özünəməxsusluq, kimlik kimi fenomenlər, həm də, lokallaşmanı özündə ehtiva edən universal tarixin mühüm daşıyıcıları sırasına daxildir. Bütün bu şeylərin üzərindən keçərək xəyali bir fəzada (özlüyündə pozitiv element və motivlər daşısa da belə!) kosmopolit ideyanı reallaşdırmaq olarmı? Əsla yox!

Vaxtilə A. Toynbi (1889-1975) bir sıra dramatik proses və hadisələrin baş verə biləcəyini əvvəlcədən söyləmişdir, məsələn:

artan qloballıq görüntüsü fonunda sivilizasiyaların bir-birilə uzlaşıb-anlaşmamasını, bir-birini təkzib etməsini, hətta bir-birilə toqquşmasını və bu durumun formalaşmasında ABŞ-ın, onun arxasınca itaətkarcasına gedən Qərbi Avropanın təhrikçi-fitnəkar rolunu. O da çox maraqlıdır ki, başlıca çatverməni A. Toynbi Qərb dünyası ilə kommunist dünyası arasında yox (o vaxtlar, proqnozun verildiyi 1947-ci ildə, SSRİ-in və sosialist-kommunist düşərgəsinin gələcək mövcudluğu əksəriyyət tərəfindən şübhə altına alınmırdı!), məhz Qərblə İslam dünyası arasında görürdü (**12**). Bu da düşündürücüdür ki, o, gələcək tarixi subyekt kimi SSRİ-dən deyil, Russiyadan danışır – görkəmli tarixçisinin proqnostik qabiliyyəti burada da özünü göstərir.

A. Toynbi bir sivilizasiyanın və yaxud ayrıca bir ölkə tarixinin mütləqləşdirilməsinə qarşı xəbərdarlıq edir. Onun fikrincə, qərb sivilizasiyasının özünüdərkinə xas olan əlahiddəçilik, öz "kamilliyinə" əminlik həm bəşəriyyət üçün bir bəlaya çevrilə bilər, həm də Qərbin özünü zəiflədər və tükəndirər, çünki gələcək gedişatın istiqamətini və miqyasını qiymətləndirməkdə aciz qalar. Keçmiş tarixin obyektiv dərkinə və şərhinə qadir olan A. Toynbi, gələcək tarixlə bağlı bəşəri fəaliyyətdə daha düzgün və məqbul hesab etdiyini də obyektiv, qərəzsiz təqdim etməyi özünə borc bilir. Ümumiyyətlə, istər keçmişə və müasirliyə, istərsə də gələcəyə dair baxış və mülahizələrində o, deyərdim ki, postneoklassik epistemologiyanın prinsiplərni, xüsusən də, aksioloji tələblərini rəhbər tutur. Görkəmli tarixçi olduqca həssas, nəzakətlidir, obyektivliyə və realistliyə, həqiqi humanistikliyə və insanpərvərliyə dəlalət edən "yumşaq hesablamalar"a üstünlük verir. Bu cəhətlərinə görə onu bəziləri hədsiz sentimentallıqda da suçlaya bilər. Mənsə bu alimin və rus fəlsəfi ekzistensializminin baniləri – Lev Şestov (İyequda Leyb Şvartsman, 1866-1938, 1920-ci ildən Parisdə yaşayıb, orada da vəfat edib) və Nikolay Berdyayevin (1874-1948, 1922-ci ildən o da xaricdə yaşayıb, iki il Berlində, sonra isə Parisdə) – yazı və düşüncə tərzinə, nəzəriyyəçilik üslubuna, mənəvi-ruhi cazibəsinə həmişə heyran olmuşam, qibtə etmişəm, çalışmışam ki, az da olsa, onlardan nəsə əxz edim. Rus fəlsəfəsinə və mədəniyyətinə verdiyi misilsiz töhfəyə baxmayaraq, mənşəcə

yəhudi olduğuna görə həmişə hakim elita tərəfindən kölgədə, unutqanlıqda, laqeydlikdə saxlanılan Lev Şestov hələ gənclik yaşlarımda mənə güclü təsir etmiş və sonralar tənqidi-sinergetik təfəkkür konsepsiyasının və postneoklassik epistemologiyanın işlənilməsində bir impuls, ideya mənbəyi, ibrətamiz təfəkkür üslubu, mülahizə yürütmək və qənaət əldə etmək nümunəsi olmuşdur.

Arnold Toynbinin tükənməz sərvət təsiri bağışlayan zəngin yaradıcılığından bu toplunun əsas mövzusu ilə səsləşən bir məqama da diqqət yetirmək istərdim. Tarixçiyə görə, **sivilizasiyanın inkişafı onun yaradıcı azlığının çağırışlara cavab tapmaq qabiliyyəti ilə müəyyənləşir**.

İnkişaf və tərəqqinin başlıca səbəbi maddi olanda (qızılda, neftdə, torpaqda, ərazi böyüklüyündə, insanların sayında və s.) deyil, qeyri-maddi, ideal olandadır – yəni, ağılda, şüurda, təfəkkür və dərketmə səviyyəsində, idraki yaradıcılıqda və bu amillərə söykənən əməkdə, fədakarlıqdadır. İstər təbiətdən, istər cəmiyyətin ziddiyyətlərindən, istərsə də xarici mühitdən gələn çağırışlar olsun, əgər füsünkar intellektə (mənəviyyat kamilliyi bura daxildir!) malik yaradıcı azlıq varsa və o, fəaliyyətdədirsə, deməli, sivilizasiyanın yaşamaq və inkişaf etmək üçün potensialı var.

Toynbiyə görə, sivilizasiyanın yaranışı və boyvermə mərhələlərində yaradıcı azlıq çağırışlara cavab tapa bilir, onun nüfuzu artır və nəticə olaraq, sivilizasiya inkişaf edir. Sivilizasiyanın sınması, daxilən parçalanması və qarşısıalınmaz entropiyaya, turbulentliyə məruz qalması mərhələlərində isə yaradıcı azlıq çağırışları cavablandırmaq qabiliyyətini itirir və **elitaya** çevrilir – o elitaya ki, cəmiyyət üzərində hökmranlıq edir və onu ağıl, nüfüz hesabına yox, yalan, zor və qorxu hesabına idarə edir. Belə durumda böyük çoxluq maddi və mənəvi mülkiyyətə sahib olmayan **proletariata** çevrilir ki, ondan da elita öz şəxsi maraqları müstəvisində xarici və daxili çağırışlarla qarşıdurmalardada istifadə edir, hətta bir çox hallarda – silahlı dəstələr, şturmoviklər, karatellər, xəfiyyələr, xəbərçilər, üzəduranlar, böhtançılar, züy tutanlar, "xalqın səsi"ni, "ictimai rəy"i bildirənlər qismində! Getgedə daha çox kütləşən və kütləviləşən, lümpenləşən və aqressivləşən, qarşılıqlı nifrət, kin və qisasçılıq alovuna tutulmuş proletariat

yalnız elitanın yox, həm də özünün qəbrini qazır, bütövlükdə sivilizasiyanın, cəmiyyətin axırına çıxır (**12**).

"Yaradıcı azlıq" haqqında Toynbinin fikirlərini müxtəlif səviyyə, miqyas və istiqamətlər üzrə davam etdirsək, çox maraqlı və düşündürücü mülahizələr, əqli nəticələr ortaya qoya bilərik. Məsələn, bizə aydın olar ki, müasir bəşəri durum üçün (qloballaşmanın ciddi ziddiyyətlərinin və qlobal kapitalizmin dərin böhranının artan sürətlə kəskinləşdiyi və pik həddə çatdığı bir vaxtda!) "yaradıcı azlıq"la elita arasında əksliklər artıq çoxtan şiddətli mübarizə vəziyyətindədir və buradan doğan ziddiyyətlər xeyli dərəcədə qeyri-ənənəvi xarakterlidir.

Birincisi, bu ziddiyyətlər yalnız bir ölkə və yaxud ölkələr qrupuna, region və ya regionlar üçün yox, ümumən müasir bəşəriyyət üçün səciyəvidir. Məncə, müasir dünya problemlərindən danışarkən, həmin ziddiyyətlərin yeri və önəmliliyi xüsusi vurğulanmalıdır. Elita ilə yaradıcı azlıq arasında ziddiyyətlər antaqonistliyi qədər də universal, yəni, ümumbəşəri hadisədir. Siyasi idarəetmə və rejimlərin indiki bütün mövcud formaları üçün elita və yaradıcı azlıq bir-birinə, yumşaq desək, müxalifdir və bu müxalifliyin qətiyyən demokratiyaya aidiyyəti yoxdur. O, demokratiyanın bolluğundan, onun norma və prinsiplərinin ödənilməsindən yox, demokratiya adı altında məhz anti-demokratiyanın təntənəsindən, qlobal kapitalizmin supermaterialist xislətindən törəyib və boy-buxuna çatıb (**3**). Və bu gün var gücü ilə anti-demokratizmə və bunun davamı olaraq hər cür ictimai neqativlərə, insanın və insaniliyin tənəzzülünə yol açan episentrlər ilk növbədə elə qlobal kapitalizmin gecə-gündüz demokratiyadan dəm vuran aparıcı ölkələridir. Bəlkə, həm də bütün bunları görərək, A. Toynbi vaxtilə Qərb sivilizasiyasını və avropamərkəzçiliyi ciddi tənqid atəşinə tutub. Onu da xatırladım ki, Osvald Şpenqler (1880-1936) hələ 1914-cü ildə "Qərbin qürubu" kitabını tamamlayıb (əsər 1918-ci ildə nəşr edilib) və orada Qərbi Avropa və Amerika sivilizasiyalarının süqutu barədə proqnoz verib. Patrik Bükenen (a.o.-1938) isə 2002-ci ildə "Qərbin ölümü" kitabını yazıb, analoji mövzuda Mişel Uelbekin (a.o.-1956) "Elementar hissəciklər" əsəri 1998-ci ildə çıxıb. Bu mövzuda başqa nümunələr də göstərmək olar.

İkincisi, hakim elitalar üçün həqiqi rəqib onların özləri tərəfindən formalaşdırıb ortaya çıxartdıqları siyasi müxalifət deyil. Siyasi müxalifət mafiyalaşmış elitaların əlində idarəolunan, kütlələri aldatmaq və azdırmaq, onların beyinlərini laxlatmaq, etiraz və üsyançılıq enerjilərini tükəndirmək, iradə birliyini dağıtmaq üçün bir vasitədir. İstər ABŞ, İngiltərə, Fransa olsun, istərsə də Rusiya, Ermənistan və yaxud Özbəkistan – mahiyyətçə məsələ eyni qoyuluşdadır: ortada şanlı və şanslı hakim elita ilə, güya, ölüm-dirim savaşı aparan siyasi müxalifət var-gəl etməli, "ədalət" və "qanun" naminə "mübarizə" aparmalıdır. Anadangəlmə ambisiya-eqoizm alovu, sırtiqlığı və həyasızlığı, biliksizliyi və acgözlüyü, bir sözlə, mütləq səfehliyi, psixopatik mentallığı, yaradıcı qabiliyyət və səriştə yoxluğu ilə fərqlənən "demokratiya və ədalət uğrunda mübarizlər"lə, yeri gələndə, hər cür rəftar da etmək olar – döymək, söymək, təhqir etmək, lap bir müddətə həbs etmək və ya növbə-növbə, tək-tək və cüt-cüt parlamentə buraxmaq. Lazımdırsa, haqsız və günahsız təqib olunanların "insan hüquqları" naminə ABŞ-ın Dövlət Departamentindən, ATƏTdən, Avropa Parlamentindən, Avropa Şurasından hayacan və naratlıq da bildir-mək, vaveyla da salmaq olar. Əlbəttə ki, supermaterializmə qulluq edən demokratiya və liberal dəyərlər oyunu xatirinə! Yox-yox, bu sadəcə oyun deyil! Oyun yalnız yeni demokratiyalar üçün qurulur. Oyun quranlar üçün isə real dividentlər gərəkdir – geopolitik qazanclar, neft-qaz, qızıl-almaz, ucuz fəhlə quvvəsi, satış-alver bazarı, kapital artımı, milli dövlətləri zəiflətmək, asılı etmək, xalqları içindən parçalamaq, insanları qarşılıqlı nifrət, kin-küdurət girdabına sürükləmək. Bunun üçün (əsasən, özlərinin yerli oliqarxi-ya nümayəndələri - əlaltıları vasitəsilə!) sınanmış üsulu işə salmaq – rüşvət və korrupsiya, kompromatçılıq və böhtançılıq, yerlıçılık, qohumbazlıq və etnikçilik, təriqətçilik və qatı ehkamçılıq, abırsızlıq və sırtıqlıq, pozğunluq və ifrat eqoizm kimi bəlaları cəmiyyətlərə yeritmək. Necə deyərlər, maliyyə-sələmçi-alverçi qlobal kapitaliz-min və onun nüvə daşıyıcıları olan imtiyazlı vahidlərin supertəmi-natlı bugünü və gələcəyi naminə!

Qlobal kapitalizmin (fərqləndirici yerli səciyyələrdən asılı olmaya-raq) hakim elitaları üçün həqiqi müxalif qüvvə - düşünən, yeni bilik

istehsal edə bilən, analitik təfəkkürə və inteqrativ şüura malik məsuliyyətli-vicdanlı azlıqdır ki, həmin yuxarıda qeyd etdiyim quraşdırma, süni, idarəolunan siyasi "müxalifətin" də nişangahında olur. Sünilərin başlıca hədəflərindən biri odur ki, qətiyyən yaradıcı azlığın formalaşıb üzə çıxmasına yol verməsin. Bunlar üçün bu hədəf sadəcə bir sifariş deyil, mövcudluq üsuludur! Özünüqoruma və gələcəyə transverolunma düsturudur! Son həddə, tamamilə faş olmaq və siyasi səhnədən silinmək təhlükəsi yarandıqda, onlar yaradıcı azlığın hansısa tanınmış nümayəndəsini qətlə yetirməkdən də çəkinən deyillər. Burada da, adətən, iki mexanizm işə salınır: birincisi, sui-qəsdi təşkil və icra edmək üçün mafiyalaşmış rəsmi struktur və şəxslərlə iş birliyinə girmək, cinayət əməlini mümkün qədər mürəkkəb sxem üzrə həyata keçirmək; ikincisi, cinayətdə birbaşa ölkə başçısını günahlandırmaq. Belə etdikdə, aydındır ki, həm "müxalifət" öncülləri, həm də mafiyalaşmış hakimiyyət nümayəndələri xeyli dividentlər (daxildən və xaricdən) əldə edirlər. Üstəlik də, yaradıcı azlığa kifayət qədər ciddi zərbə endirmiş olurlar. Bu kontekstdə elə postsovet ölkələrinin təcrübəsindən xeyli misallar gətirmək, faktlar göstərmək çətin deyil.

"Beşinci kolon" deyilən nəsnə məhz ilk növbədə bu iki kriminallaşmış kateqoriyadan təşkil edilir – hakimiyyət eşalonunda əyri yollarla, qeyri-qanuni üsullarla (yəni, pul-para, qohumluq, yerliçilik, yaltaqlıq, riyakarlıq, hiylə, donosçuluq, sırtıqlıq-həyasızlıq və sair bu kimi amillər hesabına) özünə yer etmiş cinayətkarlardan və həm bu haram kapital sahiblərinin, həm də pay-puş müqabilində xarici siyasi dairələrin təsirində olan quraşdırma müxalifətdən, daha dəqiq desək, bu müxalifətin liderlərindən (bura, ilk növbədə, müxtəlif siyasi partiyaların, guya insan haqlarını qoruyan QHT-lərin, hüquq mərkəzlərinin rəhbərləri, aparıcı şəxsləri daxildir). Qlobal kapitalizmin nüvəsi (Bilderberq klubu, Beynəlxalq əlaqələr üzrə Şura, Beynəlxalq əlaqələr üzrə London kral İnstitutu, Strateji və beynəlxalq tədqiqatlar Mərkəzi, Karneqi Fondu, Üçtərəfli Komissiya, Amerika sahibkarlar İnstitutu və s.) və bu nüvəni təmsil edən pretorlar həmişə bu iki kateqoriyanın mövcudluğunda maraqlı olmuşlar və bu gün də xüsusi maraq göstərməkdədirlər. Siyasi səhnədə beşinci kolonun uzunömürlülüyü

məhz bununla bağlıdır. Hal-hazırda da bir-birilə çuğlaşmış, fəaliyyət birliyində olan hər iki kateqoriya bu və ya digər formada, az və ya çox dərəcədə postsovet respublikalarında fəaliyyətlərini həyata keçirməkdədirlər. Belarus Respublikasında tarixi və sosial zamanın verdiyi imkanlar daxilində mümkün qədər məqbul dövlət idarəetməsi mövcud olduğundan, bu iki kateqoriyanın təmsilçiləri əvvəlcədən (Aleksand Lukaşenko prezidentliyə başlayandan) ciddi zərbə almış və sonrakı illərdə də onların fəaliyyəti, faktiki, yox dərəcəsinə salınmışdır. Əbəs yerə deyildir ki, dünya kapitalizminin "azad mətbuat"ı A. Lukaşenkonu "Avropanın sonuncu diktatoru" adlandırır. Bu gün "diktator Lukaşenko"nun başçılıq etdiyi dövlət, deyərdim ki, postsovet dövlətləri içərisində rüşvət və korrupsiyadan azad, ümummilli mənafeləri rəhbər tutan, gecə-gündüz əhalinin, sadə vətəndaşların, əmək adamlarının qayğısına qalan, xalqın iradəsilə birmənalı dəstəklənən nümunədir. Yadımdadır: hələ prezidentliyinin ilkin dövründə Aleksandr Lukaşenko biləndə ki, nazir təyin etdiyi məmur üç il müddətində özünə Minskdə yeni, üçotaqlı mənzil alıb, təcili tədbir görmüşdür – həmin nazir vəzifəsindən azad edilmiş və on illik müddətə həbsə alınmışdır. Prezident onda demişdi: "Birincisi, bu adamın mənzili ola-ola yenisinə nə ehtiyac vardı, ikincisi, bu pulu hardan alıb, deməli, xalqdan oğurlayıb!". İndi özünüz müqayisə edin, Lukaşenkonu bəyənməyənlərin öz ölkəsində nazir yox, adi bir aparat rəhbərinin yalnız Bakı şəhərində 10-dan çox imarəti "aşkarlanır" – o da ki, sərvət-kapital uğrunda savaş başlayanda!

Söz yox, hansı dövlətin təmiz, hansının isə çirkli olması, həm də, xalqın özündən, onun xarakterindən asılıdır. Bu həqiqəti artıq dəfələrlə böyük mütəfəkkirlər söyləyib və tarixin özü təsdiqləyib. Təsadüfi deyildi ki, hələ brejnevizmin üfunətli dövründə SSRİ-nin ən təmiz-pak respublikası başında görkəmli dövlət xadimi, böyük intellekt sahibi Pyotr Mironoviç Maşerov (1918-1980) duran Belorusiya idi. O, 26 yaşında (1944-cü ildə) Sovet İttifaqı Qəhrəmanı, sonra isə Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüş, 1980-ci ildə Moskva-Minsk yolunda Brejnevin yaxın ətrafı tərəfindən təşkil edilmiş qəzada həlak olmuşdur. Qəsd edənlər belə bir xüsusiyyətdən bəhrələnmişlər: P. Maşerov öz

marşrutu boyunca hərəkətin dayandırılmasını qəti qadağan etmişdir. Dediyim odur ki, qayda-mizanı, ədaləti rəhbər tutan təmiz visdanlı hakimiyyət və "yaxşı xalq" bir-birini törədən, şərtləndirən məfhumlardı. "Yaxşı hakimiyyət" – "yaxşı xalq" varsa, həqiqi akademik dəm qazından ölməz, taxta-şalban alverçisi MTN-nin generalı olmaz, böyük ideya-ideal müəllifi, mütəfəkkir Məmmədəmin Rəsulzadə barədə, Gültəkin Hacıbəylinin təbirincə desək, "yenicə cırtdamış cücə"-"deputat" hədyan danışmaz, MM-də sosial siyasət komitəsi olduğu halda, bir şəxsə görə ayrıca səhiyyə məsələləri üzrə komitə yaradılmaz! Elə həqiqətən də layiqli, yüksək peşəkarlığı və insani keyfiyyətləri ilə fərqlənən bu şəxslə sosial siyasət komitəsinin əvvəlki sədrini – müəllimləri ələ salan, bron etdiyi yeri, Əlisa Nicat demişkən, "pustoye mesto"ya çevirmiş şəxsi əvəzləmək daha düzgün olmazdımı? Nəhayət, "yaxşı hakimiyyət" olan yerdə, 64 neftçinin həyatı ölümə bərabər risk altına qoyulmur. 2015-ci il, dekabrın 4-də "Günəşli" yatağının 10-cu dərin dəniz özülündə baş vermiş faciəvi qəzanı nəzərdə tuturam. Axı, indiki elmi-texniki-texnoloji üsul və vasitələr meteoroloji vəziyyət barədə əvvəlcədən dəqiq məlumat (hətta dalğanın hündürlüyü və uzunluğuna, intensivliyi və gücünə kimi!) əldə etməyə, baş verə biləcək hadisələri öncədən görməyə imkan verir. Belədirsə, deməli, proqnoz və ehtimalları nəzərə alib, insanları oradan cixarmaq olardı. Bu edilmirdisə, ən azı, yüksək səviyyəli təhlükəsizlik rejimi tətbiq olunmalıydı.

Müasir insanın yaşadığı çətinləklər içərisində yüksək mənəvi-psixoloji gərginliyi, insani münasibətlərdə təəssübkeşliyin və istiliyin itməsini, oriyentir rolunu oynayan bir çox ənənəvi dəyər və meyarların sarsıntıya uğramasını, həyat tərzində instrumental-maddi amillərin təsirinin artmasını və s. qeyd etməmək mümkün deyil. Bunlar, son nəticədə, ağır keçən psixotokslara, stresslərə, ruhi xəstəliklərə, müxtəlif pozğunluqlara, narkomaniya və alkoqolizmin geniş yayılmasına, cinayətlərin artmasına gətirib çıxarır, insan həyatının keyfiyyətini aşağı salmaqla, onu daha da dəyərsizləşdirir.

Gərginlik, müxtəlif növ stresslər həm yoxsulu, həm də varlını müşayiət edir. Maddi cəhətdən təmin olunmuşlar başqaları

ilə kəskin və artan rəqabət vəziyyətində olurlar və əldə etdiklərini itirmək qorxusu ilə yaşayırlar, perspektivin qeyri-müəyyənliyindən təlaş, həyacan keçirirlər. Yoxsullar isə, öz növbəsində, təminatsızlıqdan irəli gələn qorxu altında yaşayırlar, son dolanışıq yerlərini itirməkdən, xəstəliklərə düçar olmaq ehtimalının böyüklüyündən, əsl mənada, cəhənnəm əzabı çəkirlər. Ümumi götürdükdə, müasir insanların əksəriyyəti gələcəyə inam hissinin yoxluğu halında yaşayırlar.

Bazar fundamentalizmi, «kapital ideologiyası» elə bir maddiləşmiş dünya və elə «iqtisadi adam» yaratmışdır ki, hər bir individ kiməsə rəqibə, düşmənə, yaxud da kimin üçünsə qurbana çevrilmişdir. Biri o birisindən daha çox mənfəət götürmək, onu öz quluna çevirmək istəyir. Birinin digərini özünə tabe etmək, sındırmaq, nəyəsə məcbur etmək, kiminsə müstəqilliyini əlindən almaq ovqatı, sanki, ümumi bir marağa çevrilmişdir. Bunun üçün hər cür üsullar və vasitələr işə salınır: açıq-aşkar və birbaşa zorakılıqdan tutmuş üstüörtülü təzyiqlərə qədər. Faktiki yanaşdıqda, əksər insanlar maddiləşmiş dünyanın girovundadırlar, kapital diktəsi altında həm azadlıqlarını, həm də həqiqi seçimlərini itirmişlər. Bütün bunlar müasir insan həyatının qeyri-hümanistliyinə, «Mən»ən tənəzzüldə olmasına dəlalət edir; özgələşmə bir kütləvi ictimai hadisə kimi bu həyatın atributuna çevrilmişdir, ona qənim kəsilmişdir.Tamahkarlıq, eqoizm və başqa mənəvi-əxlaqi qəbahətlər, fəsadlar belə mühitdə daha da stimullaşır. «İqtisadi adam» ruhi fəzilətlərdən imtina edir, onun üçün maddi dəyərlər (göstəricilər), iqtisadi status (prestij) hər şeydən yüksəkdə durur. Həyatın mənası və gözəlliyi əşya-əmlak toplamaqdan, sərvət yığımından ibarət olur.

Dünyada günbəgün formalaşan absurd həyat tərzinə və dinamikasına uyğun olaraq elm, incəsənət və bədii ədəbiyyat da tənəzzülə uğrayır. Daha çox məzmunsuz, ideyasız, ictimai yükünə görə mənasız və hətta birbaşa ziyanlı «əsərlər», «mədəniyyət nümunələri» bolluğu bütün sərhədləri aşır. İstehsal olunan məhsul (əsər, proqram, veriliş, tamaşa və s.) get-gedə daha çox zövqləri ibtidailəşən istehlakçı tələbini ödəməyə başlayır. Heç bir sosial-fəlsəfi, elmi yükü, bədii orijinallığı olmadığı halda, onlar həqiqi

yaradıcılığı, mədəniyyəti ortadan çıxartmaqdadır. Mənfəətdar, cır təfəkkürün məhsulu olan fəlakətgətirici «əsər» və «nümunə»lər yalnız bir məqsəd güdür - kommersiya maraqlarını təmin etmək, öz mahiyyətinə uyğun «bazar mühiti»ni formalaşdırıb, idarə etmək. Yeni, güya mütərəqqi yaşayış tərzinin pretorları sayılan bu «əsər» və «nümunə»lərin müəllifləri, sponsorları artıq müxtəlif vəzifələri də tutmaqdadırlar. Elmdə, incəsənətdə, mədəni sahədə belə şəxslərin vəzifə başına keçməsi isə o deməkdir ki, vəziyyət daha da pisləşə, qarşısıalınmaz ola bilər, çünki, istər-istəməz, bu adamlar həmin sahələrdə aparılan siyasətə bilavasitə təsir etmək imkanı qazanırlar.

Ekspansionist qloballaşmanın bütün dünyaya yaymaq istədiyi homogen, daxilən boş, əxlaqi-mənəvi vektoru olmayan «**mədəniyyət**»in istilası nəticəsində tarixi-irsi ənənələr, ictimai dəyərlər faktiki olaraq müdafiəsiz qalır. Müasirləşmə adı altında ibtidai, bəsit stereotiplər, instinktlər aqressiyası mənəvi-ruhi həyatı fəth etməkdədir. Fikrimcə, belə vəziyyətə - milli özünüifadədən, intellektin mənəvi-əxlaqi gücündən, ruhlandırıcı enerjidən, məsuliyyət və vicdan hissindən xali «mədəniyyət»ə dözümlülük göstərmək heç də düzgün yanaşma deyil. Əks halda, heç şübhə yoxdur ki, insanlarımızın ruhi, mənəvi-psixoloji inkişafının sağlam əsasları dağıdılacaq, onların insani potensialının durmadan tükənməsinə, yox olmasına yol açılacaq. İnsani intellektual-ruhi-mədəni resurslar dağıdıldıqdan sonra isə hansısa milli maraqların, milli mənafenin reallaşmasından söhbət gedə bilməz. Mütərəqqi modernləşmə və tərəqqi hər bir zaman və hər bir yerdə yalnız milli maraqların reallaşması, milli özünüdərkin pozitiv inkişafı zəminində mümkündür.

Müasir dünyanın formalaşdırdığı «iqtisadi adam», acgöz korporasiya və şirkətlər, transmilli mafiya şəbəkələri **təbiətin** özünə durmadan ölümcül zərbələr endirməkdədir. Təbiətə anti-rasional münasibət irrasional şüuru, düşüncəni doğurur, və əksinə, irrasional şüur epidemiyası təbiətə olan anti-rasional münasibəti daha da kəskinləşdirir. Təbiət, bütövlükdə, istifadə olunan və israfçılığa məruz qalan xalis materiyaya müncər edilir.

Belə bir durumda həqiqi fəlsəfi əqlin bəşəriyyətə təklif etdiyi səmərəli qulluq həm də ondan ibarət ola bilər ki, zəfər çalmaqda davam edən instrumental, qeyri-humanist düşüncə ifşa olunsun, tərəqqiyə can atan bəşəriyyət **alverçi ruhdan** təmizlənsin. Vacibdir ki, xalqların mütərəqqi inkişafında, ümumən, millətləşmə prosesində başlıca amil olan, bir növ, lokomotiv rolunu oynayan iqtisadiyyat ədalət, hüquq bərəbərliyi, əxlaqi-mənəvi prinsiplər üzərində qərarlaşsın, yalnız sümürücü monopoliya və kompaniyaların, transmilli korporasiya və bankların, imtiyazlı xoşbəxtlərin deyil, bütün dünya xalqlarının, hər bir Allah bəndəsinin maraqlarına xidmət etsin və bu əsasda hamı üçün məqbul qeosiyasi məkanın yaranmasına zəmin olsun. Oliqarxik liberalizmə, ifrat monetarist baxışlar sisteminə, dini ehkamlar səviyyəsində təbliğ və təşviq edilən vulqar sosial darvinizm prinsiplərinə söykənən iqtisadiyyat qaneedici qlobal siyasi arxitekturaya, yeni qeosiyasi məkana zəmin ola bilməz. Bəşəriyyət xalqların mənliyi, onların tarixi-milli kodları, mədəni səciyyəsi ilə hesablaşan, aksioloji tələblərə cavab verən, beynəlxalq münasibətlərdə əmin-amanlığa yol açan yeni davranış kodeksinə və ona təminat verən **sinergetik mahiyyətli praqmatik fəlsəfəyə** ehtiyaclıdır. Dünyanın nicatı qarşılıqlı fayda verən və humanizmin artmasına xidmət edən **qlobal sinergizmdədir.**

## **Ədəbiyyat**:


1. Abbasov Ə.F. Dünya problemləri, fəlsəfə və beynəlxalq hüquq // Dünya.Cəmiyyət. Fəlsəfə. Bakı: “Nafta-Press”. 2004.
2. Abbasov Ə.F. Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti // Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. Bakı: “Təknur”. 2011.
3. Аббасов А.Ф. Демократия: наличная и должная. Баку: «Адилоглу». 2005.
4. Аббасов А.Ф. Постнеоклассическая эпистемология: необходимость и сущность // Müasir fəlsəfə, elm və

mədəniyyət: postqeyri-klassik epistemologiya. Bakı: “Təknur”. 2011;
5. Журнал «Право и безопасность». 2003, № 3-4.
6. Иноземцев В.Л. Несколько гипотез о мировом порядке XXI века // «Свободная мысль – XXI». 2003, №10.
7. Кучуради И. Философия перед лицом мировых проблем «Вопросы философии». 2004, № 3.
8. Лунеев В.В. Политическая, социальная и экономическая несправедливость в мире и терроризм //«Общественные науки и современность». 2004, № 3.
9. Сардар З., Девис М. В. Почему люди ненавидят Америку? М. 2003.
10. Стиглиц Дж. Глобализация: тревожные тенденции. М. 2003.
11. Тойнби А.Дж. Цивилизация перед судом истории: Сборник /Пер. с англ. – 2-у изд. – М.: Айрис-пресс. 2003.
12. Тойнби А. Дж. Постижение истории. Сборник /Пер. с англ. Е. Д. Жаркова, М., Рольф. М., 2001.
13. Хабермас Ю. Спор о прошлом и будущем международного права. Переход от национального к постнациональному контексту // «Вопросы философии». 2004, №3.
14. Ясперс К. Смысл и назначение истории. Издание второе. М. 1994.
15. Kemp Peter. XX11 Dünya Fəlsəfə Konqresinin iştirakçılarına müraciət // “Fəlsəfə və sosial-siyasi elmlər” jurnalı. 2008, № 4 (22).
16. http://virtualaz.org/reyler/

**Əbülhəsən Abbasov**

## Geosiyasət və qlobal nizam
*(Amerika Birləşmiş Ştatlarının rolu)*

İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminin mahiyyətini şərtləndirən əsaslar 4-11 fevral 1945-ci il tarixli Yalta (Krım) konfransında əldə olunmuş razılaşma ilə müəyyənləşdirilmiş və 17 iyul-2 avqustda keçirilmiş Potsdam konfransında bir daha dəqiqləşdirilmiş və tamamlandırılmışdır. Dünyanın gələcək taleyini, davranış kodeksini müəyyənləşdirən Yalta-Potsdam sistemi, bu iki konfransın prinsip və müddəaları, demək olardı ki, beynəlxalq hüququn özünü şərtləndirirdi. Bu şərtlər daxilində dünya nizamının saxlanması Uilston Çerçillin 5 mart 1946-cı il tarixli Fulton nitqindən başlamış "soyuq müharibə"nin sonuna qədər davam etmişdir. Kommunizmin iflası və SSRİ-nin, sosialist düşərgəsinin süqutundan sonra artıq Yalta-Potsdam sülh sazişlərinin prinsipləri öz təsir gücünü itirməyə başlamış, dünyanın geopolitik mənzərəsində, güclər nisbətində, regional və qlobal təsir dairələrində, nüfuz və iddia zolaqlarında köklü dəyişiklər, qeyri-ənənəvi meyllər, yeni-yeni təfərrüatlar ortaya çıxmışdır.

Ümumi götürdükdə, qlobal tarazlıq, ənənəvi balanslaşdırma qayda və şərtləri pozulmuş, geopolitik güc mərkəzləri, həmçinin, ənənəvi müttəfiqlik və tərəf-müqabillik transformasiyalara məruz qalmış, dövlət, xalq və milli suverenlik müstəvilərində, eynilə, ərazi bütövlüyü, sərhəd toxunmazlığı, siyasi və iqtisadi müstəqillik məsələlərində, xalqların maraq və müqəddaratlarının müəyyənləşməsi problemlərində həlli çətin olan ziddiyyətlər yaranmışdır. Üstəlik də, qalib tərəf, yəni, qlobal kapitalizm, başda ABŞ olmaqla, bu ziddiyyətlərin vaxtında həll olunmasına zəruri səy göstərməmiş, əksinə, bir çox hallarda münaqişə və problemlərin şiddətlənməsinə

yol açmış və şərait yaratmışdır. Nəticədə turbulentlik, qlobal hərcmərclik artmış, lokal, regional və qlobal qarşıdurma və toqquşmalar hədsiz dərəcədə şiddətlənmişdir. Müasir dünya, bir növ, od-alov, qarşılıqlı nifrət və təhdidlər içində can verən varlığa çevrilmişdir və hal-hazırda qlobal xaos vəziyyətində yaşamaq, sanki, bəşəriyyətin mövcudluq üsulu statusunda çıxış edir.

Bir sıra ciddi fikir sahiblərinin, o cümlədən, Corc Sorosun, haqlı olaraq qeyd etdikləri kimi, qlobal gedişatın belə xoşagəlməz, təhlükəli xarakter almasında ABŞ-ın rolu danılmazdır. Böyük resurslara və imkanlara sahib olan ABŞ, "soyuq müharibə"dən sonra yeganə superdövlət və qlobal lider kimi, öz üzərinə düşən tarixi missiyanı – köklü surətdə dəyişmiş dünyada nizamyaradıcı funksiyanı, qlobal siyasi arxitektura yaratmaq vəzifəsini ödəyə bilməmiş, əksinə, ənənəvi mənfəətdar-merkantil rəqabət təfəkkürünün ətaləti məcrasında fəaliyyətini daha da sərt formada davam etdirərək, beynəlxalq davranış kodeksini (mövcud olanı) son dərəcə bərbad hala salmışdır. Hər yerdə və hamı üçün haqların, ədalətin, məqbul rifah halının, ümumi sülhün qərarlaşmasına təminat vermək, qaneedici yeni davranış kodeksinin aparıcı müəlliflərindən olmaq əvəzinə, ABŞ, qlobal hökmran-hakim rolunda çıxış edərək və hətta 1648-ci il Vestfal sülh müqaviləsinin prinsiplərini istədiyi kimi pozaraq, öz eqoistik maraqlarını həyata keçirməyə başlamışdır. Məsələn, Vestfal sazişinə əsasən suveren dövlətin daxili işlərinə qarışmaq olmaz. Son onilliklər ərzində isə biz onu gördük ki, hətta bu prinsip Birləşmiş Ştatlar tərəfindn, apardığı ikili standartlara söykənən siyasətinə uyğun olaraq, dəfələrlə pozulmuş, bir ölkədən demokratiya, insan haqlarının gözlənilməsi tələb edilmiş (çox vaxt da sosial-siyasi təxribat və hərbi güc vasitəsilə), o birisinin isə öz vətəndaşlarına verdiyi zülm-zillət, illərlə davam edən istibdad heç nəzərə də alınmamışdır, məsələn, Səudiyyə Ərəbistanında, Qətərdə, Birləşmiş Ərəb Əmirliklərində, Bəhreyndə

olduğu kimi. Düzdür, bir çox məşhur şəxslər (müasir geopolitikanın apostolu H. Kissinjer, Amerika xarici siyasətinin "qızılquşu" Z. Bjezinski, ABŞ siyasi mühitinin Sergey Kurginyanı – politoloq S.Hantinqton və b.) belə yanaşmanı "geosiyasi realizm"in təzahürü hesab edərək, xüsusi narahatlıq keçirmirlər. H. Kissenjerə görə (**12**), geosiyasi realizmin banisi "dövlətin prinsipləri yox, maraqları var" söyləmiş kardinal Rişelyedir. Bu doktrina, C. Sorosun qeyd etdiyi kimi, *laissez-faire* doktrinası ilə nəsə bir ümumiliyə malikdir: hər ikisində **maraq** subyektin real hərəkətinin motivi elan olunur (**8, s.391**). Laisser-faire doktrinasında subyekt bazarın fərdi iştirakçısıdır, geopolitikada isə onun yerini dövlət tutur. Hər iki doktrina sosial darvinizmin vulqar növünə olduqca yaxındır: yalnız uyğunlaşma qabiliyyəti yüksək olanlar yaşaya bilirlər. Bu üç doktrinanın ümumi məğzi ondan ibarətdir ki, bütün hesablamaların əsasında əxlaqi-etik mülahizələri istisna edən eqoistik maraq durur. Aydındır ki, belə düşüncə və fəaliyyət axarı olduğu halda, hamı üçün məqbul davranış kodeksi, qaneedici yeni dünya nizamı yaratmaq məsələsi daha da qəlizləşir: irəliyə doğru can atan bəşəriyyət, əksinə, geriyə - tənəzzülə, cəhalətə, nizamsızlığa, yeni-yeni qarşıdurmalara sürüklənir; hətta pozitiv inteqrasiyaya vüsət verməli olan **qloballaşma**, faktiki, ümumdünya tarazlığının son dayaqlarını sarsıdır, dünya sərvətlərinin ədalətsiz bölgüsünə rəvac verir, bütün rasional ölçüləri aşan təbəqələşməni, qütbləşməni sürətlə artıraraq, güclülərin gücsüzlər üzərində hökmranlığını möhkəmləndirir, yeni-yeni istismar və qarət formalarını, təhdid və təcavüz texnologiyalarını yaradır.

Fəlsəfəsi bu üç doktrinadan qidalanan qloballaşma hansısa başqa bir nəticə ortaya qoya da bilməz. Onun üçün ayrı-ayrı ölkələr, öz siması, mədəniyyəti, istək-arzusu, tarixi kimlik kodu olan xalqlar yoxdur, şahmat taxtasının üzərində yerləşən peşkalar (piyadalar) var. Bu yazıq günə salınmış peşkaların da ki, yerini və

durumunu başda ABŞ kapitalokratiyası dayanan qlobal kapitalizmin pretorları müəyyənləşdirir – həmin bu doktrinalardan çıxış edərək. "Peşka"ların içində nə baş verdiyi, insanlara verilən zülm-zillət isə ənənəvi və müasir "geosiyasi realizm"i və onun öndərlərini qətiyyən maraqlandırmır. Təsadüfi deyildir ki, dünyanın ən yırtıcı politoloqu Zbiqnev Bjezinskiy özünün məşhur əsərini "Böyük şahmat lövhəsi" adlandırmışdır (**5**).

Əlbəttə, beynəlxalq münasibətlərə dair elə baxışlar da mövcuddur ki, əxlaqi-mənəvi mülahizələr, insani amillərə qayğılı yanaşma tələbləri irəli sürülür. Əfsuslar ki, hələlik, bu cür yanaşmalar sadəlövh, idealistik, reallığa cavab verməyən nəzəriyyəçiliyin ifadəsi sayılır və praktikada nəzərə alınmır. Geosiyasi realizm öz ənənəvi diqtəsini daha böyük təkidlə yeridir və hər şey, yenə də, ifrat eqoizmə xidmət edir. Bu isə o deməkdir ki, mövcudluq naminə başqalarını qurban verməlisən, kimlərəsə və nələrəsə ziyan yetirməlisən. Günbəgün universallaşan və dövlətlərin fəaliyyətində aparıcı yer tutan belə davranış forması ilk baxışdan nə qədər təbii görünsə də, son nəticədə, müasir bəşəriyyətin öz-özünə sui-qəsdi, intiharı deməkdir. Belə olduqda, tanınmış yazıçı-alim Stanislav lemin hələ 2001-ci ildə söylədiyi kimi, bütövlükdə bəşəriyyət üçün gələcək qaranlıq görünür (**9**).

Qlobal qaydasızlığa rəvac verən bu "Geopolitik Qayda"nı soyuq müharibədən sonra yalnız bir dövlət – indiyə qədər özünü azad dünyanın lideri kimi təqdim etməyə çalışan ABŞ poza bilərdi. Tarix ona bu şansı və imkanı vermişdir. Bu fövqəldövlət isə vaxtında öz üzərinə düşən rolu, tarixi vəzifəni anlaya bilmədi və yaxud anlamaq istəmədi; amerikalılar üçün köklü surətdə dəyişmiş bəşəri-tarixi situasiya dərkolunmaz qaldı. ABŞ, azad dünyanın lideri olmaq əvəzinə, qlobal hökmranlığa can atdı, bəşəri tərəqqiyə yardımçı olmaq əvəzinə, özü bir pərsəngə çevrildi, həm dünyada pərxaşlığı, hərc-mərcliyi, qarşılıqlı nifrət və düşmənçiliyi görünmə-

miş həddə çatdırdı, həm də dünya xalqlarında "demokratiya ocağı"na olan inamı tamamilə tükəndirdi, özü-özünü nüfüzdan saldı. Bir çox ölkələrdə insanlar yeni, "müasir" avtoritar və hətta despotik rejimlərin girovluğuna verildi. Demokratiyanın və insan haqlarının universallığından dəm vurmağı sevən cənablar, dünya xalqlarını bütün zəruri hüquqlardan məhrum etdilər, o cümlədən, öz hakimiyyətlərini formalaşdırmaq hüququndan.

Son nəticədə, qeyd edim ki, ABŞ hökümətinin apardığı siyasət elə amerika xalqının özünü də ciddi narahat etməyə başladı, geniş kütlə ilə elita arasında ziddiyyətlər, özgələşmə sürətlə artdı, elita və cəmiyyət bir-birinə qarşı dayanan qüvvələrə çevrildilər. Bu tendensiyanı hətta S. Hantinqton da etiraf etməli oldu : "XX əsrin sonunda ABŞ hökümətinin siyasəti get-gedə daha çox amerika xalqının istək və gözləntilərinə cavab vermirdi"(**11, s. 518**). O, eyni zamanda, belə bir həqiqəti də – amerika cəmiyyətinin mənəvi eroziyasını, vətəndaş cəmiyyətinə xas olan əhəmiyyətli təzahürlərin itirilməsini – etiraf etmək məcburiyyətində qaldı (**11, s. 535**).

Bu etirafda Hantinqton tək deyil, bir çox tanınmış simalar (Robert Patnem, Daniel Patrik Moyniqan, Maykl Sendel, Patrik Bükenin və b.) amerikalıların parçalanmış millətə çevrildiyindən, ABŞ-ın mənəvi deqradasiyasından, onun təhsil standartlarının və əxlaq-davranış normalarının alt-üst olmasından yazırlar. Yaranmış vəziyyətdən narahat olan mütəxəssislərdən bəziləri çıxış yolunu, problemlərin həllini daha çox din amilində, konkret olaraq, cəmiyyətdə dinin rolunun əhəmiyyətli dərəcədə artmasında görürlər. "Yalnız din itirilmiş dəyərlərin bərpasını təmin edə bilər!" deyirlər.

Ümumiyyətlə, dinə müraciət, xüsusən də təlatümlü dövrlərdə, həmişə tarixi gedişata xarakterik olmuşdur. Biz bunu indi post-sovet cəmiyyətlərinin timsalında da görürük. Lakin məsələ ondan ibarətdir ki, dinin aksioloji baxımdan gətirə biləcəyi fəzilətlərin qarşısını məhz yuxarıda qeyd etdiyim qlobal siyasi və geopolitik

paradiqma alır. Hətta deyərdim ki, nəinki alır, həm də, bir tərəfdən, din amilindən məkri sui-istifadələrə yol açır, digər tərəfdən, dini baxışlarda, şüurda radikallaşmanı gücləndirir, birgəyaşayış mədəniyyətini, altruistik məqamları, dialoq və qarşılıqlı anlaşma mühitini daha da kövrək, dayanıqsız edir. Beləliklə də insana və insanlığa qarşı olan təhlükəli durum daha da məşum, fəlakətli xarakter alır. Məsələ ondadır ki, bütün bəşəri dinlərin məğzini ədalətə, haqqa çağırış təşkil edir. Bu tələb və çağırışlar isə ifrata varmış, dərin böhran yaşayan qlobal kapitalizmin məzmun-mahiyyətilə, onun merkantil maraq və hədəflərilə heç cür uzlaşmır.

Burada hörmətli oxucuların diqqətini bir vacib məqama yönəltmək istərdim. Mən qətiyyən o fikirdə olmamışam ki, "soyuq müharibə"dən sonra birbaşa yeni stabillik forması, qaneedici dünya nizamı yaranacaq. Belə gözləntini mürəkkəb sistemlərin dialektikası, mürəkkəblik fəlsəfəsinin ortaya qoyduğu prinsiplər təkzib edir. Əsas müddəa bundan ibarətdir: ənənəvi stabillikdən (nizamdan) bilavasitə və birbaşa yeni, qeyri-ənənəvi stabilliyə (nizama) keçid mümkün deyil, sistem mütləq hansısa turbulent rejim yaşamaq məcburiyyətindədir. Köhnə və yeni stabil durumlar arası ənənəvi nizamın, balans qaydalarının pozulması, təlatüm (fluktuasion) laylarının və xaotik fəallığın artması labüddür. Bu keçid mərhələsində, adətən, sistem bir çox "reallaşma kanalları", imkanlar və ehtimallar divergensiyası ilə üzləşməli, seçim etməli olur. Müfəssəl nəzəri zəminlər, arqumentləşmiş məfkurəvi istiqamət və hədəflər olmadıqda, yəni subyekt-aktorların qeyri-kamilliyi şəraitində, sistemin vəziyyəti, ümumən, daha da dramatik xarakter alır. Hətta istisna deyil ki, sistem geridönməz fəlakət kanalına düşsün. Burada söhbət, əlbəttə, ilk növbədə ictimai-qlobal, yəni, canlı sistemlərdən gedir ki, bütün bu təfərrüatlar barədə mən hələ 1990-cı ilin əvvəlində rus dilində nəşr edilmiş "**Mürəkkəblik. Zaman. Sinergetika: mürəkkəbliyin və mürəkkəb sistemlərin**

**inkişafının ümumnəzəri təhlili**" kitabında yazmışdım. Həmin kitabda ciddi arqumentlərdən çıxış edərək həm çağdaş mərhələyə ("yenidənqurma" dövrünə) dair, həm də gələcəyə doğru təkamüllə bağlı zəruri bildiyim təklif və tövsiyələrimi irəli sürmüşdüm. Bu təklif və tövsiyələrin, ortaya qoyduğum qənaətlərin cəmiyyətin və dövlətin idarə edilməsində, aparılan siyasətdə nəzərə alınmasının faydalı ola biləcəyini düşünərək, kitabın nüsxələrindən hətta bizim o vaxtkı siyasi fəallara da göndərdim. Əfsuslar ki, gözləntilərim puç oldu, tam laqeydliklə üzləşdim. Görünür, hay-küylü zəmanə şəraitində onların hansısa nəzəriyyə ilə, alim tövsiyələrilə tanış olmağa vaxtları və həvəsləri yox imiş. Oxusaydılar, bəlkə də, yeni qaneedici stabilliyə aparan reallaşma vektorunun müəyyənləşməsində daha düzgün və qabiliyyətli hərəkət etmiş olardılar.

Bu gün vəziyyət o həddə gəlib çatıbdır ki, dünyanın taleyinə dair qərarlar hökümət kabinetlərindən çox, transmilli korporasiya və bankların ofislərində qəbul edilir. Adi görünən bu hal, əslində, dövlətlərin, xalqların, millətlərin, həmçinin, fərdlərin suverenliyinin nə qətar öz mahiyyətinə cavab vermədiyini sübut edir. Hətta superdövlət olan ABŞ –ın özünə gəldikdə, onun dövlət və millət suverenliyinin, eynilə, amerika cəmiyyətində xalqın və şəxsin suverenliyinin şübhə altında olduğunu anlamaq çətin deyil. İndi, görün, digər ölkələrə nəzərən vəziyyət necədir! Aydındır ki, suverenliyə (hər dörd mənada – dövlət, millət, xalq və şəxsiyyət müstəvilərində) ciddi təhdid varsa, milli hökümət, xalqların azad seçimi, demokratik yolla hakimiyyətin formalaşması, mənbəyini xalqdan alan hakimiyyət kimi ifadələr, siyasi məkrə xidmət edən aldadıcı məfhumlara çevrilərək, heç də reallıqla uzlaşmır.

Problematikliyin ciddi bir tərəfi ondan ibarətdir ki, dünyanın necə və cür olmasında yalnız durmadan artan gəlir motivlərini rəhbər tutan transmilli banklar və korporasiyalar başbilənlik edirlərsə, deməli, ayrı-ayrı dövlətlərdə kleptokratiyala-

rın (qısaca desək, oğrular hakimiyyətinin) qərarlaşması qaçılmazdır. Transmilli qurum və şəbəkələr, bir qayda olaraq, kleptokratik hakimiyyətlərlə özlərini daha rahat hiss edirlər, çünki tamah və acgözlükdən qaynaqlanan maraqları yaxşıca təmin olunur. Əlbəttə ki, faydalanma qarşılıqlıdır! Əsasən transmilli lokomotivlərin vasitəsilə minbir həmlə və fırıldaqla hakimiyyətə gəlmiş kleptokratiya, elə həmin qüvvələr tərəfindən də himayə altına alınır və qorunur. Oğru, quldur və dələduzlardan formalaşdırılan kleptokratik hakimiyyət xalqın iradəsilə seçilib, təşkil olunmadığından, ümumiyyətlə, vətəndaşlar qarşısında məsuliyyət və cavabdehlik daşımır. Ən yaxşı halda, kleptokratiya xalqın adından danışır, milli maraqların keşiyində dayandığını bəyanlayır, bir sözlə, imitasiya və manipulyasiyaya gen-bol yer verir, insanları illüziyalar, qəlibləşmiş yalan və uydurmalar, ehkam və əfsanələr aləmində var-gəl etməyə, çaş-baş qalmağa və son çıxış yolu kimi kapital lotuları tərəfindən cızılmış "yeganə və düzgün kurs"u alqışlamağa və dəstəkləməyə vadar edir. Üstəlik də, insanlar ağır maddi sıxıntılar, sosial qayğılar məngənəsində cəhənnəm əzabı çəkməli olur.

Başqa demokratik ölkələrlə əməkdaşlıq səviyyəsində keçmiş sosialist ölkələrində, o cümlədən, postsovet respublikalarında, demokratiyanın və bu demokratiyaya söykənən milli konsolidasiyanın, hüquqi dövlətin əsaslarını formalaşdırmaq, açıq cəmiyyət quruculuğuna aparan yolları təmizləmək və abadlaşdırmaq, irtica meyllərə, istibdad rejimlərə (merkantil maraqlardan çıxış etmədən və fərq qoymadan!) qarşı birmənalı mövqe qoymaq və mütərəqqi qüvvələri əməli surətdə dəstəkləmək əvəzinə, ABŞ özünə yeni düşmən obrazı yaratmağa girişdi. Köhnə **təfəkkür ətalətindən** azad ola bilməyən fövqəldövlət, ehtimal ki, belə də hərəkət etməliydi: dağılmış Sovetlər İttifaqının yerini yeni, nəsə məşum bir qüvvə tutmalı idi! ABŞ-ın yeni hədəf-düşmən axtarışı həm onun özü, həm də bütün dünya üçün "yeni təfəkkür"ün qərarlaşmasını

əngəlləmiş oldu. Yox, yalnız yeni təfəkkürün inkişafını əngəlləmədi, reallığın özünü, bəşəri durumu daha da eybəcər, dözülməz vəziyyətə saldı. O dərəcədə ki, ölkələrin, xalqların demokratiyaya, açıq cəmiyyət və hüquqi dövlət quruculuğuna olan arzuları tükəndi, ayrı-ayrı dövlətlər və hətta qitələr bir-biri ilə amansızcasına vuruşan despotik rejimlərin və radikal qruplaşmaların məkanına çevrildi. İndi, K. Marksın anlayışları ilə desək, ictimai şüuru müəyyənləşdirən ictimai varlıq olduqca eybəcərdir.

25 il ərzində ABŞ-ın axtardığı və yaxud, ixtira-inşa etdiyi yeni düşmən nə oldu? Bu, adını özü qoyduğu "islam terrorizmi" oldu! Özünün uzunmüddətli əlaltısı, hətta deyərdim ki, sadiq köləsi, ifrad müstəbidliyi ilə fərqlənən Səudiyyə Ərəbistanının və Qətər əmirliyinin canfəşanlığı, təşkilati, maliyyə və ideoloji dəstəyi ilə ortaya çıxartdığı "islam terrorizmi"! İndi bu terrorizmin, ABŞ-a və onun yaxın müttəfiqlərinə zəruri olan (qlobal düşüncələrinə görə!) düşmən cəbhəsinin önündə İŞİD gedir. Artıq dünya mediasında, internetdə dəlil-sübutlar ortaya qoyulur ki, sən demə, İŞİD-in vaxtaşırı nümayiş etdirdiyi "başkəsmə əməliyyatları" da, əsasən, elə düşmən inşa edənlərin öz studiyalarında çəkilir. "İŞİD mifinin sirri çözüldü - terror təşkilatının videoları ABŞ-dakı studiyalarda çəkilir"- bu başlıqla 31.07.2015-ci il tarixində "Strateq.az" saytında da maraqlı yazı gedib.

Səudiyyə Ərəbistanının İŞİD-in maliyyələşdirilməsində oynadığı rol elə müsəlman ölkələrinin bəzi nüfuzlu şəxsləri tərəfindən dəfələrlə səsləndirilib. Məsələn, 17 oktyabr 2014-cü ildə Tehranda cümə namazına başçılıq edən Əyətullah *Əhməd Hatəmi* Səudiyyə Ərəbistanının xarici işlər naziri, şahzadə *Səud Əl-Feysal*-ın bəyanatına ("İran Suriyada, İraqda və Yəməndəki problemin bir parçasıdır və o, özünün «işğalçı qüvvələrini» bu üç ölkədən çıxarmalıdır") cavab olaraq bildirib: «Səudiyyə Ərəbistanının xarici işlər naziri deyir ki, İran problemin həlli yox, onun bir hissəsidir. Bu,

çox qəribə səslənir. Hamı bilir ki, İŞİD sizin neft dollarlarınızla yaradılıb. Hamı bunu da bilir ki, İslam dünyasında hər bir terror aktını səudlar maliyyələşdirir. Həqiqət bundan ibarətdir ki, siz problemin bir hissəsi yox, onun hamısısınız!» (**4**).

Dünya ictimai fikrində belə bir baxış da yayılmaqdadır: Birləşmiş Ştatlarla yanaşı, "islam terrorizmi" xofunun yaradılmasında Böyük Britaniya və İsrailin kəşfiyyat, media orqanlarının, biznes strukturlarının, xüsusən də dünya sionizminin rolu az olmamışdır. Rusiyanın həm siyasi, həm də ədəbiyyat, mədəniyyət, incəsənət adamları sırasında da bu baxış kifayət qədər qərarlaşıb. Rus elitasının bir çox nümayəndələri tərəfindən, bəzən açıq-aşkar deyilməsə də, sionizmin "qara işlər"də rolu qeyd edilir. Bəziləri isə məsələnin məğzini "masonçuluq", "gizli dünya dövləti", "Sion müdriklərinin proqramı" kimi mövzusulara yönəldirlər. Azərbaycan ictimai fikrində də, xüsusən, qlobal proseslərin mahiyyətini dərindən anlamayanlar içərisində, oxşar qənaətlər dolaşmaqdadır. Bu da təbiidir, belə ki, ağıl işlədib, zəhmət çəkib nəyinsə məna-məzmununu araşdırmaqdansa, Hitlersayağı bütün bəlalarda yəhudiləri suçlamaq qat-qat asan və bəzən də sərfəlidir. Bunu deyərkən, əlbəttə ki, spekulyativ-sələmçi maliyyə kapitalizmin fəaliyyətində qatı və məqsədli sionistlərin aparıcı rolunu, onların rəhbərliyi ilə yaradılıb iş görən qurum-şəbəkələrin, sirli güc mərkəzlərinin mövcudluğunu danmaq fikrində deyiləm. Və bununla da razılaşaq ki, ABŞ-ın vitse-prezidenti Cjo Baydenin söylədiyi kimi, "yəhudi olmadan da sionist olmaq olar". Yeri gəlmişkən, elə həmin Bayden hələ 1996-cı ildə dünya ictimaiyyətinə belə bir mesaj vermişdir: "Yaxın Şərqlə bağlı ABŞ-ın xüsusi layihəsi var". Sonralar böyük demokratiya təmtərağı altında həyata keçirilmiş və keçirilən bu layihənin nədən ibarət olduğu artıq çoxlarına aydındır: qlobal kapitalizmin yaratdığı böhran-fəlakətdən "qızıl milyard"ın xeyrinə qurtuluş naminə dünyanı yenidən formatlaşdırmaq və bu prosesin

alovlandırmaqda olduğu məşum sobaya, yanacaq əvəzi, başqalarını, ilk növbədə, müsəlmanları, onlara məxsus resursları atmaq! Böyük qəddarlıq və amansızlıqla reallaşdırılan bu layihələrə "bəs, müsəlmanların özləri niyə yem olurlar, tələyə gözüyumlu düşürlər?" sualı da əsaslıdır. Tam təfərrüatı ilə bu haqlı sualı cavablandırmağı burada mümkünsüz sayıram, ayrıca yazıya ehtiyac var. Sadəcə, bir məqamı diqqətə çatdırmaq istəyirəm:

Uzun əsrlər boyu, min il ərzində, XI əsrdə yaşamış Əbülhəsən Bəhmənyardan sonra, islam dünyasında, demək olar ki, professional fəlsəfə əməlli-başlı inkişaf etməyib. Professional fəlsəfənin mövcudluğu, hər şeydən əvvəl, özündə ontoloji, qnoseoloji, metodoloji, məntiqi, aksioloji məqamları ehtiva edən epistemoloji sistemin hazırlanması ilə şərtlənir. Bu zəruri iş isə Ə. Bəhmənyardan sonra, fikrimcə, qaneedici səviyyədə görülməyib. Əlbəttə ki, bunun da öz səbəbləri olub (burada da ayrıca söhbətə ehtiyac var!). Professional fəlsəfəsi olmayan coğrafiyada, məmləkətdə və yaxud regionda, necə deyirlər, başqa elmlər – riyaziyyat, fizika, kimya, biologiya, məntiq, hüquq, psixologiya, sosiologiya, siyasətşünaslıq və s. başsız qalır, yetimə çevrilir. Nəticədə elmi-texniki-texnoloji inkişaf tükənir, elmi idraki güc zəifləyir, ictimai həyatın bütün sahələri bərbad vəziyyətə düşür, düşdükcə də bəndələri, insan toplumlarını entropiya vektoru üzrə tənəzzülə sürükləyir; bir qayda olaraq, destruksiyaya və hərc-mərcliyə yol açır, hətta xalqların xarakterinə, insani keyfiyyətlərinə olduqca mənfi təsir göstərir. Professional fəlsəfəsi olmayan bu məkanlarda, aydındır ki, ictimai elmi paradiqmaların hazırlanmasından, qaneedici idarətmə fəlsəfəsinin mövcudluğundan və fəaliyyətindən danışmaq belə əbəsdir. İdarəetmə, elmi-fəlsəfi əsaslardan çox, dini-mifoloji amillərə, niyyət və arzulara, bu çərçivədə ənənəviləşmiş vərdişlərə, yanaşmalara söykənməli olur. Beləliklə də, ehkamçılıq, müstəbidliyə meyllik, kütləvi itaət psixozu, təhdidetmə və fərdlərə qarşı düşü-

nülmüş basqı, terror, yaltaqlıq və riyakarlıq, məmur özbaşınalığı, vəzifədən sui-istifadə, sosial qeyri-bərabərlik, haqsızlıq və qəddarlıq idarəetmənin ayrılmaz ünsürlərinə çevrilirlər. O da həqiqətdir ki, belə "idarəetmə fəlsəfəsi" ilə yaşayan cəmiyyətlər həm bəşəri, həm də ictimai inkişaf, elmi-texniki-texnoloji nailiyyətlər, insani-intellektual kapitalın formalaşması baxımından yalnız son cərgədə addımlaya bilərlər. Belə olduqda, onların mürəkkəbləşən geopolitik oyunda zəif düşməsi və uduzması da təəccüblü deyil. Uduzduqcan da günahı, ilk növbədə, kənarda axtarmaq, "masonların qəsdi"nə istinad etmək bir dəb halını alır.

Xoşbəxtlikdən bu cür qənaətlərə qarşı mövqe bildirənlər də az deyil. Məsələn, Rəsul Quliyev 30 iyul 2015-ci il tarixli "Azpolitika.info" saytında verilmiş müsahibəsində belə deyir: "Dövlətlər hansısa qüvvələr tərəfindən deyil, öz maraqları ilə idarə olunurlar (bu fikrin özünü, məncə, mütləqləşdirmək düzgün deyil, çünki obyektivliklə uzlaşmır, kifayət qədər misal göstərmək olar ki, idarəetmədə məhz hansısa qüvvələrin marağı dövlət maraqlarını kölgədə qoyur – Ə.A.). Bəzi addımları atmaq o maraqlar baxımından vacib şərtə çevrilir və hakimiyyətdə kimin olmasından asılı olmayaraq, o addım atılır. Dövlət maraqlarını isə onun geopolitik mövqeyi, iqtisadi, hərbi gücü və bu komponentlərin tələbləri, əhalinin sosial-mənəvi xarakteri, ittifaqda olduğu blokların tələbləri və sairə kimi bir sıra amillər müəyyənləşdirir. Bəzən biz bu amilləri bilmədiyimizə görə miflər uydururuq. Ümumiyyətlə, insan anlamadığı proseslərlə qarşı-qarşıya qalanda əfsanə uydurmaq qabiliyyətini ortaya qoyur. Bütün miflərin yaranma səbəbi məlumatsızlıqdır. İnsan oğlu hər şeyin rahatına qaçır. Anlaya bilmədiyi hadisələrin gerçək səbəbini araşdırmaq çətin olduğundan daha rahat yola baş vurur və əfsanələr yaradır. Hesab edirəm ki, "dərin dövlət", "masonçuluq" və sairə kimi miflər də bu cür bilgisizlikdən törəyən əfsanədir" (**3**).

Bununla belə, dünya xalqlarının başına gətirilən bəlalarda, açıq-qşkar təşkil edilən həmlələrdə birləşdirici "ümumi məxrəc" rolunda kim və ya nə çıxış edir sualını da təbii saymaq zorundayıq. Nüvə nədən ibarətdir? Qlobal kapitalizmin pul-gəlir ideologiyası, qazanc və istismar həvəsi? Bəlkə də bu statusda transmilli korporasiya və banklar, onların sirli və məşum qlobal şəbəkələri öz fəaliyyətlərini qururlar və bu gün də mənfəətdar-məkrli strategiyalarını həyata keçirməkdədirlər?! Ola bilərmi ki, bu ümumi impulsu verən, Vladimir Bukovskinin birmənalı vurğuladığı kimi, müasir solçuların qlobal birliyidir? Hər halda, azad mətbuat, fikir azadlığı, insanların təbii haqları kimi universal fenomenlər baxımından bu cür sualların qoyulması və cavablandırılması məqbul sayılmalıdır!

Bəlkə, toxunulmaz cənablar insanları mılumatsız qoyub, yeni-yeni əfsanələrin yaranmasını istəyirdilər? Əfsanələrə dözmək olar, ancaq son nəticələr heç də ürək açmır: demək olar ki, artıq nə Əfqanıstan və İraq, nə Suriyə və Liviya adlı dövlətlər var; üstəlik də, bu ölkələrdən Avropaya doğru axan insan seli, yurd-yuvalarından baş götürüb qaçanların faciəsi humanitar fəlakətin hansı dərəcəyə çatdığını əyani surətdə göstərir. Ola bilərmi ki, əfqan xalqı, ərəblər, ümumiyyətlə, müsəlmanlar öz dövlətlərinin dağılmasını, ölkələrinin viranə qalmasını istəyirdilər? Bu qədərmi onlar suiqəsdə meyllidirlər? Yox, belə deyilsə, deməli mühüm, köklü bir səbəb var! Gəlin onu axtaraq, tapaq, göstərək, səmimi surətdə bəyan edək, əks halda sionizmi də, masonçuluğu da gündəmə gətirən, bu mövzuları hallandırıb kütləviləşdirənlərin sayı çoxalacaq, həlli çətin problemlər isə daha da artacaq və qəlizləşəcək. Neçə ki, xalqların yaşayışına dair taleyüklü suallar cavablandırılmayıb, dinindən və irqindən asılı olmayaraq hamı üçün məqbul trend ortaya qoyulmayıb və müvafiq tədbirlər görülməyib, əfsanələrin, uydurmaların, antisemitizm və neofaşizmin yayılmasına, hətta

Avropanın özündə Adolf Hitlerin atasına rəhmət oxunulmasına təəccüblənməməliyik.

Yadımdadır, 1991-ci ildə ata-Buş demişdi: SSRİ-nin dağılması bütün dünya üçün böyük fəlakət ola bilər. Proqnozunda o, heç də yanılmadı, ancaq fakt ondan ibarətdir ki, ondan sonra gələn ABŞ prezidentləri, o cümlədən, doğma oğlu Corc Buş, bu fəlakətin baş verməsində müstəsna rol oynadılar, köklü dəyişmiş situasiyada yeni dünya üçün qaneedici bir nizam proyekti reallaşdırmaq əvəzinə, olan-qalan nizamı da alt-üst etdilər, bir tərəfi (kommunist yuristdiksiyası!) əldən çıxmış və havada qalan Yalta-Potsdam sistemini rasionallıq səviyyəsində yeniləşdirmək zərurətini kənara ataraq, “amerika milli maraqları” şüarı altında sırf öz dar maraqlarını, merkantil niyyətlərini həyata keçirməyə başladılar, keçmiş Sovetlərin nüfuz və təsir dairəsindən uzaqlaşan, çıxan ölkələri “demokratikləşmə” trendi vasitəsilə ələ keçirməyə, yeni istismar məkanlarına çevirməyə girişdilər. Bu məqsədlə ən qatı müstəbidləri, hakimiyyətə və sərvətə ifratcasına vurğunları, hətta patoloji cinayətkarları belə, mafiya bosslarını, ümumiyyətlə, elementar insani dəyərlərlə hesablaşmayanları ayrı-ayrı ölkələrdə hakimiyyət başına gətirməkdən də çəkinmədilər. “Demokratiya” silahı vasitəsilə məhz demokratiyaya qarşı canfəşanlıq qurdular.
Ac inəyə ot əvəzinə köşən verənin yaşıl şüşəli eynəkdən istifadə etdiyi kimi, ABŞ da, eynilə, kapital dünyasının öndəri qismində, qlobal yalana, hiyləyə meydan verdi. Bu yolda ən rəzil, qeyri-insani üsul və vasitələrə əl atdı, kəmsavad-radikal millətçilərdən, dini fanatiklərdən, bəsit instiktlərdən, kütlə psixozundan, lümpenproletar hay-küyündən istifadə etdi, elementar savadı, məsuliyyət və vicdanı, idarəetmə-administrativ potensialı olmayan “siyasətçi”lər sürüsü ortaya çıxartdı. Bu “zapal-zaryad”la hətta Avropanın mərkəzində indiyə qədər heç də pis durumda olmayan Yuqoslaviyanı içindən zəhərlədi, şam-şum etdi, parça-parça edib tarixdən

sildi; öz çirkli niyyətləri naminə böyük bir ölkəni bombardman etməyi də ABŞ-ın "sivil və mədəni" siyasətinə rəva bildi. Amerikasayağı **qloballaşma**, faktiki, amerika kapital elitasının heç bir məhdudiyyət qoyulmadan daha da sərvətləşməsi naminə adi **lokallaşmadan** ibarət oldu!

Aydındır ki, bu qlobal miqyaslı fitnə-fəsadı, yalan və qəddarlığı, görünməmiş qarət və istismarı, insan varlığına qarşı çevrilmiş siyasi lotuluğu, dələduzluğu ört-basdır və davamlı etmək üçün "yeni insan" (**debiloidlər**) istehsalı bu mənfur strateqlərin proyektlərində önəmli yer tutmalı idi. Bunun üçün isə, şükürlər olsun, artıq "mədəni qloballaşma" deyilən nəsnə öz işini görürdü, mədəniyyətlərin homogenləşməsi, asosial xarakter alması, minilliklər boyu xalqları ayaq üstə saxlamış ictimai normaların, adət-ənənələrin, pozitiv dəyərlərin aradan götürülməsi artan sürətlə reallaşırdı. İndiyə qədər ibtidaidən – aliyə doğru cərəyan edən bəşəri təkəmül, əksinə, alidən – ibtidaiyə, bəsitə doğru həyata keçirilirdi. Bu qlobal təntənəni daha etibarlı etmək, az-çox düşünən beyinləri də sarsıtmaq, destruksiyaya uğratmaq məqsədilə, əlbəttə ki, mədəniyyəti və incəsənəti, elmin özünü qarət və talan olunan ölkələrdə, elə lap Amerikanın və Avropanın özündə, pozğun şoumenlərin, sırtıq, həyasız şarlatanların ixtiyarına vermək, xalqlara yeni peyda olmuş "ulduzlar"ı ("yazıçı", "şair", "müğənni", "rəssam"... və "akademik"ləri) sırımaq lazım idi. Bəxtəvərlikdən, Avropanın mərkəzindən – Fransadan – bəşəriyyətin qara gününə bəraət verən, mədəniyyətin və mənəviyyatın boğazlanmasına çıraq tutan supermodernist cərəyan – **postsrukturalizm** – dünyaya yayılmaqda idi. Bir sözlə, **debiloidlər istehsalı** üçün hansısa fəlsəfi "izm"ə ehtiyac qalmırdı.

Onsuzda (alim-tədqiqatçıların 25 il bundan əvvəl apardıqları araşdırmalara əsasən deyirəm) Yer kürəsinin üzərində yaşayanların 80 faizindən çoxu, yumşaq desək, ağıl cəhətdən qüsurlu idilər. Belə

ki, məntiqi, yəni, rasional təfəkkürə malik deyildilər, hissi düşüncə ilə yaşayırdılar; hansısa mühüm hadisəyə münasibətdə səbəbləri aşkarlamaq, gedişatı proqnozlaşdıra və bütöv mənzərə yarada bilmək iqtidarında deyildilər. Bu "təfəkkür" müqabilində də onların aksioloji imperativləri müəyyənləşirdi: canıma, malıma, tayfama nə faydalısa, onu edim, dəbdə olan axına, cərəyana, sürüyə qoşulum, özümə və ailəmə sərfəlidirsə, lap qatı kommunist və yaxud cəbhəçi, demokrat, millətçi, liberal olum, hər bir rejimlərdə, yağdan bıçaq kimi keçərək, ayaq üstündə, at belində "будь готов!" olum, yıxılanı, gücsüzü baltalayım, lazımdırsa, "düşmənlər"ə işgəncə verim, onları – şikəst, övladlarını – bədbəxt edim, ailələrini – dağıdım, dərindən düşünən vicdanlı beyinləri bəribaşdan qapazlayım və əzim. Üstəlik də, milləti vətənpərvərliyə, birliyə, həmrəyliyə, dövlətçiliyə çağırım, qanundan, ədalətdən danışım!

*"Görünən dağa nə bələdçi" deyirlər, bəşəriyyətin başına açılan bu qədər məşəqqətlərdən sonra, məgər, düzgün olmazmı ki, etiraf edək: nəsə "***qlobal loxotron***"a bənzər bir mütəşəkkil qüvvə bu dünyanı viran etməkdə, xalqların gününü qara əysiyə bükməkdədir. Əməlli-başlı loxlaşdırma siyasəti, yəni "bıdlo"ya, "debil"ə, "zombi"yə çevirmə işi aparılır. O dərəcədə azart-həvəslə və məqsədli aparılır ki, hələ idarəetmə və hüquq-mühafizə sistemini demirəm, artıq elm-təhsil-maarif-mədəniyyət sistemini ayaq üstə yox, başı üstə saxlamaq, yerlibazlıq və tayfaçılıq, rüşvət və korrupsiya, yalan-böhtan və fırıldaqçılıq, yaltaqlıq və simasızlıq ocağına çevirmək, xüsusən də "mən də varam" deyən müsəlman ölkələrində, dəb halını alıb və kütləviləşib.*

*Bəli, loxotronşiklərin kimliyini dəqiq bilməsək də loxotronun var gücü ilə işlədiyi, "debiloid"lərin yetişdirilməsi danılmazdır. Gənclər bir yana qalsın, 60-ı, 70-i keçmiş yazıçı, şairlər tanıyıram ki, 120 manat pensiyalarilə bir komada can verirlər, ancaq özlərini əməlli-başlı dəlixanadakı "Yuliy Sezar", "Napaleon" kimi*

*aparırlar; əldən-ayaqdan düşən həkim-psixiatrların "ağıl duası"nın bir xeyri olmadığı kimi, bu yazıqları, "müstəqillik və azadlıq"dan meyxoş olmuş bu bəndələri qandırmaq olmur. Faciələrini az-çox qananlar da deyirlər: "Az qalıb, artıq imam Sahib-Zaman zühur etməkdədir, gəlib hər şeyi yerbəyer edəcək". Dibi olmayan cəhənnəm quyusuna kəllə-mayallaq gedən bu bəxtəvərlərdə huri-mələklər məskanı cənnətə olan vurğunluq qravitasiya gücündən də betərdi. Özü də, kimi qımıldadırsan, cüppulu manısdan, estrada amazonkası-kurtizankasından tutmuş, sifəti saralmış-bürüşmüş, it günündən vaxtsız qartmış, sual işarəsinə dönmüş şairə kimi, hamı vergili olduğundan dəm vurur: "Bu, məndə Allah vergisidi"- gecə-gündüz radioda, ekran-efirdə elə hey bu cür fikirlər dolaşmaqdadır. Alman, ingilis, yapon gündə bir ixtira edir, yeni texnika-texnologiya növü, sosial paradiqmalar yaradır, ancaq özünü İlahi qüvvənin bəxşişi saymır, başını sallayıb işini görür. Bizdə isə artıq siyasətçilərin də bəzilərinin başı tərpənib, hətta mexanika-fizika, kosmologiya-astrofizika sahəsində Nobel mükafatına özlərini layiq bilirlər – Allah vergisinin və fitri istedadın qıcqırmasından! Şeriyatı-ədəbiyyatı, mədəniyyəti, siyasəti bu cür düşüncələrlə yaşayan, elmi-təhsili-incəsənəti "vergili akademik"lərin, "vergili sənətkar"ların girovunda qalmış toplumun, görəsən, gələcəyini nə gözləyir? İmam Sahib-Zaman zühur etsə belə, onun nəyinə lazımdır bu zay olmuş bəndələr, bu debiloidlər! Təzəsini dünyaya gətirmək daha asan və ədalətli olmazmı?! Bir sözlə, deyəsən, Allah-Təala indiki sivilizasiyanı bir yağ-şor dümbəyi kimi büksəb tarixə yem edəcək.*

*Bütün əcaibləri müşahidə etdikcə məndə belə qənaət yaranır: robot düzəltmək üçün heç də, ənənəvi olduğu kimi, dəmirə-plastikə, mürəkkəb elektron sxemlərə müraciət etməyə ehtiyac yoxdur. Artıq sosiallığını itirmiş bioloji varlıq – canlı "adam" kifayətdir. Bundan yaxşı robot! – Yesin, içsin, özəl*

*kanallarımızın şoularından ləzzət alsın və bir qram biliyə, ağıla, vicdana, abır-həyaya malik olmasın. Görəsən, aşağısı olub, yuxarısı olmayan bu bəxtəvərlərə kimsə yiyə çıxacaqmı? Nəyinə lazım, o kimsənin işi-gücü az olacaq ki, cənnət arzusunda bulunan yarımadamcıqlara yenidən zövq, mərifət, fəzilətlər aşılasın, ağıl-kamal bəxşiş etsin! Biri digərinin qıçını dibindən çəkib çıxardanların özlərinə də, əslində, bu, lazım deyil. Genetik-ilkin etik imperativlər çoxdan deformasiyaya uğrayıb. Qoy, gedib yeni-yeni top-şoular və yaxud əldəqayırma partiya filialları, dublikatları yaratsınlar, güya vətəndaş cəmiyyətinin rəmzi olan QHT-lər açsınlar. Bunlar öz balalarını sümürüb-yeyən bəzi heyvan növlərinin (məsələn, dovşanların) dişilərindən də betərdilər; uzunmüddətli mənfi işarəli təkamül prosesi yaşadıqları üçün növ həmrəyliyinə, təəssübkeşliyinə, yəni, insani cəhətlərə malik deyillər, kannibalizmə meyllidirlər. Elə özləri də kimlərinsə yemi olmağa həvəslidirlər. Özüm görmüşəm: "boqomol" (dəvədəlləyi) hörümçəyin artıq başını yeyib, o isə bundan həzz alaraq xumarlana-xumarlana qarnını sığallayır.*

*Yox, mən deyə bilmərəm ki, "boqomol" yalnız müsəlmanların başını yeməkdədir. Dövrümüzün əcaib yeni imperiya forması olan Avropa İttifaqına daxil olan ölkələrin, daha doğrusu, burada yaşayanların vəziyyətinə, hansı mənəvi-psixoloji duruma düşdüklərini bu gün ən qatı avropapərəst şəxs etiraf etmək zorundadır. Avropa mədəniyyətinin asosial xarakter almasından, onun durmadan dərinləşən deqradasiyasından onların öz mütəxəssisləri, alim və yazıçıları, ictimai xadimləri yazırlar. Yazıların birində hətta belə bir fikir də getmişdir: korrupsiyaya yoluxmuş Avropa Parlamenti və Avropa Şurası üçün ən gözəl cəmiyyət – küt, başıdumanlı, arağa, narkotiklərə, teleşoulara, internet tullantılarına aludə olmuş, intellektsiz kütlədir. Anoloji fikirlərə mən Aleksandr*

*Zinovyev, Stanislav Lem və Vladimir Bukovskinin də yazı və çıxışlarında, müsahibələrində rast gəlmişəm.*

Yeni düşmən-hədəf yaratmaq cəhdindən yazarkən, qətiyyən ABŞ-a böhtan atmaq, onu yalandan suçlamaq fikrində deyiləm. Bu cəhdin ABŞ üçün nə qədər önəmli olduğunu hətta onun apardığı siyasətə tam loyal münasibət bəsləyən, "amerika milli maraqları"nın, "amerika milli identikliyinin" durmadan qayğısını çəkən tanınmış mütəxəssislər etiraf edirlər. Üstəlik, onların bir çoxu yeni düşmən yaratmaq qayğısını əsaslandırmağa çalışırlar. Məsələn, ABŞ-ın daha hazırlıqlı Sergey Kurginyanı – Samüel Hantinqton hələ 2004-cü ildə nəşr olunmuş "Biz kimik? Amerika milli identikliyinə olan çağırışlar" əsərində yazırdı: "Amerika siyasi elita içərisində "soyuq müharibə"nin yekunu eyforiya, məğrurluq coşqunluğu və yekəxanalıq yaratdı – və qeyri-əminlik hissi. İdeoloji düşmənin itirilməsi məqsədin itirilməsini doğurdu...1990-cı illərdə amerika siyasətçiləri və diplomatları, hamılıqca, belə düşmən axtarışı ilə qayğılı idilər. Bu axtarışların iştrakçıları bir-birlərinə və ölkəyə bir çox variantlar təklif edirdilər" (**11, s.411**). Amerika dəyərlərinin və ABŞ milli təhlükəsizliyinin qorunması üçün daimi düşmən obrazının vacibliyini əsaslandıran S. Hantinqton, son nəticədə bu fikri söyləyir: "İslam və xristianlıq, xüsusən də Amerikada hökmranlıq edən anqlo-protestantizm arasındakı uçurum islamın demonlaşdırılmasını gücləndirir. 11 sentyabr 2001-ci ildə isə Üsamə Ben Ladenin hesabına düşmən axtarışları tamamlandı. Nyu-Yorka və Vaşinqtona hucumlar Afqanıstan və İraqla müharibəyə, həm də qeri-müəyyən "bütün dünyada terrorizmlə mübarizə"yə gətirdi və döyüşkən islamı iyirmi birinci əsrdə Amerikanın başlıca düşməninə çevirdi" (**11, s.414**).

Paradoksal da görünsə, ABŞ-ın rəhbər tutduğu trendi onun bir çox siyasətşünasları, elm adamları (S. Hantinqton, Pol Peterson, Robert Patnem, Teda Skopol, Con Apdayk, Devid Kennedi, Çarlz

Krautxammer və b.) nəinki tənqid etmişlər, əksinə, bəraət qazandırmağa girişmişlər. Onların ümumi qənaətlərini belə formulə etmək olar: "Amerikaya öz möhtəşəmliyini, güclü milli hökümətini, milli birliyini və identikliyini qoruyub saxlamaq üçün hansısa real düşmənin olması zəruridir"; "Xarici düşmənin yoxluğu Amerikanın siyasi birliyinin eroziyasına, etnik və dini ziddiyyətlərin kəskin artmasına, habelə, siniflər, zümrə və təbəqələr arasında şiddətli toqquşmalara səbəb ola bilər". Ronald Reyqanın "Şər İmperiyası" adlandırdığı SSRİ-nin dağılması ilə real düşmənin itirilməsindən təşvişə düşən Pol Peterson 1994-cü ildə deyirdi ki, "soyuq müharibə"nin qurtarması, hər şeydən əlavə, milli maraqların tədricən buxarlanmasına gətirib çıxardacaq ki, heç kim ölkə naminə canından keçmək arzusunda olmayacaq, eyni zamanda, hökümətə etimad azalacaq, professional siyasi rəhbərliyə tələbat və millətin ümumi təəssübkeşliyi zəifləyəcək (**13, s. 4-9**). Elə həmin Hantinqton da, analoji olaraq, yazırdı ki, "xarici düşmənin olmaması çox vaxt millətin parçalanmasına, güclü milli hökümətə və milli birliyə tələbatın azalmasına gətirib çıxarır" (**11, s.408**).

Bu müəlliflərin arqumentlərini bütövlükdə şübhə altına almaq, səhv saymaq, əlbəttə, düzgün olmazdı, xüsusən də ABŞ-ın fərdiyyətçilik qabarıq surətdə özünü göstərdiyi anqlo-protestant ölkə olduğunu nəzərə alsaq. Lakin, düşünmürəm ki, daimi düşmən axtarmaqla-yapmaqla bu alim-politoloqlar və onların məsləhətilə hərəkət edən siyasətçilər yuxarıda qeyd etdiyim təşviş hissindən yaxa qurtarsınlar və ABŞ-ı etibarlı özünüreallaşdırma yoluna çıxartsınlar. Ümumiyyətlə, deyim ki, ABŞ başda olmaqla Qərbin bir çox tanınmış şəxsləri həmin təşvişi, narahatlığı ("Qərb süquta uğrayır!") yaşamaqdadırlar, ancaq onların heç də hamısı çıxış yolunu düşmən ixtira-inşa etməkdə görmürlər. Fəlakətin gəldiyini və yaxud yaxınlaşdığını bir sıra müasir qərb mütəxəssisləri (o cümlədən, F. Fukuyama, İ. Vallerstayn, P. Bükenen) bu və ya digər

tərzdə bildirirlər. Prezident Niksonun və Reyqanın müşaviri. 1992-ci və 1996-cı illərdə Respublikaçılar partiyasından prezidentliyə namizəd olmuş Patrik Con Bükenen hətta öz kitabını belə adlandırmışdır: "Qərbin ölümü". Bu yerdə, həm də, hələ 1950-ci ildə görkəmli ingilis yazıçısı Artur Klarkın "Uşaqlığın sonu" romanını xatırlatmaq lazım gəlir. Necə deyərlər, mesaj ordan gəlir! Əsərdə bəşəriyyət informasiyanın təsiri altında özü-özünə son qoyur. Fikrimcə, bu məcrada sürrealist rəssam, dahi Salvador Dalinin 1943-cü ildə çəkdiyi məşhur "Yeni insanın doğuluşunu müşahidə edən körpə" əsərini də yada salmalı və göz önünə gətirməliyik.

Düşmən obrazı, bəlkə də, Amerikanı bir müddət ayaqda saxladı – həlli çətin problemlər və ziddiyyətlər artsa da. Son nəticədə, əgər yeni trend ortaya çıxmasa, ABŞ-ın Dördüncü Dünya müharibəsindən – əsasən də avro-amerikan mədəniyyəti ilə islam dünyası mədəniyyəti arasındakı mübarizədən – salamat çıxması şübhə altındadır. Və səbəb təkcə islam dünyası mədəniyyətinin əxlaqi-mənəvi keyfiyyətlər baxımından daha stabil olmasında deyil, mahiyyətli determinatlar avro-amerikan sivilizasiyanın özündə gizlənib. Burada artıq tarixi rolunu oynamış və müxtəlif ölçülər üzrə gücünü itirmiş amillər, əvvəldən özündə təhlükə, destruktiv məzmun-mahiyyət daşıyan ünsür və tendensiyalar çox-dur. Bunlardan bir mühümünü, anqlo-sakson mahiyyətli liberal-demokratizmin artıq tükəndiyini yapon mənşəli filisov-sosioloq Frensis Fukuyama hələ 1990-cı ildə "Tarixin sonu?" məqaləsində, üstüörtülü olsa da, göstərmişdir. Problemli situasiyadan pozitiv çıxış variantlardan biri kimi hətta "Hegel liberalizmi"ni müzakirə müstəvisinə gətirmişdir. (Bu mövzuya dair öz fikirlərimi vaxtilə ətraflı surətdə əsərlərimdə, məsələn, "İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə" (**1**) kitabında təqdim etmişəm).

Sonralar F.Fukuyama öz fikirlərini "Tarixin sonu və axırıncı adam" (**10**) adlı çox maraqlı və dəyərli kitabında inkişaf etdirmişdir. Həqiqətən də sual yaranır, indiyə qədər ABŞ-ı, Qərbi öz azadlıqları ilə qabağa aparmış, elmi, texniki və texnoloji tərəqqiyə şərait yaratmış liberal-demokratizm artıq tükənibsə və özü maneəyə çevrilibsə, bəşəriyyət hansı ideoloji xəttə üstünlük verməlidir? Yalnız bu liberalizmi yaxşılaşdırmaqla, korreksiya etməklə nəyəsə nail olmaq mümkündürmü? Mümkün deyilsə, postliberalizm nədən ibarətdir? Qəribədir, nədənsə bizim siyasətçilər bu cür məsələlərlə özlərini məşğul etmək istəmirlər, "beşgünlük ömr"ü məhz "siyasətçi" kimi yaşamaq istəyirlər. Nə demək olar, tezbazarı divident götürmək eşqi insan mentalitetinə xas xüsusiyyətdir!

Bəzi tanınmış şəxslər belə fikir söyləməkdən də çəkinmirlər: müasir zamanda Qərb öz təhlükəsizliyini qorumaq üçün müqəddəs saydığı azadlıqları məhdudlaşdırmalıdır. Hətta Şoll-Latur belə demişdir: demokratiya o vaxt qalib gələcək ki, demokratiya olmasına son qoyacaq. Deyim ki, demokratiyanın məhdudlaşdırılması fikri, müxtəlif əsaslandırmalar altında, postsovet ölkələrində də, xüsusən hakim siyasi dairələrdə, dəbə minmişdir. Söz yox ki, bu qənaət nə Qərb, nə də postsovet ölkələri üçün sağlamlaşdırıcı resept ola bilməz. Əksinə, düşünürəm ki, çıxış yolu, hər şeydən əlavə, demokratiyaya daha ciddi və etibarlı təminat verməkdədir.

İmmanuil Vallerstayn, ümumiyyətlə, yayılmış fikirlərdən fərqli olaraq, heç də Z. Bjezinski sayağı "soyuq müharibə"nin qurtarmasını ABŞ-n qələbəsi saymır, əksinə, onun hegemonluğunun və liderliyinin sonu hesab edir. O, Fukuyama kimi, problemin yalnız ideoloji tərəfini işarələmir, daha dərinə gedərək, bütövlükdə kapitalist "dünya-iqtisadiyyat sistemi"ni (Vallerstaynın öz terminidir!) tənqid edir. Elə bu səbəbdən də neomarksist adlanır. İ. Vallerstayna görə, nə qədər ki, kapitalist dünya-iqtisadiyyat sistemi var, münaqişə və müharibələr, böhranlar qaçılmazdır. Lakin o,

Marks, Engels, Lenin kimi, elə də optimist deyil, kapitalizmin tezliklə alt-üst olduğunu düşünmür, dünyanın inqilabi yeniləşməsini qəbul etsə də, onu uzaq gələcəyə aid edir. Kapitalist sistemini əvəzləmək üçün, Vallerstaynın fikrincə, güclü antisistem olmalıdır, o da ki, uzaq gələcəyin işidir. Getdikcə artan və şiddətlənən konfliktlərin səbəbini isə İ. Vallerstayn, S. Hantinqtondan fərqli olaraq, sivilizasion yox, iqtisadi amillərdə görür (**6,7**). Onu da qeyd edim ki, futuroloji baxımdan Vallerstaynın öncədən söylədiyi bir sıra fikirləri, xüsusən də Cənubdan Şimala, Şərqdən Qərbə doğru miqrasiyanın hədsiz dərəcədə güclənməsi və bu zəmində yeni mürəkkəb problemlərin yaranması barədə proqnozu artıq özünü doğrultmaqdadır.

O ki qaldı konfliktlərin səbəbinə, fikrimcə, burada həm sivilizasion, həm iqtisadi, həm də digər amillərin rolu var, yəni, problem çoxölçülü və çoxşaxəlidir, bunu reallığın özü sübut edir və xüsusi arqumentlərə ehtiyac yoxdur. Böyük əxlaqsızlıq afyorası, aksioloji böhran isə bütün ölçü və şaxələrə sirayət edib. Elə ona görə də "kim necə bacarırsa, özünü xilas etsin!" düstürü fərdlərin, cəmiyyət və dövlətlərin, dini-mədəni və sivilizasion sistemlərin başlıca əsasnaməsinə çevrilib. Belə olduqda, qlobal siyasi arxitektura axtarışında olan bəşəriyyət üçün nə İmmanuil Kantın, nə də Yurgen Habermasın "ümumi sülh"ə aparan konsepsiyaları bütün dərdlərə dərman olmayacaq və deyəsən, Dördüncü Dünya müharibəsindən tərəflərin heç biri qalib çıxmayacaq. Belə ki, hər bir tərəfin özü, yumşaq desək, bir-biri üçün anonim və yad olan məxluqlar toplumundan ibarətdir, o məxluqlardan ki, özlərinə iki yumurta bişirmək üçün bir şəhəri yandırmağa hazırdırlar. Bunların kredosu diriltmək, qurmaq, qorumaq, xoşbəxt etmək yox, öldürmək, dağıtmaq, işkəncə vermək, bədbəxt etməkdir! Nadürüstlər həmişə şəxsi mənfəət gətirən asan yolla gedirlər: termodinamikanın ikinci

qanunudur – hər bir sistemi dağıdıb məhv etmək onu inşa edib yaşatmaqdan qat-qat çətindir. Bu, entropiya vektorudur!

XX əsrin 80-ci illərinin sonundan üzübəri dünyada cərəyan edən müəmmalı və insani tələfat baxımından ağır nəticəli hadisə və proseslər, xüsusən də müsəlman ölkələrinin başına gətirilən müsibətlər göz qabağındadır və hamıya aydındır. O da tam aydındır ki, bu məşum gedişatdan, islamın demonlaşdırılmasından və müsəlmanların yaşayışının cəhənnəmə döndərilməsindən qazanan, hələ ki, dünya oliqarxiyasıdır.

Xüsusi sübuta varmadan demək olar ki, bəşəriyyət, həqiqətən də, turbulentliyi sürətlə artan ciddi böhran içərisindədir, bəlkə də "son partlayış" ərəfəsindədir. Bu böhranın nüvəsini, fikrimcə, müasir qlobal kapitalizmin və onun aparıcı ideya-nəzəri daşıyıcısı olan liberalizmin böhranı təşkil edir. Müasir təqdimatda bu liberalizmi (müxtəlif modifikasiyalarına baxmayaraq) oliqarxik liberalizm də adlandırmaq olar. Oliqarxik liberalizm, anqlosakson mahiyyətli liberalizmin tarixi məhsulu olaraq, keçən əsrin 50-ci illərinin sonu – 60-cı illərinin əvvəllərində təkan almış və artıq 80-ci illərdən üzübəri möhkəmlənmişdir. (Səbəb və təfərrüatları barədə ayrı-ayrı yazılarımda fikirlərimi bildirmişəm!). Oliqarxlaşmanın vüsət əldə etməsi, öz növbəsində, qlobal kapitalizmə məxsus olan mənfi səciyyəni daha da gücləndirmiş, zəruri qadağa (məhdudiyyət) prinsip və mexanizmləri ilə hesablaşmayan kapitalizmin insana və insanlığa qarşı amansızlığını, anti-humanizmini tam çılpaqlığı ilə ortaya qoymuşdur. Nəticə olaraq, qlobal miqyasda, haqq-ədalət və bərabərlik müstəvilərində həm ölkədaxili, həm də dövlətlərarası tarazlıq ciddi surətdə, ifrat dərəcəsində pozulmuşdur. Qısaca desək, varlılar (azlıq) daha da varlanmış, kasıblar (çoxluq) isə daha da yoxsullaşmışlar. Hüquqa, sərvətə, tükənməz imkanlara sahiblik azlığın əlində cəmlənmiş, yoxsulluq, səfalət, zülmə dözmək aqibəti çoxluğun qismət payı olmuşdur. Xüsusən ölkələrarası nisbətdə

"sərvətli" – "yoxsul" fərqləri ağlagəlməz dərəcədə böyümüş, kəskin qütbləşmə baş alıb getmiş; qlobal kapitalizmin söz sahibi olan imtiyazlı ölkələrindən kənar bütün ölkə və regionlar total istismara, talana, aşağılanmaya məruz qalmışlar. "Geriqalmış ölkələr"in geriliyini, məzlumluğunu əbədiləşdirmək, ayrı-ayrı bölgələrdə artan haqlı narazılığı, nifrət və üsyançılığı çərçivələmək, yatırtmaq üçün hər cür hiylə və fəndlərin yeni-yeni üsul və formaları düşünülmüş, işə salınmışdır. Dünyanı hörümçək toru kimi bürümüş transmilli korporasiya və bankların, onların gizli-məşum şəbəkələrinin həmlələri, siyasi-hərbi müdaxilələr, ideoloji-psixoloji-mənəvi təcavüz, "müasir mədəniyyət" adı altında etno-milli kodların dəyişdirilməsi, tarixi gen yaddaşının məqsədli surətdə zədələnməsi, ənənəvi dəyərlərin ortadan götürülməsi və mahiyyətcə saxta, içi boş, asosial "dəyərlər"lə əvəzlənməsi, eyni zamanda, istehlakçılıq, əşyaçılıq psixologiyasının, maddiləşmə-mənfəətləşmə, əyləncə-şou ovqatının alovlandırılması, beyinlərin və qəlblərin "yuyulması", səmimi insani tellərin, sağlam münasibətlərin yaşamasına, özünü göstərməsinə yer və imkanın verilməməsi, ailənin və digər sosial institutların məqsədli sürətdə destruksiyaya, deqradasiyaya çəkilməsi və s. - bütün bunlar qlobal kapitalizmin arsenalını təşkil etməkdədir. Həqiqətən də, bəşəri sərvət sayılmalı "hüquqi dövlət", "vətəndaş cəmiyyəti", "demokratiya", "insan haqqları" kimi məfhumlar da, əsasən, bu məqsədlə işə salınmış, böyük təmtaraqla, hay-küylə, yüzminsifətlə təqdim olunmuşlar. Xüsusən "soyuq müharibə"dən sonra bu dəyərlər əməlli-başlı sui-istifadə, müdaxilə və işğal alətinə çevrilmişlər.

Məsələn, son onilliklər ərzində qəbul edilmiş beynəlxalq sənədlərə zidd olaraq, insan hüquqları məsələsində ikili standartlar, təmənnalı münasibət, ayrı-seçkilik özünü göstərir, ABŞ və Avropa İttifaqı ölkələri özləri üçün rəva bilmədiklərini başqaları üçün məqbul sayırlar; insanların təbii haqları maddi-iqtisadi, geosiyasi

və hətta şəxsi maraqlara qurban verilir. Oliqarxik (maliyyə-sələmçi) kapitalizmin aparıcı ölkələri insan haqqlarının praktiki müstəvidə reallaşması məsələsinə özlərinin çeşidli münasibətlərinə bir növ bəraət qazandırmaq üçün rəsmi əsas da ortaya qoymuşlar. Avropa İttifaqının "Əsas hüquqlar haqqında Xartiya"sı (7 dekabr 2000-ci il), nə qədər kamil sənəd olsa da, bütün pozitiv cəhətləri ilə yanaşı, həm də məhz bu niyyətə qulluq edir: necə deyərlər, insan haqlarının arxasında durmağı üzərlərinə götürmüş ölkələr universal elan etdikləri prinsipi elə özləri universallıqdan, hamı üçün vacibliкdən çıxarmışlar – hüquqlar kopleksinin qeyd-şərtsiz, mütləq ödənilməsini yalnız artıq demokratiya şəraitində yaşayan Avropa İttifaqı ölkələrinin qismətinə yazmış, onların "toxunulmaz mülkiyyət"i elan etmişlər (**2**).

Qlobal demokratiya carçılarının dünyaya yeritdikləri "birinci", "ikinci" və "üçüncü" demokratiya dalğaları (indi "dördüncü"dən də danışırlar!), bir qayda olaraq, bu dəyərlərin mahiyyəti üzrə qərarlaşmasını deyil, onların vasitəsilə məkrli oyunlar qurmaq, manipulyasiya imkanları qazanmaq, "müstəqiləm!" deyən xalqlara və dövlətlərə kəmənd atmaq, onları çaşdırmaq, bir-birinə qarşı qoymaq, milli hakimiyyətlərin xalqla təmasını, ünsiyyətini qarşılıqlı nifrət, etibarsızlıq üzərində kökləməklə hər iki tərəfi özündən asılı etmək, bəribaşdan onların – həm xalqın, həm də hakimiyyətin – suverenliyini qansız-qidasız qoymaq, kövrək və dayanıqsız etmək, hər cür hiylə ilə dirçəliş və tərəqqi nəfəsliklərini kəsmək, "bizdən olmayan" çoxluğu ruhsuz, qəlbsiz-ürəksiz monstr-mənəviyyatsızlıq burulğanında boğmaq, ali varlıq deyilən insanı pyedestalından salmaq, bayağı deyib-gülən, zövqsiz və idraksız məxluqa çevirmək məqsədi güdmüşdür. Millətləşmə, bütövləşmə, demokratikləşmə arzusunda olan toplumlara məbadə belə imkanlar yaratmaq, əksinə, bu arzu-eşqdən daha da uzaqlaşdırmaq, elə etmək ki, məzlum xalqlar yerimək əvə-

zinə taytılasınlar, danışmaq əvəzinə kəkələsinlər, dərindən düşünüb çıxış yolu tapmaq əvəzinə məlul-məlul faciələrini seyr edib elə öz zalımlarından da imdad diləsinlər.

Məqsəd güdülürsə, deməli, ona hədəflənmiş vəzifələr kompleksi həyata keçirilməlidir. İlk növbədə, Stalinin məşhur "Kadrlar hər çeyi həll edirlər!" düsturunu rəhbər tutaraq elə etmək ki, hədəfə alınmış ölkələrdə idarəetmənin bütün mühüm "nöqtə"lərində tamamilə mahiyyətə cavab verməyən şəxslər əyləşsinlər, kifayətdir ki, mümkünsə, "bizim dildə", yəni, ingiliscə danışsınlar. Məsələn, elə nazirlər olmalıdır ki, düşünən insanlar (hələ varsa!) onların elə simasını, güya ana dilində danışmalarını, cümlə qurub-bitirmələrini, heç bir standarta sığmayan "dəmir məntiq"lərini, anadangəlmə və qazanılmış idarəetmə məharətlərini görüb, ata-baba yurdlarına, tarixi torpaqlarına, üstəgəl, canlarına, sağlamlıqlarına, az-çox dözüləsi güzəranlarına əlvida desinlər, təmiz suya-havaya, ərzağa tamarzı qalsınlar. Təki oliqarxik liberalizmin, spekulyativ-sələmçi kapitalizmin tələb-vəzifələri ödənilsin! Belə olan halda, millətləşmə gərəyi necə baş tuta bilər?
"**Millət**", hər şeydən öncə, siyasi-hüquqi, tarixi-mədəni birlik formasıdır; onun vahid hüquqi məkanı, siyasi və dövlətçilik mədəniyyəti, ictimai tərəqqi və ümumi mənafe amalına söykənən idarəetmə fəlsəfəsi, mənəvi adət və ənənələri olur. Deməli, **millətləşmə**, başlıca olaraq, siyasi və hüquqi şüur səviyyəsində yüksək tarixi-mədəni-mənəvi birlik formasının mövcudluq üsuludur. Millətləşmə - etnik müəyyənləşməni siyasi və hüquqi müəyyənləşmə səviyyəsinə, milli bütövlük dərəcəsinə yüksəldən prosesdir. Millətləşmə - əqli-intellektual, ruhi və fiziki gümrahlaşma, intibaha qovuşma yoludur. Bu intibah millətin hüquq və şərəfini müdafiə etməyə qadir güc, bir-birinə və dünyaya hörmət, məhəbbət deməkdir.

Aydındır ki, kapital dünyasının pretorlarının qulluğunda dayanan muzdlu alimlər, strateji mərkəzlər bunu yaxşı bilirlər və ona görə də prioritet məqsəd siyasi, hüquqi, sosial-iqtisadi və mənəvi mühitə nizamsızlıq, destruksiya toxumu səpməkdən ibarət olur. Daxili xaosa, məsuliyyətsizliyə, vicdansızlığa, insafsızlığa, bir sözlə, çoxölçülü ictimai entropiyanın püskürməsinə yol açmaq; rüşvət və korrupsiyaya, vəzifədən sui-istifadələrə, məmur özbaşınalığına rəvac verərək məhkəmələri siyasi yustisiya alətinə, hüquq-muhafizə orqanlarını – basqı, təqib, təhdid, hücum, işgəncə, aşağılama, divan tutmaq, şil-küt etmək sisteminə çevirmək qayğısı xüsusi diqqətə alınır. Yəni, bütün bu cəbbəxananı insanın şərəf və ləyaqətinə qəbir qazan generatora çevirmək, vəziyyəti elə həddə çatdırmaq ki, "**ədalət**" deyilən şey nəinki siyasi-hüquqi, sosial-iqtisadi, əxlaqi-mənəvi sahələrdə, ümumən, hər yerdə və hər zaman cəlayi-vətən olsun. "Ədalət, haqq istəyirəm!" deyən kəsin dili kəsilsin, son tikəsi əlindən alınsın, doğulduğuna peşman olsun. Bəlkə də, 2500 il bundan qabaq, öz dövrünün oliqarxiyasının insanlara verdiyi zülmü görərək böyük mütəfəkkir-dramaturq Evripid deyirdi: "Dünyadan köçənin dalınca yox, yeni doğulanı ağlayın!".

Bütün bu "gözəllik"lərə "soyuq müaribə"dən şikəst, yarıcan çıxmış və bu gün qlobal kapitalizmin ən iyrənc təmsilçisi olan Rusiyanın, qara nəfəsli qırmızı Kremlin durmadan artan revanşizmini, şovinizmini, yırtıcılığını, yerə-göyə sığmayan vəhşiliyini nəzərə alsaq, vəziyyətin "yeni demokratiyalar" üçün nə qədər ağır olduğu tam aydınlaşar.

Bununla belə, BMT-nin 70 illiyinə həsr olunmuş sessiyasında (28.09.2015) ABŞ prezidenti Barak Obamanın maraqlı, proqram xarakterli çıxışını dinlədikdən sonra məndə bir ümid, xoş ovqat yarandı. O, çıxışında qlobal siyasi arxitektura üçün fundamental epistemiloji sistem təklif etmədisə də, bir sıra mütərəqqi, ümidverici müddəalar ortaya qoydu, fəaliyyət prinsipləri irəli

sürdü. Düşünmək olar ki, bütün bəşəriyyətə hesablanmış bu çıxış (əgər deyilənlər səmimidirsə!) öz müsbət təsirini göstərəcək.

## **Ədəbiyyat**:


1. Abbasov Ə. F. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. Bakı: "MBN". 2006.
2. Abbasov Ə.F. İnsan haqları və ictimai rəy. Bakı: "Təknur". 2013.
3. Azpolitika.info/?p=140142**.**
4. Səudiyyə Ərəbistanının neft dollarları ilə qurulan İslam Dövləti // "Talys Post" informasiya-analitik portal, 18 oktyabr 2014-cü il.
5. Бжезинский Збигнев . Великая шахматная доска. М. 1997.
6. Валлерстайн Эммануил . После либерализма. М. 2003.
7. Валлерстайн Эммануил. Конец знакомого мира. Социология XXI века. М. 2003.
8. Сорос Джордж. Открытое общество. Реформируя глобальный капитализм. Пер. с англ.- М, 2001.
9. Так говорил Лем / сб.: пер. с пол. – М. 2006, с. 522.
10. Фукуяма Френсис . Конец истории и последний человек. М. 2004.
11. Хантингтон Самюэль . Кто мы?: Вызовы американской национальной идентичности / Пер. с англ. – М. 2004.
12. Kissinger Henry. Diplomacy. New York. Simon and Schuster. 1995.
13. Peterson Paul E. . "Some Political Consequences of the End of the Cold War" (Cambridge: Harvard University, Center for İnternational Affairs, Trilateral Workship on Democracy, Memorandum, 23-25 September 1994.

**Əlikram Tağıyev**

## Türkcülük və Azərbaycançılıq ideyaları milli təhlükəsizliyin qarantı kimi

Bu yaxınlarda türkçülük mövzusuna həsr olunmuş bir dissertasiya müdafiə olunurdu. Türkçü alimlərin bir çoxu da orada idi və onlar iş haqqında öz münasibətlərini bildirdilər. Onları dinləyəndən sonra belə başa düşdüm ki, bu haqda son söz söyləmək hələ çox tezdir və bəzi yoldaşlarımızın təsəvvürləri bu barədə heç də birmənalı deyil. Yəni məsələ problem xarakterlidir və hələ uzun zaman müzakirə oluna bilər. Ona görə də bu məsələni yazıb həmin müzakirədə iştirak etmək qərarına gəldim. Doğrudur, fikrim heç də Amerika kəşf etmək deyil, amma bəzi yoldaşlara bu sahədəki yanlış təsəvvürləri-ni xatırlatmaqla onları bu yanlış yoldan çəkindirməyə çalışmışam. Həm də onlara deməliyəm ki, bizim tədqiqatların kökündə azərbaycançılıq fəlsəfəsi və metodologiyası dayanır.

***

Avropa alimlərinin əsərlərində (məsələn, macar yəhudi şərqşünası Vamberi) türk xalqlarının dil, məişət, adət-ənənə, ortaq tarix, ərazi və s. haqqında tədqiqatlar aparılmış, Çindən tutmuş Avropayadək olan böyük bir əraziyə səpələnmiş bu xalqların haçansa vahid bir mədəniyyətə malik olmaları haqqında ideyalar irəli sürülmüşdü (Manas, Dədə Qorqud, Koroğlu və b.). Onların mifik Turan adlı bir dövlətdə birləşdirilməsi ideyası da buradan əmələ gəlir. Lakin belə bir yeni dövlətin düz Avrasiyanın mərkəzində yaranmasına buradakı mövcud dövlətlər imkan verərdilərmi? Xüsusən də bu siyasət Rusiya, Çin, İran kimi dövlətlərin maraqlarının diametral şəkildə əksini təşkil etdiyinə görə Turan ideyası bir mif olaraq qaldı. Turan ideyasının mərkəzində türkçülük dayanırdı. Əgər doğrudan da belə bir dövlət yaranmış olsaydı, türkçülük onun ideologiyasına (turançılıq şəklində) çevrilə bilərdi. Lakin türkçülük

bir sıra modifikasiyalara uğrayaraq yeni yaranmış Türkiyə Respublikası üçün ideya-siyasi əsas rolunu oynadı. Bu isə artıq turançılıqdan fərqli bir türkçülük idi, necə deyərlər, Türkiyənin boyuna biçilmiş milli bir ideologiya idi. Burada millətçilik şovinizm şəklində deyil, pozitiv millətçilik şəklində qavranılırdı. Kamal Atatürk başa düşürdü ki, turançılıq yeni yaranmış gənc Türküyə Respublikası üçün həzmolunmazdır, ona görə də türkçülüyü turançılıqdan və hətta osmançılıqdan təmizlənmiş şəkildə tətbiq etdi, necə deyərlər onun Türkiyə sinirləri daxilində fəaliyyət göstərdiyini nəzərə aldı.

K.Atatürk fanatizmdən uzaq bir adam idi, xilafəti ləğv edib dünyəvi bir dövlət yaratdı. Bu da həm Qərbin, həm də sadə Türkiyə əhalisinin maraqlarına cavab verirdi. Türkiyə artıq Osmanlı imperiyası deyildi, o, Qərb üçün heç bir təhlükə yaratmırdı, həm də buradan panislamist məqsədlər üçün istifadəyə də artıq heç bir əl yeri qalmamışdı. Çünki xilafət ləğv edilmişdi. Türkiyə modern, dünyəvi bir dövlət kimi dünya dövlətlərinin diqqətini cəlb etdi və onlar yeni Türkiyə ilə əməkdaşlığa tərəfdar çıxdılar. Neotürkçülük isə, yeni Türkiyənin sosial siyasətinin fonunda özünün əvvəlki mənasını itirib keçmiş üçün bir simvola döndü. Yeni türkçülük artıq XX əsrin əvvəllərindəki klassik türkçülükdən dönüb formal bir idarəetmə vasitəsinə çevrildi. O, az qala SSRİ-dəki «müsəlman milli kommunizmi»nin səviyyəsilə eyniləşdi. Yəni, formal şəkildə kommunizm, əslində isə islam sosializminə əsaslanan idarəetmə mexanizmi Türkiyədə də formal türkçülüyə əsaslanan yeni tipli sosial dövlət modeli idi. Türkçülük ideyalarını irəli sürənlərin şüarları da müxtəlif idi: məsələn, Yusif Akçura: "türkçülük, osmançılıq-islamçılıq", İsmayıl Qaspıralı: "dildə, fikirdə, işdə birlik", Əlibəy Hüseynzadə: "islamlaşmaq, türkləşmək, avropalaşmaq".

Göründüyü kimi bu şüarlar şəraitdən, vəziyyətdən, dövrdən və s. asılı olaraq dəyişilib sonda bu şəklə düşdü: "Türkləşmək, islamlaşmaq, yeniləşmək" Bu, bizim bayrağımızda da əks olunub.
Çox böyük türkçülərin dil siyasəti də fərqli idi. İsmayıl Qaspıralı «Tərcüman» qəzetində yazırdı ki, Krım tatarları savadsız olduqlarından nə turançılıq ideyalarını, nə də osmanlı dilini onlara aydın

başa salmaq olmurdu. Onlarda bir tatar ideyası var və onu da dəstəkləyirlər. Yaxud «Molla Nəsrəddinçilər» də osmanlı dilini məqbul saymırdılar. Onlar əsl türk dili saydıqları Azərbaycan dilini «türkün ana dili» sayır və bu dildə də yazırdılar. Deməli, burada fikirlər haçalanırdı:

1) Mövcud osmanlı dilini bütün türk dünyası üçün vahid ədəbi dil kimi qəbul etmək;

2) Mövcud osmanlı dilinin ərəb-fars tərkiblərindən təmizlənməsi və onu təmiz türk dilinə çevirmək.

3) Yerli türk dillərini, şivə və dialektlərini ədəbi dilə çevirmək.

Birincini qəbul etmək mümkün deyildi. Namik Kamalın yazdığı kimi «bu nasıl dil idi ki, nə osmanlı, nə də əcəm onu başa düşmürdü». İkincidən türklərin özü istifadə etdi və türk dilində islahatlar həyata keçirib onu öz ədəbi dillərinə çevirdilər.

Onu da deyək ki, o zamankı Türkiyədə (Osmanlı imperiyasında) «türk» deyəndə kəndli, əkinçi, çovdar, sadə adam və s. başa düşülürdü. Türk dili isə Anadolu kəndlisinin dili kimi qavranılırdı. Yalnız Kamal Atatürk bu dilə arxalandı və onun daşıyıcılarının «türk», ölkələrinin isə «Türkiyə» adlandırılmasını lazım bildi. Bununla da Kamal Atatürk bir növ yeni türk millətinin və Türkiyənin bir memarı rolunu oynamış oldu.

Üçüncüdən isə sovetlər geniş şəkildə istifadə etdilər.

Onlar üçün vahid türk dili əlverişli deyildi, ona görə də SSRİ-də yaşayan türk xalqlarının şivələrini ədəbi dilə çevirdilər. Bu, bir tərəfdən vahid türk dilinə qəsd idi, amma onun müsbət tərəfləri də vardı: bu dillərdə iri miqyaslı tədqiqatlar aparıldı, dillərin funksional inkişafına xüsusi diqqət yetirildi, onlar şaxələnərək bir sıra digər funksiyaları da yerinə yetirməyə başladı, hətta yeri gələndə Anadolu türk dili ilə rəqabətə də girirdilər. Əslində türk dilləri arasında ən təkmil və anlaşıqlı dil Azərbaycan türklərinin dili idi və bu fakt indi də belədir. Hər şeydən əvvəl bu dil bütün türk dillərində mövcud olan ümumi cəhətləri özündə birləşdirir. Yaxşı olardı ki, vahid ədəbi dil kimi onu qəbul etsinlər. İndi bunun üçün şərait var və türklər bir-birini anlamaq üçün onu ümumi anlaşma vasitəsi kimi seçə bilərlər. Hazırda bu funksiyanı rus dili yerinə yetirir. Bu ona oxşayır ki, vaxtilə slavyanlar da ümumi

anlaşma vasitəsi kimi zəhlələri getdiyi alman dilindən istifadə edirdilər. Vahid türk dilinin yaradılması üçün vahid türk dövlətinin (heç olmasa konfederasiya) yaradılması zəruridir. Bu yenə də turançılığa gedib çıxır və ona imkan verməzlər. Deməli, vahid türk dili ideyası da turan kimi mifik və əlçatmaz bir ideyadır. Hazırkı geosiyasi şəraitdə bu bir ideya olaraq qalır və çox güman ki, hələ bu tezlikdə reallaşmayacaqdır.

XX əsrin əvvəllərində və hətta bir qədər sonra da dil seçimi uğrunda mübarizə bir tək Türkiyədə deyil, hətta yeni yaranmış (daha doğrusu sovetləşmiş) türk respublikalarında da gedirdi. Bu respublikalarda hətta Molla Nəsrəddinçilərin dillərini ədəbi dilə çevirmək təkliflərini də etmişdilər. Məsələn, K.X.Xanazarov özünün doktorluq dissertasiyasında («Сближение наукь и национованые язики в СССР») yazırdı ki, Daşkənddə üç variant təklif olunurdu: 1) İstanbul dili; 2) Bakı dili; 3) Daşkənd dili. Mərkəz üçüncü variantı dəstəklədiyindən o da qəbul edildi. Buradan da göründüyü kimi dilimiz hələ o zamanlar da güclü təsirə malik idi. Onun beşiyi başında M.F.Axundov, H.B.Zərdabi, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, H.B.Vəzirov, M.P.Vaqif, Q.B.Zakir, S.Ə.Şirvani, Vidadi və digər mütəfəkkirlər dayanırdı. Azərbaycan dilinin funksional inkişafı artıq poyetikanı aşmış və digər şaxələr üzrə inkişaf etmişdir. Azərbaycan dili türk dilləri arasında ilk ədəbi dil, ilk milli ədəbi dil mərhələlərini keçmiş, özünün təkmil və sabit qrammatik quruluşu və zəngin lüğət fondu ilə seçilirdi. Qonşu xalqlar həmişə Azərbaycan dilindən ümumi ünsiyyət vasitəsi kimi istifadə etmişlər. Rus dekabristləri bu dilin haqqında və ümumən ön Asiyada «linqua frankı» funksiyasını yerinə yetirdiyini qeyd etmişlər. Bu dil hazırda da dünyanın ən zəngin dillərindən biri kimi tanınmaqdadır.

Azərbaycan Orta Asiyadan Türkiyəyə keçid yolunun üstündə yerləşir. Onun dili də türklərin lap mərkəzindədir və bütün türk dillərinin ən incə xüsusiyyətlərini özündə birləşdirir. Bu dil türk dilləri içərisində yeganə dildir ki, xarici təsirlərə çox az məruz qalmışdır, daha doğrusu onun nə lüğət fondu, nə də qrammatik quruluşu deformasiyalara uğramamışdır. Bu baxımdan Azərbaycan

dili və mədəniyyətinin ümumtürk mədəniyyət tarixində xüsusi yeri və rolu var. XIX-XX əsrlərdən başlayaraq Azərbaycanda yerli türkçülük – yəni Azərbaycançılıq yaranır və əvvəllər türkçülüyün bir qolu kimi, sonradan isə müstəqil bir ideya kimi inkişafa qədəm qoyur. Onun baniləri Məhəmməd Əmin Rəsulzadə («Açıq söz» qəzeti), Məhəmməd ağa Şaxtaxtinski («Şərqi rus» qəzeti) Mirzə Bala Məmmədzadə, Cəlil Məmmədquluzadə və «Molla Nəsrəddinçilər» idilər.

Adı yuxarıda çəkilən ideya cərəyanlarının heç biri (nə turançılıq, nə türkçülük, nə islamçılıq, nə osmançılıq, nə də azərbaycançılıq) yetərli bir ideologiya səviyyəsində işlənib hazırlanmamışdır. Onların hamısı heç də konsepsiya şəklində deyil, yalnız ideya, fikir, proqnoz və s. şəklində mövcuddur. Doğrudur, onların hər biri haqqında dürlü-dürlü yazılar yazılmış, xeyli tədqiqatlar aparılmışdır. Amma onlar hələ ideoloji görüşə çevrilmək gücündə deyildir. Doğrudur, Z.Gökalp «Türkçülüyün əsasları» kitabında buna cəhd göstərir. Amma onun bu cəhdi elə də uğurlu alınmamışdır. Problem ən çoxu maarifçilik səviyyəsində işlənmişdir. Amma bu cərəyanlardan öz maraq və mənafeləri üçün istifadə etməyə hazır olan qüvvələr də vardır. Onlar istər xaricdə, isətərsə də daxildə fəaliyyət göstərirlər.

Məsələn, vaxtilə osmançılıqdan istifadə edən daxili qüvvələr ondan Türkiyəni qorumaq, xarici qüvvələr isə bu dövləti yıxmaq üçün istifadə edirdilər. Osmançılıqdan və eləcə də osmanlı dilindən heç ölkənin öz sakinləri də razı deyildilər. Axı onlar ölkənin ikinci dərəcəli əhalisi saydıqları qeyri müsəlmanlarla necə eyni hüquqa malik ola bilərdilər? 1839-1856-cı illərdə həyata keçirilən «Xətti-humayun» (Tənəimat) o vaxtkı xarici işlər naziri Mustafa Rəşid Paşanın hazırladığı islahatı məhz bunu nəzərdə tuturdu. Bu da təbii ki, Avropanın getdikcə artan təzyiqinin nəticəsi idi. İkinci bir tərəfdən yəhudilər Fələstinə muxtariyyat ala bilmədiklərindən həm islamçılara, həm də türkçülərə maliyyə yardımı göstərməklə onları «İttihad və tərəqqi» partiyasını yaratmağa təhrik etdilər (1889). Türkiyə bir tərəfdən türkçülərlə osmançıların, ikinci bir tərəfdən isə xaricilərin döyüş meydanına çevrildi. «Gənc türklərin» siyasəti isə ölkəni zəiflətdi və imperiya dağıldı.

Avropalaşmaq hərakatı Türkiyədə birmənalı qarşılanmırdı. Burada məsələni hərə bir cürə başa düşürdü və onu öz ağlı və dərrakəsi səviyyəsində qəbul edirdi. Hakim siniflər Avropa qarşısında təslimçilik göstərərək öz hakimiyyətlərini onun vasitəsilə əbədiləşdirmək, yaxud uzatmaq istəyirdilər. Ziyalılar Avropa elm və mədəniyyətinə qovuşmaq, orta təbəqələr, tacirlər və iş adamları bu yaxınlaşmadan müəyyən mənfəət götürmək, kasıblar və aşağı təbəqənin adamları isə çörək pulu qazanmaq üçün müxtəlif yollar arayırdılar. Məhəmməd ağa Şaxtaxtlı «Türkiyəni necə xilas etməli» məqaləsində öz-özünə belə bir sualla müraciət edirdi ki, «Ayə, görəsən Avropa Türkiyəyə yaşamaq imkanı verəcəkmi?» Əslində Avropa Türkiyəni və onun mülklərini bölüşdürmək ümidində idi və hətta birinci dünya müharibəsinə Avropanın bu iştahını təmin etmək üçün başlamışdı. Avropa təhlükəsini dəf etmək üçün turançılığa, islamçılığın türkçülüyü və osmançılığı ona qarşı qoyanlar vardı. Belə düşünülürdü ki, Türkiyənin başçılığı ilə vahid turan, yaxud islam dövləti yaranarsa o, Avropanın qarşısına bir sədd çəkə bilər. O zamanlar Cəmaləddin Əfqanini hətta panislamizmin əsas ideoloquna çevirmişdilər. Lakin bütün cəhdlər əbəs idi, çünki ölkənin özü çox geri qalmışdı. O, çürümüş bir cəsədi xatırladırdı. Türkiyənin imperiya ambisiyalarından əl çəkməkdən savayı bir yolu qalmırdı. Onu yalnız Kamal Atatürkün neotürkçülük ideyaları xilas edə bilərdi. Belə də oldu. Ona görə də bu cərəyanların hər birindən istifadə ölçülmüş-biçilmiş səviyyədə həyata keçirilməlidir.

Məsələn, azərbaycançılığın tətbiqində yol vermək olmaz ki, hakim millətin millətçiliyi, yaxud şovinizm özünə yer alsın. Bu milli azlığı narazı sala bilər. Ona görə də azərbaycançılığı təkcə Azərbaycan türkçülüyü kimi başa düşmək kifayət deyil. O, respublikanı məskunlaşdıran bütün etnosların ümumi malıdır. Hamını azərbaycançı edə bilsək – bu bizim məqsəd və məramımızın təntənəsi demək olardı. Vahid dövlət- vahid millət- vahid ideya! Azərbaycançılığın təməl daşı budur və biz yol verə bilmərik ki, dünyanın belə dolaşıq siyasi olayları şəraitində millətimiz və dövlətimiz müxtəlif məhəllələrə bölünsünlər. Bizə vəhdət, birlik,

stabillik və inkişaf lazımdır. Onu da ulu öndər H.Əliyevin yeritdiyi daxili və xarici siyasət kursu nəticəsində əldə etmişik.

Ulu rəhbər bu sahədə də nümunə göstərmiş və demişdir: «Mən fəxr edirəm ki, azərbaycanlıyam». Prezident İlham Əliyevin bu sahədəki fəaliyyətini saymaqla qurtaran deyil. Ölkənin sosial-iqtisadi və mədəniyyət sahəsindəki uğurları buna misal ola bilər. Respublikanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində gördüyü uğurlu işləri azərbaycançılıq yolunda görülmüş ən yaxşı işlərdəndir. Azərbaycançılıq həm milliliyi, həm dini dəyərləri, həm də qloballığı və multikulturallığı özündə birləşdirir. Onun əsas xüsusiyyətləri tolerantlıqla milli inkişafı əlaqələndirmək, onların vəhdətini yaratmaq, onları uyğunlaşdırmaqdır.

Bəzi dairələr milliliklə qloballığın, multikulturalizmin bir araya sığmaması haqqında əsası olmayan fikirlər yayır. Avropada müsəlmanlara və imiqrantlara qarşı mübarizə aparır, onları yabançı mədəniyət daşıyıcıları kimi Avropadan çıxarmağı tələb edirlər. Halbuki bu günkü dünyada gedən sosial-siyasi proseslər belə bir həqiqəti qəbul etməyi tələb edir ki, xalqların və dinlərin inkişafı dinc yanaşı yaşamaq körpüsündən keçir. Burada Azərbaycan modeli nümunə göstərmək gücünə malikdir və bu günün təcrübəsindən istifadə etmək olar. Onu da deyək ki, belə bir siyasətin metodoloji əsasını azərbaycançılıq fəlsəfəsi təşkil edir.

Yuxarıda göstərilənlərdən aşağıdakı nəticələrə gəlmək olar: türkçülüyün yaranıb inkişaf etməsində üç mərhələni xüsusi olaraq qeyd etmək lazımdır:

1) Ilk dəfə olaraq Avropa tarixşünasları türk xalqlarının soy birliyi haqqında fikirlər irəli sürülür. 2) Rusiya imperiyası türklərin ən çox istismar olunduğu məkan idi. «Xalqlar həbsxanasının» əsas qeyri-rus əhalisi türk-tatarlar idilər. Onların milli oyanış hərəkatı «Tərcüman» qəzetində, Y.Akçurinin «Türk» qəzetində, Ə.B.Hüseynzadənin «Füyuzat» jurnalında əks olunmuşdur. 3) Türkiyə türklərin vətəni olsa da onların istismarı burada da dözülməz idi. Bütün hakim təbəqə «fanoritlər»dən ibarət idi: İstanbulu yunanlar, ermənilər, balkan slavyanları, ərəb şeyxləri və b. idarə edirdilər. Necə deyərlər Türkiyədə hamı üçün, o cümlədən türklər üçün də yer vardı. K.Marks yazırdı ki, türklər heç vaxt Türkiyədə

(oxu- Osmanlı imperiyasında – Ə.T.) hakim sinif kimi fəaliyyət göstərməyiblər. Xüsusilə də «Xətti-humayun» onları avropalılardan asılı vəziyyətə saldı. Türkçülüyün inkişafında iki mərhələni bir-birindən ayırmaq lazımdır: 1) maarifçi türkçülük; 2) siyasi türkçülük.

Nəhayət türkçülərin dil siyasəti: hansı dilin qəbulu məsələsi də maraq doğurur: 1) osmanlı dili; 2) Anadolu xalqının dili; 3) Azərbaycan dili. Bu mübarizə Azərbaycanda da gedirdi: 1) Füyuzatçılar; 2) Molla Nəsrəddin Türkiyədə və Azərbaycanda, osmançılar və füyuzatçılar reallığı əks etdirmədiklərindən məğlubiyyətə uğradılar və yerli xalqın dili qəbul edildi. Türkçülük illərlə dünya ictimaiyyətinə «Qara əfsanə» şəklində təqdim olunmuşdur. V.İ.Lenin və İ.V.Stalin onu «burjua mülkədar sinfinin ideologyyası» kimi qələmə vermiş və ona qarşı mübarizəni zəruri saymışdı. Təkcə Azərbaycanda 29 min ziyalı türkçü millətçi damğası ilə məhv edildi. SSRİ-də türk-islam ziyalıları bu yolda yüz minlərlə qurbanlar vermişlər. Leninçilər qorxurdular ki, türkçülük sosializm quruculuğuna mane ola bilər, türkçülüyün təntənəsi sovetlərin sonu demək olardı. Son nəticədə sovetlərin çökməsinin bir səbəbini də elə məhz bu təşkil etdi. Ruslar işğal etdikləri böyük-böyük əraziləri həzm edə bilmədilər. Özünü idarə etmək qabiliyyətinə malik olan türk-islam xalqları imperiyadan qopub ayrıldı və öz müstəqil həyatlarını yaşamağa başladılar. Türk xalqları arasında yeni mədəni-mənəvi, sosial-iqtisadi münasibətlər formalaşdı. Doğrudur, bu əlaqələr hələ siyasi türkçülük müstəvisinə gəlib çatmasa da çox güman ki, yaxın gələcəkdə o, yeni bir məna kəsb edə bilər. Türk konfederasiyasının yaranması üçün yaşıl işıq yana bilər. Türkçülük ideyaları bu prosesdə yeni əlaqələrin yaxud üfiqdə görünən türk ölkələri birliyinin ideoloji qarantı rolunu oynaya bilər.

**Afaq Rüstəmova**

## Terrorizm dövrün qlobal problemi kimi

Hal-hazırda dünyada çox mürəkkəb xarakterə malik proseslər baş verir. Bu proseslərin böyük əksəriyyətini dərk etmək və müvafiq qərarlar qəbul etmək çətin olub. Bu baxımdan, bugünkü elmin qarşısında duran çox mühüm məsələlərdən biri də dünyada yaranan saysız-hesabsız problemlərin həlli yollarının araşdırılmasıdır. Ən yaxşı halda alimlər bu problemləri müəyyənləşdirirlər və onların yaranma səbəblərini qeyd edirlər. Lakin problemlərdən çıxış yollarını göstərmək və buna müvafiq tədqiqatlar aparmaq hər zaman mümkün olmur. Sözsüz ki, alimləri bu məsələlər ciddi şəkildə düşündürür və bu istiqamətdə müxtəlif ideyalar, nəzəriyyələr irəli sürürlür, lakin bu ideya və nəzəriyyələrin əksəriyyəti mövcud problemlərin müəyyən sahələrini əhatə edə bilir. Düşünürük ki, bu yanaşmalar sırasında paradiqmaların yaxınlaşdırılması ideyası daha çox ağlabatandır. Yəni belə bir qənaət hasil olunur ki, paradiqmaların yaxınlaşdırılması ideyasına əsaslanılarsa mürəkkəb xarakterə malik, bir-biri ilə bağlı olan məsələlərin həllində keyfiyyətcə yeni bir refleksiyanın əsasını yaratmaq mümkün ola bilər. Yəni elmin müasir postqeyri-klassik mərhələsindən irəli gələn tələblər, həmçinin qloballaşma prosesləri, informasiya sahəsində baş verən hadisələr sosial qnoseologiyada, müəyyən mənada, sabitləşmiş fikir və müddəaların yenidən dəyərləndirilməsini aktuallaşdırıb. Bu mərhələdə sosial idrakın özünəməxsusluğu və mürəkkəbliyi ondan ibarətdir ki, artıq müəyyən paradiqma və sabit nəzəriyyələrə istinad edilərək təhlil və tədqiqatların aparılması çətinliklərlə rastlaşır. Yəni sosial həyatda hadisələrin sürətlə inkişafı fonunda anlayış və kateqoriyalarda, nəzəri sxemlərin müəyyənləşdirilməsində daim seçim edilməsi zəruriləşir. Başqa sözlə, bu kontekstdə sosial idrak həm sosial mühitin qanunauyğunluqlarını, həm də bu qanunauyğunluqları anlamaq və aydınlaşdırmaq üçün müvafiq metodların müəyyənləşdirilməsini nəzərdə tutur. Bu mənada təqdim etdiyimiz məqalədə qeyd olunan problem də, mahiyyəti etibarilə müasir dövrüm son

dərəcə mürəkkəb hadisələrindən biri kimi, dövrün tələblərinə müvafiq araşdırmanı labüd edir.

Bu gün qloballaşma həyatın bütün sahələrinə sirayət edib. Bu da xalqların, ölkələrin, kontinentlərin bir-birini daha yaxından tanımasını, onların arasında əlaqələrin genişlənməsini və bunun nəticəsində bəşəriyyətin ümumi inkişafının təmin edilməsini reallaşdırır. Lakin hazırda prosesin dünyanı bürüyən mənfi təzahürləri daha qorxunc tendensiyalar ortaya qoyur. Yəni pozitiv xüsusiyyətlərlə yanaşı neqativ xüsusiyyətlər də qlobal xarakter alır. XXI əsrin əvvəlindən terrorizm, müharibələr, müxtəlif səpkili epidemiyalar, təbii kataklizmlər, ekoloji və texnogen problemlər sırasında dövrün sosial həyatında ən destruktiv hadisə kimi özünü göstərir. Bu da səbəbsiz deyil, çünki qloballşma, dini və mənəvi dəyərlərdə baş verən aşınmalar, Şərq ölkələri ilə "qızıl milyard" ölkələri arasında qarşıdurmaların artması, dövlətlərin özlərini qoruması uğrunda apardıqları mübarizələr və s. terrorizmi transmilli səviyyəyə qaldırıb. Terrorizmin miqyası, ən əsası isə, onun dağıdıcı potensialı o qədər böyükdür ki, artıq o müasir sivilizasiyanın qlobal problemi kimi özünü göstərir.

Terror, narkomaniya, insan alveri və sairə bu kimi proseslər çox asan şəkildə bütün dünya miqyasında reallaşa bilir. Milli suverenliyin zəifləməsi, sərhədlərin açıqlığı terrorizmin yayılmasına, narkotik maddələrin ticarətinin asanlaşmasına imkan verir (**2, s. 86–97**). Alman sosioloqu, Münxen universitetinin və London iqtisadiyyat məktəbinin professoru Ulrix Bek "Risk cəmiyyəti" ("Risikogesellschaft") kitabında qeyd edir ki, bəşəriyyətdə bu gün "ehtiyac birliyinin yerini qorxu birliyi" tutur (**4**). Bu gün "Risk cəmiyyəti" reallığa çevrilir və getdikcə daha çox insanları əhatə edir, yəni artıq sərhəd tanımır. Hətta, heç bir zaman öz mövcudluğu üçün ciddi təhlükə hiss etməyən Amerika belə, bu gün dünyada baş verən hadisələrdən kənarda qalmaq imkanına malik deyil.

Hazırda terrorizmlə mübarizə dünya siyasətinin bir nömrəli problemidir, çünki artıq aydındır ki, beynəlxalq terrorizmlə mübarizədə mövcud siyasi və hüquqi mexanizmlər yetərli deyildir. Dövlət daxilində və beynəlxaq səviyyədə güc strukturları arasında müvafiq koordinasiyanın olmaması, ən əsası isə, ayrı-ayrı ölkələrdə terroriz-

mə qarşı fərqli münasibətlərin izlənilməsi və s. buna misal ola bilər. Siyasi, iqtisadi və sosial amillərin terrorizmin inkişafına, yayılmasına göstərdiyi təsirlərin təhlili beynəlxalq terrorizmə dair müasir tədqiqatların əsas istiqamətini təşkil edir. Bu mənada əksər hallarda terrorizmin öyrənilməsi birbaşa qloballaşmanın tədqiqi ilə əlaqələndirilir. Həmçinin prosesin genezisi və xüsusilə, onun sonrakı inkişafı məsələləri də siyasi və elmi diskussiyaların mövzusudur (**3, s.17**). Qloballaşma və terrorizmın əlaqələrinə dair fikirlər elmi araşdırmaların mövzusu olaraq bu gün böyük aktuallıq kəsb edir. Bu mənada müasir dövrdə beynəlxalq terrorizmin yayılmasına səbəb olan fakt kimi dünya ticarətinin və maliyyə risqlərinin artması qeyd olunur. Məlum olur ki, ticari əlaqələrin genişlənməsi beynəlxalq terrorist təşkilatlarının qanunsuz silah daşınmasını asanlaşdırır. Buna səbəb kimi isə xarici ticari əlaqə qaydalarının liberallaşdırılması, həmçinin beynəlxalq terror şəbəkələrinin maliyyələşdirilməsinin nəzarətsizliyi qeyd olunur. Digər tərəfdən isə, iqtisadi inkişafın sürətlənməsinə şərait yaradan dünya ticarəti və kapital dövriyyəsi tədricən sosial bərabərsizliyin aradan qaldırılmasına və nəticədə, əhalinin kasıb təbəqəsinin aktiv terror fəaliyyətindən çəkindirilməsinə yönəldilsə də, baş verən hadisələr daha çox beynəlxalq terrorizmin aktivləşməsinə şəraitin yarandığını nümayiş etdirir. Maliyyə qeyri-şəffaflığı yalnız terrorizmin deyil, həmçinin sosial kontekstdə konfliktlərin və qeyri-sabitliyin meydana çıxmasına səbəb olur. Başqa sözlə, beynəlxalq terrorizm və transmilli cinayətkarlıq müasir inkişafın qarşısında böyük maneələr yaradır (**5**).

Qlobal terrorizmin özünəməxsus əlamətləri vardır: o sərhəd tanımır və tərkib etibarilə müasir terror təşkilatları beynəlxalq struktura malikdirkər, eyni ideologiyanı rəhbər tuturlar və təbii ki, fəaliyyət prinsipləri də universal xarakter daşıyır; bu günün terrorizmi müasir informasiya vasitələrinin imkanlarından geniş istifadə edir; qlobal terrorizm qarşısında kütləvi qırğın silahlarını mənimsəmək məqsədi qoyur. Yəni tarix boyu ölkələr, dövlətlər konfliktdə olduqları qonşularından zərbələr gözləmişlər, lakin bu gün təhlükənin haradan gələcəyini təxmin etmək çətindir, çünki terror aktlarının arxasında müəyyən qruplar dururlar. Belə çıxır ki,

dünyanın taleyi bu gün, sanki, ayrı-ayrı terror təşkilatlarının əlindədir və bu situasiya dünya siyasətinin mahiyyətini əhəmiyyətli dərəcədə dəyişdirir. Yeni dövrün terrorizminin əsas xüsusiyyəti ondan ibarətdir ki, o artıq şəbəkə halında fəaliyyət göstərir və bu şəbəkəyə eyni prinsip və maraqları bölüşən ayrı-ayrı "qovşaq mərkəzlər" aid olunur, lakin bu özəklər arasında əlaqələr, adətən, zəif olur və bu strukturlar, əsasən, konspirativ fəaliyyətə uyğunlaşdırılmışlar. Yəni şəraitdən asılı olaraq lazım gəldikdə terror qrupları bir an içində öz taktikalarını dəyişdirə bilirlər. Bunda internet vasitələri onlara böyük imkanlar yaradır və onlar istədikləri an leqal fəaliyyətdən qeyri-leqal fəaliyyətə keçə bilirlər (**6**).

Müasir dövrün sosial-iqtisadi və siyasi mənzərəsinin ayrılmaz bir hissəsi kimi terrorizm qloballaşma proseslərinin fonunda dəyişikliklikliyə uğrayır. Terrorizmin bir sıra xarakterik xüsusiyyətlərinə nəzər salsaq məlum olur ki, bu gün o, transmilli xarakterə malik olması, cinayətkar aləmlə əlaqəsi, terror təşkilatlarının texniki cəhətdən mükəmməl təchizatı, bəzi dövlətlər tərəfindən gizli dəstək alması ilə səciyyələnir. Terrorizmin transmilli xarakteri onunla izah olunur ki, bu gün qloballaşma sayəsində yalnız terrorizm deyil, sosial konfliktlər, iqtisadi, ticari və bir sıra başqa əlaqələr dövlət sərhədlərini nəzarətsiz şəkildə keçib gedə bilir. Nəzarətdən kənarda qalan fəaliyyətlər isə hər bir dövlət üçün mənfi təsirlərsiz ötüşmür. Bu gün beynəlxalq siyasi terrorizmin cinayətkar aləmlə əlaqəsi danılmazdır. Bir sıra hallarda isə, ümumiyyətlə, beynəlxalq terrarizmi cinayətkar aləmdən ayırmaq mümkün deyil. Bu əlaqə sayəsində beynəlxalq cinayətkar aləmin əlində olan maliyyə vəsaiti ilə terrorçular narkotik, silah alveri kimi qeyri-leqal ticarəti reallaşdırırlar. Bütün bu işlərin qlobal şəkildə və sürətlə həyata keçirilməsi üçün terrorçular rabitə vasitələrinin ən son imkanlarından istifadə edirlər. Ən dəhşətlisi isə, bir çox hallarda bu, qanuni yollarla əldə edilir.

Hazırda beynəlxalq terrorizmin bəzi dövlətlər tərəfindən gizli şəkildə dəstəklənməsi problemin ən mürəkkəb cəhətllərindəndir, çünki bu, yuxarıda qeyd edildiyi kimi, gizli şəkildə baş verdiyindən elə onu törədənlər tərəfindən ört-basdır edilir. Belə bir vəziyyətdə bu qorxunc bəlanın yenə də bütün dövlətlərin, beynəl-

xalq təşkilatların, siyasətçilərin və bir sıra digər qurum nümayəndələrinin birgə səyi nəticəsində öhdəsindən gəlinməsinə ümid qalır. Buna nail olmaq isə hələ ki, xəyal kimi görünür (**7**).

Qlobal terrorizmin ən yeni formaları bu gün təşkili, operativliyi, texniki təchizatı baxımından seçilir və qloballaşmanın son dərəcə ziddiyyətli tərəflərini özündə əks etdirir. XX əsin 90-cı illərinin əvvəllərindən terrorizm lokal hadisə çərçivəsindən çıxmış və dünya miqyasında qlobal təhlükəyə çevrilmişdir. Bu, onunla əlaqələndirilir ki, statistikaya görə əgər 1980-ci ildə dünyanın bütün ölkələrində 500 terror aktı qeydə alınmışdısa, (**8**) artıq 2006-cı ildə bu rəqəm 14 338 olmuşdur (**9**). Yəni terrorizm transmilli səviyyəyə qalxmışdır.

Beynəlxalq səviyyədə terrorizm məsələsi ilk dəfə 1934-cü ildə Millətlər Liqasında müzakirə olunmuşdur. Bu, 9 oktyabr 1934-cü ildə Fransanın Marsel şəhərində Yuqoslaviya kralı I Aleksandrın və Fransanın baş nazirinin qətli ilə bağlıdır. 1937-ci ildə Millətlər Liqasında "Terrorizmin qarşısının alınması və ona görə cəzalandırılma haqqında Konvensiya" və "Beynəlxalq Cinayət Məhkəməsinin yaradılmasına dair Konvensiya"lar qüvvəyə minməsələr də, bu sahədə müasir beynəlxalq razılaşmaların yaradılmasında nümunə kimi istifadə edilmişlər.

Beynəlxalq birlik terrorizmin son dərəcə təhlükəli bir hadisə olduğunu dərindən dərk edir. Bununla əlaqədar olaraq həm beynəlxalq, həm də regional səviyyədə müvafiq konvensiyalar qəbul olunmuşdur: hava gəmilərinin qeyri-qanuni zəbt edilməsinə qarşı mübarizəyə dair konvensiya (Qaaqa, 1970); mülki aviasiyanın təhlükəsizliyinə istiqamətlənmiş qeyri-qanuni aktlara qarşı konvensiya (Monreal, 1971); beynəlxalq müdafiədən istifadə edən, diplomatik agentlər də daxil olmaqla, ayrı-ayrı şəxslərə qarşı cinayətlərin cəzalandırılması haqqında Konvensiya (Birləşmiş Millətlər Təşkilatının Konvensiyası 1973); girovların ələ keçirilməsinə dair konvensiya (New York, 1979); nüvə materialının fiziki mühafizəsi haqqında konvensiya (1980); dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair konvensiya (1988); bomba terrorizminə dair mübarizə konvensiyası

(1997); terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında konvensiya (1999) və s.

1994-cü ildə BMT Baş Assambleyası "Beynəlxalq Terrorizmin aradan qaldırılması tədbirləri haqqında Bəyannamə" qəbul etdi. Dövlətlərarası və milli səviyyədə bir sıra ikitərəfli və çoxtərəfli tədbirlər həyata keçirildi (**10**). 1 dekabr 2004-cü il BMT Baş katibinin hesabatında "təhdidlər, çağırışlar və dəyişikliklər üzrə yüksək səviyyəli qrup"un yaradılması tələb olundu və böyük miqyasda terror aktlarında müqəssir olanların hərbi və insanlığa qarşı cinayət törədənlərlə bərabər tutulmaları təklif edildi. Həmçinin təklif olundu ki, yaradılan qrupa terrorizmlə mübarizədə beynəlxalq konvensiyaları ratifikasiya etmək səlahiyyəti verilsin. Lakin bu təkliflər Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 14 sentyabr 2005-ci ildə qəbul edilmiş Qətnaməsində öz əksini tapmadı. 8 sentyabr 2006-cı il BMT-nin Baş Məclisi qətnamə formasında "Qlobal Terrorizm Əleyhinə Strategiya" və ona əlavə olunan Fəaliyyət Planı qəbul etdi (**10**).

Beynəlxalq terrorizmin yeni yüksəlişi 11 sentyabr 2011-ci ildə Əl-Qaidə terrorçularının ABŞ-ın bir sıra obyektlərinə hücum etməsi ilə əlaqələndirilir. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMT TŞ) 1371 (2001) qətnaməsinə əsasən "Antiterror komitəsi" təsis etdi. Sonra komitənin səlahiyyətləri 1624 (2005) qətnaməsi ilə təsdiq edildi. Komitə terrorla mübarizədə effektiv sistemlərin yaradılmasında iştirakçı ölkələrə dövlətlərarası koordinasiya və texniki yardımı həyata keçirir. Bundan əlavə, Təhlükəsizlik Şurasında yaradılan "Əl-Qaidə üzrə komitə", "Taliban üzrə komitə" və "Komitə 1540" və s. bu kimi təşkilatlar da qeyd edilməlidir. "Komitə 1540" nüvə, kimyəvi və bioloji silahların yayılması ilə bağlı məsələlərlə məşğul olur.

Təbii ki, problem o qədər geniş miqyaslı və mürəkkəb xarakter daşıyır ki, bununla mübarizədə müəyyən qətnamə və ya sənədlərin qəbul edilməsi yetərli deyil. Yəni problem yalnız terroristlərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi ilə həll edilə bilməz, çünki məsələnin daha dərin kökləri və yaranma səbəbləri vardır. Bu səbəblərindən biri və bəlkə də, ən başlıcası

üçüncü dünya ölkələrində qlobal bərabərsizlik və kütləvi yoxsulluğun hökm sürməsidir. Digər tərəfdən isə, terrorizmə dəstək verən sponsor dövlətlərin fəaliyyəti də bu məsələdə çox mühüm rol oynayır.

Bu gün bir və ya bir neçə ölkələr tərəfindən beynəlxalq terror təşkilatları da yaranır və bu təşkilatlar digər ölkələrin konstitusiya quruluşunun pozulmasına, beynəlxalq hüquq və beynəlxalq münasibətlərin dağıdılmasına istiqamətlənən fəaliyyətlər göstərirlər. Beynəlxalq terror təşkilatları cəmiyyət üçün daha çox təhlükəlidir, çünki onların özlərinə məxsus maliyyə mənbələri mövcüddur və dünyanın müxtəlif yerlərində terror aktları təşkil etmək imkanları vardır. Bununla dövlətin nüfuzuna xələl gətirərək insanlarda qorxu, sabaha ümidsizlik hissi yaradırlar. Bu qruplar, adətən, dövləşçiliyin zəiflədiyi, suverenliyin preroqativ imkanlarının məhdudlaşdığı şəraitlərdə yaranırlar (məsələn, Əl-Qaidə, Hizbullah, "Müsəlman Qardaşları" və s.). Adətən, belə terror təşkilatlarının bir çoxunun digər xarici dövlətlərin xüsusi xidmət orqanları ilə əlaqələri olur. Təbii ki, belə halda onlar beynəlxalq terrorun subyekti kimi terror təşkilatlarını himayə edirlər.

Müasir terrorizmin qlobal xarakter almasında KİV-in rolu böyükdür. Ümumiyyətlə, mətləbə birbaşa aidiyyatı olmasa da, yeri gəlmişkən qeyd edilməlidir ki, bu gün dünyada əxlaqsızlığın, qəddarlığın, cinayətkarlığın artmasında, bilərəkdən və ya bilməyərəkdən, KİV-in neqativ təsirləri özünü göstərir, xüsusilə, televiziya kanallarlının. Hər gün, demək olar ki, bütün kanallarda ölüm, müxtəlif tipli cinayətlər və s. haqqında saysız-hesabsız informasiyalar verilir və nəticədə, bu əməllərin geniş təbliğatı həyata keçirilir. Özü də, cinayətlərin törədilməsi o qədər dəqiqliklə və təfərrüatı ilə təqdim edilir ki, bu cinayətləri törətmək niyyətinə düşənə bir iş qalmır. Yəni kimsə həmin cinayəti törətmək niyyətinə düşərsə, təqdim edilən informasiyadan "yararlana" bilər. Görünür, KİV-də bu gün bu qəbildən olan xəbər və məlumatların təqdim edilməsində müəyyən qayda və üsullar üzərində çox ciddi düşünülməlidir. Bu şərait terrorla bağlı məlumatlara da aiddir. Belə ki, dünyada baş verən müxtəlif səpkili terror aktları haqqında məlumatlar az bir zaman içində bütün dünyaya yayılır və bununla bu

aktları törədənlərin təmənnasız təbliğatı həyata keçirilir. Məlumdur ki, əksər hallarda terror aktlarını törədənlər bu hadisədə öz iştiraklarını gizlətmirlər və bununla qorxu yaratmaq, hakimiyyətə təsir etmək məqsədi güdürlər (**11**).

Cəmiyyətin informasiyanı qəbul etmək, təhlil etmək və qorumaq imkanları yüksək olduqca, onun həyat səviyyəsi, iqtisadi, siyasi, müdafiə imkanları da yüksək olur. Cəmiyyətin bütün sahələrinin qloballaşmasında informasiya, telekommunikasiya vasitələrinin müstəsna rolu vardır. Bununla belə, informasiya texnologiyalarının getdikcə daha çox aktiv və hərtərəfli tətbiq edilməsi müasir cəmiyyətin strukturunda ciddi transformasiyalara da yol açır. İnternet şəbəkələri, bir çox hallarda, artıq milli sərhələri açıq edib. Yəni artıq müştərək işlər həyata keçirmək üçün eyni məkanda mövcud olmaq şərt deyil. Müasir internet iqtisadiyyatı dünyanın müxtəlif yerlərində yerləşən transmilli korporasiyalara, elmi kollektivlərə və müxtəlif səpkili təşkilatlara birgə işlər həyata keçirmək imkanı verir. Bununla belə, çox təəssüf ki, şəbəkə strukturları beynəlxalq cinayətkarlığın əsasını da təşkil edirlər. Analitiklər terror aktlarının böyük əksəriyyətinin transmilli səviyyətə həyata keçirildiyini qeyd edirlər. Hadisələrin sürətli inkişafı onu göstərir ki, bu gün bütün dünya siyasi, millətçi və dini ekstremistlərin, kriminal terrorun misli görünməmiş təhlükəsi ilə üz-üzə qalıb. Hazırda terror ümidsizliyə qapılmış bir fanatikin nəyi isə dəyişdirmək naminə törətdiyi hərəkət deyil. Müasir dövrdə o çox güclü psixoloji təsir vasitədir. Bu mənada terror bu gün informasiya müharibəsi vasitəsi kimi də nəzərdən keçirilə bilər. Bu vasitənin təsirləri daha qorxuncdur, çünki burada əsas obyekt terrorun qurbanları deyil, əksinə, sağ qalanlardır. Onun (yəni terrorun) məqsədi əhalidə vahimə törətmək və bununla da cəmiyyətdə insanlar arasında mənəvi düşkünlük yaratmaqdır. “Terrorla müharibə” Amerikada qorxu mədəniyyəti yaratmışdır. Dəhşətli 11 sentyabr hadisələrindən sonra Buş Administrasiyasının bu iki sözü milli dua səviyyəsinə yüksəltməsi Amerika demokratiyasına, amerikalıların psixologiyasına və ABŞ-ın dünyadakı mövqeyinə zərərli təsir göstərmişdir (**1, s.256**). Qorxu mədəniyyəti öz şüşəsindən açılıb buraxılmış cinə bənzəyir (**1, s. 258**). Bu cəhət terrorizmi digər təxribat-

çılıq fəaliyyətlərindən fərqləndirir. Təxribatçılıq fəaliyyətinin əsas məqsədi infrastrukturu, obyektləri dağıtmaq, rəqibi məhv etməkdir. İnformasiya cəmiyyəti inkişaf etdikcə terror aktlarının həyata keçirilməsinin üsulları da təkmilləşir və terrorçuların öz tələblərinin ictimaiyyətə çatdırmalarının imkanları da genişlənir, çünki terrorçuların tələblərini yayan kütləvi informasiya və kütləvi kommunikasiya vasitələri olmadan, terror aktları öz mahiyyətlərini itirirlər.

Bu gün terrorçuların fəaliyyəti artıq ayrı-ayrı dövlətlərin deyil, bütün dünyanın maraqlarına toxunur. Təbii ki, belə iri miqyaslı terror aktlarının reallaşdırılması üçün bunu həyata keçirənlərin yüksək səviyyədə hazırlıqlı olmaları ilə yanaşı, həm də bu əməliyyatların, ilk növbədə, informasiya baxımından, miqyası təmin edilməlidir. İnformasiya dövründə artıq xüsusi bir şəkildə regional konfliktləri qızışdırmağa ehtiyac yoxdur. Qarşıya belə bir məqsəd qoyularsa, terror aktı törətmək və onu müvafiq şəkildə (yəni onu törədənin məqsədinə uyğun) KİV-in köməyi ilə dünyaya yaymaq kifayət edər. Bu şəkildə təqdimatın mahiyyətində yatan məqam ondan ibarətdir ki, burada hadisənin özündən çox, onun haqqında yayılan məlumat əhəmiyyətlidir, çünki hadisə real virtuallıqda təqdim edilən kimi qəbul edilir və qavranılır. Bu məqamın isə, terror aktından sonrakı hadisələrə güclü təsir imkanları vardır. Yəni, müəyyən mənada, hadisənin özü deyil, onun haqqında verilən məlumat daha çox gerçək kimi qəbul edilir. Və nəticədə, informasiya ilə bu şəkildə manipulyasiya cəmiyyətlərdə qorxu, güvəncsizlik hissini gücləndirir. Demək olar ki, terror aktlarının böyük əksəriyyəti beynəlxalq səviyyədə kütləvi informasiya vasitələrinin köməyi ilə səs-küy yaratmaq və ya külli miqdarda pul əldə etmək məqsədi ilə törədilir.

Bu gün terrorizm müxtəlif formalarda təzahür edir. Bu, həyata keçirdikləri fəaliyyətlə əlaqədar olaraq dövlət və ictimai xadimlərin və ya hökumət rəsmilərinin öldürülməsi, girovların götürülməsi, quldurluğun müəyyən növləri, insanların haqsız yerə öldürülməsinə səbəb olan cinayət aktları, dövlərin diplomatik fəaliyyətinin pozulması, dövlət terrorizmi, başqa dövlətə qarşı si-

lahlı güc tətbiq etmək məqsədi ilə (muzdlular da daxil olmaqla) silahlı qrupların göndərilməsi və s. ola bilir.

Terror aktlarının ən çox yayılmış növlərindən biri də siyasi məqsədlərlə girovların götürülməsidir. Girovların götürülməsi ilə yanaşı partlayıcı qurğuların, bombaların partladılması sayəsində daha çox maddi və insan tələfatına istiqamətlənmiş siyasi məqsədlər güdən terror aktları, əsasən, siyasi tələblər irəli sürülərkən həyata keçirilir.

Müasir dünyaya nəzər yetirdikdə göz önündə belə mənzərə canlanır: özlərini arilərdən hesab edən şimali amerikalılar, qərbi avropalılar bütün dünyaya hakimdirlər və onun nemətlərindən bəhrələnirlər. Bu ölkələrdə, bu və ya digər şəkildə, insan hüquqları və demoktariya mövcuddur. Bu gün dünya düzəni elə qurulub ki, maliyyə resursları inkişaf etmiş ölkələrdə cəmləşib. Ən başlıcası isə, yeni texnologiyalar inkişafdan geridə qalmış ölkələrə gec çatır və bu da təbii ki, iqtisadi asılılığı getdikcə daha çox artırır. Bu kontekstdə qloballaşma, müəyyən mənada, inkişaf etmiş ölkələrin, xüsusən, ABŞ-ın iqtisadi və militarist yollarla dünya ölkələri üzərində üstünlük əldə etmək istiqamətinə yönəldilmiş bir proses kimi də dəyərləndirilə bilər. NATO-ya gəldikdə isə, qeyd edilən niyyətləri həyata keçirməkdə bu təşkilat ABŞ-ın ekspansiya siyasətini reallaşdırmaq üçün bir vasitədir (**12**).

## Ədəbiyyat:


1. İkinci şans. Üç prezident və Amerika fövqəldövlətinin böhranı. Zbiqnev Bjezinski. "Oğuz Eli", 2009.
2. Гринин Л. Е. Глобализация и процессы трансформации национального суверенитета // Век глобализации. 2008. № 1. С. 86–97.
3. Сатановский Е.Я. Глобализация терроризма и ее последствия // Международная жизнь, №9-10, 2001. С.17.
4. http://www.univer.omsk.su/omsk/socstuds/ubek/intro.html
5. http://credonew.ru/content/view/1019/65/
6. http://all-politologija.ru/knigi/obshhestvenno-politicheskij-leksikon-busygina-zaxarov/terrorizm-i-globalizaciya

7.http://anthropology.ru/ru/texts/barishnikov/terror.html
8.Статистика. Терроризм [сайт].
URL: .http://privacyandterrorism.org/stat.php
9. Country Reports on Terrorism. U.S. Department of State [сайт].
URL: http://www. state.gov/j/ct/rls/crt/
10.https://ru.wikipedia.org/wiki
11.http://www.intelros.ru/readroom/vek-globalizacii/ya2-2012/18424-mezhdunarodnyy-terrorizm-kak-globalnaya-problema-sovremennosti.html
12. http://interinf.ru/index.php/studentu/referats/186-terrorizm

**Aydın Şirinov**

## Geopolitika və qlobalizm

Müasir dünyada baş verməkdə olan idarəolunan və olunmayan xaosların və böhranların hansı istiqamətdə gedəcəyini müəyyənləşdirmək, onun vektorunu təyin etmək doğrudan da çox çətindir. Buna görədir ki, biz xeyli sayda optimist və pessimist nəzəriyyə və proqnozlarla qarşılaşırıq. Müxtəlif tipli böhran və sosial xaos dünyanın hər yerini, bütün regionlarını bürüməkdədir. Lakin bunlar müxtəlif gərginliyə, məzmuna və istiqamətə malikdir. Əgər bir sıra ölkələrdə bu böhran və xaoslar daha çox iqtisadi və siyasi sahədə özünü göstərirsə, başqalarında milli, ərazi bölgüsü, dini və s. zəmində baş verir. Dünya sanki müxtəlif səpgili toqquşmalar, sarsıntılar dövrünə qədəm qoymuşdur.

XX əsrin birinci yarısında baş verən iki dünya müharibəsi, kütləvi insan qırğını, külli miqdarda maddi sərvətin məhv edilməsi, yerlə yeksan olunmuş şəhərlər və digər yaşayış məskənləri və s. insanlara bu fəlakətli hadisələrdən nəticə çıxararaq sakit şəraitdə yaşamaq və yaratmaq dərsi verməmişdir. Müxtəlif tipli ambisiyalar yenə də dünyanı konflikt və toqquşmalara qərq etməkdədir.

Azərbaycan da keçən əsrin 80-ci illərinin sonundan başlayaraq ermənilərin ərazi iddiası ilə yaranan konflikt və toqquşma şəraitində yaşayır. Problem burdadır ki, hər hansı bir konfliktə həmin konfliktdə marağı olan müxtəlif kənar qüvvələr qarışır və

bunun da nəticəsində həlli o qədər də çətin olmayan konflikt dərinləşərək az qala dünya probleminə çevrilir. Öz tarixi torpaqlarını qısa bir müddətə geri qaytarmaq gücünə malik olan Azərbaycan bu işə hələlik iki səbəbə görə girişmir: birinci, qan tökülməməsi üçün məsələni danışıqlar yolu ilə həll etmək istəyindən; ikinci, Azərbaycan Ermənistana müharibə elan edərsə, təkcə Ermənistanla deyil, həm də orada qoşunlarını yerləşdirmiş olan Rusiya ilə üz-üzə gəlməli olacaq. Faktiki olaraq digər ölkələrin də təzyiqinə məruz qalacaq. Göründüyü kimi, məsələ istər-istəməz regional müstəvidən qlobal müstəviyə keçir və həlli göründüyündən qat-qat dərinlərə gedir və mürəkkəbləşir. Müxtəlif siyasi-diplomatik görüşlər, danışıqlar isə nəticəsiz qalır. Əslində BMT-nin Azərbaycan ərazisinin qaytarılması haqqındakı dörd qətnaməsinin yerinə yetirilməməsi bu təşkilatın özünün müəyyən qüvvələrin əlində oyuncaq bir təşkilata çevrildiyini göstərir. Dünyada müəyyən bir nizam, qayda yaratmalı olan bu təşkilat indi özünün nə etməli və necə etməli olduğunu müəyyənləşdirə bilmir. Çünki nə kəsərli sözə, nə də real gücə malik deyildir. Haşiyə çıxaraq bir məsələni də qeyd etmək istəyirəm. Əslində siyasi, geopolitik və qlobal problemlərin həlli ilə məşğul olmaq missiyasını yerinə yetirməli olan bu təşkilatın ABŞ kimi güclü bir dövlətin ərazisində yerləşdirilməsinin özü düz olmamışdır. Çünki bu güclü dövlət istənilən anda bu təşkilata təsir göstərmək və onu bugünkü vəziyyətə salmaq imkanına malikdir. Buna görə də 1945-ci ildə bu təşkilat yaradılan zaman bu amil nəzərə alınmalı və həmin təşkilat Afrika və yaxud Asiya ölkələrinin birində yerləşdirilməli idi ki, ərazisində yerləşdiyi ölkənin birbaşa təsirinə məruz qalmasın. Burada BMT-nin işindən söhbət açılması ondan irəli gəlir ki, əslində həm geopolitik, həm də qlobal məsələləri nizama salmaq bu təşkilatın vəzifəsidir və onun nizamnaməsi buna imkan verir və bu təşkilat elə bunun üçün yaradılmışdır.

Geopolitik problem XX əsrin əvvəllərində Almaniyada meydana gəlmişdir. Düzdür, əvvəlki dövrlərdə də dünyaya hakim olmaq iddiasına düşənlər olmuşdur. (Makedoniyalı İsgəndər, Çingiz xan, Napoleon və başqaları). Lakin XX əsrin əvvəllərində bu, Avropada bütöv bir nəzəri konsepsiya kimi yaranmağa və

formalaşmağa başlamış, nəticədə isə faşizmin ideoloji arsenalına çevrilmişdir. Geoplitika bir tərəfdən coğrafi determinizmə, digər tərəfdən isə milli və irqi fərqliliyə əsaslanır. Ali irq və alilik əsasında formalaşan millət təbii sərvətlərə malik olan ölkələri idarə etməlidir. Çünki onlar nə öz təbii sərvətlərindən düzgün istifadə edə bilir, nə də özlərini idarə edə bilirlər. Göründüyü kimi, bu məqamda geopolitika müstəmləkə siyasəti ilə üst-üstə düşür. Lakin bu siyasət tarixin müxtəlif dövrlərində müxtəlif cürə aparılmışdır. Belə ki, tarixin əvvəlki dövründə geopolitika bir ölkənin hücum edərək digər ölkələrdə olan var-dövlətin talan olunmasına, natural halda olan ərzaq məhsullarının yığılmasına, yaxud vergi qoyulmasına əsaslanırıdsa, XIX əsrdən başlayaraq əsasən ərazinin ələ keçirilməsinə çevrildi. Çünki sənayenin sürətlə inkişafı külli miqdarda yeraltı sərvətlərə ehtiyac yaratdı. Buna görə də artıq geopolitika öz həqiqi mənasını tapmağa başladı və o həqiqətən ərazi siyasətinə çevrilməyə başladı (**5, s.52-53**). Bu siyasət indi qlobal siyasətlə bir yerdə: siyasi, iqtisadi, hərbi, demoqrafik, ekoloji və s sahələrdə aparılır. Müxtəlif situasiyalarda bunlardan hansısa biri üstünlük təşkil edir (**5, s.61-64**).

İndi mütəxəssislərin xeyli hissəsi geopolitika anlayışı ilə qlobalizm anlayışını korrealyativ anlayışlar kimi işlədirlər (**12, s.65**). Çünki müsir dövrdə geopolitika ilə qlobalizm (siyasət kimi) bir-biri ilə qovuşmağa başlamışdır. Bu siyasət çox vaxt lokal miqyaslı hərbi əməliyyatlar, toqquşmalar, müharibələr yolu ilə də aparılır. Biz bunu ərəb ölkələrində, Əfqanıstanda, keçmiş SSRİ-yə daxil olmuş, indi müstəqillik əldə etmiş ölkələrə qarşı aparılan siyasətdə də görürük. Güclü dövlətlər iki dünya müharibəsindən, onun törətdiyi fəlakətdən heç də nəticə çıxara bilməyib və vaxtaşırı olaraq dünyanı yeni müharibələrə sürükləyirlər. Elə bil ki vaxtilə alman millətçiliyinin nəzəri əsaslarını işləyən Lüdendorfun fikirləri bəlkə özləri də hiss etmədən dünyanın güclü dövlətlərinin siyasətinin həyata keçirənlərin psixologiaysına, şüuruna, ruhuna hopmuşdur. Lüdendorf deyirdi ki, sülh yalnız müharibələr arasında olan fasilədir. Sülh əslində müharibəyə hazırlıqdır, müharibələrarası müharibədir (**10, s.74**) (yeni müharibəyə hazırlıq və ideoloji informasion müharibə mənasında). Geopolitik siyasətin mahiyyəti-

nin açılması tələb edir ki, hər bir xalq öz tarixinə obyektiv yanaşsın, necə olubsa, elə də yazsın. Belə yanaşma ona öz tarixini düzgün başa düşməyə və ağıllı nəticələr çıxarmağa imkan verə bilər. Öz tarixini müxtəlif miflər uydurmaqla qonşu xalqların tarixini isə müxtəlif təhriflərə yol verməklə düşmənçilik toxumu səpmək həm tarix elminə, həm də başqalarına qarşı düşmənçilik mövqe tutanlara yalnız ziyan gətirə bilər. Erməni tarixçilər kimi həqiqi tarix əvəzinə, müxtəlif nağıllar, miflər uydurmaqla heç nə əldə etmək olmaz və belə tarix heç bir müsbət nəticə vermədən yalnız qonşu xalqlara qarşı düşmənçilik yaradar. Belə tarix əsasında yaranan milli ruh həmin xalqın özünün təklənməsinə və bədbəxt olmasına gətirib çıxarar. Əslində özünün qədimliyindən (bu qədimlik nə isə bir müsbət şey verirsə, niyə Afrika xalqları geri qalıblar?) bəhs etmək inkişaf baxımından heç nə vermir. ABŞ, Kanada və digər ölkələrin tarixi bunu sübut edir. Çünki onların tarixi az bir dövrə aid olsa da inkişaf səviyyələri çox yüksəkdir. Əgər S. Hantinqtonun sivilizasiya hər yerdə mədəniyyətin eyniliyidir (**10, s.72**) fikri ilə razılaşsaq onda ermənilərin müasir mədəniyyət və sivilizasiyadan kənar olduğunu elan etmək olar. Çünki bunların heç biri qonşu xalqlara qarşı düşmənçilik deyil, hörmət, əməkdaşlıq üzərində qurulur və humanist məzmun daşımalıdır. Bu mənada erməni ideologiyası ilə faşizm ideologiyası arasında olan bağlılığı əlavə sübut etməyə ehtiyac qalmır. Faşizm ideologiaysının əsas postulatlarından olan geopolitika erməni ideologiyasının da əsas postulatı olduğu üçün onlar Azərbaycan torpaqlarını tutmuş, Türkiyə və Gürcüstana qarşı da iddialar qaldırırlar.

S. Hantinqtonun maraqlı fikirlərindən biri də onun hər bir sivilizasiyanın öz tarixini bəşəriyyət tarixinin mərkəzi kimi görməsi fikridir. Bu fikir bəlkə də daha çox ermənilərə aiddir. Çünki onlarn öz tarixlərinə aid yazdıqları ilə tanış olduqda məlum olur ki, ümumiyyətlə bəşər tarixi və mədəniyyəti ermənilərlə başlayır. Onlardan əvvəl belə çıxır ki, Şumer, Misir, Çin və Hind mədəniyyətləri olmayıb. Buna son həddə çatmış patalogiyadan başqa bir ad vermək mümkün deyil.

Geoplitikanın qlobalizmlə olan əlaqəsi xeyli miqdarda tədqiqatlarda özünü göstərir (**6, s.3-5**). Çünki hər hansı qlobal

idarəolunma, yaxud idarəetmə özlüyündə geopolitikaya çevrilir. Çünki burada milli ərazi və milli tarix, milli mədəniyyət, milli həyat tərzi və hansı formada təşkilindən asılı olmayaraq milli dövlət yox olmağa doğru gedir. Hər bir dövlətin isə təbii ki, idarə etdiyi ölkənin marağına uyğun olan öz marağı vardır. Xalqlar isə özləri üçün müstəqil həyat qurmaq, suveren dövlət yaratmaq istəyirlər və bu tendensiya bütün XX əsr ərzində, xüsusilə onun ikinci yarısında daha da güclənmişdir və indi yaşadığımız XXI əsrdə də davam etməkdədir.

İndiki dövrdə geopolitika qlobal problemlərlə paralellik təşkil etməyə, qovuşmağa, vəhdət təşkil etməyə başlamışdır. Əgər geopolitikanın başlanğıcı müxtəlif formalarda hətta tarixin qədim dövrünə gedib çıxırsa, qlobal münasibətər əsasən XV əsrdən, böyük coğrafi kəşflər dövründən başlayır. Bu, müxtəlif qitələr arasında əlaqələrin yaranmağa başlaması dövrü idi. Əlbəttə, bu, indiki kimi, yer kürəsində mövcud olan təbii və sosial problemlərin həlli mənasında deyil, sadəcə olaraq yer kürəsinin müxtəlif əraziləri arasında ilkin olaraq ticari əlaqələrin yaranması idi. Bəzi hallarda isə daha güclü ölkələr tərəfindən aborigen xalqların talan edilməsi və kütləvi surətdə qırılması idi. Bunu biz Şimali Amerikaya gəlmiş avropalıların buradakı aborogenləri (hinduları) məhv etməsində və ingilislərin Hindistanda yerli əhalinin bir hissəsini məhv etməsində görürük. Burada da geopolitika ilə qloballıq vahid prosesin iki tərəfi kimi özünü göstərir.

“Qlobal” anlayışına gəldiksə isə bu anlayış ilk dəfə olaraq tanınmış alman filosofu K.Yaspers tərəfindən 1948-ci ildə “Tarixin mənası və təyinatı” əsərində işlədilmişdir (**13, s.35**). Sonradan 1968-ci ildə yaranmış Roma klubu tərəfindən bu anlayış “qlobal münasibətlər”, qlobal problemlər”, və nəhayət “qloballaşma” halında dünya düşüncəsinə daxil olmuşdur. Qloballaşmaya aid küllü miqdarda monoqrafiyalar, məqalələr yazılmışdır. 2008-ci ilədən Rusiyada “Век глобализации» (qloballaşma əsri) adlı elmi-nəzəri dərgi (jurnal) də nəşr olunur. Adından göründüyü kimi, bu dərgi XXI əsri mütləq mənada qloballaşma əsri kimi görür. Lakin arzu bir şeydir, reallıq, real hadisələrin, həyatın gedişi isə başqa bir şeydir. Əlbəttə, yaxşı olardı ki, real həyatın gedişi də ümumi

arzuya, niyyətə uyğun olsun. Lakin çox təəssüf ki, bu əksər hallarda belə olmur. Əgər bu gün dünyanın ümumi gəlirinin 93%-ni dünya əhalisinin cəmi bir hissəsi mənimsəyirsə (**3, s.142**), onda burada hansı qloballaşmadan söhbət gedə bilər. Vaxilə Karl Marks tərəfindən kəskin tənqid olunan P.J.Prudonun "İqtisadi ziddiyyətlər sistemi, yoxsulluq fəlsəfəsi" əsərində irəli sürdüyü "hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə prinsipi" əslində dünyada ədalətli bölgünün aparılması üçün ən universal prinsipdir (**8, s.16-17**).

Təəssüf ki, bazar iqtisadiyyatı bir sıra başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da müəyyən sahələr üzrə monopoliya iqtisadiyyatına çevrilməklə ayrı-ayrı şəxslərin, yaxud qrupların əlində külli miqdarda pul vəsaitinin toplanmasına xidmət edir və bundan bütövlükdə ölkə əziyyət çəkir. Belə ki, iqtisadi ekspertlərin dediklərinə görə, Azərbaycan istehlak etdiyi yağın yalnız 52%-ni özü istehsal edir, 48%-ni isə xaricdən alır. Azərbaycana gətirilən yağın həmin ölkələrdəki qiyməti 1,5% dollar olduğu halda, Azərbaycanda 5 dəfə artıq qiymətə satılır. Çünki yağ bir şəxsin monopoliyasındadır. Hansı qiymətə istəsə o qiymətə də satır (**2**). Liberalizm və liberal bazar iqtisadiyyatı total dövlət iqtisadiyyatı ilə mübarizə üçün faydalıdır. Lakin bunu mütləqləşdirdikdə iqtisadi özbaşınalıq və monopoliya iqtisadiyyatı alınır ki, bu da iqtisadiyyatda sosial ədalətsizliyin əmələ gəlməsinə səbəb olur. Belə halda dövlətin "görünməz əlinin" iqtisadiyyata təsir göstərməsinə, ona istiqamət verməsinə ehtiyac yaranır. Bu işdə dövlət öz ölkəsinin tarixi ənənələrindən və konkret tarixi şəraitdən çıxış etməlidir (**4, s.46**). Göründüyü kimi, bu işdə kənardan verilən məsləhətlər və başqalarının təcrübəsi həlledici deyil, yalnız köməkçi əhəmiyyət daşıya bilər. Buna görə də qloballaşma adı ilə irəli sürülən təkliflərə və bəzi hallarda isə tələblərə çox diqqətlə yanaşmaq və təhlillər aparmaq lazımdır.

Artıq qeyd edildiyi kimi, qloballaşma problemi XX əsrin 70-ci illərində ortaya atılmış və keçmiş SSRİ-nin köçməsi və Yer kürəsində ABŞ-ın və Avropanın tam hökmran qüvvəyə çevrilməsi fonunda yaranmışdır. Düzdür, qloballaşmanın texniki və texnoloji tərəfləri hamıya məlumdur. Bu proses xüsusilə kommunikasiya

sahəsində özünü daha çox büruzə verir və bu sahədə adı çəkilən ölkələr doğrudan da yerdə qalan dünyaya nümunə verir. Lakin qlobal münasibətlərin yaranması ilə artıq siyasi strategiyaya çevrilməkdə olan qloballaşma fərqli hadisədir. Texnologiya, iqtisadiyyat, mədəniyyət, kommunikasiya sahəsində qlobal münasibətlərin yaranması və inkişafı obyektiv prosesdir və buna qarşı çıxmaq ən azı müasir tarixin gedişini başa düşməmək olardı. Lakin bu qlobal münasibətlər müəyyən qüvvələr tərəfindən hamı üçün qəbul edilməli olan siyasətə çevrilərək qloballaşma adı ilə dünyaya sırındıqda əhəmiyyətsiz və mənasız bir şeyə çevrilir. Qloballaşma adı ilə zəif inkişaf etmiş ölkələrin təbii sərvətləri daşınır, əvəzinə onların bazarlarına çoxlu material gətirilir ki, bu da həmin ölkələrin iqtisadi, texniki və texnoloji inkişafının qarşısını almış olur. Bax elə burada qlobalizm və geopolitika qovuşmağa başlayır.

Qlobalizm XX əsrin 80-ci illərinin sonundan, 90-cı illərin əvvəllərindən başlayaraq vüsət almağa başlayır. O dövrdə Amerika prezidenti olan C.Buşun "dünyanın yeni qaydaları" tezisində öz əksini tapır. Bu isə daha çox ABŞ-ın dünyada öz hökmran mövqeyini möhkəmlətmək niyyətindən irəli gəlirdi. Tanınmış ABŞ politoloqu H.Kissencer deyir ki, ABŞ sadəcə olaraq öz dünya siyasətinə başqa ad tapmayaraq ona qloballaşma adı vermişdir (**7, s.80**).

Azərbaycanın cəmiyyətşünas alimlərinin əksəriyyəti öz tədqiqatlarında rus müəlliflərindən və rus dilinə tərcümə olunmuş ədəbiyyatdan istifadə etdiyi üçün çox vaxt bu məsələlərə dair söylənilən fikirlərə tənqidi yanaşmadan, onları olduğu kimi qəbul edirik. Bu yanaşma rus alimlərinə də xas olan cəhətlərdən biridir. Onlar da Avropada söylənilən fikirləri və bəzən də Avropanın özündə qəbul edilməyən ifrat dərəcəli fikirlərdən yapışırlar. Hələ XIX əsrin 70-ci illərində K.Marks yazırdı ki, ruslar həmişə qərbin verdiyi ən ifrat ideyaların arxasınca qaçırlar (**9, s.479**). Düzdür, biz iki əsrə yaxın rusların təzyiqi və təsiri altında yaşadığımız üçün ictimai və siyasi həyatda gedən proseslər baxımından bu cəmiyyətlər arasında oxşarlıq çoxdur. Ancaq tarix və mentalitet baxımından biz müxtəlifik. Ona görə də onların yazdıqlarını

(xüsusilə, sosial-fəlsəfi məsələlərdə) tənqid süzgəcindən keçirmək lazımdır.

Qlobalizmə münasibət də belə olmalıdır. Qlobal münasibətlər, onların daha da inkişafı və genişlənməsini dünyanın qloballaşması ilə eyniləşdirmək düzgün deyildir. Çünki, qloballaşmadan o qədər yazırlar və danışırlar ki, artıq müəyyən qisim adamlar öz milli mənəviyyatlarını və bununla bağlı olan digər cəhətləri unudaraq özləri bilmədən kortəbii halda kosmopolit olmağa başlayırlar. Çünki qlobalistlər qloballaşmanı müasir tarixin aksiomasına çevirərək onu heç bir tərəddüd göstərmədən müasir varlığın vacib hissələrindən biri kimi təbliğ və hətta təlqin edirlər. Zənnimcə bizim qlobalist həmkarlarımız real dünya ilə özlərinin xəyalda qurduqları virtual dünyanı dəyişik salırlar. Bu cəhətə Azərbaycan filosofu professor Ə.Abbasov da diqqət yetirir və o, yazır ki, qlobalistlər (söhbət qloballaşma ideyasını ortaya atanlardan gedir) islam ölkələrinə qarşı səlib yürüşü həyata keçirirlər. Belə şəraitdə hansı qlobalizmdən söhbət gedə bilər (1, s.8). İki qonşu xalq olan Rusiya ilə Ukrayna arasında və digər yerlərdə gedən müharibələri də bura əlavə etmək olar. Dünya eyni vaxtda bir neçə yerdən alovlanır. Belə olan vəziyyətdə qlobalizm doğurdan da ya məkrli niyyət, ya da kiminsə uydurduğu yeni bir mif, utopiya kimi görünür. Asiya və Afrikada gedən müxtəlif tipli lokal müharibələr böyük güclərin təsiri və iştirakı vasitəsilə dünya müharibəsi fəlakətlərinə də gətirib çıxara bilər.

Qlobalizm iqtisadi və siyasi strategiyanın yaranmasından sonra antiqlobalizmdə yaranmışdır. Qlobalistlərlə antiqlobalistlər arasında kəskin mübahisələr davam etməkdədir. Bu mübahisələr rus alimləri arasında da davam etməkdədir (**11, s.30-52**). İstər qlobalizm, istərsə də antiqlobalizm tərəfdarları istər tarixi, istər məntiqi, istərsə də real həyatda baş verən hadisə və proseslərdən çıxış edərək öz mövqelərini kifayət qədər əsaslandırmağa çalışırlar. Lakin, dünya hələlik qloballaşmaya doğru deyil, qlobal münasibətlərin genişlənməsinə və inkişafına doğru gedir. Müxtəlif dünya kommunikasiya sistemləri və şəbəkəsi yaranır. Eyni zamanda bir-birinə qarşı duran müxtəlif tipli siyasi, iqtisadi, hərbi birləşmələr dünyanı parçalamağa doğru aparır. Bu bir-birinə əks olan iki proses

müasir dünyamızın reallığıdır. Tarixin vektoru hansı tərəfə yönələcək, onu müəyyənləşdirmək çox çətindir.

## Ədəbiyyat:


1. Cəmiyyət və din: tarix və müasirlik, Bakı, 2013
2. İqtisadçı ekspert Oktay Haqverdiyevin 2014-cü il dekabr ayının 3-də ANS kanalının axşam saat 21.00-da "Xəbərçi" proqramına verdiyi intervüdən.
3. Андреев И., Назарова Л. Психическое здоровье человека Свободная мысль, 2013, № 5.
4. Аро Р. Демократия и тоталитаризм. М., 1999.
5. Горелов А.А. От мировой колониальной системы до глобального неоколониализма // Век глобализации. 2014, № 2.
6. Ильин И.В. Глобалистика в контексте политических процессов. М., Изд-во МГУ, 2010.
7. Макбрайд Ц. Глобализация и культурный диалог // Вопросы философии. 2003, № 1.
8. Мареева С.Б. Справедливое общество в представлениях россиян // Общественные нации и современность, 2013, № 5.
9. Маркс К., Энгельс Ф. Сочинения, Т.32.
10. Тоффлер Э. Война и антивойна. М., 2005.
11. Чумаков А.Н. О глобализации с объективной точки зрения // Век глобализации, 2014; Глобалистика в системе современного научного знания /Вопросы философии, 2012, № 7; Ильин И.В. Глобалистика о контексте политических процессов. М., Издательство МГУ, 2010.
12. Яскевич Я.С. Рискогенное общество в контексте глобальных геополитических стратегий // Век глобализации. 2014, № 2
13. Ясперс К. Смысл и назначение истории. М., 1991.

**Xəliyəddin Xəlilli**

## Milli mənlik şüurunun yaranması və funksiyası

Azərbaycan bəşəri sivilizasiyanın ilkin beşiklərindən olmaqla, dünya mədəniyyətinin ilkin təməl əsaslarının yaranmasında iştirak etmişdir. Qədim və orta əsrlər dövrü elm və mədəniyyətinin yaranmasında qabaqcıl yer tutmuş bəşərə verdiyi alimləri, elmi töhfələri ilə onun mənəviyyatının yaranmasında hörmətə layiq yer tutan bu xalqın milli mənəvi irsinin tədqiq olunub elmi səviyyədə yeni nəslə ötürülməsi son dərəcə pis vəziyyətdədir.

Müstəqilliyimizdən 25 il keçməsinə baxmayaraq, respublikamızda etnosun yaranmasını, onun yaşamını müəyyən edən milli mənlik şüuru haqqında adi bir məqalə belə yazılmamışdır. Əlbəttə, bu vəziyyətin yaranmasında əsarət altına salınmış xalqların rəhbərlərinin, alimlərinin, xüsusən tarixçilərinin nəzəri təfəkkürə, təhlil qabiliyyətinə, milli ruha malik olmayan, ancaq özünü düşünən adamlardan seçilib yetişdirilməsi haqqında Sov. İKP MK-nın **2 iyun 1947-ci il direktivinin** (**6**) və digər bilib-bilmədiyimiz tədbirlərinin rolu böyükdür, əsas səbəblərdən biridir. M. C. Bağırovun rəhbərliyi ilə XX əsrin 20-30-cu illərində "tarix və sosial – siyasi hadisələrin tədqiqi ilə azca da olsa bağlı olan bütün alimləri fiziki cəhətdən məhv edib, onların əvəzində isə respublikada ictimai elmlərin yaradıcı inkişafına böyük ziyan və dağıdıcı zərbə vurmağa hazır olan könüllü və yetişdirilmiş apologetlər meydana çıxmışdır" (**2**). Onlar da imperiya dirijorlarının çubuğuna oynayaraq, Azərbaycanda ictimai elmləri məhv etdilər. Müstəqilliyimizdən keçən bir rüb müddətində faiz təşkil etməyəcək tək-tək tarixçilərimizin elmi-nəzəri fəaliyyəti, elə bu qədər də tarixçinin dünyanın müxtəlif ölkələrinin arxivlərindən əldə etdikləri yeni materiallar istisna edilərsə, bəlkə də tarix elmimizin səviyyəsi imperiya hakimiyyəti illərindənkindən də aşağı düşmüşdür.

Respublikamızda tarix, o cümlədən ictimai elmlərin vəziyyəti filosoflarımızdan Əbülhəsən Abbasovun "Milli ideologiya bir-

ləşdirici məna simvolu kimi" adlı məqaləsində yetərincə obyektiv dəyərləndirildiyindən, həcmcə böyük olsa da, ondan bir hissəni əsərimizə daxil etməyi lazım görürük. O, yazır: "Söhbət o şeylərdən gedir ki, onlara nəzəri-diqqətin vacibliyi, sadəcə olaraq, yalnız bu günün, hazırkı dövrün tələbləri ilə şərtlənmir, bu məqamlar bütövlükdə bizim xalqın tarixi mövcudluğu ilə, onun elmi-mədəni ənənəsi və iris ilə bağlıdır. Həmin məqamlara və onlarla əlaqədar məsələlərə diqqət yetirmədikcə, millətləşmə yolunda, optimal cəmiyyət quruculuğunda, layiqli həyat tərzinin təşkilində daha çox çətinliklərlə, maneələrlə üzləşirik və nəticədə də iki qeyri-məqbul variantdan biri bizim "qismət payı"mız olur: ya candan-haldan tükənərək, taqətdən düşərək proseslərin gedişini kortəbii stixiyanın və yadların mərhəmətinə, təsir gücü olan hansısa dövlətlərin ümidinə buraxırıq, ya da həqiqi yaradıcı fəaliyyətin, öz fədakarlığımızın, öz zəkamızdan və zəhmətimizdən doğan əzmkarlığın lazımınca olmamasını ört-basdır edərək kimlərisə, nələrisə (öz malımız kimi!) yamsılayırıq, gülüş və təəssüf doğuran inadkarlıqla uyğunlaşma həyata keçiririk.

Başqalarından "ümid çırağı" gözləmək, köklü fikir ortaya qoymadan, rasional, sistemli bir əməli iş aparmadan "yaxşı olanı" yamsılamaq vərdişi, görünür, bizlərdə o dərəcədədir ki, hətta hər "yeni səhifə"ni başlayanda öz köhnə səhifələrimizi unutmağa, yaxud da dəbə yoluxaraq lənətləməyə hazır oluruq. Ədəb-ərkandan, məntiqdən, məsuliyyət və vicdan hissindən uzaq bu köntöy ənənəyə sadiqlik göstərərək, biz vaxtaşırı (dövrdən və dəbdən asılı olaraq!) kimlərisə, nəyisə birtərəfli qaydada, ifrat subyektiv mövqedən hallandırmışıq – ya nifrət yağışı yağdırmışıq, ya da heç bir ölçü - əndazə qoymadan sevmişik, tərifləmişik. Beləliklə, Babəkdən, Koroğludan tutmuş N. Nərimanova kimi hamını, bütün tarixi şəxsiyyətləri və qəhrəmanları "”qılıncdan", yaxud da "öpüşdən" keçirmişik. Sonra isə kimlərisə günahkar saymışıq, "tariximizi unutdurublar" deyirik".

Hörmətli filosofumuz şərhini davam etdirərək yazır: "Tarixi hadisə və şəxsiyyətlərə münasibətdə "obyektiv" tənqidçilik potensialımız elə miqyas alır ki, özümüzünkülərlə yanaşı, başqalarına da divan tuturuq – Marksı kəmsavad filosof və totaliarist adlandırırıq,

heykəlini uçururuq, Lenini anadangəlmə cəllad və dəli kimi qələmə veririk. Əcəba, müdriklik budursa, onda ağılsızlıq, həqiqi dəlilik nədir? Maraqlıdır, bizi belə "sürüşmə"lərə vadar edən nədir? Və yaxud özümüzə məxsusluqla, mədəni ənənəmizdə, düşüncə tipologiyamızda nə çatışmır ki, biz asanlıqla "yaxşı" – "pis" dixotomiyasında son vaxt ən əlverişsiz, məntiqsiz və aciz mövqe tuturuq, necə deyərlər, divardan – divara yeriyirik, fenomenləri dəyərləndirərkən, yol seçərkən divara yeriyirik, fenomenləri dəyərləndirərkən, yol seçərkən həssaslığımızı, bəzən də başımızı itiririk. Necə olur ki, möhtəşəmliyi şübhə doğurmayan filosof, şair – yazıçı, dramaturq Hüseyn Cavidi, istedadlı söz sahibi Mikayıl Müşfiqi kampaniyaya qoşularaq məhv edirik, bu gün isə peşimançılıq əzabı çəkirik? Dünya, belə olduqda, bizim hansı fikrimizə, mövqeyimizə, "obyektiv həqiqət"imizə inansın? Gənc nəsillər hansı yararlı meyarları əsas götürsünlər ki, həyatlarının mənasını axtaranda, qurub – yaradanda onlara yardımçı olsun?" (**26, s.188-189**).

Mədəniyyətdə - mənəviyyatda yaranmış vəziyyət "Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu"nda yolverilməz hesab edilərək deyilir: "Azərbaycan tarixinə, dilinə, mədəni irs və mənəvi sərvətlərinə qəsd edilməsi, onların xarici və daxili təzyiqlərə məruz qalması" yolverilməzdir (**49**).

"Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində əsas milli maraqları – Azərbaycan xalqının mədəni – tarixi irsinin və mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi" (**49**) ictimai elmlərin birinci, başlıca vasitəsi olaraq göstərilir.

Fərdi və milli dünyagörüşlərdəki naqisliklər çoxdan fəlsəfənin diqqətini çəkmişdir. Müəyyən edilmişdir ki, dünyagörüşdəki neqativ və pozitiv cəhətlər xüsusilə böhranlı və tarixi dönüş mərhələsində özünü daha qabarıq göstərir. XX əsr Avropa filosofları müqayisəli təhlil üsulu ilə müəyyənləşdirdilər ki, "ümumbəşəri bəlaların insanların dünyagörüşündəki naqisliklərdən, iradə və arzularındakı qeyri – insani meyllərin güclənməsindən, özlərini anlamaqdakı acizliklərindən, insanın dünya və sosial

gerçəkliyə olan əsassız iddialarından, özlərini məhdudlaşdırmaq və müəyyənləşdirmək üçün cəhdlər göstərmək istəmədiklərindən irəli gəlir. Şübhəsiz ki, burada başqa obyektiv səbəblər də vardır, ona görə də ruhi və ekzistensional böhran bir –iki səbəbindən deyil, kompleks səbəblərdən söhbət gedə bilər. Lakin böhran hazırlayan hərəkətverici qüvvə bütün gerçəkliyə fəlsəfədən gəlir və bu da heç kimdə şübhə doğurmur. İnsan bəlanın kökünü, Russo demişkən, özündə axtarmalıdır. Bəri başdan onu qeyd etməyə dəyər ki, fəlsəfədəki naqisliklər ki, onlar ruhi və ekzistensional böhranları törədir, biliyin azlığı, elmin kifayət dərəcədə inkişaf etməsi ilə əlaqədar deyildir. XX əsrin fikir nəhəngləri belə bir inam ifadə etdilər ki, **bəşəriyyətin ümumi bəlası anlamaq dərdidir**” (**28, s.12-13**). Göründüyü kimi, fəlsəfi tədqiqatlar fransız mütəfəkkiri Russonun mülahizəsini təsdiq edir: “İnsan bəlanın kökünü özündə axtarmalıdır”.

Kommunist Rus İmperiyası (yəni SSRİ) bəşər tarixində ən əclaf, qeyri-insani, şər bir imperiya idi. Onun 2 iyun 1947-ci il tarixli direktivi yalnız birbaşa işğal etdiyi dünyanın 1/6 ərazisinə aid deyildi, təsir dairəsinə daxil olan bütün ölkələrə, xalqlara şamil edildi. 1926-cı ildə SSRİ-də əhalinin ilk siyahıya alınması zamanı qeydə alınan 195 etnosdan 1989-cu il siyahıya alınması zamanı cəmi 128 etnos qalmışdı. Kommunist Rus imperiyası 63 il ərzində 67 xalqı tarix səhnəsindən beləcə sildi (**29**).

Postsovet məkanında 67 xalqın ölümü, tarix səhnəsindən silinməsi, bu günkü yaşlı nəslin alqışları ilə müşaiyət olunan beynəlmiləlçilik adı altında həyata keçirilən etnosid siyasəti – milli mənəvi dəyərlərin öldürülməsi üsulu ilə həyata keçirilmişdir. Tarix elmi, birinci növbədə bu sahənin tədqiqi ilə məşğul olan etnologiya, etnopsixologiya, sosiologiya və fəlsəfə elmləri birmənalı sübut etmişdir ki, mənəvi dəyərlər içərisində milli mənlik şüuru aparıcı yer tutur.

Etnosun yaranma və yaşam qanununu araşdırmış bütün tədqiqatçılar hər hansı bir toplumda və ya əhali ilə məskun regionda etnosun tarix səhnəsinə gəlməsi və tarix səhnəsindən yox olmasını etnik milli mənlik şüurunun yaranması və unudulması ilə müşayiyət olunduğunu yazırlar (**3; 8; 9; 20; 21**). Nəzərə alsaq ki,

milli mənlik şüuru etnos yaradan və yaşadan əsas dəyərdir, onda 1936-cı il SSRİ Konstitusiyası ilə Azərbaycan türklərinin milli mənlik şüurunun qəti müəyyən edilmiş ifadə forması olan "türk" özünüadlandırmasından (**9, s.252**) məhrum edilməsi bu xalq üçün ölüm hökmü idi. Maraqlıdır, müstəqillik illərində nəşr olunan "Azərbaycan tarixi" dərsliklərində bu hadisə haqqında məlumat verilsə də, AMEA Tarix İnstitutunun müstəqillik illərində nəşr etdirdiyi yeddicildlik "Azərbaycan tarixi"ndə ümumən Sovet imperiyasının milli repressiyadan bəhs olunsa da, bu haqda heç bir məlumat verilmir (**30, s.379-386**). Ümumiyyətlə, etnik milli-mənlik şüurundan qəti surətdə bəhs olunmur. "Azərbaycan tarixi"ndən ərazi tarixi kimi bəhs olunur.

Etnologiya elmi Avropadan Rusiyaya gətirildiyi vaxtdan bir qrup tədqiqatçılar və müəssisələr bu elmi etnologiya, bəziləri isə etnoqrafiya adlandırırdılar. Bu ənənə Sovet imperiyasının ilk illərində də davam etdi. 1929-cu ildə Rus imperiyasının kommunist rəhbərliyi bu elmin adının dəqiqləşdirilməsi üçün göstəriş verdi. Bu sahədə müzakirələr başladı. Nəhayət, arxeoloq və etnoqrafların 1932-ci ildə keçirilən ümumrusiya müzakirəsində "etnos" marksizm-leninizmə zidd olan burjua elminin kateqoriyası elan edildi, SSRİ-də etnosla bağlı bütün tədqiqatlar dayandırıldı. Nəhayət, sovet alimləri M. Q. Levin və N. N. Çeboksarov 1957-ci ildə etnos nəzəriyyəsini və bu sahədə tədqiqatları bərpa etdilər. Həmin vaxtdan, Azərbaycan etnoqraf və tarixçiləri istisna olmaqla, Sovet imperiyasının bütün xalqlarının, o cümlədən türk və müsəlman xalqların etnoqrafları öz xalqlarının milli inkişaf tarixi, milli xarakteri, milli mənlik şüuru, ümumiyyətlə, milli mənəviyyatın bütün sahələrinə aid əsərlər yazdılar (**33, s.117, 122; 4, s.59-65**).

Göründüyü kimi, doğma filosofumuz Ə. Abbasovun düzgün müşahidə etdiyi kimi, milli tariximizi obyektiv yazmaq üçün "həqiqi yaradıcı fəaliyyətin, öz fədakarlığımızın, öz zəkamızdan və zəhmətimizdən doğan əzmkarlığın lazımınca olmamasını ört-basdır edərək, kimlərəsə, nələrəsə (öz malımız kimi!) yamsılayırıq, gülüş və təəssüf doğuran inadkarlıqla primitiv uyğunlaşma həyata keçiririk" (**26, s.188**). Yadlar bizə tariximizi, milli yaddaşımızı unutdurub deyə ağlaşma, vay-şivən qoparmağımız maymaqlığı-

mızdan, iradəsizliyimizdən başqa bir şey deyildir. Bəs 25 illik müstəqillik illərində milli mənlik şüurundan, millət yaradıcı, yaşadıcı dəyərlərdən yazmağı bizə kim qadağan edib? Böyük fransız mütəfəkkiri Russo düzgün olaraq dediyi kimi, "insan bəlanın kökünü özündə axtarmalıdır" hikmətini sanki bizim üçün deyib.

Azərbaycan antropogenez zonasında yerləşməklə insan əcdadının bioloji varlıqdan sosial-mənəvi varlığa çevrildiyi regionda yerləşməklə bu ölkə təkcə Azərbaycan xalqının milli mədəniyyətinin ilk ocağı deyil, buradan gedən ən qədim və qədim miqrasiyalarla bəşər mədəniyyətinin yaranması və inkişafında xüsusi paya malikdir. Antropologiya elmində əvvəllər "Şərqi Aralıq dənizi" tipi, bütövlükdə Kaspi (Xəzər) dənizi hövzəsini əhatə etdiyi üçün sonra "Kaspi" tipi adlandırılan antropoloji tip hələ daş dövründə formalaşmışdı. "Kaspi" antropoloji tipi ən qədim antropoloji tiplərdən olmaqla bir neçə ən qədim türk etnosunu yaratmışdır ki, bunlardan biri də Azərbaycan türkləridir. Dünyanın digər etnosları kimi ilk Azərbaycan türk etnosu da buradan keçən miqrasiyalar, bura olan köçürmələrlə digər etnoslarla təmasda olmuşdu. Lakin yerli "Kaspi" antropoloji tipi və onun yaratdığı mədəniyyət onları öz daxilində konsolidə edərək, antropoloji tipini və etnik-milli mədəniyyətini fasiləsiz qoruyub saxlamış və yaşatmış etnosdur, xalqdır (**31; 32**). Bu cəhətdən o, ilkin təməlində əsrimizə gəlib çıxan dünyanın bir neçə xalqından biridir.

Oxucunun diqqətinə çatdırırıq ki, respublikamızda etnosun yaranma, yaşam və inkişaf qanunu haqqında bircə dənə də olsun məqalə yazılmadığından dilimizdə bu sahənin hər hansı bir termini yaranmamışdır, eyni zamanda elmin bu sahəsini qəbul etdiyimiz rus elminin terminologiyasının qarşılığı da yaradılmamışdır. Ona görə məqaləmizdə termin və anlayışlarla bağlı çatışmazlıq təbii qəbul edilməli, onun dəqiqləşdirilməsi üçün həmkar həmrəyliyi göstərilməlidir.

Etnologiya elmində olan yekdil qənaətə görə insanlıq tarixi etnos adlanmaqla qəbilə, tayfa, xalq və millət olmaqla dörd inkişaf mərhələsinə malikdir. Hər hansı bir regionda, ərazidə vahid mənşəyə, dilə, adət-ənənəyə, psixologiyaya, mənlik şüuruna, özünüadlandırmaya - etnonimə malik dayanıqlı etnososial-mənəvi

orqanizmə çevrilmiş toplum etnosdur (**3; 8, s.73-81; 9, s. 78-93**). Etnologiya elmində müstəqil etnoloji nəzəriyyə yaratmış L. Qumilyovun əsaslandırması və digər etnoloq və etnopsixoloqlar da təsdiqləyirlər ki, hər hansı ərazidə əhalinin etnos kimi formalaşması prosesi yuxarıda göstərilən mənəvi dəyərlərə yiyələnməsi, sonda etnik mənlik şüuru ilə nəticələnir, o da özünüadlandırma - etnonimlə təsbit olunur (**3, s.11-20, 44-76; 8, s.76-88; 9, s.78-93, 252; 20, s.10-16; 21, 173-199; 11, s.6-13; 12, s.6-18**).

Etnosun həyatını öyrənmiş bütün tədqiqatçılar məhz onun etnik-milli mənlik şüurunun təsiri altında özlərini başqa etnoslarla müqayisə edir, başqalarına qarşı qoyur, biz və onlar, bizimkilər və başqaları fərqliliyini dərk eməklə, bütün varlığı dövründə özünün başqa etnosdan fərqini axtarır və bu fərqli xüsusiyyəti yaratmağa can atır. L. Qumilyov yazır: "Bu, Homo sapiens növünün qüvvələrini cəm edərək özünün və "özününkülər"i (bəzən yaxınlarını), bir çox hallarda isə, demək olar ki, tamamilə özlərini bütün qalan dünyaya qarşı qoya bilmək xassəsidir. "Biz - onlar" - sonditro sine gu anon est - qarşılaşdırması bütün dövr və xalqlar üçün səciyyəvidir" (**3, s.37**).

L. Qumilyov yazır: "Bir şey şübhə doğurmur - yer üzərində etnos xaricində olan bircə adam belə yoxdur. İstənilən şəxs "Sən kimsən?" sualına bir an belə düşünmədən "fars", "rus", "türk", "fransız" və s. cavabını verir. Deməli, şüurda etnik mənsubiyyət - ümumi hadisədir. Amma bu da hələ hamısı deyil.
"Etnos" anlayışının açıqlaması. Yuxarıda sadalanan adamların hər biri öz cavabını necə mənalandırır? Öz xalqını, millətini, tayfasını dedikdə o, nəyi nəzərdə tutur və qonşulardan fərqini nədə görür? Etnik diaqnostikanın indiyə qədər həll olmayan problemi də elə budur" (**3, s. 18**). Etnologiya elmində aydın cavablandırılmayan bu sualı elmi səviyyədə cavablandırmaq üçün çox sayda etnosun tarixini, psixi simasını, stereotipini, onun yaranması və yaşamında əsas yer tutan dil, din, ideologiya və mədəniyyətini dərindən təhlil edir. Etnosun mənəvi dünyasındakı özünəməxsusluqları və ifadə formalarını diqqətə çəkərək göstərir ki, hər bir etnosun yaranmasında, onun mənəviyyatında əsas yer tutan göstərilən sahənin biri aparıcı təsir gücünə malik olur. Sonda etnosu müəyyən edən amil

kimi də çıxış edir. Lakin bu sabit və dayanıqlı olmur, sosial şərait, həyat tərzi onlara asanlıqla təsir edir, onların vəziyyətini dəyişir. “Beləliklə, sosial durumların dəyişməsi təbii durumların dəyişməsinə bənzəyir (amma tam eyni deyil): onlar dönəridir və birindən digərinə keçid zamanı əlavə enerji sərfi tələb olunur. Etnos da belədirmi? Müəyyən səy göstərməklə etnik mənsubiyyəti dəyişmək mümkündürmü? Güman ki, yox! Artıq elə yalnız bu göstərir ki, etnos “vəziyyət” (ələlxüsus da vətəndaşlıq vəziyyəti) deyil, prosesdir” O, sözünə davam edərək yazır: “Belə örnəklərin sayı-hesabı yoxdur. Lakin onların hamısı göstərir ki, **insanların şüurunda aşkar olunan etnik mənsubiyyət şüurun öz məhsulu deyil. Yəqin ki, insan təbiətinin ali əsəb fəaliyyətinin forması kimi anladığımız şüur və psixologiyasının xaricindəki daha dərin tərəfini əks etdirir.** Axı, digər hallarda etnoslar, hansı səbəbdənsə, əhatələrinin təsirinə qarşı nəhəng müqavimət qüvvəsi göstərir və assimilyasiya olmurlar” (**3, s. 56, 69**). L. Qumilyov “Etnogenez və Yerin biosferi” əsərində etnosun mənəvi dəyərləri məsələsinə münasibətdə ardıcıl olaraq K. Yaspersi tənqid edir. Lakin bu iqtibasdan göründüyü kimi, L. Qumilyov K. Yaspersin idealizmi ilə hesablaşmalı olur. Etnik mənsubiyyət şüurunu azqala ilahi dəyər kimi qiymətləndirmə səviyyəsinə lap yaxınlaşır. Belə də olmalı idi. Axı onun tədqiqatında mənəviyyat həmişə aparıcı olmuşdur. Mənəvi varlıqlar mənəviyyat qanunları vasitəsilə dərk oluna bilər. Mənəviyyatın materialistcəsinə dərkini mümkün hesab etmək mənəvini başa düşməməkdən başqa bir şey deyildir.

Etnik özünüdərketmə, milli mənlik şüurunun etnosun mənəvi dəyərlər sistemində aparıcı yer tutması burada “çox mürəkkəb sosial-psixoloji fenomen kimi bir-biri ilə qarşılıqlı əlaqə və münasibətdə olan bir sıra komponentlərdən ibarətdir. Buraya: a) fərqləndirici əlamətlər və təsəvvürlər sistemi; b) etnik avtostereotiplər; etnik hisslər; c) fərdlərin müəyyən etnik birlik ilə identifikasiyası (özünü etnos üzvləri ilə eyniləşdirməsi, onlara bənzətməsi) və s. daxildir” (**94, 99**).

Milli mənlik şüuru çoxcəhətli struktura, müxtəlif ünsürlərə malikdir. Tədqiqatçıların qənaətinə görə, etnik - milli şüur anlayışı üç əsas momentin birləşməsini əhatə edir. Bunlardan birincisi eyni

etnosdan olan adamların ümumi əraziyə, dilə, iqtisadi və mənəvi həyat birliyinə mənsubiyyəti (ictimai - etnik mənsubiyyəti), ikincisi, öz milli mənafeyinə uyğun olaraq digər etnoslarla əlaqə və münasibəti, üçüncüsü, mövcud cəmiyyətin mənəvi və maddi tələbatına münasibəti ideyalar və hisslər şəklində ifadə edir. Hər bir xalq, millət öz mənsubiyyətini digər xalq və millətlərlə qarşılıqlı əlaqə və münasibətdə öz milli mənafeyinə və mövcud cəmiyyətin xarakterinə uyğun şəkildə dərk edir. Deməli, buradan belə nəticəyə gəlmək olur ki, milli mənlik şüuru eyni etnosdan olan adamların milli mənsubiyyətini, digər millət və xalqlarla əlaqə və münasibətdə öz milli mənafeyini, mövcud ictimai quruluşun xarakterini ifadə edən hisslər və ideyalar sistemidir (**35, s. 74**). Elə burada Rusiya Federasiyasında dərs vəsaiti kimi istifadə olunan "Ümumi sosiologiya" (B., 2007) kitabında mənlik şüurunun qiymətləndirilməsini diqqətə çatdırmağı lüzum görürük. Əsərdə yazılır: "Etnos başlıca olaraq xalqın, onun bütün əlamətlərini yenidən canlandıran etnik mənlik şüurunun vasitəsilə müəyyən olunur. Mənlik şüurunun sayəsində xalq öz vəhdətini - öz mənşəyinin ümumiliyini, bununla da öz etnik qohumluğunu dərk edir. Lakin eyni zamanda da etnik mənlik şüuru etnosa özünü başqa xalqla müqayisə etməyə kömək edir ki, bu da öz növbəsində etnos tərəfindən özünün xüsusiyyətlərinin dərk edilməsi üçün zəruri sosial-psixoloji əsas kimi çıxış edir. Əgər mənlik şüuru əlamət kimi iştirak edirsə, onda etnos nə qədər kiçik olursa-olsun o, yox olmur, digər etnoslarla əriyib qarışmır" (**10, s.249**). Əsərdə mənlik şüurunun struktur elementləri haqqında deyilir: "Etnosun ərazisi, mənşəyi, tarixi keçmişi haqqında təsəvvürlər; xalqın mənəvi sifəti, onun xarakterinin təkrarolunmazlığı haqqında təsəvvürlər. Xalq xarakterinin sezilməzliyi onun sosioloji təhlilində obyektiv mürəkkəbliklər yaradır. Xalqın xarakterinin reallığının xeyrinə olaraq bu faktı göstərirlər ki, çox vaxt eyni hissləri müxtəlif etnosların nümayəndələri özlərinin xüsusi formasında, müxtəlif şəkildə yaşayırlar" (10, 249). Milli mənlik şüururnun milli adı doğurması və milli mənlik şüurunun strukturunda tarixi yaddaşın aparıcı funksiyası bütün etnopsixoloji və etnoloji ədəbiyyatda təsbit olunur (**8, s.76-77; 9, s.79-90**). Tarixi yaddaşın milli yaradıcı

funksiyasını hələ XIX əsrin qırxıncı illərində Azərbaycanın görkəmli mütəfəkkiri A. A. Bakıxanov çox incəliklə fəhm edərək yazırdı: "…Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır… Tarix elmi isə dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır. Çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər" (**1, s. 10**).

Milli mənlik şüurunda milli dövlət ideyası mühüm yer tutur. Milli dövlət birliyi şüuru millət və xalqların inkişaf xüsusiyyətlərindən və mövcud şəraitdən asılı olaraq, bəzən milli iqtisadiyyat və mədəniyyətin formalaşmasından da əvvəl yaranır. Bu halda milli dövlət birliyi şüuru millətin təşəkkül tapması prosesinə fəal təsir edir, millətin iqtisadi - siyasi və mədəni münasibətlərinin inkişafını sürətləndirir. Bunu inkişaf etməkdə olan ölkələrin, xalqların timsalında daha aydın görmək olar. Milli dövlət birliyinin yaranması prosesində kütlələrin milli mənlik şüuru yeni məzmun alaraq eyni millətdən olan adamları vahid məqsəd və vəzifədə birləşdirir, onların milli suverenlik hüququnu möhkəmləndirir. Bununla belə, milli müstəqilliyin yaranmasına, milli yüksəlişə, ümummilli vəzifənin yerinə yetirilməsinə, milli birliyin əmələ gəlməsinə səbəb olur (**35, s. 75**).

Mənlik - etnosa mənsubluq şüurunun hisslər aləminə təsir prosesini "Dədə Qorqud" oğuzlarının həyat tərzi zəminində təhlil edən Ə. Bayramov yazır: "Oğuzların yüksək əxlaqi hissləri içərisində vətənpərvərlik və milli qürur xüsusi yer tutur. Onlarda qürur hissi etnik özünüdərketmə ilə çox sıx qarşılıqlı əlaqədədir. Özünüdərketmənin inkişafına etnik qürur hissi güclü təkan verir. Eyni zamanda etnik özünüdərketmənin səviyyəsi etnik şüurun inkişafı səviyyəsi ilə müəyyənləşir".

Etnopsixoloq sözünə davam edərək yazır: "Oğuzların vətənpərvərlik, yurd, doğma ocağa bağlılıq hissləri güclüdür.

Oğuzlar etnik mənsubiyyətini dərk edir, bunu qiymətləndirir və öz ləyaqətlərini çox uca tutur, oğuz olduqları üçün fəxr edirlər” (**17, s. 122**).

Etnopsixoloji tədqiqatlar göstərir ki, etnik - milli özünüdərk - milli mənlik şüuru onun ifadə forması milli ad etnosun bütün hiss, emosiya, bütövlükdə mənəvi aləminin harmoniyasını yaradır, ona qarşı yönəlmiş müsbət və ya mənfi hərəkətə qarşı dərhal müvafiq cavab reaksiyası doğurur, bütün etnosu səfərbər edir.

Apardığımız etnoqrafik müşahidələr və bu sahədə aparılmış elmi tədqiqatlar göstərir ki, milli mənlik şüuru ünsürlərinin hamısı etnosun həyatında heç də eyni halda, eyni səviyyədə iştirak etmir və onu eyni formada əks etdirmir. Onların bəziləri milli həyat şəraitini bilavasitə, bəzisi isə dolayı yolla əks etdirir. Məsələn, milli mənsubiyyət şüuru millətin həyatını bilavasitə əks etdirdiyi halda, milli sərvətlə bağlı şüuru millətin həyatını milli dil, milli mədəniyyət, milli ərazi vasitəsi ilə əks etdirir. **Milli dövlət birliyi şüuru ilə millətin həyatının ən qiymətli sərvətlər məcmusu, təhlükəsizliyin başlıca vasitəsi kimi, güvənc kimi əks etdirir. Milli dövlətçilik özünü həmçinin ən çox milli qürur, şərəf, ləyaqət kimi hisslərdə daha çox əks etdirir.** Milli mənlik şüurunun ünsürləri özlərinin təşəkkülünün ictimai əsası ilə, etnosun inkişafındakı rolu ilə də bir-birindən fərqlənir. Bunlar millətin inkişafının müəyyən dövrlərində biri digərinə nisbətən daha üstün yer tutur. Milli mənlik şüurunun daha fəal daşıyıcısı olur. Milli mənsubiyyət şüuru milli mənlik şüurunun əsas daşıyıcısı olub, onun özəyini təşkil edir. Milli sərvətə bağlılıq və milli dövlət birliyi şüuru ümummilli mənafeyin yaranmasına səbəb olur. Milli mənlik şüurunun ünsürləri arasındakı fərqlər nisbi xarakter daşıyır, onlar bir-biri ilə sıx surətdə bağlıdır, qarşılıqlı surətdə bir-birinə nüfuz edir. Onların hamısı milli həyatın tərəqqisinə, milli şüurluluq səviyyəsinin artmasına kömək edir. Milli mənlik şüurunun ünsürləri milli həyat tərzindən asılı olub, onu bu və ya digər formada əks etdirir. Bu ünsürlərin hər biri milli həyatın inkişafına öz təsirini göstərir (**3; 8; 9; 10; 35, s.76**).

Milli mənlik şüuru ictimai şüurun siyasi, əxlaqi, incəsənət, fəlsəfə, din, tarixən formalaşan adət-ənənələr, dəyər və normalarla sıx bağlıdır.

Etnik-milli mənlik şüuru onu yaradan etnos tərəfindən bütün varlığı dövründə ideallaşdırıldığı, onda milli mənəviyyatın mayasına, ruhun mənbəyinə çevrilib qorunduğu halda etnosun daxilindəki müəyyən siyasi qüvvələr, siyasi məqsəd güdənlər, eyni zamanda beynəlxalq siyasi qüvvələr, siyasi partiyalar, dövlət və siyasi təşkilatlar vasitəsi ilə milli mənlik şüuruna təsir edir, onu öz məqsədinə xidmət etməyə yönəldir. Bir halda, milli mənlik şüuru şəffaflaşdırılıb etnosu daha fəal yaradıcı fəallığa sövq etdirir, digər halda mənlik şüuru kosmopolit vəziyyətə salınaraq onun vasitəsi ilə xalq köləyə çevrilir, milli şairimiz B. Vahabzadənin sözləri ilə desək, “nə ondan olur, nə də bundan”. Üçüncü halda isə etnos bütünlüklə milli mənlik şüurundan, tarixi yaddaşdan məhrum edilərək, ona qarşı gözəgörünməz üsullarla məhvetmə siyasəti həyata keçirilir.

Dünya xalqları arasında milli mənlik şüuruna təsir göstərilməklə, dövlətçiliyi məhv edilib, kölə vəziyyətinə salınaraq ölüm simptomları yaşama səviyyəsinə çatanda milli mənlik şüuru, tarixi yaddaş vasitəsi ilə müalicə olunub, ölümdən xilas edilib yenidən etnos olaraq həyata, yaşama qaytarılan xalqlardan biri Azərbaycan türkləridir.

Tarixə müraciət edək, Səfəvi sülaləsi təmizqanlı türk olub xalq tərəfindən “türkün piri” adlandırılırdılar (**36, s.33-35**). Hakimiyyət uğrunda mübarizə aparan Səfəvi sülaləsi Oğuz varisi olmaqdan imtina edib, özlərini yeddinci şiə imamı Museyi Kazımın iyirmi birinci nəsli elan edirlər (**36, s. 33-35; 37, s. 53**).
Farsların islam qiyafəsinə salınmış şiə gizli milli ideologiyasını zorla Azərbaycan türkləri üçün milli ideologiyaya çevirməyə başladılar. Buna etiraz edən, müqavimət göstərən “bir nəfəri də sağ qoymaram” (36, 48) deyən Səfəvi lideri “minlərlə adamı edam etdirdi” (**38, s. 268**). Ən acınacaqlısı bu idi ki, Səfəvi liderləri Azərbaycan oğuzlarının dini təriqətini dəyişməyə məcbur etməklə kifayətlənmədi, Oğuz etnik mənsubiyyətini unutdurmaqla onlara “qızılbaş varisi” olmalarını aşıladılar. Hər şiə etnos nümayəndəsi

olaraq özünü qızılbaş adlandırmalı, qızılbaşlığın nişanını daşımalı idi. On iki şiə imamın şərəfinə üzərində 12 müxtəlif rəngli çalma qızılbaşlığın nişanəsi idi. Bu çalmanı əvvəl Səfəvi müridləri, sonra ordı başına bağlayırdısa, sonda bütün şiələr bağladılar. Səfəvi liderləri hakimiyyətə gəlmək üçün özləri etnik mənşələrini danıb, mənşələrinin ərəb - İslam müqəddəslərindən olduğunu elan etməklə bərabər bir etnos olaraq Azərbaycan Oğuz - Türklərini On iki şiə imamının varisi elan edib, qızılbaş adlandırmaqla milli varislikdən imtina etdilər. Qızılbaş ideologiyası zəminində imperiya yaratmağa nail olsalar da, tezliklə qurduqları dövlət tənəzzül edib dağıldı, Azərbaycan türkləri parçalandı, qonşu qohum türk xalqları da onlara ögey münasibət bəslədilər, hətta aralarında düşmən vəziyyət yarandı (**39, s. 243-267**). Səfəvi sülaləsinin Azərbaycan türkləri üçün hakim ideologiya olan İslam ideologiyasını təkrar milli ideologiya kimi şüurlara yeritməsi etnik - milli mənlik şüuruna öldürücü təsir göstərdi. Dövrünün böyük milli, siyasi, dövlət xadimi və sərkərdələri Nadir şah və Ağa Məhəmməd şah Qacar etnik - milli şüuru bərpa etmək və elə bu ideya zəminində Azərbaycan dövlətçiliyini bərpa etməyə səy göstərsələr də, məqsədlərinə qismən nail olsalar da, onu sona çatdıra bilmədilər (**40, s. 145-175**). Yaranmış vəziyyətdən istifadə edən Rus imperiyası Şimali Azərbaycanı işğal etdi. Rus imperiyası Səfəvi sülaləsinin söndürmüş olduğu etnik-milli mənlik şüurunun bütün elementlərinə qədər məhvetmə siyasəti yeritdi. Milli türk adı ilə bərabər Vətən - Azərbaycan adını, məfhumunu unutdurmaq üçün amansızlıq göstərdi.

Türk - müsəlman dünyası Avropanın milli tərəqqi dövrünə daxil olduğu XVII əsrdən tənəzzülə istiqamət götürdü. Artıq XIX əsrdə Türk - müsəlman dünyasında bütün xalqlar etnos olaraq müstəqil yaşam üçün əsas olan milli mənlik şüurunu unutmuş, hamı özünü mahiyyəti unudulub mövhumat - xurafat səviyyəsinə düşmüş İslama mənsubluq ifadə edən müsəlman adlandırırdı. Bütün türk-müsəlman dünyası Avropanın müstəmləkəsinə çevrilmişdi. Yeganə müsəlman dövləti Osmanlı imperiyası idi ki, burada da xalq milli mənlik şüuruna malik olmadığından son günlərini yaşayan xəstəyə bənzəyirdi.

Müasirlərinin “Böyük bir müsəlman” və yaxud “Böyük bir Şərqli”, “Müsəlman dünyasının mümtaz siması” adlandırdığı soydaşımız Ş, C. Əfqani müəyyən etdi ki, İslam şərq xalqlarının tənəzzülə uğramasının birinci səbəbi milli kimlik (mənlik) şüurunu, soykökünü itirməsi, milli dildə təhsil almadığından elmi-intellektual səviyyənin son dərəcə aşağı düşməsi ilə milli vəhdət və hər hansı yaradıcılıq imkanı verməməsi, cahil din xadimlərinin İslamın cövhərini məhv edib onu mövhumata, xurafata çevirməsi idi (**42**).

Ş. C. Əfqani tövsiyə etdi ki, İslam şərq xalqlarını düşdüyü bu vəziyyətdən çıxarmaq, inkişaf etmiş Avropaya çatması üçün hər kəs öz millətinin tərəqqisinə nail olmaq istəyirsə, birinci növbədə özünü tanımalıdır, soyuna, kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır (**42, s.19**).

XIX əsr İslam Şərqində milli azadlıq hərəkatının lideri Ş. C. Əfqani yuxarıda göstərilən müddəalarını kitabları, məqalələri, xalq qarşısında çıxışları, universitetlərdə tələbələrinə söyləməklə yeni ziyalı nəsli yetişdirməyə nail oldu. Onun göstərilən müddəalarının həyata keçirilməsi uğrunda mübarizəyə başlandı. Ş. C. Əfqaninin tələbələri onunla şəxsən təmasda olmuş Ə. Ağaoğlu, yaradıcılığına özlərinin müəllimləri hesab etdiyi Ə. Hüseynzadə onun yuxarıda göstərilən müddəalarını Azərbaycan şəraitinə uyğun “türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)” formasında ideoloji system yaratdılar. Türkləşmək məfhumu ilə onlar tarixi yaddaşı oyadıb, milli mənlik şüurunun bərpası ideyasını, islamlaşmaq anlayışı altında İslam dinini xurafatdan təmizləməklə xalqı həqiqi İslam dini vasitəsilə daha da sıx birləşdirmək, Rus imperiyasının əsarətinə düşmüş türk-müsəlman xalqları arasında birinci olaraq avropalaşmaq - müasirləşmək ideyası ilə Avropanın qabaqcıl elm və təhsilini xalqa mənimsətməyi vəzifə kimi qarşıya qoydular. Azərbaycan türklərini dünya xalqları arasında tarixi mövqeyini bərpa etməsi üçün Ə. Hüseynzadə və Ə. Ağaoğlunun yaratdıqları “türkləşmək, islamlaşmaq, müasirləşmək” ideoloji sistemini M. Ə. Rəsulzadənin rəhbəri olduğu “Müsavat” partiyası xalqa yiyələndirdi. Rus imperiyasının əsarətinə düşmüş türk-müsəlman xalqları arasında birinci olaraq milli mənlik şüurunu bərpa etməklə

Rus imperiyasına qarşı milli azadlıq hərəkatının liderinə çevrildilər (**40, s. 236-237**).

Milli mənlik şüuru, tarixi yaddaşı bərpa etməklə milli həyatın yenidən canlandırılmasında M. Ə. Rəsulzadənin özünəməxsus, daha böyük xidmətləri var. Bəli, tarixdə milli mənlik şüuruna malik heç bir xalqı uzun müddət əsarətdə saxlamaq mümkün olmadığı kimi, bir əsrə yaxın Rus İmperiyasının əsarətində olmuş, təhqir mənasında "tatar" adlandırılan Azərbaycan əhalisi türk milli mənlik şüurunu bərpa etməklə imperiya üçün ramedilməz qüvvəyə çevrildi, mənəvi-sosial həyatın bütün sahələrində tarixi yaradıcılıqlarını ardıcıl bərpa etdilər, nəhayət, 1918-ci il 28 mayda Azərbaycan Cümhuriyyətini elan etməklə dövlət müstəqilliklərini də bərpa etdilər (**7**). Tarixi yaddaşın oyadılması zəminində milli mənlik şüurunun bərpa edilməsi, onun təsiri altında milli hisslərin oyadılması, zamanın tələbinə cavab verən ideyaların yaradılması prosesindəcə istiqlal mübarizəsinə başlayan imperiyanın əsarət zəncirini qıran Azərbaycan türkləri ideoloji vəzifə kimi qarşıya qoyduqları müasirləşmək məqsədini də dərhal və sürətlə həyata keçirdilər. Avropa dövlət quruculuğunun Azərbaycan türk mentalitetinə uyğun ən mütərəqqi strukturlarını, milli dövlət quruculuğunda, insan hüquqları və haqları sahəsində mütərəqqi cəhətləri tətbiq etməklə Şərqdə ilk demokratik dövlətin qurucusu olmaqla bərabər insan hüquqları və haqları sahəsində hətta Avropanın bir çox dövlətlərini qabaqladılar.

1917-ci il oktyabrın 25-də Rusiyada dövlət çevrilişi nəticəsində yaradıcılıq qabiliyyətindən məhrum, dağıdıcı kütlə - manikal, macəraçı liderlərin başçılığı ilə bolşeviklər hakimiyyətə gəldilər. Bu, bəşəri bir fəlakət idi. Bolşeviklər min illər müddətində qurulmuş memarlıq abidələrini, ziyarətgahları, dini məbədləri, məscidləri, yaşayış binalarını "feodal istismarçılar tikmiş" - deyə, bir an belə fikirləşmədən uçurub dağıtdılar. Özlərinə qədər olan bütün keçmişlərinə nifrət edirdilər. Dağıdıcılıqları ilə bəşəriyyətə xoşbəxtlik gətirəcəklərinə inanırdılar. Onlar nəinki keçmiş Rusiya imperiyasını bərpa etmək, rus proletariatının rəhbərliyi ilə bütün dünyanı vahid proletar imperiyasında birləşdirmək istəyirdilər. Bəşəriyyət bu rus proletar taunundan qorxur və vahimə içində mənəvi böhran

keçirirdi. Bolşevik taunundan azadlığı yenicə dadmış Azərbaycanın türk-müsəlman əhalisi də bərk qorxurdu. Axı Rus imperiyasının onlarda məhv etdiyi mənlik şüurunu, mənəvi dəyərləri onlar yenicə bərpa edirdilər. Azad hisslər, azad düşüncə onları yaradıcılığa elə sövq etmişdi ki, Azərbaycanın təbii-tarixi, ruhi gözəlliyini elə sürətlə bərpa edirdilər ki, bu yeni gözəlliyi yaradanlar azqala öz yaradıcılıqlarına inanmırdılar. Bütün insani münasibətlər, quruculuq, Azərbaycanın təbii baharını xatırladırdı. Təbiətin baharı sanki bütövlüklə burda xalqın ruhuna hopmuşdu. Lakin gözlənilmədən qaranlıq 1920-ci il 27 aprel gecəsində rus-bolşevik taunu Azərbaycana daxil oldu. Onlar ilk öncə milli mənlik şüurunun bərpasında təşkilatçı olmuş yaradıcı ziyalıları, mənəviyyat adamlarını, dövlət ordusunu və iqtisadi-siyasi qurucularını məhv etdilər. Ardıcıl olaraq milli mənlik şüurunun strukturunda iştirak edən mənəvi dəyərləri, ideya, əxlaq, dünyagörüş, adət-ənənə, milli və dini bayramları qadağan edə-edə milli iradəni son dərəcə zəiflətdikdən sonra etnik-milli kodu - türk adlandırmasını qadağan etdilər. Artıq bu, milli-mənəvi ölüm hökmü idi. Bütün bunlara dözməyənlər mənəvi sarsıntıdan məhv oldular. Sağ qalanların bir hissəsi bütün bunların mahiyyətini başa düşməyən muzdur, nökər, proletar zümrəsi, bir də mənəviyyatı mədəsində olan yazı adamları idi. Lakin zaman göstərdi ki, milli mənlik onu şüurunda, ruhunda, genində yaşadanlarda olmuşdur. Kommunist Rus imperiyası Azərbaycan türklərinə qarşı məhvetmə siyasətini ardıcıl davam etdirirdi. Nəhayət, çürüməkdə olan imperiya özünü bərpa etmək üçün 1984-cü ildə “yenidənqurma” siyasətinə keçdi, elə bu ildə ilk dəfə bir qrup Azərbaycan ziyalısı türk milli mənlik şüurunu bərpa etmək uğrunda mübarizəyə başladı (**43**). Kiçik bir qrupun milli mənlik şüurunu bərpa etmək uğrunda mübarizəsi Azərbaycanda pərakəndə gedən milli azadlıq mübarizəsinin qısa müddətdə mütəşəkkilləşməsində mühüm rol oynadı. Nəhayət, 1991-ci ildə Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdi. Azərbaycan xalqının 1918-ci il dövlət müstəqilliyi uğrunda mübarizəsində milli mənlik şüurunun bərpasının əhəmiyyəti və rolu haqqında tarixi ədəbiyyatla tanışdırsa, 1991-ci ildə qazandığımız müstəqillikdə milli mənlik şüuru uğrunda mübarizənin əhəmiyyəti,

təsir gücü müasirlərimizin gözü qarşısında özünü göstərdi, xalqımızın böyük əksəriyyəti bu təsiri bilavasitə hiss etmiş, yaşamışdır.

Milli mənlik şüurunun yaşarı xüsusiyyətini, keyfiyyətini diqqətə çatdıran L. Qumilyov dərin elmi axtarışlarının nəticəsi olaraq yazır: **"Yaddaş məhvolmanın əleyhinə çıxış edir; etnosların kollektiv yaddaşı isə elə məhz mədəniyyət tarixidir".** O, sözünə davam edərək yazır: "Tarix yalnız onu bilənə xeyir verir. Əks halda isə obivatelin "sağlam düşüncəsi" cahil təbiətin ram edilməsi kimi məhvedici konsepsiya irəli sürür (**3, s. 364, 367**).

Etnosun yaranmasının vahid forması yoxdur. O, müxtəlif şəraitdə, fərqli mənəvi – ideoloji, sosial – iqtisadi və s. təsirlər prosesində yaranır. Mövcud tarixi etnoloji ədəbiyyatda etnosun yaranması haqqında yekdil fikir ondan ibarətdir ki, hər hansı ərazidə formalaşan mənlik şüuruna, "biz" və "onlar", "bizdən olanlar" və "başqaları", fərqləndirmə şüuruna malik toplum etnos - qəbilə, tayfa, xalq və ya millətdir. Etnoslar etnik-milli mənlik şüuru - yəni etnik-milli adla doğulur, etnik-milli mənlik şüuru – etnik-milli adı unutduqda ölüb, tarix səhnəsindən yox olurlar. Etnik-milli mənlik şüuru – etnik-milli ad etnosun varlığını təsdiq edən yeganə əlamətdir. Etnik-milli mənlik şüuruna, etnik-milli ada malik olmayan insan birlikləri ya etnos inkişaf səviyyəsinə çatmamış əhali, ya da etnik-milli mənlik şüurunu – etnik-milli yaddaşı unutmaqla ölməkdə olan etnosdur. Yuxarıda əsərlərindən istifadə etdiyimiz tədqiqatçıların hamısı bu faktı təsdiq etsə də, bu haqda çoxsaylı faktlar və misallar göstərən L. Qumilyovdur (**3**).

Etnik-mənlik şüuru, etnik-milli ad, "biz" və "onlar" fərqləndirməsi etnosun yaranmasının əsas, yeganə əlaməti olduğu əsas götürülürsə, onda qəbilə etnik birlik - etnos hesab edilə bilməz. Çünki qəbilə etnik şüura, etnonimə, "biz" və "onlar" fərqləndirməsinə malik deyil.

Tarixi ədəbiyyatda mövcud olan yeganə qənaətə görə, insan əcdadının milyon illər davam edən təkamülü, nəhayət, e. ə. 35-ci minillikdə üst paleolitə keçid mərhələsində instiktiv sürü - bioloji həyat tərzindən ayrılmaq istiqamətində inkişaf xətti götürdü. Toplumda bioloji instiktiv münasibətləri tədricən yaranan yeni mə-

nəvi-sosial münasibətlər əvəz etməyə başladı. Tarixi etnoloji ədəbiyyatda bu dövr anaxaqanlığı, toplumun etnososial forması isə qəbilə icması adlandırılır (**44; 45**).

Anaxaqanlığı - qəbilə quruluşu çağında insan əcdadının hələ qədim paleolitdən başlayaraq özünü təbiətlə eyniləşdirərək, totemlər, əcdad kultları yaratmaqda davam edirdilər. Özlərini zamansız və məkansız qapalı (dairəvi) xətt üzrə təbiətlə eyniləşdirməsi, heyvan, bitki, əşya totemlərin varisi, özünü təbiətin bir hissəsi hesab etməsi davam edirdi (**46; 47, 100-101; 24; 25**). Nəhayət, e. ə. IV minilliyin ikinci yarısı III minilliyin əvvəllərində ilk Tunc dövründə, ataxaqanlığa keçid mərhələsində insanın özünü təbiətdən ayırması prosesi başladı, cəmiyyətin dairəvi, qapalı xətt üzrə inkişafı, özünü ancaq təbiətlə eyniləşdirmə istiqamətində axtarışlara son verildi. İnsanlarda ilkin refleksiya baş verdi, onunla birlikdə etnik mənlik şüuru yarandı (**44; 45; 46; 47; 24; 25**). Anaxaqanlıqdan ataxaqanlığa keçid prosesi toplumda yeni sosial-mənəvi keyfiyyətlərlə müşayiyət olunur, toplumu bildirən, ümumi ifadə edən etnonimlər və antroponimlər yaranır. Ana kultu ata kultu ilə əvəz olunur, ata kultu həmçinin etnik başlanğıcı bildirən əcdad kultu kimi də çıxış edir (**44, 150-151; 45, s.175-176**).

Tarixi faktlar göstərir ki, qəbilə quruluşu insanlarında refleksiya hələ baş vermədiyindən etnik mənlik şüuru, etnonim yaranmadığından etnos da yaranmamışdır. İctimai inkişafın bu mərhələsinin etnos adlandırılması ciddi yanlışlıqdır. Tarixdə etnik mənlik şüuruna, onun təsiri altında etnik adlara - etnonimlərə malik ilk etnoslar ataxaqanlığı - tayfa inkişafı mərhələsində yaranır.

Yekun olaraq bildiririk ki, tədqiqatımız zamanı istifadə etdiyimiz elmi-nəzəri ədəbiyyatlar birmənalı deməyə əsas verir ki, bir insanın maddi və mənəvi həyatını tənzimləmək də, özündən kənar varlıqlar arasında yerini tapmaq, onlarla münasibətləri tənzimləməklə özünü reallaşdırması üçün baş beyin nədirsə, onun funksiyası nədən ibarətdirsə, bir etnos - millətin özünü reallaşdırması üçün milli adla təsbit olunan mənlik şüuru həmin funksiyaya malikdir (**3; 8; 9; 48, s. 402-422**).

Bütün dünyada, birinci növbədə regionumuzda baş verən hadisələr, Vətənimizin istiqlalı yolunda həyatlarını qurban vermiş

şəhidlərimizin bütün şəhər, qəsəbə, kənd məzarlarında qara mərmərlər üzərində daşlaşmış baxışlarından Dan ulduzu kimi parlayan arzular, uğrunda həyatını qurban verdikləri ideallar bizi sayıqlığımızı itirməməyə çağırır. Milli iradənin məhz milli adla təsbit olunan milli mənlik şüurundan, tarixi yaddaşdan keçdiyini nəzərə alsaq, bu sahədə səfərbər olmaq hər birimizin vicdan işidir. Bir məqalədə milli mənlik şüurunun bütün aspektlərini yüksək və eyni səviyyədə şərh etmək mümkün olmadığı kimi, etnologiyamızda ilk məqalə olduğundan da çatışmazlığın olması təbiidir. Odur ki, məqaləmizdəki çatışmazlığı aradan qaldırmaq, onun yeni aspectlərini işləmək üçün obyektiv elmi-tənqidi yardım edəcək hər kəsə əvvəlcədən təşəkkürümü bildirirəm.

## Ədəbiyyat:


1. A. A. Bakıxanov. Gülüstani - İrəm. B., 1951.
2. Z. Bünyadov. İki əsrin hüdudunda Azərbaycanda tarix elmi: vəziyyət və perspektivlər. - “Elm və həyat” jurnalı, 1988, N10.
3. L. Qumilyov. Etnogenez və yerin biosferi. B., 2005.
4. X. Xəlilli. Sovet tarixşünaslığı - milli ölüm elmi. B., 2010.
5. A. Əsədov. Siyasətin fəlsəfəsi. B., 2010.
6. Sov. İKP MK Siyasi bürosunun SSRİ və dünya kommunist partiyalarına direktivi. - “Azərbaycan müəllimi” qəzeti, 21 oktyabr 1997.
7. A. Balayev - Məmməd Əmin Rəsulzadə. B., 2011.
8. В. Г. Крыско. Этническая психология. М., 2004.
9. А. П. Садохин. Этнология. М., 2000.
10. Z. T. Qolenkova… Ümumi sosiologiya. B., 2007.
11. Этнография имен. М., 1971.
12. Этническая ономастика. М., 1984.
13. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Psixologiya, B., 2002.
14. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Sosial psixologiya. B., 2003.
15. Ə. S. Bayramov. Etnik psixologiya məsələləri. B., 1996.
16. Ə. S. Bayramov. Psixoloji düşüncələr. B., 1994.
17. Ə. Bayramov. “Kitabi - Dədə Qorqud” dastanlarında etnik – psixoloji xüsusiyyətlərin inikası. B., 2000.
18. Ə. Ə. Əlizadə. Azərbaycan etnopsixologiyasına giriş: problemlər, ilkin araşdırmalar. B., 2003.

19. Ə. Ə. Əlizadə. Azərbaycan güzəran psixologiyası məsələləri. B., 1994.
20. Ю. В. Бромлей. Современные проблемы этнографии. М., 1981.
21. Ю. В. Бромлей. Очерки теории этноса. М., 1983.
22. Ə. Tağıyev. Milli ideya və milli ideologiya: problemlər və onun şərhi. B., 2000.
23. Ə. M. Tağıyev, M. A. Şükürov. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. B., 2004.
24. X. Xəlilli Etnosun ilkin təşəkkül mərhələsi və terminologiyası. – Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri. B., 2014.
25. X. Xəlilli. "Dədə Qorqud" dastanında zaman oxu müstəvisində mifoloji təfəkkürün mərhələləri. - Mədəniyyət: postqeyri – klassika və postmodernizm dövrü. B., 2015.
26. Ə. Abbasov. Milli ideologiya birləşdirici məna - simvolu kimi. – Milli strategiyalar, ideyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. B., 2012.
27. Z. Hacıyev. Fəlsəfə. B., 2001.
28. F. İsmayılov. Dilin metafizikası. B., 2002.
29. E. Kərimov. Azərbaycanda müasir etnik durum. - "Tarix və onun problemləri" jurnalı, 1998, N1 (3).
30. Azərbaycan tarixi. VI cild. B., 2000.
31. R. Qasımova. Azərbaycan xalqının etnogenezi paleoantropoloji və antropoloji (somatoloji) materiallar əsasında (Doktorluq dis. avtoreferatı). B., 1997.
32. R. Qasımova. Azərbaycan xalqının etnogenezinin paleoantropoloji və antropoloji baxımdan öyrənilməsinin yekunları. - "Tarix və onun problemləri" jurnalı, 1998, N1 (3).
33. Свод этнографических понятий и терминов. М., 1988.
34. Ə. Bayramov. Etnik özünüdərketmə. - Kitabi - Dədə Qorqud ensiklopediyası. II cild. B., 2000.
35. Q. B. Bayramov. Milli mənlik şüuru ictimai şüurun komponenti kimi. - Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. – Tarix, fəlsəfə və hüquq seriyası, 1975, N4.
36. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. B., 1993.
37. N. Şəmsizadə. Azərbaycan ideologiyası. B., 1996.
38. Azərbaycan tarixi. I cild. B., 1961.
39. Ə. Əsgər. Oğuznamə yaradıcılığı. B., 2013.

40. X. Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli tarixi. B., 2007.
41. Ş. C. Əfqani. Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., 1996.
42. Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., 1996.
43. К проблеме этногенеза Азербайджанского народа. Б., 1984.
44. М. О. Косвен. Очерки истории первобытной культуры. М., 1953.
45. А. И. Першиц… История первобытного общества. М., 1968.
46. Ф. Х. Кесседи. От мифа к логосу. М., 1972.
47. Г. Д. Гачев. Содержательност художественных форм. Эпос, лирика, театр. М., 1968.
48. Ş. Dədəyev. İnsan orqanizmində psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. B., 2007.
49. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. – "Azərbaycan Respublikası Qanunvericilik Toplusu". 31 avqust 2004-cü il,N8.
50. Ə. Abbasov. Müasir dövrün sosmədəni problemləri. B., 2006.
51. Ə. Tağıyev, M. Şükürov. Etnopolitologiya. B., 2000.
52. Ə. Qəşəmoğlu. Milli, müstəqil dövlətin fəlsəfəsinin qarşısında duran mühüm vəzifələr. – Müasir fəlsəfə və Azərbaycan: Tarix, nəzəriyyə, Tədris. B., 2011, s. 236-246.
53. A. Piriyev. Siyasi strategiya və milli təhlükəsizlik. B., 2005.
54. F. N. Abdullayev. Miqrasiya problemlərinin siyasi aspektlərinin tədqiqi sahəsində yeni formalaşan elmlərarası istiqamət və nəzəriyyələr. – Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri – klassik epistemologiya. B., 2011, s. 353-368.

**Rauf Məmmədov**

## Müasir dünya nizamının maddi-mənəvi meyarları

1991-ci ildə SSRİ-nin rəsmi şəkildə süqutu ikiqütblü dünya nizamının iflası və ABŞ-nın rəhbərliyi altında yeni təkqütblü dünya nizamının, yəni qloballaşma fenomeninin başlanğıcı idi.

SSRİ-nin süqutunun tarixi qanunauyğunluğun tərkib hissələri olan subyektiv və obyektiv səbəbləri olmuşdur. Tarixi qanunauyğunluğun əsas meyarı – insandır. Dövlət, ədalətin nisbi təzahür forması kimi insanın azadlıq şüuru səviyyəsi ilə həmahəng olduğu qədər və onun maddi-mənəvi tələblərinə cavab verdiyi müddətcə mövcuddur. Əks təqdirdə, o, öz funksiyasını itirir. SSRİ-nin maddi sıxıntılarının başında xüsusi mülkiyyətin olmaması, mənəvi problemlərinin başında isə ateizmin təbliği dururdu. İnsanların maddi və mənəvi azadlıq şüuru və ya onların təbii hüquqları ilə dövlətin ədalət prinsipləri arasında ziddiyyət mövcud idi. Məhz, bu ziddiyyət SSRİ-nin öz içindən çökməsinə səbəb oldu. Subyektiv amilləri də bu obyektiv prosesin tərkib hissəsi kimi dəyərləndirmək doğru olardı.

SSRİ-nin süqutunu kapitalizmin sosializm üzərində və ya liberalizmin kommunizm üzərində qələbəsi kimi dəyərləndirmək yanlışdır. Çünki hər iki qütb fərqli ideologiyalar üzərində formalaşan fərqli sivilizasiyaları və ya sosial sistemləri təmsil edirlər. Bu baxımdan, onların hər biri özünəməxsus tarixi təkamül qanunlarına malikdirlər. Onları bir-birindən mütləq şəkildə ayırmaq da yanlış olardı. Çünki onlar arasında oxşar cəhətlər də az deyildir. Bu baxımdan, sosializmin iflası üçün şərait yaradan bəzi qanunauyğunluqların kapitalizm sistemi üçün də qismən keçərli olduğunu düşünmək olar.

Kapitalizm sistemi sosializmdən fərqli olaraq xüsusi mülkiyyətə əsaslanır. Lakin, kapitalizm inkişaf etdikcə, cəmiyyətdə işsizlik artır, gəlir bölgüsündə balans kəskin şəkildə pozulur və davamlı inkişaf prinsipləri ortadan qalxır.

BMT Universiteti Ümumdünya İqtisadi Araşdırmalar İnstitunun dünya zənginliklərinin (aktivlərinin) bölüşdürülməsi ilə bağlı 2000-

ci il elmi-tədqiqat nəticələrinə görə, Yer kürəsinin aktivlərinin 40%-i dünya əhalisinin 1%-nə, yarısı (50%) 2%-nə aiddir (gəlirləri 0,5 milyon dollardan çox olanlar). Yer kürəsinin aktivlərinin 85%-i dünya əhalisinin 10%-nə məxsusdur (gəlirləri 61 min dollardan çox olanlar). 1% göstəricisində amerikalılar 37%, yaponlar 27%, ingilislər 6%, fransızlar 5%, İtaliya və Germaniya 4%, Kanada və Hollandiya 2%, İspaniya, İsveç və Tayvan 1%, yerdə qalan ölkələrdəki insanların cəmi 10% təşkil edirlər. Göründüyü kimi, Yer kürəsinin 90% aktivləri ABŞ, Avropa ölkələri, Yaponiya və Avstraliya arasında, qalan 9%-i Rusiya, Braziliya, Meksika, Polşa kimi 39 orta gəlirli ölkələr arasında, 1%-i isə Afrika və bir çox Asiya ölkələri arasında bölüşdürülmüşdür. Dünyada 2,5 milyard insan, yəni dünya əhalisinin təqribən yarısı gündəlik 2 ABŞ dollarından az gəlirə malikdir. Bu yoxsul əhali kütləsi arasında aclıq, sağlamlıq, təhsil və digər problemlər yaşanır (**1**).

Varlı ölkələr üzrə aktivlərin bölüşdürülməsinə nəzər salsaq görərik ki, burada da gəlir bölgüsündə böyük disbalans vardır. ABŞ-da milli gəlirin 70%-i 10% əhaliyə, Fransada milli gəlirin 61%-i 10% əhaliyə məxsusdur. Yer kürəsinin 125 trilyon ABŞ dolları həcmində olan aktivləri dünya əhalisi arasında bərabər bölüşdürülsə, adambaşına 20,5 min ABŞ dollar düşərdi (**2, 4**).

Məhz bu qeyri-ədalətli gəlir səviyyəsinə görə dövlətlər inkişaf etmiş, inkişaf etməkdə olan və yoxsul üçüncü dünya ölkələrinə bölünürlər. Eyni zamanda da, hər bir cəmiyyətdə insanlar gəlir səviyyəsinə görə az, orta və az gəlirlilərə qruplaşdırılırlar. Lakin maraqlıdır ki, yoxsul ölkələrin əksəriyyətinin təbii sərvətləri bol, zəngin ölkələrin təbii sərvətləri isə azlıq təşkil edir. Əgər söhbət insan resursları ilə bağlıdırsa, zəngin ölkələrin inkişafını təmin edən insan resurslarının böyük bir hissəsini yoxsul ölkələrdən gələn miqrantlar təşkil edirlər. Əgər, söhbət təhsil və elmin inkişafından gedirsə, yoxsul ölkələrin təbii sərvətlərini ələ keçirmək uğrunda müharibə ocaqları yaradan böyük ölkələrin müstəmləkəçilik siyasəti burada nəinki elm və təhsilin inkişafına, hətta insanların yaşamaq uğrunda mübarizəsinə mane olur. Məhz, dünyada hökm sürən bu sosial-iqtisadi durum qloballaşma adı altında tanınan müasir dünya nizamının mahiyyətini təşkil edir.

İşsizlik səviyyəsi dünya miqyasında ilbəil artır. Beynəlxalq Əmək Təşkilatının göstəricilərinə görə, 2014-ci ildə dünyada işsiz əhalinin sayı 201 milyon nəfər idi. 2008-ci ildə iqtisadi böhran ilə əlaqədar olaraq bu rəqəm 170 milyon olmuşdur. Xüsusilə işsizlər arasında gənclərin sayı (13%) nəzərə çarpır. Həmin təşkilatın proqnozlarına görə 2019-cu ildə bu rəqəm 280 milyona çata bilər. Dünyada 1,44 milyard çalışan əhalinin çox az məvaciblə işlədiyi və əmək hüquqlarının kobud şəkildə pozulduğu məlumdur (Onların 75%-i Afrika və Cənubi Asiya ölkələrinə aiddir). Avropa ölkələri ucuz əmək qüvvəsi olan miqrantların axını nəticəsində böyük işsizlik problemi ilə üzləşmişdir (**3**). Bu problemlərin dərinləşməsi, dünyada təhsil və yaşamaq hüququndan məhrum olan yoxsul əhalinin artmasına, həmçinin bu məntiqi nəticəsi olaraq cinayətlərin, terrorizmin, islamafobiyanın, irqçiliyin, faşizmin genişlənməsinə şərait yaradır.

Kapitalizmin inkişafı davamlı inkişafa tərs mütənasibdir. Çünki kapitalist sistemini idarə edən məxfi elita güya öz-özünü idarə edən bazar iqtisadiyyatı arxasında gizlənərək, dünya iqtisadiyyatını FED, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, ÜTT, OPEK kimi transmilli qlobal təşkilatlar vasitəsilə öz mənafeyi istiqamətində idarə edir. Onlar, milli dövlətlərin iqtisadi-maliyyə həyatını nəzarət altında saxlayır, milli dövlətlərin müstəqil iqtisadi siyasət yürütməsinə mane olur, dünya dövlətlərinin dövriyyəyə buraxılan milli valyutalarının həcminə uyğun ABŞ dollarını kreditlə milli banklara yerləşdirir və onların faizlərini mütəmadi şəkildə dəyişdirir, ölkələri özlərindən asılı vəziyyətə salmaq üçün borclarının artırılmasına şərait yaradır, faizlərin miqdarını və neftin qiymətini artırıb azaltmaqla siyasi proseslərə. münaqişələrə təsir göstərən iqtisadi böhranlar yaradır, dünyada bir çox strateji məhsulların istehsalı və ticarəti sahəsində inhisarçılığı qoruyub saxlayır. Bu iqtisadi siyasətin nəticəsi olaraq onilliklərlə tanınan böyük şirkətlər bir anın içində iflas olur, dövlətlər tamamilə müflis vəziyyətə düşərək iqtisadi işğal ilə üzləşir (Yunanıstanda olduğu kimi). Bu sistemə tabe olmaq istəməyən ölkələr isə, iqtisadi sanksiyalar, iqtisadi blokadalar, yeni münaqişə ocaqları ilə üzləşməli olur. Əslində, bazar iqtisadiyyatı adlanan bu sistem dünyanın

iqtisadi resurslarının vahid bir iqtisadi mərkəz ətrafında formalaşmasına və bu sistem içində yaşayan insanın "homo ekonomikus" olaraq özgələşməsinə xidmət edir. Statistik göstəricilər bu sistemin tədricən daha da ifrata vardığına, yəni dünya iqtisadi resurslarının bir qrup insanların əlində cəmləşməsinə, insanların bu qrupun mənafeyi istiqamətində çalışaraq öz həqiqi varlığından ayrılmasına, dünyada yoxsulluğun daha da artmasına, milli dövlətlərin ortadan qalxmasına şərait yaratdığı göz önündədir.

Kapitalizm sistemi daima iflas ilə üzləşir. Lakin, bu sistemin qorunub saxlanmasını təmin edən qüvvələrin əlində əsas qoruyucu mexanizmlərdən biri böyük münaqişələr, yalançı islahatlar, bir-birini zahiri cəhətdən təkzib edən ideologiyalardır (modernizm və postmodernizm kimi). Məhz, münaqişələr böhran durumunda olan sosial-iqtisadi problemlərin və "sosial partlayış" hadisəsinin başqa yanlış istiqamətə yönəlməsinə şərait yaradır. Tarixdə dəfələrlə belə hadisələr baş vermişdir. Məsələn, XX əsrin 20-30-cu illərində baş qaldıran sosial-iqtisadi problemlərin arxasınca faşizmin ortaya çıxması və II Dünya Müharibəsinin başlaması, 40-50-ci illərdə iqtisadi tənəzzül şəraitində olan dövlətlərin Marşal proqramı ilə ABŞ-dan asılı vəziyyətə salınması, 80-ci illərdə neftin qiymətinin aşağı salınması ilə Əfqanıstanda vuruşan SSRİ-nin müflis vəziyyətə salınması və bu gün Rusiyaya qarşı iqtisadi sanksiyalar, neftin qiymətinin aşağı salınması ilə Rusiyanın iqtisadi gücünü zəiflətmək cəhdləri bir daha bu iqtisadi sistemin bir mərkəzdən idarə olunduğunu və konkret olaraq bir qrup insanların mənafeyinə xidmət etdiyini bir daha təsdiq edir.

Kapitalizm sistemi xüsusi mülkiyyəti tanısa da, bu məsələdə ədalət prinsipini ortadan qaldırır. Yəni, mülkiyyət məsələsində ədalət olmadan, onun varlığından bəhs etmək absurddur. Dünyada kapitalizmin inkişafı ilə işsizliyin artması, gəlir bölgüsündə balansın pozulması, davamlı inkişaf prinsiplərinin ortadan qalxması bir daha qlobal kapitalizm sisteminin insanların maddi ehtiyaclarını təmin etmək iqtidarında olmayan ədalətsiz və iflasa məhkum bir sistem olduğunu təsdiq edir. Əgər sosializm sistemi insanları təbii xüsusi mülkiyyət hüququndan məhrum etməklə onları real işləmək, qurub yaratmaq marağından ayırıb kommunizm ideologiyası ilə

onların əməyini bir dövlət olaraq istismar edirdisə, kapitalizm sistemi insanlara xüsusi mülkiyyət hüququ verməklə, onların əməyini müəyyən bir qrupun mənafeyi istiqamətində istismar edir. Hər iki halda insanlar istismar olunaraq yoxsul vəziyyətə düşür və müəyyən bir qrupların maddi maraqlarına xidmət edirlər. Onların özləri üçün qurduqları arzu və planların əksəriyyəti boşa çıxır. Bu baxımdan hər iki sistem insanların maddi tələbatlarına cavab vermir. Sosializmin tənəzzülündə rol oynayan maddi problemlərin eynilə kapitalizmin süqutuna da təsir edəcəyi ortadadır.

Sosializmin tənəzzülündə maddi problemlərlə yanaşı mənəvi problemlərin də rolu böyük olmuşdur. SSRİ-nin süqutu ərəfəsində milli oyanış və dini identiklik məsələlərinin aktuallaşması bunun bariz təsdiqidir. İnsanların şüuraltında onillərlə qapalı qalan mənəvi duyğuların oyanması təbii hal idi. Çünki monoton sosializm ideologiyası bütün insanların mənəvi ehtiyaclarını ödəmək iqtidarında deyildir. SSRİ ərazisində üsyankar ateizmin təbliği onun iflasının əsas səbəblərindən biri oldu. Milli identikliyin "sovet xalqı" identikliyi içində assimlyasiya edilməsi siyasəti ilə yanaşı, dini dəyərlərin təcəssüm olunduğu milli mədəniyyətin sosializm prizmasından dəyərləndirilməsi və təhrif olunması siyasəti də həyata keçirilirdi. Lakin, sovet xalqının qapalı bir sistemdə yaşaması və ictimai bərabərliyə əsaslanan elmi bir cəmiyyətin qurulması ənənəvi milli dəyərlərin qorunub saxlanılmasına və inkişafına qismən şərait yaratdı. Məsələn, Sovet Azərbaycanında azərbaycan dilinə, klassik ədəbiyyata, Muğam musiqisinə verilən önəm, milli mədəniyyətin qorunmasını və onun mahiyyətində mövcud olan İslam məfkurəsinin yaşamasını təmin etdi. Bu milli mədəniyyət batini bir güc kimi zahiri sovet ideologiyasına əks təsir şəklində ortaya çıxdı. Buna görə də, SSRİ dönəmində əksər insanlar üçün milli-mənəvi dəyər zahiri deyil, daha çox batini xarakter daşıyırdı. Bu özünü insanların şüuraltı davranış normalarında, ənənəvi ailə institutunda, insanlararası münasibətlərdə biruzə verirdi. Lakin, bu nəhəng duyğuların qapalı bir sistemdən qurtulub azad olması zərurət idi. Bu zərurət SSRİ-nin süqutu, yəni vicdanın ideologiya üzərində qələbəsi idi.

Bəs sosializm ideologiyasının iflası üzərində bərqərar olan kapitalizmin liberal dəyərləri mövcud mənəvi tələbata cavab vermək iqtidarında idimi?

Kapitalizm sisteminin əsas mənəvi dəyərləri liberal dəyərlərdir. Bura, bazar iqtisadiyyatı, demokratiya, vicdan azadlığı kimi dəyərlər aiddir. Bu dəyərlər, milli-mənəvi dəyərlərin məhdudlaşdırılmasına deyil, əksinə onların azadlığına şərait yaradır. Lakin, bütün mədəni-siyasi sərhədləri ortadan qaldıran qloballaşma prosesi Vatikanın "dinlərarası dialoq" layihəsi çərçivəsində milli mədəniyyəti dünya mədəniyyətinin (İslamı başqa dinlərin), dünya mədəniyyətini də qapalı milli mədəniyyətin içinə (başqa dinləri də İslam dininə) inteqrasiya edərək assimlyasiya siyasəti həyata keçirir. Yəni, liberal dəyərlərə görə bir ölkədə əsrlərlə mövcud olan və əhalisinin 95%-dən çox hissəsinin etiqad etdiyi bir din ilə, həmin ölkəyə təqribən iki-üç əvvəl gəlib yerləşən və icmasının 0,1 % belə tərəfdarı olmayan hər hansı bir sekta ilə hüquqları eynidir. Bu çür sektaların sayı demokratik ölkələrdə göbələk kimi artır və onların bir çoxlarının arxasında xarici kəşfiyyat orqanlarının, böyük dini icmaların dayandığı məlum olur. Belə bir şəraitdə milli-mənəvi dəyərlərin səfərbər edilməsi və onların inkişaf etdirilməsi mümkün deyildir.

Qloballaşma şəraitində təhsil, əmək miqrasiyalarının artması, böyük şəhərlərdə beynəlmiləlçiliyin, qeyri-milli ailə saylarının, boşanmaların artması, fərqli fəlsəfə, əqidə və dinlərin yayılması, qlobal internet şəbəkəsinin gənclər arasında geniş yayılması və digər bu kimi amillər milli-mənəvi mədəniyyətin içindən parçalanmasına və qlobal mədəniyyət içində əriməsinə şərait yaradır. Təbii ki, hər hansı bir dövlətin milli ideologiyası və milli təhlükəsizlik planı olmadan, milli-mənəvi dəyərlərin inkişafı istiqamətində hər hansı bir strategiyası olmadan, mövcud durumda öz varlığını qorumaq mümkün deyildir. Bu strategiyanın təməlində milli-mənəvi dəyərlərin konkret mahiyyəti ortaya qoyulmalı və onun təhsil, media və digər sahələrdə tətbiqinə şərait yaradılmalıdır. Əks təqdirdə, milli dövlətçiliyin bazasını təşkil edən milli-mənəvi dəyərlərin assimlyasiyası labüddür.

Əslində, kapitalizm sistemi üçün din bir konstruksiya, yəni həqiqəti əks etdirməyən bir uydurmadır. Həqiqət məhculdur və onun aranması da axmaqlıqdır. Praqmatiklik odur ki, o maddi mənfəət gətirir. Bu baxımdan mənfəət nisbi həqiqətdir. Kapitalizm sisteminin dinə, mənəvi dəyərlərə baxışı da bu praqmatik fəlsəfəyə söykənir. XIX-XX əsrin sosial-siyasi tarixi göstərdi ki, din, ideologiya böyük mənfəət gətirən fenomenlərdir. Onların vasitəsilə böyük sosial qrupları ayağa qaldırmaq, onları qarşı-qarşıya gətirmək və bu yolla az məsrəf etməklə böyük dövlətləri ordusuz məhv etmək olar. Qərb dövlətləri bu amildən istifadə edərək XIX-XX əsrlərdə və bu günün özündə də müstəmləkəçilik siyasətlərini uğurla həyata keçirdilər. Məsələn, SSRİ-nin dağıdılmasında olduğu kimi, XX əsrin əvvəllərində də Çar Rusiya və Osmanlı dövlətlərinin parçalanmasında panislamizm və pantürkizm ideologiyasından məharətlə istifadə etdilər. Bu günün özündə milli dövlətləri hədələyək onların yerində xilafət qurmaq iddiasında olan terrorçu qrupların, fundamental islamçıların (vəhabilik, nəxşibəndilik, nurçuluq) vasitəsilə Yaxın və Orta Şərqdə, Qafqazda münaqişə ocaqları yaratdılar, bir çox dövlətləri parçaladılar, bir milyondan çox insanın ölümünə, yüz minlərlə insanın evindən didərgin düşməsinə səbəb olmaqda davam edirlər. Əslində, onların maddi dəstəyinə arxalanan terrorçuların xilafət iddiaları ilə qloballaşma siyasətinin parametrləri üst-üstə düşür. Çünki hər ikisinin hədəfi milli dövlətlərin və milli-mənəvi dəyərlərin ortadan qalxması və xaosun, zülmün yaranmasıdır. O zaman, dünyada genişlənən "islam terrorizmi"nin gerçək üzü, onu maddi, texniki və silah baxımdan təmin edən böyük dövlətlərdir. Bunları, müşahidə etmək çətin deyildir. Onlar fundamental islamçılar (vəhabilik) vasitəsilə milli dövlətləri münaqişə yoluyla ortadan qaldırırsa, "dinlərarası dialoq" iddiasında olan mülayim islamçılarla (nurçuluq) milli dövlətləri içindən parçalayır. Əslində, hər ikisində nəticə eynidir.

Bu gün dünyada baş verən hadisələr göstərir ki, gerçək faşizm ölməmişdir. Çünki o, bir zaman Hitler Almaniyasının simasında gizlənmişdirsə, bu gün psevdoislam simasında tarix səhnəsindədir. Bir zaman Almaniya qurban olaraq seçilmişdirsə, bu gün İslam qurban seçilmişdir. Buna görə də, bu gün mövcud

durumdan ən çox əziyyət çəkənlər sadə müsəlmanlardır. Onların düşdükləri durum, kapitalist sistemin mənəvi dünyasının göstəricisidir. Yəni, liberal dəyərlər kapitalist sistemin mənəvi-əxlaqi varlığını örtən bir pərdədən başqa bir şey deyildir. Bunun sübutu, onların başqalarına münasibətdə bu dəyərlərə əməl etməmələridir.

SSRİ-nin süqutunda mühüm rol oynayan ateizm siyasəti ilə kapitalizmin dinə münasibəti dolayı olaraq üst-üstə düşür. Deməli, SSRİ-nin süqutunda bu amil nə qədər rol oynadısa, bir o qədər də kapitalizmin süqutunda bir "qara dəlik" kimi rol oynacaqdır. Bu qaçınılmazdır. Çünki onların yaratdığı psevdoislam "qara dəliyi" kapitalist sistemin üzündəki liberal pərdəni qaldırdı və onun gerçək üzünü dünyaya bəyan etdi. Artıq kapitalizm nəinki Asiyada, hətta Avropanın özündə belə əhəmiyyətini itirməkdədir. Son dövrlərdə Avropada və dünyanın digər yerlərində solçuların fəallaşması və alternativ inkişaf modellərinin axtarışı, kapitalizmin süqutunun yaxınlaşdığını göstərir.

Tarixdə heç bir zaman mütləq dövlət olmamış və heç bir dövlət dünyanı təkbaşına idarə edə bilməmişdir. Bu gün müasir informasiya texnologiyaları və elmi-texniki inkişaf dünyanın fiziki baxımdan kiçilməsinə şərait yaratsa da, mənəvi-mədəni baxımdan dünya çox böyükdür. Biz fərqli mədəniyyətləri nə qədər çox öyrəniriksə, dünya bir o qədər də böyüyərək rəngarəng olur. SSRİ və Qərb dünyasının unifikasyon qloballaşma sistemi dünyanın ağ və qara rənglərdən ibarət olduğunu bizə təlqin etməklə nigilizm əhval-ruhiyyəsini artırır. Son dövrdə artan intihar hadisələrinin kökündə dayanan məsələlərdən biri də budur.

Qərbin bir yandan ortaya qoyduğu postmodernist düşüncə qloballaşma ilə uzlaşmır. Sadəcə, postmodernist məfkurə qloballaşma siyasətinə xidmət edən fraqmentarlığa şərait yaradır. Fraqment qlobal siyasətin alətinə çevriləndə öz funksiyasını itirir. Bu baxımdan, postmodernist düşüncə qloballaşmanın siyasi vasitəsindən başqa bir şey deyildir.

Tarixin digər real qanunauyğunluqlarından biri də odur ki, tarixdə ikiqütblü dünya sisteminin bir tərəfi süquta uğrayanda, digər tərəfi də öz gücünü itirir. Yəni, təkbaşına hökmranlıq etmək istəyən im-

periya dünyanı təkbaşına idarə etmək iqtidarında olmadığı üçün öz içindən müxtəlif qütblərə parçalanır. Sonra müxtəlif qütblər arasında gedən rəqabət nəticəsində dünya nizamı yenidən ikiqütblü sistemə daxil olur. İkiqütblü sistemlər də öz aralarındaki rəqabət nəticəsində tərəflərdən biri müvəqqəti olaraq təkqütblülük mərhələsinə qədəm qoyur. Biz buna tarixdən bir neçə nümunə göstərə bilərik.

Bu gün dünyada təkqütblü qlobal sistemə qarşı təpkilər artır. Qlobal sistemə qarşı BRİCS dövlətlərinin bir araya gəlməsi, Avrasiya Birliyinin və Şanxay Əməkdaşlıq Təşkilatının yaranması, Rusiyanın Yaxın Şərqdə öz hərbi-siyasi gücünü nümayiş etdirməsi, Avropa Birliyi Təşkilatının öz aktuallığını itirməsi, ABŞ-nın beynəlxalq aləmdə nüfuzunun zədələnməsi və bu kimi bir çox qlobal hadisələr dünyada təkqütblü sistemin süquta doğru yaxınlaşdığını və dünyanın çoxqütblü nizama doğru irəlilədiyini göstərir. Hər bir dövlət bu nizamda öz mədəni-mənəvi, sosial-iqtisadi və milli təhlükəsizlik maraqlarına görə öz yerini tapacaqdır.

## **Ədəbiyyat**:


1. http://www.un.org/ru/unforpeople/poverty1.shtml
   http://www.noev-kovcheg.ru/mag/2007-01/512.html#ixzz3nlwBJJ23
3. http://www.ilo.org/wcmsp5/groups/public
4. Миланович Б. Настоящее распределение доходов в мире 1988-1993, Королевское экономическое сообщество, Экономический журнал, 2002, стр. 112, 51-92.

**Həcər Abdallı**

## Müasir cəmiyyətdə informasiya təhlükəsizliyi məsələsi

Müasir dövrdə informasiya təhlükəsizliyi məsələsi mühüm əhəmiyyət kəsb edir. Qərbi Avropa və ABŞ tədqiqatçıları və siyasi xadimləri milli təhlükəsizlik, informasiya təhlükəsizliyi problemləri ilə məşğul olaraq və bu sahədə sanballı nəzəriyyələr və tədqiqat işləri aparırlar. Bu sahəni onlar milli maraqlar, informasiya müharibəsi və informasiya cəmiyyəti aspektində tədqiq etmişlər. H.Kissincer milli təhlükəsizliyin millətin həyat tələbatının ödənilməsindən ibarət olduğunu bildirirdi. “Soyuq müharibə”nin ideoloqlarından olan Bzerjinski isə informasiya müharibələrində yalnız o dövlətin qalib gələcəyini göstərirdi ki, həmin dövlətin informasiyanı toplayan, emal edən və yayan texnologiyaları və təhlükəsiz informasiya məkanı olsun. Müasir dövrdə “noosiyasət” anlayışı meydana gəlmişdir ki, onun əsasını fransız alimi Teyar de Şarden qoymuşdur. Noosiyasət – siyasi hakimiyyətin elə bir formasıdır ki, o, noomühitlə - ən geniş informasiya mühiti ilə,yəni kibermühitlə və infomühitlə (kibernetika və KİV) qarşılıqlı əlaqədə yaranır. Bu istiqamətdə informasiyadan, informasiya texnologiyalarından siyasi konsepsiyaların qurulmasında istifadə etməyi nəzərdə tutur (**1, s.57**). İnformasiya təhlükəsizliyi ilə bağlı bir neçə problem realist və neorealistlərin fərdi nəzər nöqtələri ilə əlaqədardır. Realizm məktəbi informasiya təhlükəsizliyi ilə bağlı danışarkən, təhlükəsizlik anlayışını gücə bərabər tutan mövqeyi müdafiə edir. Bu, informasiya təhlükəsizliyi anlayışına yanaşmalar arasında ən əsassız olanıdır və yalnız dövlətlərin güc əldə etmək üçün savaşdığı dünya müharibələri dövrünə uyğun gəlir. Müasir dünyada informasiya təhlükəsizliyi sistemlərinin artım prosesinin mürəkkəb və çoxtərəfli proses olduğunu nəzərə alsaq, B. Buzanın “İnsanlar, dövlətlər və qorxu” adlı kitabında təsdiq etdiyi kimi, qeyd olunan baxışın tamamilə köhnəldiyini söyləmək. Neorealist nəzəriyyəsinə əsaslanan Buzan informasiya sistemlərinin idarə olunması ilə bağlı ənənəvi realist baxışın zəif nöqtələrinə qarşı çıxırdı .

Realizm informasiya təhlükəsizliyinin idarə olumasında problemlər yaradır, çünki o əsas diqqəti milli informasiya təhlükəsizliyinə yönəldərək və böyük siyasətdən istifadə edərək, böyük güclərin əlaqələrini təmin etməyi nəzərdə tutur (**3, 124**). Belə sistemlər siyasətçilərdən fikirlərinə əsaslanaraq, informasiya təhlükəsizliyi sahəsində milli təhlükəsizlik məsələsini ön plana çəkirlər. Bu, dünya siyasətinin getdikcə artan qarşılıqlı əlaqəsinin dövlətlərarası siyasi təsir və iqtisadi qloballaşma vasitəsilə yanlış anlaşılmasıdır. Burada hətta superdövlətləri belə zəif dövlətlər qarşısında gücsüz vəziyyətdə qoyan aspektlərdən söhbət gedir. Realizmin informasiya təhlükəsizliyi məsələsinə baxışı liberallaşaraq demokratik olmağa çalışan dövlətlərin bütün səylərini boşa çıxarmağa yönəlmiş və bu yöndə inamla hərəkət edən düşüncə sistemidir. Təhlükəsizliyin idarə olunması üzrə bu sistemin ağır fəsadlarını Mirshaymer tutarlılıqla göstərmişdir. Misrhaymerə görə, dünya müharibəsi Almaniyaya qarşı birləşmiş kapitalist dövlətlərin öz informasiya təhlükəsizliyi maraqlarını qoruma istəklərinə əsaslanırdı (**2, c.87**).

Realizmdə informasiya təhlükəsizliyi heç vaxt öz kulminasiyasına çatmır, çünki dövlətlər həmişə başqalarının onlar üçün təhdid olduğunu düşünür. Belə şəraitdə, onlar aqressiv şəkildə başqalarını qabaqlamağa çalışır və bununla həm dünyanı birgə yaşayış üçün həddən artıq təhlükəli edir, həm də informasiya təhlükəsizliyi sistemlərini risk qarşısında qoyurlar. Misal üçün Napoleon dövrünün Fransasını, Vilhelm dövründəki Almaniyanı, ABŞ və Britaniyanın yüksəlişini örnək göstərən Mirshaymer, belə halların fəsadlarının ağır olduğunu, əsas səbəbin isə güc əldə etmək istəyi olduğunu yazır. Dünya informasiya təhlükəsizliyinin belə realistik qavranılması və anarxiya olaraq qəbul edilməsi sözügedən vəziyyətlərin ortaya çıxmasında müştərək rol oynayır. İnformasiya təhlükəsizliyinə realistik baxışa malik olmaqla, dövlətlər tarixə "ilişib qalır" və bir-biri ilə ədavət apararaq, qarşılıqlı şübhə ilə yaşayır, nəticədə isə, inkişafa daha az diqqət yetirirlər. Bu növ informasiya təhlükəsizliyi qavrayışı artıq uğursuqluğa uğramışdır, çünki hökmran dünya dövlətləri də daxil olmaqla, bütün dünya tam müstəqilliyi əldən vermiş və liberalizmin hökmranlığı qaçılmaz

olmuşdur (**2, c.90**). Beynəlmiləl təşkilatların inteqrasiyası, ticarət və qlobal kommunikasiya sahəsində fəaliyyət göstərən beynəlxalq qurumların mövcudluğu informasiya təhlükəsizliyi anlayışına mülayimlik xüsusiyyəti qazandırmışdır və belə şəraitdə sərt güc tətbiqi qeyri-mümkün olmuşdur. Bu fenomenlər neoliberalizm düşüncə tərzinin sürətlə yayılmasına və fərqli motivlər, fərqli yanaşmalarla da olsa, təkrarlanmasına yol açmışdır.

İnformasiyalaşma cəmiyyətin və eləcə də, hər bir fərdin ətraf mühit haqqında elmi əsaslanmış ictimai şüurunun formalaşmasına xidmət edən informasiyalaşma prosesinin səviyyəsinin yüksəldilməsini nəzərdə tutur. Dövlət orqanları və idarəetmə aparatı üçün informatizasiyalaşmanın əsas məsələsi kimi cəmiyyətin müxtəlif sahələrində, o cümlədən həyat səviyyəsinin yaxşılaşdırılması, istehsal səmərəliliyinin artırılması, ictimai – siyasi sabitliyin təmininə xidmət edən informasiya ilə təminatı nəzərdə tutulur. Qlobal informatizasiyalaşma prosesində cəmiyyət təkcə texniki cəhətdən deyil, eləcədə sosial və mənəvi istiqamətdə də dəyişir. Bütün bu dəyişikliklərin nəticəsində də qlobal informasiya məkanı formalaşır ki, nəticədə bəşəriyyət informasiya cəmiyyəti quruculuğu prosesinə qədəm qoyur (**2, c.45**).

İnformasiya cəmiyyəti müasir cəmiyyətin inkişafının qanunauyğun bir inkişaf etapıdır. İnformasiya cəmiyyətinin digər sosial quruluşlardan fərqi ondadır ki, burada insanla ictimai institutlar arasında informasiya mühiti kimi əlaqələndirici çıxış edir. İnformasiya cəmiyyəti informasiya inqilabının nəticəsində formalaşır. İnformasiya inqilabı, yəni yeni informasiya sistemlərinin, informasiya texnologiyalarının yaranması və geniş miqyas alması deməkdir. Elə informasiya inqilabını da vahid informasiya cəmiyyəti yaratdı. Bu elə bir cəmiyyətdir ki, burada milli sərhədlər öz əhəmiyyətini itirir, milli münasibətlər, milli ənənələr əvvəlki kimi nəzərə çarpmır, onlar vahid informasiya məkanında birləşir (**1, s. 75**).

Qlobal informasiya cəmiyyəti ideyasının yaranmasında mühüm addım V.D.Bell tərəfindən 1973-cü ildə buraxılmış

“Gələcək informasiya cəmiyyəti. Sosial proqnozlaşdırma təcrübəsi” əsəri oldu. Bu əsərdə müəllif bəşəriyyətin inkişafını üç yerə bölür: aqrar, industrial və postindustrial. İndustrial cəmiyyətin əsas göstəricisi kimi təhsil, səviyyə, tədqiqat çıxış edir. D.Bell yazırdı: “Hər bir müasir cəmiyyət dəyişikliklər üzərində sosial nəzarət və yeniliklər vasitəsilə yaşayır. O, gələcəyi görmək və planlaşdırmaq istəyir. İnnovasiya xarakterli maarifləndirmə insan cəmiyyətinə mühüm nəzəri biliklər verir”(**1, s. 20**). O,bilik və informasiyanın cəmiyyətin inkişafında katalizator rolunu oynadığını bildirir. İnformasiya cəmiyyəti problemlərinə U.Masudanın öz yanaşması vardır. Onun “İnformasiya cəmiyyəti postindustrial cəmiyyət kimi” kitabı, informasiya cəmiyyətinin prinsip və xüsusiyyətlərinə həsr edilmişdir. Yeni cəmiyyətin özülü kimi kompyuter texnologiyaları çıxış edəcəkdir. Belə cəmiyyətdə əqli əmək daha əsas yeri tutacaqdır. İqtisadiyyatın aparıcı sahəsi kimi intellektual istehsal olacaqdır ki, burada məhsulların yeri telekommunikasiya texnologiyaları vasitəsilə yayılacaqdır. Bəşəri dəyərlər isə dəyişiləcək, informasiya cəmiyyəti konfliktsiz və sinifsiz bir cəmiyyət olacaqdır ki, onu yığcam hökumət və dövlət aparatı idarə edəcəkdir (**5, s.66**) . İngilis alimi T.Stouner isə informasiyanı kapitala bənzədir. İnformasiya cəmiyyətində milli informasiya resursları ən böyük potensial sərvət mənbəyinə çevriləcəkdir. Onun fikrincə , istehsalda əsas yeri xidmət sahəsi tutacaqdır (**1, s. 38**).

Neorealizm isə təhlükəsizlik məsələsinə fərqli yanaşır. B.Buzan informasiya təhlükəsizliyinin beş sahənin – mühit, cəmiyyət, iqtisadi, siyasi və hərbi sahələrin məcmusu olduğunu, həm də sözügedən sahələrin bir-biri ilə qarşılıqlı əlaqədə olduğunu göstərir (**3, c.45**) . Ancaq realizmin yaratdığı unitarlıq və maksimum güc əldə etmə axtarışı ilə bağlı məhdudiyyətlərin yumşaldılması cəhdləri artan təhlükə və risklər ortamında yuxarıda sadalanmış sahələr arasındakı əlaqələrin mürəkkəbliyini artıraraq, informasiya təhlükəsizliyi üçün yeni problemlər yaratmışdır.

Tədqiqatçı R.Hacıyeva yazır ki,tanınmış neorealist Adams, informasiya təhlükəsizliyinin problemlərinin bu tendensiyadan qaynaqlandığını vurğulayaraq, kibeməkan olan interneti müasir dövrdə "döyüş meydanlarının" yenilənmiş versiyasını beynəlxalq səviyyədə təbliğ edən anarxiya sistemi adlandırmışdır (**1, s.39**). Belə münasibətlər informasiya təhlükəsizliyi sistemlərinin yenidən qurulmasında internetə yardımçı olsa da, internetdəki fəaliyyətin tam nəzarətdə saxlanmaması dövlətləri bir-birinə etibarı olmayan və təhlükəsizliklərinə yarana biləcək kənar təhlükələrdən qorxduğu üçün, öz kiber güclərini gizlicə gücləndirməyə çalışan "tənha qəriblər"ə çevirir. İnformasiya təhlükəsizliyindəki yeni problemlərə nümunə gətirən Adams belə hesab edir ki, bütün dünyada hərbi üstünlüyü əlinə almış, informasiya təhlükəsizliyini təmin edən qabaqcıl texnologiyasına arxalanan ABŞ belə kiber hücumlara tam açıqdır və neo-liberalizm dövründə ABŞ-ın informasiya təhlükəsizliyinin risklərə belə açıq olmasının səbəbi elə onun super güc olmasıdır. İnformasiya təhlükəsizliyinin ən böyük problemi onun qorunmasının çətinliyi və risklərin gözlənilməzliyidir. Məsələn, 1998-ci ildə baş vermiş Muunlayt Meyz hadisəsi zamanı qabaqcıl kompüter avadanlıqlarından istifadə edən bir neçə hakerin Amerika dövlət məlumatları bazalarına, o cümlədən, NASA-nın məlumatlar bazasına sızması kodların və müqavilə mətnlərinin oğurlanmasına, gizli sənədlərin və başqa böyük əhəmiyyətli məlumatların aşkara çıxmasına səbəb olmuş, dövlətin təhlükəsizlik sisteminə böyük zərbə dəymişdi. Sonralar aparılmış istintaq işləri ərzində ABŞ yalnız hadisənin Rusiyadan qaynaqlandığını ehtimal etməklə keçinmiş, bu isə, iki dövlət arasında gərginliyin artmasına gətirib çıxarmışdı (**1, s. 56**). Digər bir nümunə kimi, İranın nüvə zavodlarının işini dayandırmaq məqsədilə həyata keçirilmiş "Stuxnet qurdu" haker hücumunu göstərmək olar. Hücumdan sonra aparılmış araşdırmalar onun bir dövlət layihəsi olduğu ehtimalını gücləndirmişdi. Belə hadisələr neorealistlərin, informasiya təhlükəsizliyinin idarəsi sahəsində mövcud olan tam etibarsızlığın səbəb olacağı və diplomatiyanın belə həllində aciz qalacağı böyük böhranla bağlı xəbərdarlıqları ilə uyğun gəlir. Belə ki, dövlətlər onları gözləyən haker hücumlarından qorxduqları üçün, sözügedən

hücumlara qarşı hazırlıq səviyyələrini, güclərini artırmağa çalışırlar. Ancaq hücum edən hakerlərin yüksək səviyyədə qurulmuş sistemləri, hədləri qeyri-məlum olan imkanları qarşısında informasiya təhlükəsizliyi sistemlərinin zəifliyi də göz qarşısındadır. Bu, milli maraqlarını qorumağa ümid edən dövlətlərin öz informasiya təhlükəsizliklərini gücləndirməyə çalışarkən apardıqları “sakit müharibə” nin və “yenidən yüklənmiş realizm”in bariz nümunəsidir.

Neorealizm gerçəliyində informasiya təhlükəsizliyi məsələsi haker təhdidlərinin daha da artdığı, dövlətləri sarsıtmağa başladığı bir anlayışa çevrilməkdədir (**4, s. 29**). Üstəlik, həm dost, həm də rəqib dövlətlər bütün dünyada informasiya təhlükəsizliyi sistemlərini çökdürmək məqsədilə virtual döyüşlərin aparılması üçün silahlandığına görə, sözügedən problemin daha da kəskinləşdiyini söyləmək mümkündür. Neorealizm şəraitində düşmən dövlətlər öz kiber silahlarını gücləndirmək üçün nəhəng məbləğlər sərf edir, beləcə, fiziki müharibəyə ehtiyac olmadan superdövlətlərə qalib gələcəklərinə inanırlar. Burada misal olaraq Çin dövlətini göstərmək olar. Haqqında danışılan meyllərin informasiya təhlükəsizliyi üçün daha böyük problemlər yaratmasının qarşısını almaq istəyiriksə, informasiya sisteminin yaxşı təşkil olunmuş, ciddi nəzarətə ehtiyacının olduğu reallığını qəbul etməkdən başqa yolumuz yoxdur. Bu, hazırki şərait dəyişməyəcəyi halda, informasiya təhlükəsizliyi sahəsində vəziyyətin daha da pisləşəcəyi qorxusunu açıqca ifadə edən Adamsın da verdiyi tövsiyyədir (**5, s. 28**).

XX əsrdə informasiya təhlükəsizliyi istiqamətində aparılan tədqiqatların bir istiqaməti isə qloballaşma və informasiya cəmiyyəti nəzəriyyələri ilə bağlıdır. Qloballaşma prosesi özünü aydın şəkildə son iyirmi ildə göstərməyə başlamışdır. Məhz bu illərdə sosial mövcudluğun formalarından biri olan milli-dövlətçilik formasından qlobal demokratik vətəndaş cəmiyyətinə keçid tendensiyaları üzə çıxmışdır. Qloballaşmanın əsas subyektləri kimi təkcə dövlətlər deyil, eləcədə transmilli iqtisadi birliklər, banklar, iqtisadi – informasiya və idarəetmə ilə məşğul olan təşkilatlar və s. çıxış edir. Müasir dövrdə qloballaşmanın ən mühüm tendensiyası kimi maliyyə iqtisadi sahədə qloballaşma və geniş informatizasiya-

laşma çıxış edir. Qloballaşma hər bir fərdin həyatına təsir etməklə onu dəyişdirməyə başlamışdır. Bu terminin istifadəsi informasiya – kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə bağlı olub, internet şəbəkəsinin cəmiyyətin həyatının müxtəlif sahələrinə böyük təsiri ilə əlaqələndirilməlidir. 2000 – ci ildə Qlobal İnformasiya cəmiyyətinin Okinava xatiyasının qəbulu ilk dəfə olaraq beynəlxalq – hüquqi səviyyədə qlobal informasiya cəmiyyətinin formalaşdırılması fəaliyyətinin hüquqi, siyasi və texniki istiqamətlərini acıqladı. Bu sənəddə qlobal informasiya cəmiyyəti anlayışının mənası birbaşa açıqlanmasa da, ancaq onun xarakterik cəhətləri öz əksini tapdı. Okivana xartiyası və başqa bu tip sənədlər dövlətin fəaliyyətinin daha açıq təşkilinə və ictimaiyyət üçün əlyetərliliyinə nail olmaq üçün milli strategiyaları inkişaf etdirmək problemini gündəmə gətirdi. Bu istiqamətdə aparılan işlərdə informasiya cəmiyyəti haqqında Beynəlxalq sammitin keçirilməsi çox mühüm addım oldu.

Qloballaşma prosesi adətən xalqların bir-biri ilə ənənəvi proteksionist baryerlər və sərhədlərlə ayrılmasının qarşısını alan cəmiyyət və ya bir-bir ilə sıx qarşılıqlı əlaqədə olan dünya kimi xarakterizə olunur. Qloballaşmanın əsas formaları kimi aşağıdakılar göstərilir:

-İqtisadi münasibətlər sferasında qloballaşma;
-Siyasi münasibətlər sferasında qloballaşma;
-Qlobal informasiyalaşma;
-Mədəni – ideoloji qloballaşma(**1, s.115**).

İqtisadi sahədə qloballaşma vahid iqtisadi zonanın yaradılmasını özündə ehtiva edir ki, burada məhsullar, xidmətlər, kapital və ideyalar maneəsiz hərəkət edir. Siyasi sahədə qloballaşma siyasi təmsilçilik institutlarının birgə fəaliyyətinin formalaşdırılmasını, “daxili” və “xarici” konfliktlərin sosial kompromis və qarşılıqlı razılıq əsasında həllini özündə ifadə edir.

Mədəni – ideoloji qloballaşmaya ənənələrin, dinin, mədəniyyət və ideologiyanın vahidləşdirilməsi aid edilir. R.Hacıyevanın fikrincə, informasiya qloballaşmasının əsas amili kimi informatizasiyalaşma çıxış edir. İnformatizasiyalaşma ETİ – nin (elmi texniki inqilab) məhsuludur. Məhz onun nəticəsində insan fəaliyyətinin bütün sahələri böyük dəyişikliklərə məruz qalmışdır. İnformasiya

texnologiyalarının inkişafı və yayılmasının əsas nəticələri aşağıdakılardır:
- inkişaf etmiş ölkələrlə və inkişaf etməkdə olan ölkələr arasında mövcud olan fərqin artması;
- bütün ölkələrdə informasiya texnologiyaları ilə bağlı olan insanlar qrupunnun ayrılması;
- intellektual resursların daha inkişaf etmiş ölkələrə axını ilə əlaqədar post-sənaye ölkələrində və korporasiyalarında informasiya – kommunikasiya potensialının tədricən cəmləşməsi;
-informatizasiyalaşmamış cəmiyyətlərdə elmi-texniki tərəqqinin maliyyə çətinlikləri ucbatında ləngiməsi və nəticədə yeni siyasi oyuncuların formalaşması (**1, s. 97**).

Yaxın 10-20 il ərzində informasiya inqilabları cəmiyyətin idarəedilməsi mexanizminə toxunaraq böyük dəyişikliklər yaradıb. Belə güman edilir ki, etnik dövlətlərin informasiya əsrində sonu qeyri-müəyyən görünür. Onlar surətlə artan informasiya axınları nəticəsində iqtisadi,siyasi,hərbi gücü ilə fərqlənən dövlətlərin təsiri ilə dəyişəcək və belə dövlətlərin mədəni ,siyasi,ideoloji təsirinə düşüb özünə məxsus dəyərlər sistemini itirib yenisini əxz edəcəklər. Belə ki, xırda millətlər etnik dövlətin funksiyalarından aralansalar da, böyük millətlər etnik dövlətin ənənəvi funksiyalarını saxlayacaqlar.

## **Ədəbiyyat**:


1.Hacıyeva R. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin tədqiqinin siyasi aspektləri. Fəls.dok. disser. Bakı, 2015.
2.Ярочкин Б.И Информационая безопасность. М.: Фонд Мир, 2003.с. 638.
3.Расторгуев С.П. Философия информационной войны. М., Политиздат, 2002,с.289.
4.Əliyeva F. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı: Səda, 2008.c. 163.
5. Əbdülrəhmanov N. Milli təhlükəsizliyin informasiya təminatı // Hərbibilik jurnalı, 1998, N 6, s.3-7.

**Zeynəddin Şabanov**

## Sosial sülhün formalaşması həmkarlar ittifaqının başlıca məqsədi kimi

Cəmiyyətin öz inkişafının növbəti mərhələsində sosial sülhə nail olmaq üçün yeni əmək münasibətləri bir daha tərəflərin maraqlarını özündə əks etdirməklə ətraflı işlənir, yeni fikirlər və ideyalarla cilalanaraq insanların mühakiməsinə verilir. Bu münasibətlərin tərəqqisində mühüm və əvəzolunmaz rol isə sosial tərəfdaşlıq tərəfindən reallaşa bilər. Ölkədə demokratik, sivil vətəndaş cəmiyyətinin qurulmasında, hüquqi dövlətin bərqərar olmasında, sosial rifah tərzinin təmin olunmasında və sosial poliloqun formalaşmasında sosial tərəfdaşlıq münbit şərait yaratmaqla Azərbaycanın dünya birliyinin beynəlxalq strukturlarına inteqrasiyasına stimul verir, yeni determinasiya qaydalarını əsaslandırır. Azad rəqabətə əsaslanan iqtisadi münasibətlərin formalaşmasının sürətləndiyi bir şəraitdə sosial tərəfdaşlıq prinsiplərinin həyata keçirilməsi qanunların qəbulu prosesinə təsirsiz ötüşmür, belə ki, son illər əldə olunmuş uğurların sosial tərəfdaşlıqla bağlılığı inkarolunmaz məsələlərdəndir.

Ölkəmizdə sosial sülhün təmin olunmasında sosial tərəfdaşlığın subyektləri - Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası məntiqli və düşünülmüş siyasət yeridir, bütün tərəflərin fövqündə duran və onların maraqlarına cavab verən mühüm bir vəzifəni həyata keçirirlər. Bu üçtərəf arasında bağlanmış Baş Sazişin uğurları və əldə olunmuş yüksək nəticələr tərəflər arasındakı münasibətlərin inkişaf edən xətt üzrə getdiyindən məlumat verir.

Demokratik cəmiyyətdə sosiumun əsas strukturları (iqtisadi, siyasi və vətəndaş) arasında qarşılıqlı təsir çoxaspektli və çoxölçülü xarakter daşıyır ki, o da müxtəlif tipli sosial qarşılıqlı münasibətlər, o cümlədən ictimai tərəfdaşlıq münasibətləri formalaşdırır (**6, 273**).

Cəmiyyətdə vətəndaş sülhünə nail olmaq üçün irəli sürülən sosial tərəfdaşlıq özündə tərəfdaşlığın məqsədinin həyata keçirilmə mexanizmini, danışıq prosesinin qayda və prosedurasını, saziş və müqavilənin yerinə yetirilməsinə nəzarət, sosial tərəfdaşlığın tərəflərinin məsuliyyətini əks etdirir.

Məlum olduğu kimi, sosial tərəfdaşlıq münasibət və əlaqələr, rəsmi və qeyri-rəsmi qayda və prosedurların kifayət qədər mürəkkəb strukturlu elementlər olan sistemini ifadə edir. Qeyd etmək lazımdır ki, biz bu gün artıq cəmiyyətdə sosial qaydanın qorunub saxlanılmasına yönəldilmiş mühüm tənzimləyici funksiyaları yerinə yetirən təsisatları görürük.

Sosial tərəfdaşlığı dəyişən reallıqlara cavab verən sosial idarəetmənin yeni forması kimi də nəzərdən keçirmək mümkündür. Məsələn, əvvəllər işçi idarəetmənin təsir obyekti kimi tanınırdı və onu müvafiq şərtlərin yerinə yetirilməsinə məcbur etmək mümkün hesab edilirdi. Sahibkar, ağa və mülkiyyətçi isə subyekt kimi çıxış edirdisə, sosial tərəfdaşlıq sistemində muzdlu işçi əmək və onunla əlaqədar olan digər sosial münasibətlərin tam hüquqi subyekti kimi çıxış edir. Bu zaman idarəçilik sistemində dəyişiklik aydın şəkildə özünü büruzə verir. Eyni zamanda həm obyekt, həm də subyekt olduğu kimi təzahür etməyə başlayır. Qeyd edilən amil həm işçilərə, həm də dövlət və biznesə şamil olunur. Bu zaman dövlət nəinki öz şərtlərini irəli sürür, həmçinin onun özünə müvafiq tələblər tətbiq edilir. Biznes sahəsində də bu vəziyyətlə rastlaşmaq mümkündür (**3,165**).

Sosial tərəfdaşlığa eyni zamanda cəmiyyətin özünütəşkilinin yeni elementi kimi də baxmaq olar. Real sosial təcrübədə baş vermiş öz-özünə əmələ gələn proseslərin nizama salınmasını güc ilə deyil, məlumat-ünsiyyət vasitəsilə sosial tərəfdaşlıq təsisatları təmin edir.

Sosial tərəfdaşlıq iqtisadi və ya sosial-əmək münasibətləri sahəsi ilə məhdudlaşmır. Onun reallaşması müxtəlif sosial qrupların, təbəqə-

lərin, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının maraqlarını ifadə edən ictimai birliklərin fəaliyyəti prosesində iştirakla müqavilə, razılaşma və siyasi qərarlarla qəbul olunması və yerinə yetirilməsilə əlaqədardır. Onların işlənib hazırlanması və qəbul olunmasında böyük insan qrupları, əmək kollektivləri, yaşayış məntəqələrinin, ərazilərin nümayəndələri iştirak edirlər. Hakimiyyət strukturları hər şeydən əvvəl danışıqların və ya razılaşdırıcı proseslərin təşkilatçıları kimi çıxış edirlər.

Sosial tərəfdaşlıq konstruktiv sivilizasion münasibətləri müxtəlif sosial qrupların, təbəqələrin maraqlarını, onların uzlaşdırılmasının maksimal nəzərə alınmasını və daha mümkün tam reallaşmasını tələb edir. Əks halda onlar sabit sosial-iqtisadi inkişafın, siyasi stabilliyin formalaşmasına, cəmiyyətdə razılığın bərqərar olunmasına səmərəli yardım göstərə bilməz.

Sosial tərəfdaşlıq öz mahiyyəti etibarı ilə cəmiyyətdə konsensus, vətəndaş sülhünün formalaşmasına, müxtəlif qruplar və təbəqələr arasında qarşılıqlı münasibətlərdə gərginliyin azalmasına, bütün səviyyələrdə hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının siyasi birliyinə doğru yönəlmişdir.

Sosial tərəfdaşlıq demokratiyanın inkişafına və dərinləşməsinə, müxtəlif qrup, təbəqə və siniflərin çoxtərəfli maraqlarının uzlaşmasının sivilizasiyalı formasının təsdiqinə, açıq demokratik vətəndaş cəmiyyətinin formalaşmasına səbəb olur (**3,145-146** ).

Sosial tərəfdaşlğın əsas subyektlərindən olan həmkarlar ittifaqları müasir şəraitdə öz funksiya və öhdəliklərinin lazımınca həyata keçirilməsi üçün səyinin artırır. Belə ki, 27 sahə həmkarlar ittifaqı birliyindən 18.610 həmkarlar ittifaqı təşkilatını özündə birləşdirən və üzvlərinin ümumi sayı 1.600.000 nəfəri ötən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) insanların sosial-rifah halının yaxşılaşması, əmək münasibətlərinin tənzimlənməsi, işçilərin sosial-iqtisadi hüquqlarının qorunmasını özünün baş amalına cevirmişdir.

Belə ki, 2015-2016-cü illər üçün də Baş Kollektiv Sazişin həyata keçirilməsi üzrə işləri davam etdirmişdir. Baş Kollektiv Sazişdə əksini tapan əmək, əmək münasibətləri, əhalinin məşğulluğu, əməkhaqqı və əhalinin gəlirləri, təhlükəsizlik və əməyin müha-

fizəsi, əməkçilərin sosial təminatları üzrə məsələlərin birgə həll edilməsi Tərəflərin maraqlarına cavab verir və onların yerinə yetirilməsi ölkənin sosial stabilliyinin qorunmasında əhəmiyyətli amillərdən biridir. Tərəflər Sazişin prioritet məqsədlərini təşkil edən öhdəliklərin icrasına səylər göstərmiş, müəyyən uğurlu nəticələr əldə etmişlər. Bununla yanaşı, bəzi öhdəliklərin yerinə yetirilməsi hələ də davam etdirilir(**1**).

AHİK və üzv təşkilatları işçilərin layiqli əməyini və yaşayışını təmin edən mühitin yaradılmasına, həmçinin qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq əsasında inkişaf etdirilməsinə, əmək münasibətlərinin dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə səy göstərmişlər. Həmkarlar ittifaqlarının fəallığı sayəsində ötən il işəgötürənlərlə 13206 kollektiv müqavilə və 121 saziş bağlanmışdır(**1**).

Hüquqi dövlət quruculuğu yolunda "Həmkarlar ittifaqları haqqında" Qanuna, Əmək Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə edilmiş bir sıra mühüm əlavə və dəyişikliklər müəssisələrdə həmkarlar ittifaqı təşkilatlarının nüfuzunu artırmış, yüzlərlə yeni üzvlərin gəlməsinə şərait yaratmış, minlərlə əməkçinin iş yerini itirməsinin qarşısını almışdır. Bu dəyişikliklər, həmçinin həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətinin güclənməsinə, onların işəgötürənlərdən asılılığının azaldılmasına əsas vermişdir.

Azərbaycanda sosial poliloqu gücləndirmək, onu beynəlxalq normalara uyğunlaşdırmaq məqsədi ilə AHİK-də "Sosial tərəfdaşlıq haqqında" qanun layihəsi hazırlanmışdır. Daimi fəaliyyət göstərən Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Əsasnaməsinin layihəsi ekspertizadan keçirilmək üçün Beynəlxalq Əmək Təşkilatının Azərbaycandakı nümayəndəliyinə təqdim edilmişdir.

Son illər Azərbaycanda aparılan iqtisadi islahatlarla əlaqədar əmək qanunvericiliyi təkmilləşdirilir. Həmkarlar ittifaqları islahatların əmək adamının istismarı hesabına həyata keçirilməsinin əleyhinədir və bu, həmkarlar ittifaqlarının prinsipial mövqeyidir. Bu mövqe Əmək Məcəlləsində edilmiş dəyişikliklərdə və əlavələrdə əksini tapmışdır. İndiyədək AHİK tərəfindən Əmək Məcəlləsinə aid verilmiş 60-dan çox rəy və təklifin əksəriyyəti qəbul

olunmuşdur. Son beş ildə AHİK-in iştirakı ilə 113 qanunvericilik aktı və normativ sənəd qəbul olunmuşdur.

Son 4-5 il ərzində Azərbaycan Respublikası məhkəmələrində həmkarlar ittifaqı hüquqşünaslarının iştirakı ilə 115 əmək mübahisəsinə baxılmışdır. Bunların 55 faizi işçilərin xeyrinə həll olunmuşdur. Bəzi hallarda isə müəssisənin bağlanmasının qarşısı alınmış, iş yerlərini qoruyub saxlamaq, işçilərin pozulmuş əmək hüquqlarını bərpa etmək mümkün olmuşdur. Bu dövrdə 9 min 974 nəfərə təmənnasız hüquqi yardım göstərilmişdir (**1**).

Əməyin və işçilərin sağlamlığının mühafizəsinin həmkarlar ittifaqının prioritet vəzifəsidir (**4, 127**). AHİK-in və üzv təşkilatların bu sahədə gördükləri işlər ictimai nəzarətin gücləndirilməsinə səbəb olmuşdur. 2012-2015-ci illərdə müəssisə və istehsalatlarda 3,2 mindən artıq müayinə aparılmış, əmək qanunvericiliyinin, həmçinin sənaye, ekologiya və sanitar-gigiyena təhlükəsizliyinə dair qanunvericilik tələblərinin 14,1 mindən artıq pozulması faktı aşkara çıxarılmışdır. Həmkarlar ittifaqı orqanlarında əməyin mühafizəsi, əmək şəraitinin yaxşılaşdırılması, istehsalat zədələnmələri və ətraf mühitin problemləri üzrə 668-ə yaxın məsələ müzakirə edilmişdir. Ümumiyyətlə, son beş ildə həmkarlar ittifaqları əməyin mühafizəsi və işçilərin sağlamlığı məsələləri üzrə 40-dan çox qanunverici və normativ aktın işlənib hazırlanması və təkmilləşdirilməsində, əməyin mühafizəsinə dair Beynəlxalq Əmək Təşkilatının iki konvensiyasının ratifikasiyaya hazırlanmasında iştirak etmişdir. AHİK-in təşəbbüsü və iştirakı ilə hazırlanmış "İstehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində peşə əmək qabiliyyətinin itirilməsinin icbari sığortası haqqında" qanun Milli Məclisdə qəbul edilmiş və 2011-ci ilin yanvarından qüvvəyə minmişdir.

Digər qurumlardan fərqli olaraq, müəssisələrdə yaradılmış həmkarlar ittifaqı təşkilatları bilavasitə iş yerində fəaliyyət göstərir və işçilərin problemləri ilə daha yaxından tanışdır. Bu baxımdan Əmək Məcəlləsinin tələblərinin daha çox pozulduğu transmilli şirkətlərin həmkarlar ittifaqlarına qarşı olan münasibətini neytrallaşdırmaq, əməkçilərin təşkilatını qurmaq, kollektiv müqavilə bağlamaq güclü fəaliyyət tələb edir.

Həmkarlar ittifaqları iş yerlərinin açılmasına, işləyən və təhsil alan gənclərin fəallığının təmin edilməsinə, onların rəhbər vəzifələrdə təmsil olunmalarına diqqət yetirir. Son üç ildə Azərbaycanda dövlət qulluğuna qəbul olanların 60 %dən çoxu 30 yaşına çatmamış gənclərdir. Yerli idarəetmə orqanlarında çalışanların 28%ni, ölkənin həmkarlar ittifaqları üzvlərinin dörddə birini gənclər təşkil edir.

Azərbaycan həmkarlar ittifaqlarının ali təhsil ocağının yaradılmasını da vaxtında atılmış düzgün addım kimi qiymətləndirmək olar(**7, 119**). Bu gün hamımıza məlumdur ki, həmkarlar ittifaqı işinin təşkili xeyli dərəcədə güclü kadrların hazırlanmasından asılıdır. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası həmkarlar ittifaqları üçün kadr hazırlığı bazasına çevrilmişdir. Hazırda akademiyada 100-ə yaxın pedaqoqun tədris etdiyi 600-dın çox gənc təhsil alır.

Həmkarlar ittifaqlarının müasir kadr siyasəti ilə bağlı əsas vəzifə sosial tərəfdaşlarla bərabər səviyyədə peşəkar dialoq aparmaq qabiliyyəti olan, əmək adamının sosial-iqtisadi maraqlarını müdafiə etməyi bacaran kadr potensialının formalaşması və inkişafı sistemini yaratmaqdan ibarətdir (**5, 208**).

Həmkarlar təşkilatlarının kadr və fəallarının təhsilinin artırılması işi də diqqətdə saxlanılır. Belə ki, son illərdə 1483 nəfər Akademiyanın tədris kurslarında biliyini artırmışdır. Kurslarda məqsəd bazar iqtisadiyyatı şəraitində əmək adamlarının maraqlarını müdafiə etməyi bacaran həmkarlar ittifaqı liderləri və mütəxəssisləri hazırlamaqdan ibarətdir.

Həmkarlar ittifaqlarının Azərbaycanda hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin və sosial poliloqun formalaşmasında əsas rollarından biri də gənclərin fiziki və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etməkdir. Bu istiqamətdə əsas vəzifələrdən biri də gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, özünəməxsus adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması üçün kompleks tədbirlərin həyata keçirilməsidir.

Cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması riayət edilməsi də əsas prioritetlərdən biri olmalıdır(**6, 183**)

Qanunvericilik aktlarının, dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, hüquqi və fiziki şəxslərin gənclərlə iş sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, gənclərin təhsili, tərbiyəsi, fiziki və mənəvi inkişafı, sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsinə də prioritet verilməlidir(**1**).

Həmkarlar ittifaqlarının təşəbbüsü ilə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, müasir tərbiyə üsullarının praktiki təcrübədə yoxlanılması və tətbiq olunması üçün ölkənin şəhər və rayonlarında yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi klublarının yaradılmasının vaxtı çatmışdır.

Gənclərin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi sahəsində Hİ-da keçirilən kütləvi tədbirlərin səmərəliliyinin yüksəldilməsi yolunda gənclərin və gənclər təşkilatlarının vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyəsi sahəsində layihə və proqramların müsabiqələrinin maliyyələşdirilməsinə və həyata keçirilməsinə kömək göstərilməsi də mühüm vəzifələrdən biridir.

Gənclərin ölkədə fəaliyyət göstərən dinlərə və multikultural dəyərlərə hörmət, tolerantlıq ruhunda tərbiyə olunması, onların mənəviyyatına mənfi təsir göstərə bilən amillərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi, bu məqsədlə tədris prosesində və əlavə məşğələ saatlarında xüsusi mühazirələrin keçirilməsində gənclərin milli-mənəvi və dini dəyərlərə uyğun tərbiyə olunması işinin təkmilləşdirilməsi, mənəviyyata zidd olan amillərlə mübarizədə yeni üsulların işlənməsi və tətbiq olunmasına diqqət artırılmalıdır.

Gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması sahəsində tədbirlər həyata keçirən həmkarlar ittifaqlarına, qeyri-hökumət təşkilatlarına hüquqi və metodiki yardımın göstərilməsi üçün gənclər arasında hüquq pozuntularının, narkomanlığın, QİÇS-in və digər zərərli vərdişlərin profilaktikasına dair metodiki vəsaitlərin

hazırlanması, nəşr edilməsi, təlim və təkmilləşdirmə kurslarının təşkili zərurəti günün tələbinə çevrilmişdir (**2**).

Gənclər arasında cinayətkarlığın azaldılması, cəzaçəkmə müəssisələrindən azad olunmuş gənclərin sosial problemlərin həll edilməsi, onların sosial mühitə uyğunlaşmalarının təmin edilməsi məqsədilə cəzaçəkmə müəssisələrindən azad olunmuş gənclərin sosial reabilitasiyası sahəsində müvafiq tədbirlərin həyata keçirilməsidə sürətləndirilməlidir.

Tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsi, onların yaradıcılıq qabiliyyətinin üzə çıxarılması və inkişaf etdirilməsi üçün tələbə gənclərin bədii-yaradıcılıq festivallarının keçirilməsi üçün müvafiq həmkarlar ittifaqlarında tədbirlərin daha da intensiv davam etdirilməlidir.

Gənclərin məşğulluğunun təmin edilməsi sahəsində onların mövsümi və ictimai işlərə cəlb olunmasina dair təkliflərin hazırlanması, zəruri fəaliyyətin həyata keçirilməsi, "Əmək yarmarka"larının təşkilində xüsusi fəallıq göstərmək (**9, 274**), gənclər arasında işsizliyin aradan qaldırılmasına diqqət yönəldilməlidir.

Gənclərə ailə planlaşdırılması və reproduktiv sağlamlıq sahəsində biliklərin verilməsi, bu sahədə xidmət göstərən mərkəzlərin yaradılması işinin təkmilləşdirilməsi, gənc ailələrin sosial problemlərinin səmərəli həll edilməsi, baş verən proseslərin inkişaf meyillərinin proqnozlaşdırılması üçün gənc ailələrlə bağlı sosioloji-tədqiqat işlərinin aparılmalı və informasiya bankı yaradılmalıdır(**2**). Təəssüflə qeyd etmək lazımdır ki, qarşılıqlı güzəştin olmaması, dialoq mədəniyyətinin lazımi səviyyədə qərar tutmaması nəticəsində son illər gənc ailələr arasında boşanma halları xeyli artmışdır. Statistik göstərcilərə görə hazırda hər 8 nikahdan biri uğursuzluqla nəticələnir Bu boşanmaların səbəblərindən biri də gender bərabərliyi anlayışının gənclər tərəfindən düzgün başa düşülməməsi, onların düzgün maarifləndirilməməsidir.

Gənclərlə işləyən kadrların peşə səviyyəsinin yüksəldilməsi, həmkarlar ittifaqları üçün yeni gənc liderlərin hazırlanması, təşkilat liderləri və tələbələr arasında təcrübə mübadiləsinin aparılmasına

şəraitin yaradılması üçün gənclər təşkilatlarının fəalları üçün xüsusi kurslar təşkil olunmasına ehtiyac vardır(**8, 76**).

Sosial poliloqun əsasını təşkil edən sosial tərəfdaşlıq özündə sosiumun, yəni, dövlət institutları, korporasiyalar, qeyri-kommersiya təşkilatları, sosial qruplar və s., bir çox subyektlərinin qarşılıqlı təsir formasını əks etdirir. Bu forma onlara öz maraqlarını azad ifadə etməyə və onlara sivil reallaşdırma üsullarını müəyyən etməyə imkan verir.

Sosial tərəfdaşlıq artıq sosial poliloqa stimul verməklə həm də sosial qarşılıqlı təsirdir, o, sonuncunun stabilləşdirici və ahəngləşdirici funksiyalarını təcəssüm etdirən mövcudluq formalarından biridir. Bu mənada sosial tərəfdaşlıq cəmiyyətdəki destruktiv, dağıdıcı proseslərə qarşı durur. Sosial qarşılıqlı təsirin formalarından biri olaraq sosial tərəfdaşlıq ictimai əlaqələr məcmusunda geniş miqyaslı xarakter daşıyır və buna görə də ictimai həyatın müxtəlif sferalarında qarşılıqlı təsirinin prioritet forması ola bilər

Bununla əlaqədar olaraq, birincisi, sosial tərəfdaşlığın ictimai həyat fəaliyyətinin yalnız sosial-iqtisadi deyil, həm də siyasi, mənəvi sahələri kontekstində də xüsusi sosial təcrübəsinin təhlili tələb olunur. Belə rakursda həmin problemin həlli Azərbaycanın modernləşməsinin strateji iqtisad mətninin tərkib hissəsi kimi çıxış edir.

İkincisi, bir çox sosial problemlərin həlli bəzən müqavilə əsasında həyata keçirilir. Gələcəkdə bu cür təcrübə nəzərdən keçirilən məsələlər dairəsini genişləndirərək, bu prosesin iştirakçılarının qarşılıqlı əlaqələrini mürəkkəbləşdirib dərinləşdirərək sosial tərəfdaşlığın bütün səviyyələrdə iştirakçılarının qarşılıqlı məsuliyyətləri və qarşılıqlı təsiri haqqında həmin məsələni aktuallaşdıraraq inkişaf edəcəkdir.

Üçüncüsü, müasir Azərbaycan şəraitində dövlət və cəmiyyətin yeni qarşılıqlı təsir modelinin yaranması zərurəti meydana gəlir. Sosial tərəfdaşlıq nəzəriyyəsi bu modeli, həmçinin ölkədə baş verən böhranlı hadisələrin neqativ nəticələrinin qarşısını almağa səbəb olan tədbirlər sistemini işləyib hazırlamağa imkan verir.

Ümumiyyətlə, Azərbaycanda hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşmasında və sosial poliloqun təşəkkülündə nəinki həmkarlar ittifaqları, eyni zamanda hər bir vətəndaş öz imkanları, qabiliyyəti səviyyəsində iştirak edərək öz töhfəsini verə bilməlidir.

## **Ədəbiyyat**:


1. www.ulfet.com
2. 2013-2018-ci illər üçün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin əsas istiqamətləri. Bakı, 2013
3. Qaraşov H. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı, 2015
4. Волгин Н.А. Эффективность социального партнертва. М.:2009
5. Олейникова О.Н. Социальное партнертво в сфере профессионального образования.М.: 2013
6. Гайнуллина Ф.И. Международный опыт развития социального партнерства. М.: 2009
7. Жукова И.Г. Социальное партнертво на муницальном уровне: реальность или декорации. М.: АТИСО, 2007
8. Маниева Р.С. Основы профсюзного движения. Баку, Авропа, 2015
9. Перегудов С.П. Трипартизм и новое социальное партнертво.М.:2009

**Mahrux Nəcəfli**

# Mədəniyyətin kəmiyyət ölçüləri (G. Hofstede modelinə görə)

## Hansı birincidir: iqtisadiyyat, yoxsa mədəniyyət

Yaxın vaxtlara kimi iqtisadçılar iqtisadi proseslərin analizində mədəniyyət faktorunu nəzərə almırdılar.Təbii, bunda mədəniyyət anlayışının dəqiq təyinin olmamasının, anlayışın qeyri-müəyyənliyinin önəmli payı var. Amma tarix boyu ayrı-ayrı xalqların adət-ənənəsi, dini xüsusiyyətlərinin həmin xalqların iqtisadi həyatında böyük rol oynadığını iddia edən müəlliflər də olub.

Klassik iqtisadi nəzəriyyənin banilərі Adam Smit və Con Stüart Mill belə hesab edirdilər ki, bəzən insanların davranışına şəxsi maraq, faydadan çox mədəni faktorlar təsir edir. Karl Marks isə cəmiyyətdə formalaşmış mədəniyyət və iqtisadi münasibətlər arasında səbəb-nəticə əlaqələrini büsbütün dəyişdi. Marksa görə, cəmiyyətdə hakim mədəniyyəti məhz qərarlaşmış texnologiyalar müəyyənləşdirir. “Din istehsal münasibətlərinin əlavə məhsuludur”. Maks Veber isə 1930-cu ildə nəşr etdirdiyi “Protestant etikası və Kapitalizm ruhu” kitabında dini kapitalist cəmiyyətinin əsas inkişaf faktorlarından biri sayır. Veber öz fikrini belə əsaslandırır: İstənilən yeni iqtisadi nizam geniş xalq kütlələrinin etirazı ilə qarşılaşır. Sadəcə iqtisadi stimullar sahibkarı yeni istehsal münasibətləri sisteminə görə davranmağa inandırmaq üçün yetərsizdir. Məhz bu nöqtədə din dövrəyə girir və o, kapitalist münasibətlərinin formalaşmasında böyük rol oynayır. Protestant reformizmi var-dövlət toplamaq və rifahın yüksəldilməsini hər bir xristianın üstünlyü yox, borcu olaraq təbliğ edirdi.

Macar mənşəli tanınmış amerikan-kanada iqtisadçısı Karl Polani 1940-60-cı illər ərzində nəşr etdirdiyi əsərlərində din və mədəniyyəti zaman-zaman bazar qanunları yoluna çıxan “çəkingənlik faktoru” hesab edirdi. Ancaq İkinci Dünya müharibəsi səbəbindən Polaninin ideyaları iqtisadçılar arasında yayıla bilmədi. Elə o vaxtdan iqtisadiyyat elmi modelləşdirmənin riyazi metodlarını inkişaf etdirmək yoluna qədəm qoydu. Mədəniyyət

kimi qeyri-müəyyən, kəmiyyət analizinə gəlməyən anlayışlar bu metodlar üçün gərəksiz hesab edildi.

Mədəniyyəti müstəqil faktor kimi nəzərdən keçirən ilk tədqiqatlardan biri dövlət idarəetmə sahəsi mütəxəssislərindən Edvard Benfildə aiddir. Onun fikrincə, iqtisadiyyatın zəif inkişaf tempi müxtəlif ölkələrin mədəni sistemləri ilə də şərtlənmiş ola bilər. Benfild İtaliyanın cənubunun sənayesi inkişaf etmiş şimaldan geri qalmasını yerli mədəni ənənələrlə əlaqələndirir. Amerikan politoloqu Robert Patnemin 1993-cü ildə irəli sürdüyü hipotezə görə, cəmiyyət nə qədər "altruist"dirsə, burda fəaliyyət göstərən siyasi və dövlət strukturlarının keyfiyyəti o qədər yüksəkdir.

İqtisadi tədqiqatlarda mədəniyyət faktorunu nəzərə almağa yönəli istənilən cəhd iqtisadiyyat və mədəniyyət arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək ehtiyacı doğurur. İqtisadçılar Luici Quizo, Paolo Sapienza və Luici Zinqales sübut edirlər ki, mədəniyyət iqtisadiyyata birbaşa təsir göstərir. Uzunmüddətli perspektivdə isə məhz iqtisadi sistem və istehsal münasibətləri cəmiyyətin mədəniyyətini formalaşdırır. Məsələn, dindar ailələrdə dünyaya gəlmiş uşaqlar, hətta bu dindən uzaqlaşsalar da, bütün ömür boyu müəyyən davranış stereotiplərini saxlayırlar. Müəlliflərin fikrincə, mədəni inkişafda zəif dəyişmələrin səbəbi valideynlərin öz uşaqlarına ata-babalardan aldıqları informasiyanı müasirliyin tələb və düzəlişlərini nəzərə almadan, düşünüb analiz etmədən, necə var elə, olduğu kimi ötürmək cəhdlərindən qaynaqlanır. İtalyan tədqiqatçılar öz fikirlərini əsaslandırmaq üçün Efiopiyadan misal gətirirlər. Efiopiyanın Murzi tayfasının adət-ənənələrinə görə, qadınlar dodaqlarında gildən hazırlanmış bəzəklər daşımalıdır. Dodaqları deformasiya edən daimi ağırlıq nəticəsində qadınların çoxu qabaq dişlərini itirirlər. Bəzi gümanlara görə, zamanında bu adət insan tacirləri üçün tayfa qadınlarını az cəlbedici etmək məqsədi güdürmüş. İndi belə təhlükə olmasa da, adət hələ də saxlanmaqdadır. Görünür, bəzi adətlər öz gərəkliyini itirdikdən sonra da yaşamaqda davam edir.

Quizo, Sapienza və Zinqales insanların bir-birinə nə qədər inanmasını mədəniyyət faktoru olaraq araşdırarkən belə nəticə çıxarırlar ki, iki ölkə arasında qarşılıqlı inam eyni dinə mənsub

olduqları halda yüksəkdir. Aralarında keçmişdə uzunmüddətli müharibə getmiş ölkələr arasında qarşılıqlı inam azdır. Təhsil səviyyəsinin bu məsələyə təsirinə gəlincə, yüksək təhsilli adamlar ümumi inanc və ənənələrə daha tənqidi yanaşırlar.

İnsanların qarşılıqlı inamı iqtisadi inkişaf üçün önəmli faktordur. Qarşılıqlı inamın yüksək olması qeyri-müəyyən şəraitlərdə də iqtisadi əlaqələrin inkişafına, xarici sərmayənin axınına şərait yaradır. Əhalinin müxtəlif qrupları iqtisadi reallıqlara və qənəatcilliyə fərqli münasibət nümayiş etdirir. Məsələn, katoliklər dindar olmayan ailələrə münasibətdə öz uşaqlarını 3,8%, protestantlar 2,7% daha çox qənaətcilliyə öyrədirlər. Hinduist və buddistlər üçün bu göstərici 7,2%, yəhudilər üçün 6,4% təşkil edir.
ABŞ-da keçirilən bir sorğu maraqlı nəticələr üzə çıxarıb. Gəlirlərin yenidən zənginlərdən kasıblara doğru bölüşdürülməsi fikrini Afrika mənşəli amerikanlar ingilis-sakson mənşəlilərlə müqayisədə 20% çox dəstəkləyir. Kanada, Latın Amerikası mənşəli və hindli amerikanlar Afrika mənşəli amerikanlarla eyni fikirdədir. Yapon mənşəli amerikanlar isə belə bir yenidən bölüşmə ideyasının ən qatı əleyhdarlarıdır.

İllinoys universitetinin antropologiya professoru Sonya Salamon 1840-cı illərdə ABŞ şəhərlərində birgə yaşamış Almaniyadan gəlmə katoliklər və ingilis-sakson protestantları müqayisə edir. Almanlar demək olar ki, heç vaxt torpaq sahələrini satmırdılar və hətta yerli yankilərlə müqayisədə daha çoxuşaqlı ailələrə malik idilər. Almanlar taxıl əkib-becərməyə meylli idilər. İngilis-saksonlar isə fermer təsərrüfatlarını bir biznes olaraq görür, torpağı alıb-satırdılar. İngilislər taxıllardan daha az zəhmət tələb edən qarğıdalı əkirdilər. Bu ailələrdə uşaqların sayı da az idi. Almanların təsərrüfat üsulu az gəlir gətirsə də, çoxuşaqlı olma sayəsində bu üsulu bir əsrdən çox yaşada bilmişdilər.

## Mədəniyyəti ölçmək mümkündür?

Hazırda mədəniyyəti iqtisadi inkişafın önəmli faktoru olaraq önə çıxaran xeyli nəzəriyyə meydana çıxıb. Onlardan biri də Niderland sosioloqu Geert Hofstedenin mədəniyyətin ölçüləri nəzəriyyəsidir.
Geert Hofstede yəhudi əsilli, ixtisasca maşınqayırma mühəndisi, sosial psixoloqdur. Onun iş bioqrafiyası əvvəlcə sənaye, sonra da

akademik sfera ilə bağlıdır. 1980-ci ildə “Mədəniyyətlərin doğurduğu nəticələr” – Culturre’s Consequences(son nəşr 2001-ci ilə aiddir) nəşr olunduqdan sonra mədəniyyətlərin müqayisəli tədqiqinin banisi sayılır. Onun ideyaları bütün dünyada tanınır. Tələbələr üçün yazdığı “Mədəniyyətlər və təşkilatlar: şüurun proqramlanması” (Cultures and Organizations: Software of the Mind,1991) hazırda 16 Avropa dili və 3 Asiya xalqı dilində nəşr olunub.

Mədəniyyətin parametrik modelinin ilkin ideyaları 2 kitabda – ***Mədəniyyətlərin doğurduğu nəticələr*** (1980) və 1983-cü ildə nəşr olunan 50 ölkə və 3 regionda mədəniyyətlərin ölçüləri öz əksini tapır. Tədqiqat üçün əsas olaraq İBM şirkətinin müxtəlif ölkələrdə olan bölmə əməkdaşları arasında keçirilmiş anket sorğuları götürülüb. Bu sorğularda 116 min adam iştirak edib. Cavablar 5 ballıq sistemlə qiymətləndirilib, sonra orta göstərici çıxarılıb. Orta ölçüyə görə hər göstəricinin öz indeksi hesablanıb. Orta ölçüdən 3 rəqəmi çıxılıb, alınan nəticə 25 dəfə artırılıb və ona 50 əlavə olunub. Yəni cavablar 5 ballıq sistemdən 100 ballıq sistemə köçürülüb. Keçmiş SSRİ-yə aid məlumatlar standart metoda görə yox, dolayı ölçülərlə hesablanıb. Daha sonra ölkələrin sayı 70-ə çatdırılıb.

Hofsede mədəniyyətin yeni anlayışını verir: “Mədəniyyət şüurun kollektiv proqramlanması, bir qrupu digərindən fərqləndirəndir. Bu hadisə hər zaman yığıcı xarakter daşıyır, amma onun bağlı olduğu icmalar bir-birindən fərqlənir” (**1, s.8**).

Mədəniyyət termini çox vaxt antropologiyada tayfa və etnik qruplara münasibətdə, politologiya, menecment və sosilogiyada millətə münasibətdə, sosiologiya və menecmentdə təşkilatlara münasibətdə işlənir. Peşəkar qrupların mədəniyyəti nisbi az araşdırılmış sahə olaraq qalır. Bu termini gender, yaş, sosial qruplara münasibətdə də istifadə etmək olar. Ancaq biz bir sosial stratdan digərinə keçəndə mədəniyyət anlayışının tam fərqli təbiəti ilə qarşılaşırıq. Sosial, milli və gender mədəniyyətləri uşaq yaşlarından formalaşmağa başladığından peşəkar qrup mədəniyyəti ilə müqayisədə şüurda daha dərin kök salır. Mədəniyyət cəmiyyətdə çox vaxt dərkolunmamış formada dəyərlərdə

"gizlənmiş" olur. Təşkilatlarda mədəniyyət isə daha çox praktikada kök salır.

**Mədəniyyətlərin təsnifatı: konseptual parametrlər**

XX əsrin ikinci yarısından etibarən bir çox müəllif ictimai problemlərdən danışarkən mədəniyyətin kvantitativ tədqiqi parametrlərindən çıxış edir. Sosiumların təsnifatı çox vaxt iqtisadi inkişaf səviyyəsi və müasir standartlara uyğunluq məsələsinə görə aparılır. Sosiumların ənənənvi cəmiyyətlərdən müasirlərədək bu cür birölçülü təsnifatı XIX-XX əsrlərə xas tərəqqi ideyasına tam uyğundur. Şüurun kollektiv proqramlanmasında iqtisadi inkişaf, təbii ki öz əksini tapır. Amma bu parametrlər mədəniyyətin digər ölçülərini kölgədə qoymamalıdır. Mədəniyyətin iqtisadi inkişaf ilə əlaqəli olmayan ölçüləri də var.

XX əsrin 70-ci illərində Hofstede təsadüfən 50-dən çox ölkədən dəyərlərlə bağlı məlumat bazası ilə qarşılaşır. İBM şirkətinin filiallarının çoxunda sosial sorğu 4 il fasilə ilə 2 dəfə keçirilmişdi. 100 mindən çox sorğu kitabçası ilə işləyən Hofstede fərdlər səviyyəsində təhlil əsasında heç bir məntiqli nəticə əldə edə bilmir. Ölkə səviyyəsində korrelyasiya sxemləri isə yeni nəzəriyyənin yaranması ilə nəticələnir. Müəllif milli mədəniyytləri səciyyələndirmək üçün əvvəlcə 4 parametr müəyyənləşdirir. Daha sonra başqa sosioloqların da, xüsusən, bolqar linqvisti və sosioloqu Mixail Minkovun araşdırmalarını da bu sistemə qatmaqla mədəniyyətin 6 kəmiyyət "ölçüləri"ni dəqiqləşdirir.

Hofstedeyə görə 6 parametr bunlardır:

1.Hakimiyyətin distansiyalılığı (güc aralığı) fundamental insan bərabərsizliyi məsələsinin şərhi ilə bağlıdır;

2.Qeyri-müəyyənlikdən yayınma – ictimai gərginlik və qeyri-müəyyən gələcəyi gözləmə ilə bağlıdır;

3.Individualizm/kollektivizm – fərdin ilkin qruplara inteqrasiyası ilə bağlıdır;

4.Maskulinlik/femininlik – qadın və kişilər arasında emosional rolların bölüşdürülməsi ilə bağlıdır;

5.Uzunmüddətli/qısamüddətli yönlənmə insan fəaliyyəti üçün diqqət mərkəzinin seçilməsi ilə bağlıdır – gələcək, indi və ya keçmiş;

6.İstəklərə müsəmma (izin verməк)/təmkinlilik.

Hər bir ölkə digəri ilə müqayisədə parametrik təsnifatda öz yerini tapır. Ölçülən parametrlər statistik fərqləndirilə bilər və öz aralarında hər cür mümkün yolla kombinasiya yarada bilirlər. Bəzi kombinasiyalar başqaları ilə müqayisədə daha çox müşahidə olunur.

Aşağıda Hofstede sistemində bu 6 parametrə görə başlıca fərqləri göstərən cədvəllər təqdim olunur:

Cədvəl 1

**Güc aralığının az və ya çox olduğu sosiumlar arasında 10 fərq**

| Güc aralığının az | Çox olduğu toplumlar |
|---|---|
| Hakimiyyətin tətbiqi qanuna əsaslanır və xeyir-şər meyarından istifadə edir; | Hakimiyyət cəmiyyətin əsasıdır, xeyir və şərdən öncə gəlir. Onun qanuni olub-olmamasının önəmi yoxdur; |
| Valideynlər uşaqları özlərinə bərabər tutur; | Valideynlər uşaqları müti öyrədirlər; |
| Yaşlı nəsil qarşısında nə qorxu, nə də həyəcan var. | Yaşlı nəslə qorxu və həyəcanla yanaşırlar; |
| Təhsil şagirdə yönəlidir; | Təhsil müəllimə yönəlidir; |
| İerarxik pilləkən rolların bərabərsizliyi kimi qavranır; | İerarxik pilləkəndə yer bərabərsizliyin özü ilə əlaqələndirilir; |
| Tabelər onlardan məsləhət alınmasını gözləyir; | Tabelər onlara nə etmək gərəkdiyini söyləmələrini gözləyir; |
| Çoxpartiyalı sistemlər, seçki və sülh yolu ilə dəyişən hakimiyyət; | Kooptasiya prinsiplərinə əsaslanan və inqilabi yolla dəyişdirilən avtokratik hakimiyyətlər; |
| Korrupsiya az müşahidə olunur, siyasi karyera və skandallar xarakterikdir; | Korrupsiya çoxdur, skandallar gizlədilir; |
| Gəlirlərin bölüşdürülməsi kifayət qədər bərabər xarakter | Gəlirlərin qeyri-bərabər bölgüsü var; |

| | |
|---|---|
| daşıyır; | |
| Dini ayinlər möminlərin bərabərliyini vurğulayır; | Dini ayinlər din xadimləri ilə iyerarxiyada yerinə yetirilir. |

Hakimyyətin distansiyalılığı indeksi 2010-cu ildə ata,oğul Hofsedelər və Minkovun birgə müəllifliyi ilə nəşr olunan kitabda (**2**) 76 ölkə üçün müqayisəli təqdim olunur. Şərqi Avropa, Latın Amerikası, Asiya və Afrika üçün bu indeks yüksək, alman və ingilisdilli ölkələr üçün yüksək deyil.

Qeyri-müəyyənlikdən yayınma- Bu, risqdən qaçış demək deyil. Bu parametr cəmiyyətdə çoxmənalılığa münasibəti göstırir. O, gözlənilməz situasiyalarda mədəniyyətin öz üzvlərinə hansı dərəcədə sakitlik və ya narahatlıq verdiyini sərgiləyir. Reqlamentləşdirilməmiş situasiyalar yeni, bilinməyən, gözlənilməzdir. Qeyri-müəyyənlikdən qaçan ölkələr belə vəziyyətlərin meydana çıxmasını ciddi davranış normaları, qanun və qaydaların köməyi ilə önləməyə çalışırlar. Onlara görə, ancaq bir Həqiqət var və onlar ona malikdirlər. Tədqiqatlar göstərir ki, bu ölkə insanları daha emosionaldır və bu, daxili əsəbi enerji ilə müşayiət olunur. Əks tip – qeyri-müəyyənliyə imkan verən mədəniyyətlər adət etdikləri fikirdən daha fərqlilərə qarşı daha dözümlüdürlər. Qaydaları azdır. Fəlsəfə və din sahəsində empirik təcrübə və relyativizmə əsaslanırlar, müxtəlif fikirlərin birgə, yanaşı mövcudluğuna imkan verirlər. Bu mədəniyyətlərə aid insanlar daha fleqmatik və müşahidəlidirlər.

Qeyri-müəyyənlikdən yayınma indeksinin az və çox olduğu ölkələr arasında 10 fərq

Cədvəl 2

| Aşağı indeksli | Yüksək indeksli |
|---|---|
| Cəmiyyət həyat axarında meydana çıxan qeyri-müəyyənliyi qəbul edir, hər bir gün olduğu kimi qəbul edilir; | Qeyri-müəyyənlik təhlükə kimi qəbul edilir, onunla mübarizə aparırlar; |
| Yüngüllük, aşağı gərginlik, özünə nəzarət; | Yüksək gərginlik, emosionallıq, neyrotizm; |

| | |
|---|---|
| Normadan sapan şəxs və davranışa qarşı səbrlilik. Fərqli olan maraqlıdır; | Normadan sapmaya qarşı dözümsüzlük. Fərqli olan təhlükəlidir; |
| Nizamsızlıq və çoxmənalılıq zamanında sakitlik; | Aydınlıq və struktur dəqiqliyi tələbi; |
| Müəllimlər "Mən bilmirəm" deyə bilər; | Müəllimlər bütün sualların cavablarını bilməlidirlər; |
| Yazılı və yazılmamış qaydaların qəbul edilməməsi; | Qaydalara əməl edilmədiyi hallarda belə onlara canatma; |
| Siyasi həyatda vətəndaşlar özlərini rasional düşüncə sahibi sayır və onlara qarşı münasibət də belədir; | Siyasi həyatda vətəndaşlar rasional düşünmədiklərini güman edir və qarşı tərəfin də onlara münasibəti belədir; |
| Din, fəlsəfə və elmdə relyativizm və empirik yanaşma; | Din, fəlsəfə və elmdə son həqiqətlərə inam və böyük nəzəriyyələr gözlənilməsi; |
| İş dəyişmək problem deyil; | Adamlar gördükləri işi, iş yerini sevməsələr də, onu saxlamağa meyllidirlər; |
| Sağlamlıq və rifah halından az şikayət. | Sağlamlıq və rifah halı ilə bağlı şikayətlərin çoxluğu. |

Hofsede 2010-cu ildə nəşr olunan kitabda (2) qeyri-müəyyənlikdən yayınma indeksi 76 ölkə üçün müqayisəli araşdırılır. Şərqi və Mərkəzi Avropada, Latın Amerikası və almandilli ölkələrdə bu indeks yüksək, ingilisdilli ölkələr, Şimali Avropa və çin mədəniyyətində aşağıdır.

Individualizm/kollektivizmə qarşı fərdin yox, cəmiyyətin xarakteristikasıdır. Individualist cəmiyyətlərdə fərdlərarası əlaqələr möhkəm deyil. Hər kəs özünə və yaxın ailəsinə cavabdehdir. Kollektivist cəmiyyətlərdə insanlar doğulandan güclü, möhkəm qruplara aiddirlər. Ailə geniş anlamda – dayı, xala, nənə, baba hamısı bilikdə - başa düşülür. Bu qruplar sözsüz tabelilik qarşılığında onları qoruyurlar.

Cədvəl 3

| İndividualizm | Kollektivizm |
|---|---|
| Özü və yaxın ailəsi üçün məsuliyyət; | Uşaqlar böyük klan və ailədə doğulur; |
| Mən şüur; | Biz şüur; |
| Şəxsi həyat hüququ; | Qrupa aidliyin ifadəsi; |
| Normaların pozulması günah hissi doğurur; | Normaların pozulması ayıb, utanc hissi doğurur; |
| Qarşıya qoyulan məqsəd qarşılıqlı münasibətlərdən daha vacibdir; | Qarşılıqlı münasibətlər qarşıya qoyulan məqsəddən daha vacibdir; |
| Şəxsi fikri ifadə etmək normal hesab edilir; | Harmoniyanı saxlamaq daha vacibdir; |
| Başqalarına münasibət ayrıca şəxsiyyətlərə münasibət deməkdir; | Başqalarına münasibət öz və ya başqasının qrupuna münasibət deməkdir; |
| Təhsilin məqsədi necə oxumağı öyrənməkdir; | Təhsilin məqsədi necə davranmağı öyrənməkdir; |
| Bu cəmiyyətdə hər kəsin öz fikrini ifadə etməsi gözlənilir: hər kəs öz düşüncəsinə görə səs verir; | Rəy və səsvermə mənsub olduğun qrup tərəfindən müəyyənləşdirilir; |
| Nitqdə *mən* əvəzliyini işlətmək zəruridir. | Nitqdə *mən* əvəzliyindən qaçılır. |

2010-cu ildə nəşr olunmuş kitabda (**2**) 78 ölkə üçün bu göstərici üzrə nəticələr müqayisə olunur. İnkişaf etmiş Qərb ölkələrində individualizm göstəricisi yüksək, az inkişaf etmiş və Şərq ölkələrində bu göstərici aşağıdır. Yaponiya bu indeksə görə orta mövqedədir.

Maskulinlik/femininlik sosial xarakteristikadır, gender qrupları arasında dəyər bölgüsünü ifadə edir.

Cədvəl 4

| Femininlik | Maskulinlik |
|---|---|
| Gender qrupları arasında minimum rol differensiasiyası müşahidə olunur; | 2 gender qrupu arasında emosional rolların maksimum differesiasiyası var; |
| Həm qadın, həm kişi əxlaqlı və qayğıkeş olmalıdırlar; | Iş ailədən yüksəkdə durur; |
| Uşaqların konkret və emosional tərbiyəsində həm ata, həm ana iştirak edir; | Atalar konkret işlə, analar emosional tərbiyə ilə məşğuldurlar; |
| Oğlanlar da qızlar kimi ağlaya bilər, amma heç bir halda dalaşmamalıdırlar; | Qızlar ağlaya bilər, oğlanlar yox; |
| Ailədə uşaq sayını ana müəyyənləşdirir; | Ailənin ölçüsünü ata müəyyənləşdirir; |
| Seçkili orqanlarda çoxlu qadın var; | Seçkili orqanlarda qadın azdır; |
| Din din qardaşlarına yönəlidir; | Din Allaha və ya allahlara yönəlidir; |
| Seksuallığa normal münasibət. Bu, qarşılıqlı münasibət formasıdır; | Seksuallığın əxlaq nöqteyi-nəzərindən qiymətləndirilməsi |
| Ailə və iş arasında tarazliq var; | Iş ailədən yüksəkdə durur; |
| Zəiflərə simpatiya. | Güclülülərə heyranlıq. |

2010-cu ilə aid kitabda (**2**) 76 ölkədə femininlik/maskulinlik göstəricisi üzrə müqayisə aparılıb. Yaponiyada, almandilli ölkələrdə, Meksikada maskulinlik dərəcəsi yüksəkdir. İngilisdilli Qərb ölkələrində də vəziyyət belədir. Skandinaviya və Hollandiyada maskulinlik dərəcəsi aşağıdır. Bu göstərici bəzi roman ölkələri – Fransa, İspaniya, Portuqaliya və Çilidə, bəzi Asiya ölkələrində - məsələn, Koreya və Tailandda nisbətən yüksək deyil.

Uzunmüddətli/qısamüddətli yönlənmə. Mədəniyyətin bu ölçüsü ilk dəfə 23 ölkədən olan tələbələr arsında keçirilən sorğu əsasında müəyyənləşdirilmişdir. Sorğunun təşkilatçıları çinli tədqiqatçılar-

dır. Tarixi konfusiçiliklə bağlı bütün ölkələr şkalanın bir qütbündə toplandıqları üçün araşdırmaların aparıcı müəllifi Maykl Harris Bond onu "konfusiçilik dinamizmi" adlandırır. Bu parametr, sən demə, müasir iqtisadi artımla güclü korrelyasiyadadır. İBM-lə bağlı araşdırmadan ön görülən 4 parametrdən heç biri iqtisadi artımla əlaqədar olmamışdır.

Qısamüddətli yönlənmədə - qarşılıqlı sosial vəzifələr, ənənələrə hörmət, "simanı itirməkdən qorxmaq" kimi keyfiyyətlər önə çıxır.

Uzunmüddətli/qısamüddətli yönlənmə parametrinə görə sosiumlar arasında fərq.

Cədvəl 5

| Qısamüddətli yönlənmə | Uzunmüddətli yönlənmə |
|---|---|
| Ən vacib həyati məsələlər keçmişdə baş verib və ya hal-hazırda baş verməkdədir; | Ən vacib həyati məsələlər gələcəkdə baş verəcəkdir; |
| Şəxsiyyət sabit və stabildir: yaxşı adam həmişə belədir; | Yaxşı adam vəziyyətlərə uyğunlaşır; |
| Xeyir-şərlə bağlı hamının həmfikir olduğu təsəvvürlər var; | Xeyir, şər və həqiqət situasiyadan asılıdır; |
| Ənənələr müqəddəsdir; | Ənənələr şərtlərin dəyişməsindən asılı olaraq dəyişə bilər. |
| Ailə quruluşunun əsasında qürur hissi dayanır; | Ailə sisteminin əsasında ümumi məsələlər dayanır; |
| Səndən öz ölkənə görə qürur hissi gözlənilir; | Başqa ölkələrdə oxuma cəhdi; |
| Vacib məsələ başqa adamlara xidmət məsələsidir; | Vacib keyfiyyətlər iradəlilik və qənaətcillikdir; |
| Sosial ehtiyac  və xərclər; | Böyük pul ehtiyatı, sərmayə üçün vəsait toplanması; |
| Təhsildə uğur və ya uğursuzluq bəxtigətirmə ilə əlaqələndirilir; | Uğur - əməyin, uğursuzluq – kifayət qədər çalışmamanın nəticəsidir; |
| Geri qalmış ölkələrdə yavaş | Sürətli iqtisadi artım rifah halına |

| | |
|---|---|
| iqtisadi artım və ya onun yoxluğu müşahidə olunur. | çatdırır. |

Uzunmüddətli yönlənmə Şərqi Avropa ölkələri, Şərqi və Mərkəzi Avropa ölkələrində müşahidə olunur. Qısamüddətli yönlənmə Avropanın cənubu və şimalında, eləcə də Cənubi Asiyada müşahidə olunur. ABŞ, Avstraliya, Latın Amerikası, Afrika və müsəlman ölkələri də bu qəbildən ölkələrdir.

Hofstede nəzəriyyəsində 6-cı parameter müsəmma/ təmkinlilik adlanır və o, toplumların öz istək və arzularına nəzarət dərəcəsi ilə bağlıdır. Bu parametri nəzəriyyəyə bolqar sosioloqu Minkov daxil edib. Bu göstərici də ÜDİ-nin təhlilinə əsaslanır və az və ya çox dərəcədə uzunmüddətli/qısamüddətli zaman yönlənməsini tamamlayır. Faktik olaraq o, sonuncu ilə mənfi korrelyasiyaya malikdir.

İstəklərə müsəmma göstərmə, yəni izin vermə əsas və təbii insani ehtiyacların kifayət qədər azad təmin edildiyi cəmiyyətlərə xasdır.

Təmkinlilik o sosiumlara xasdır ki, tələbatların ödənməsi nəzarətdə saxlanılır və ciddi ictimai normalarla idarə olunur. Hofstede araşdırmalarında bu parametrə görə nəticələr 93 ölkəni əhatə edir. Aşağıda təqdim olunan cədvəldə bu parametrə görə sosiumlar arasındakı bəzi fərqlər açıqalnır.

| Müsəmma | Təmkinlilik |
|---|---|
| Özünü xoşbəxt hesab edən adamların sayca çox olması; | Çox xoşbəxt adamlar azdır; |
| Öz-özünlə istədiyin kimi rəftar edə bilərsən düşüncəsi; | Köməksizlik hissi, sənlə baş verənlər sənin davranışının nəticəsi deyil; |
| Söz azadlığının vacibliyi; | Söz azadlığı əsas qayğı deyil; |
| Asudə vaxtın böyük əhəmiyyəti; | Asudə vaxtın az önəmi; |
| Yüksək təhsilli ölkələrdə daha yüksək doğurqanlıq səviyyəsi; | Yüksəktəhsilli ölkələrdə daha aşağı doğurqanlıq səviyyəsi; |
| Müsbət emosiyaların xatırlanması daha böyük | Müsbət emosiyaların xatırlanması daha az |

| | |
|---|---|
| ehtimallıdır; | ehtimallıdır; |
| Daha çox insan aktiv idmanla məşğul olur; | Daha az insan fəal idmanla məşğul olur; |
| Kifayət qədər yeməyin olduğu ölkələrdə artıqçəkili adamların çoxluğu; | Kifayət qədər yeməyin olduğu ölkələrdə artıqçəkili adamların azlığı; |
| İmkan çoxluğunda seksual davranış normaları daha azaddır; | İmkan çoxluğunda seksual davranışşın daha ciddi normaları; |
| Ölkədə nizam-intizam birincidərəcəli məsələ deyil. | 100 min nəfərə düşən polis sayı daha çoxdur. |

Müsəmma – istəklərin azad təmin edilməsi Şimali və Cənubi Amerika, Mərkəzi Avropa və bəzi Afrika ölkələri üçün xarakterikdir. Şərqi Avropa, Asiya və müsəlman dünyasında təmkinlilik üstünlük təşkil edir. Aralıq dənizi Avropası isə bu parametrə görə orta göstərici nümayiş etdirir.

Bolqar sosioloq Mixail Minkov daha sonrakı araşdırmaların nəticələrini 2011-ci ildə təkrar nəşr etdirdiyi ***Qloballaşan dünyada mədəni fərqlər*** (**4**) kitabında verir. Ölkələr üzrə ayrıcalıq/universalizm və monumentalizm/hərəkətli itaətlilik (flexumility) yeni mənbələrə də əsaslanmaqla – 86 ölkə üçün ayrıcalıq, 43 ölkə üçün monumentalizm göstəricisi üzrə yenidən dəyərləndirilir. Hofstede sistemindəki müsəmma/təmkinlilik parametri bir az dəyişdirilərək əməksevərlik/müsəmma olaraq yenidən adlandırılır.

Minkov bu kitaba sosial sorğu nəticələrinə deyil, ölkələrin cinayət nəticəsində həyatını itirmiş adam sayı, QİÇS-lə yoluxma, yeniyetmə yaşda hamilə qalma, aşağı orta İQ (aşağı təhsil səviyyəsi ilə izah olunan intellektuallıq amili) səviyyəsinə görə statistik məlumatlarını təhlil əsasında yeni bir parameter – yaxıngörmə/ehtiyatlılıq parametrini daxil edir. "Yaxıngörmə" (Minkov tibbdən götürdüyü bu terminlə açıq neqativ qiymətləndirmədən qaçmaq istəyir) parametrini 80 ölkə üçün araşdırır və bu

göstəricinin ayrıcalıq/monumentalizm parametri ilə güclü korrelyasiyasını üzə çıxarır.

Bəs dünyanın sürətlə dəyişməsi ilə mədəniyyətin parametrik modeli arasında necə bir korrelyasiya var? Hofstedeyə görə, dəyişmələr be metodun səmərəliliyini heç də azltmır. Əksinə, be modelin köməyi ilə dəyişmələrin daxili məntiqini açmaq, eləcə də nəticələri öngörmək mümkündür. Bəzi müəlliflər Hofstede parametrlərinin sayını artırmağı təklif edirlər. Məsələn, Triandis GLOBE layihəsi çərçivəsində bu parametrlərin sayını 18-ədək artırmağı təklif etmişdi. Amma əlavə edilmək istənən parametrlər məzmunca çox vaxt məlum parametrlərlə qismən və ya tamamilə üst-üstə düşürlər. Üstəlik, sosiologiyada çoxdan qərarlaşmış epistemoloji arqumentə görə, bu parametrlərin sayı çox olmamalıdır. Bu parametrlər, ölçülər real deyil, bizim şüurumuzun mürəkkəb gerçəkliyi anlamaq üçün "uydurduğu" anlayışlardır. Miller məşhur məqaləsində (**5**) bu cür kateqoriyaların sayının 7 üstəgəl, çıx 2 olmasının doğruluğunu əsaslandırır.

Parametrlərin sayının artırılması informasiyanın işlənməsində dolaşıqlıq yarada bilər.

Parametrik model çərçivəsində mədəniyyət hansısa parametrin şkalasında göstəriciləri dəyişə bilər. Tənqidçilərin fikrincə, Hofstedenin ötən əsrin 70-ci illərində İBM şirkətində aparılan sorğular əsasında gəldiyi nəticələr köhnəlib. Ancaq nəzərə almaq lazımdır ki, parametrik göstərici hər hansı ölkənin mütləq mövqeyini deyil, çoxlu başqa ölkəyə münasibətdə nisbi mövqeyini ifadə edir. Parametrlərin cəmiyyətin əsas problemləri ilə əlaqəsi və bu məsələləri milli həll yollarının analizi göstərir ki, parametrlər öz doğruluğunu uzun müddət qoruyub saxlaya bilirlər. Yeni texnologiyalar xarici təsir sayılır və bütün ölkələrə təsir edir. Nəticədə onların nisbi mövqeyi və ya statusu dəyişmir. Bir ölkənin mədəniyyəti dəyişirsə, başqa ölkələrin də mədəniyəti dəyişir və beləcə nisbət qorunmuş olur. Amma bəzən elə də ola bilər ki, hər hansı bir ölkə başqa ölkələrin üstündən "hoppana" bilər. Amma bu, nadirən təsadüf olunan hadisədir. Misal olaraq Çini göstərmək olar. Bu ölkədə nisbi izolyasiyadan sonra bir neçə on ildir davam edən iqtisadi yüksəliş, dünya strukturlarına inteqrasiya, xüsusən, gənc

nəsildə irəliləyişə səbəb olmuşdur. Amma bunun ciddi metodoloji tədqiqat çərçivəsində sübuta ehtiyacı var.

Bəzi müəlliflər yeni texnologiyaların inkişafı ilə sosiumların bir-biri ilə bərabərləşməsini iddia edirlər. Texnologiyaların yaxşılaşdırılması mədəni dəyişmələrin önəmli hərəkətverici qüvvəsidir və müxtəlif cəmiyyətlərdə bənzər hadisələr doğurur. Amma bunun başqa parametrlər üzrə fərqləri aradan qaldırması haqda heç bir sübut yoxdur. Əksinə, cəmiyyət mövcud dəyər yönlənməsi bazasında texniki modernizasiyayla üz-üzə qaldığında, bu, fərqlərin güclənməsinə gətirib çıxara bilər.

Hofsedeyə görə, mədəniyyətin mahiyyətcə dəyişə bilməsi üçün 50-100 il kimi önəmli bir zaman sürəsi, ya da çox dramatik xarici olayla sarsılması lazımdır. Mədəniyyətlər arasında XX əsrin əvvəllərində müşahidə olunan fərqlər bu əsrin sonunda da vardı, eləcə də XIX-XVIII əsrlərdə də nəzərə çarpırdı və çox güman ki, 2100-cü ilə qədər və hələ daha bir müddət də davam edəcək.

Hofstedenin araşdırmalarına Azərbaycan cəlb olunmayıb. Belə bir tədqiqata ehtiyac varmı, bu araşdırmanın nəticələri necə faydalı ola bilər?

Əvvəla, Hofstede modelini, nəzəriyyənin eksperimental hissəsi ilə bağlı verilər bankını akademik təşkilatlar sərbəst şəkildə, heç bir qarşılıq ödəmədən Hofstedenin internet səhifəsində əldə edə bilər. Yeganə tələb modelə yaxşı bələd olmaqdır. Hofstede özü parametrlər düzgün tətbiq olunmadığı təqdirdə yanlış nəticələr doğura biləcəyini, xüsusən, bu istiqamətdə aparılmış 118 araşdırmanın nəticələrinin düzgün olmadığını qeyd edir. Üstəlik, nəzərə almaq lazımdır ki, bu ölçülər nisbi xarakter daşıyır və yalnız başqa mədəniyyətlərlə müqayisədə özünü doğruldur. Nəzəri olaraq, araşdırma aparmadan da Azərbaycanda bu indekslər üzrə göstəriciləri təxmini gümanlaşdırmaq olar. Xalqımızın xüsusiyyətlərini nəzərə alsaq, güc aralığı, qeyri-müəyyənlikdən yayınma, təmkinlilik parametrləri üzrə orta göstəricinin üzərində, individuallıq, uzunmüddətli zaman yönlənməsi, maskulinlik parametrləri üzrə orta göstəricinin altında bir qiymət gözləmək olar.

Məlumdur ki, Hofstede modeli təşkilatlara münasibətdə daha dəqiq işləyir. Xüsusən, əcnəbi iş adamlarının tanımadıqları ölkələrlə iqtisadi əlaqələr qurmağa çalışdıqları zaman bu model çox gərəkli ola bilər. Maraqlıdır ki, qonşu Türkiyədə Ərdoğan hökuməti siyasətə biznes idarəetmə üsullarını gətirdi və Türkiyə iqtisadiyyatının Çindən sonra ikinci sürətlə böyüyən iqtisadiyyat olması bu qərarın doğruluğuna işarədir. Hofstedenin Türkiyə üzrə araşdırmaları iqtisadi inkişafla korrelyasiyada olan heç bir parametrə (individuallıq, uzunmüddətli yönlənmə, maskulinlik) görə yüksək nəticə üzə çıxarmır. Deməli, mədəniyyətin kəmiyyət ölçüləri ilə iqtisadiyyatın inkişafı arasında əlaqədə başqa faktorların da önəmli rolu var. İqtisadçılar xüsusən, böyük korrupsiya, inhisar olan ölkələrdə işadamlarının çəkingən davranışını məntiqli hesab edirlər.

**Ədəbiyyat**:


1. Hofsede, Geert (2011), Dimensionalizing Cultures: the Hofstede model in context. Online readings in Psychology and Culture, Unit 2, http: / scholarworks.gvsu.edu/orpc/vol2issi/8).
2. Hofsede, Hofstede, Minkov (2010), Cultures and Organizations: Software of the Mind;
3. Hofsede&Bond, (1988) The Confucius connection: from cultural roots to economic growth;
4. Cultural differences in a Globalizing World: Minkov 2011
5. Miller, G.A. (1956) The magical number seven, plus, or minus two: Some limits on our capacity for processing information. İn Psychological Review, 63, 81-97


**Ağasəlim Həsənov**

## İdeoloji təhlükəsizlik milli təhlükəsizliyin vacib aspekti kimi

Müasir şəraitdə ideoloji təhlükəsizlik öz aktuallığı ilə fərqlənir. İdeoloji təhlükəsizlik anlayışının məzmununu aydınlaşdırmaq üçün ilk öncə milli təhlükəsizlik anlayışına nəzər yetirmək lazımdır.

Milli təhlükəsizlik mürəkkəb bir anlayışdır. Milli təhlükəsizlik milli müstəqilliklə başlayır və milli maraqlara söykənir. Milli təhlükəsizliyin bir sıra aspektləri vardır: siyasi , hərbi, iqtisadi, informasiya, ideoloji təhlükəsizlik və s. Ölkənin milli təhlükəsizliyi bütövlükdə milli suverenliklə birbaşa bağlıdır. Milli təhlükəsizliyin qarşısında duran başlıca vəzifələr bunlardır: a) ölkədə mövcud konstitusiya quruluşunun saxlanılması; b) sosial-siyasi sabitliyin saxlanılması; v) daxildən və xaricdən ola biləcək təhlükənin aradan qaldırılması; q) ölkənin iqtisadi qüdrətinin artırılması; d)konstruktiv daxili və xarici siyasətin yeridilməsi; e) demokratik dəyərlərin qorunması; c) siyasi məqsədlərin həyata keçirilməsi naminə dinc və qeyri-dinc vasitələrdən istifadə edə bilmək; z) qloballaşma şəraitində sivilizasiyalararası dialoqun aparılması və s.

Milli təhlükəsizliyin ən vacib aspektlərindən biri ideoloji təhlükəsizliklə bağlıdır. İdeoloji təhlükəsizlik ilk öncə ölkə daxilindəki milli və konfessional azlığa göstərilən tolerantlıqla və millətlərarası münasibətlərin uzlaşdırılması ilə əlaqədardır. Müasir dövrdə qloballaşma prosesi milli-azadlıq hərəkatı uğrunda gedən mübarizələrə yeni çalarlar vermiş, milli-etnik proseslərin yeni balansını meydana çıxarmışdır. Bu yeni meyilləri əldə bayraq edən bəzi siyasi qüvvələr separatçılığa yeni milli müstəqillik hərəkatı rəngini verməyə və ondan öz məqsədləri üçün istifadə etməyə çalışırlar.

Milli təhlükəsizlik milli maraqları müxtəlif cür təhlükələrdən: real və potensial (ehtimallıq dərəcəsinə görə bir-birindən fərqlənən), təbii, geosiyasi, etnik, dini, texnogen və sosial (mənşəyinə görə), daxili və xarici (istiqamətinə görə), qlobal, regional və məhəlli (miqyasına görə) təhlükələrdən, təhdidlərdən, risklərdən (təsir dərəcəsinə görə) müdafiə olunmasını nəzərdə tutur.

Milli dövlətlər üçün milli təhlükəsizlik və onun əxlaqi-ideoloji aspektləri ən mühüm problemlərdən biridir. Məsələn, ABŞ-da Milli Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların xüsusi təsir gücü vardır. Bu Şura ilə ABŞ-ın ən məşhur alimləri əməkdaşlıq edirlər. Azərbaycan da son illərdə ideoloji təhlükəsizlik problemləri geniş şəkildə öyrənilir, bu sahədə elmi-tədqiqat işləri aparılır. Bir sıra ali

məktəblərdə «ideoloji təhlükəsizlik» üzrə xüsusi kurslar yaradılmış, bu problem üzrə elmi-nəzəri konfranslar və seminarlar keçirilir. Müasir dövrdə əksər ölkələr dini-ideoloji təhlükəsizliyə xüsusi önəm verirlər. Qeyd edək ki, heç bir din, o cümlədən islam cəmiyyət üçün təhlükə mənbəyi deyil. Lakin bəzi hallarda müəyyən qüvvələr bu ad altında dövlət və cəmiyyət üçün təhlükə mənbəyinə çevrilirlər.

Azərbaycanda dünyəvi, demokratik cəmiyyət quruculuğu prosesində dini-mənəvi dəyərlərə qayıdış baş versə də islamın hakim ideologiyaya çevrilməsinə yol verilmədi, sivil dövlət quruculuğu prosesində bütün ümumbəşəri dəyərlərdən, xalqımızın milli mentalitetinə, mənəviyyatına uyğun cəhətləri götürüb tətbiq etmək əsas götürüldü. Bu baxımdan ölkədə milli ideologiya kimi formalaşmaqda olan azərbaycançılıq ideologiyası digər xalqlara və millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq islam dininin buyurduğu kimi qardaşlıq, dostluq əlaqələri yaradılması zərurətini diqqətə çatdırır, dinlərarası münaqişələrə yol verilməməsini, İslam dini-mənəvi dəyərlərinin dirçəldilməsinin dövlət ideologiyası və mənəvi tərbiyə sahəsində nəzərə alınmasını tələb edir.

Dini-ideoloji təhlükəsizliklə hər bir dövlətin öz xüsusi siyasəti olmalıdır. Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycana gələn xristian, hinduizm və radikal müsəlman təşkilatları verilən azadlıqlardan sui-istifadə edərək, vətəndaşlarımızın dini mənsubiyyətini dəyişməyə, casusluğa sövq etməyə, hərbi sirləri öyrənmək kimi çirkin niyyətlərə əl atmağa başladılar. Belə missionerlərin yarıtmaz dini təbliğatı ölkəmiz üçün milli təhlükə mənbəyinə çevrilməsi narahatlıq yaratmaya bilməzdi. Bu dini təriqətlər ilk vaxtlar fəaliyyət sferasına Azərbaycandakı azsaylı etnik xalqların nümayəndələrini cəlb edirdilər. Lakin Qarabağ müharibəsi, işğal olunmuş ərazilərin qaçqın düşmüş əhalisinin vəziyyəti, bəzi dövlət strukturlarının belə vacib məsələyə laqeydcəsinə yanaşması, bu üzdəniraq təşkilat və missionerlərin ölkəmizin müsəlman əhalisi arasında da öz çirkin əməllərini həyata keçirmələri üçün əlverişli şərait yaratmışdı. Həm də nəzərə almaq lazımdır ki, həmin vaxtlar ölkədə bu dini təriqətlərin ibadət

və məşğələlər üçün istənilən binanı icarəyə götürmək imkanı var idi və onların bütün respublika ərazisində hərəkət etməsinə heç bir məhdudiyyət yox idi. Müharibədən, siyasi qarışıqlıqdan, iqtisadi vəziyyətdən cana doymuş insanlar isə hər şirin sözə müsbət reaksiya verirdilər. Artıq 1990-cı illərin əvvəllərində xarici dini missionerlər xüsusən Bakı və Gəncə şəhərlərində gənclərdən və ziyalılardan istifadə etməklə insanları islamdan qoparmağa başlamışdılar. Burada bir məsələni qeyd etmək lazımdır ki, bəzi fikirlərə görə ölkəmizdə din sahəsində canlanma yaranmasının islam fundamentalizminə səbəb olacağı haqda deyilənlərin perspektivi yoxdur. Müstəqillik illərində insanların öz dininə qaydışı baş verdi, bunun başqa cür yozulması həqiqətdən kənardır. Lakin, onu qeyd etmək lazımdır ki, bəzi xoşagəlməz hallar da yox deyil. Məsələn, son vaxtlar soydaşlarımızın Suriyada gedən döyüşlərə qoşulması yolverilməzdir. Bu fakt artıq həm dövləti, həm də cəmiyyəti ciddi narahat edir və ideoloji təhlükəsizliyin hələ də aktual olduğunu göstərir. Digər bir problem Ermənistanla sərhəddə və Qarabağın işğal edilmiş ərazilərinə yaxın bölgələrdə yaşayan əhalinin müharibə şəraitinə uyğun davranışı ilə bağlıdır. Əhalinin bu sahədə davranışını qənaətbəxş hesab etmək olmaz. Son dövrlər atəşkəs rejiminin daha intensiv pozulması və bununla əlaqədar sosial şəbəkələrdə məsuliyyətsiz informasiyaların dolaşması həmin bölgələrdə yaşayan əhali arsında çaşqınlıq yaratdı. Xüsusən, Azərbaycana məxsus hərbi texnikanın hərəkət istiqamətinin və sayının internet portallarında yer alması düşmən ölkə üçün əvəzolunmaz informasiya rolunu oynadı. Bu qeyd olunanlar Azərbaycan vətəndaşları arasında ideoloji və hərbi təhlükəsizliklə bağlı müəyyən problemlərin oldluğunu göstərir. Bu istiqamətdə əhali ilə iş aparmaq zərurəti yaranıb ki, bu da ümumdövlətçilik maraqlarına xidmət edir.

Bütün bu qeyd etdiklərimiz Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, vahid milli ideologiyanın inkişaf etdirilməsi, respublikanın ərazi bütövlüyü və milli-ideoloji təhlükəsizliyin qorunması baxımından cox əhəmiyyətlidir. Belə bir şəraitdə cəmiyyətin əxlaqi-ideoloji vəhdətinin vacibliyi ön planda olmalıdır. Xüsusən, Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz

qaldığı bir şəraitdə cəmiyyətlə dövlətin ideoloji vəhdəti olduqca zəruridir.

Milli dövlət quruculuğu zamanı milli-ideoloji təhlükəsizliyin mahiyyətini milli maraqlar təşkil edir. Dövlət və ya milli-dövlət maraqları kimi özünü göstərən milli maraqları «cəmiyyətin üstün maraqlarına zidd olmamaq şərtilə dövlətin milli ehtiyatının artırılmasını stimullaşdırmaq ehtiyacı, həmçinin milli-ideoloji təhlükəsizliyə qarşı hər hansı bir təhlükəyə əks-təsiri kimi müəyyən etmək olar» (**6, s.34**).

Milli təhlükəsizliyin ideoloji aspekti o zaman əhəmiyyət kəsb edir ki, özündə əks etdirdiyi ümumi ideyalar sistemi ilə milləti birləşdirmiş olsun. İdeologiya millət, dövlət, cəmiyyət və fərd, müxalifət-iqtidar maraqlarını birləşdirməklə milli-ideoloji təhlükəsizliyi təmin edə bilər. Millət fenomeninə ümumi, vahid yanaşmanın mövcudluğu şəraitində bu olduqca zəruridir.

Azərbaycanın milli-ideoloji təhlükəsizliyi ilə sıx bağlı olan Dağlıq Qarabağ probleminə aid beynəlxalq miqyasda qəbul olunan sənədlərə iki müstəvidə yanaşılır:

1) Əxlaqi müstəvidə və ya adi şüur səviyyəsində;
2) Hüquqi müstəvidə, formal məntiq səviyyəsində (**2, s. 337**).

Dövlət özünün təhlükəsizliyi və möhkəmlənməsi naminə fiziki və ideoloji vasitələrlə öz seçimini bütün cəmiyyətə qəbul etdirə bilər. Birləşdirici ideya -ideologiya vətəndaşları birləşdirməyə qadirdir.

Hazırda milli-ideoloji təhlükəsizlik, onun metodları, uğurları və möhkəmləndirilməsi zərurəti daha da aktuallaşıbdır. Azərbaycan milli təhlüksizlik nəzəriyyəsi bir çox problemlərin həlli sahəsində çalışır: milli təhlüksizliyin dövlət ideologiyası yaradılmış, dövlət ideologiyası ilə cəmiyyətin dəyərləri və ideoloji prinsiplərinin əlaqələri möhkəmlənmiş və bu proses getdikcə güclənməkdədir.

Cəmiyyətlə ideoloji səviyyədə əlaqəsi olan dövlət milli təhlüksizlik konsepsiyası irəli sürür. Milli dövlətçilik quruculuğu gedişində dövlət ideoloji cəhətdən milləti birləşdirməlidir ki, milli təhlükəsizliyi təmin edə bilsin.

Qərb tədqiqatçıları milli təhlükəsizliyin yaradıldığı dəyərlər sistemində ən mühüm dəyər kimi insan həyatına birinci dərəcəli önəm verilməsi zərurətini irəli sürürlər. Milli təhlüksizlik sisteminin səmərəliliyini birinci növbədə dövlətin öz vətəndaşlarını nə dərəcədə müdafiə edə bilməsində, onların bu dəyərləri qəbul etmə səviyyəsində görürlər.

Qərb milli təhlükəsizlik nəzəriyyəçiləri dövləti ideoloji prinsiplərin müdafiə funksiyasından azad etmək fikrini irəli sürürlər və bunu Qərbdə açıq cəmiyyətlərin mövcudluğu ilə izah edirlər.

Şərqdə isə dövlətin ideoloji müdafiəsi funksiyasına üstünlük verilir. İdeoloji müdafiə bir çox dövlətlərin dövlət təhlükəsizliyinin tərkib hissəsinə çevrilib. Şərqlə Qərbin sintezi olan Azərbaycanda milli dövlət quruculuğu gedişində milli təhlükəsizlik üçün təhlükələri aradan qaldırmaq üçün ideoloji müdafiə sistemləri yaradılmışdır. Güclü dövlətlər öz vətəndaşlarının maraqlarını nəzərə alırlar, vətəndaşlar da öz dövlətlərini təhlükəli ideyalardan müdafiə edirlər.

Dövlət öz təhlükəsizliyinin milli və beynəlxalq səviyyədə prioritetlərini müəyyən edərək bunları təmin edə bilər. Milli təhlükəsizlik ideoloji aspektdə dörd səviyyədə – ictimai, fərdi, dövlət və beynəlxalq səviyyələrdə həyata keçirilir. Bunun Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmək lazımdır. Bu problemin fəlsəfi-etik və siyasi-hüquqi aspektdə az öyrənildiyinə diqqəti cəlb edən Azərbaycan filosofu İ.Məmmədzadə yazır: «Nəzərə çatdırmaq lazımdır ki, ictimai şüur müəyyən bir mərhələdə fərdi biganəliyə haqq qazandıra bilər. Lakin dövlətin gücü ondadır ki, ictimai şüura xas olan səhvləri və uydurmaları aradan qaldıra bilər. Unutmayaq ki, hər şeydən əvvəl öz vətəndaşlarının həyatını qoruya bilən dövlət güclü dövlət hesab olunur. Biganə vətəndaşlar isə dövlət üçün çətin ki, «yaxşı» müdafiəçi ola bilərlər» (**4, s.47**).

Milli təhlükəsizlik üçün təhlükə qonşu Ermənistanla ərazi tələblərinə əsaslanan etnik-siyasi münaqişənin «ideoloji» münaqişəyə çevrilməsidir. Belə etnosiyasi münaqişələr zamanı

iqtisadi-maddi maraqlarla yanaşı tərəflərə məxsus mənəvi-etik baxışların toqquşması da baş verir.

Dövlətlərarası ahəngdar münasibətləri təmin etmək, yaxınlaşma və rasional sülh əldə edilməsi üçün Azərbaycan tədqiqatçısı C.Feyziyev ümumi mənəvi dəyərlərin tapılması ilə yanaşı, inam və əməkdaşlığın səviyyəsinin yüksəldilməsi zəruriliyini də irəli sürür: «Milli münasibətlər etikası konstruktiv dialoqa söykənməlidir. Öz növbəsində tolerantlıq və fərqli düşüncə, fərqli mövqe, başqalarının rəyinə hörmət, həqiqətin birgə axtarışı olmadan heç bir konstruktiv dialoq mümkün deyil. Təəssüf ki, mənəvi imperativ dərəcəsinə layiq olmalı tolerantlıq real həyatda, siyasi təcrübədə özünə çətinliklə yer tapır. Əslində, milli münasibətlər etikası ifadəsi arxasında gizlənən konsepsiyalara qarşı olmalıdır. Milli münasibətlər etikasının mövcudluğu yalnız milli münasibətlərin məqbul sosial-psixoloji və iqtisadi fonunda mümkündür. Bu növ etikanın bərqərar olması üçün cəmiyyət sivilliyin daha yüksək mərhələsinə ucalmalıdır». Müəllif humanist münasibətlərin, ümumbəşəri sərvətlərin bərqərar olması prosesində etika elminin yaxından iştirakını məqbul sayır: «Bu elmin iştirakı ilə sülh fəlsəfəsi və mədəniyyəti işlənilməlidir. Məhz rasional sülh fəlsəfəsi qeyri-rasional müharibə və savaş fəlsəfəsinə qalib gəlməlidir» (**1, s.197**).

Müəllifin bu fikirləri gəqədər humanist səslənsə də onunla birmənalı şəkildə razılaşmaq olmaz. Hazırda dünyanın müxtəlif regionlarında (o cümlədən, Azərbaycanda da) milli-etnik zəmində kifayət qədər münaqişələr var ki, bu cür yanaşma ilə onları həll etmək praktiki olaraq mümkün deyil. Belə bir şəraitdə rasional sülh fəlsəfəsindən danışmaq hələ ki, tezdir.

Milli-ideoloji təhlükəsizliyin təmin edilməsində milli ideologiya müstəsna rol oynayır. Azərbaycanda milli ideologiyanın əsasını türkçülük , müasirlik və islamçılıq təşkil edir. Milli ideologiya Azərbaycanın bütün vətəndaşları tərəfindən qəbul edilən dəyər və məqsədləri özündə əks etdirən, xalqın düşüncə tərzinə çevrilən ideologiyadır. Həmçinin dövlət mənafeləri, ümumxalq dəyərlərin fövqündə duran, milli maraqları hər şeydən üstün tutan

bir ideologiyadır. Bu maraqlar əsasən ərazinin, vətəndaşların və dövlət təşkilatlarının xarici təhlükədən qorunması ilə bağlıdır.

Bu gün dünyada sülhün qorunması dövlətlər üçün ciddi problemdir . «Sülh mədəniyyətinin prinsipləri məğlubiyyətçilik, bağışlama ideyaları və ölkənin milli maraqlarının ayaqlanması hesabına sülhün bərqərar olması prosesi demək deyil. Digər tərəfdən, sülh mədəniyyəti tolerantlıq və yol verilən kompromislər əsasında bütün tərəflərin maraqları nəzərə alınmaqla münaqişələrin dinc həllinin birlikdə axtarılması mühitini yaradır» (**3, s. 28**).

İdeoloji təhlükəsizliyə nail olmanın yolu həm də mədəniyyətin aşınmalardan qorunmasından keçir. Belə ki, mədəniyyət öz inkişafında inkulturasiya və akkulturasiya proseslərini yaşayır. Birinci mərhələ inkulturasiya, ikinci mərhələ akkulturasiya, üçüncü mərhələ isə assimilyasiya adlanır. İnkulturasiya doğma mədəniyyətin ənənə, adət və digər normalarının qəbulu və qorunub saxlanmasıdır. Akkulturasiya yad mədəniyyətin ənənələrinin və dəyərlərinin bir hissəli qəbuludur. Assimilyasiya isə yad mədəniyyətin tam qəbulu və doğma mədəniyyətin yad mədəniyyət tərəfindən udulmasıdır. Ayrı-ayrı dini təriqətlərin cəmiyyətə yol açması, qadağan olunmuş kitab və nəşrlərin xüsusi yollarla insanlar arasında paylanması, ideoloji təsir vasitəsilə insanların çaşdırılması, geyim, qida, memarlıq və s. mədəniyyətində millətimizə xas olmayan cəhətlərin təbliği - vaxtında qarşısının alınması, zəruri təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edən vacib məsələlərdəndir. Ancaq bu yolla insanları inkulturasiya və akkulturasiya arasında tərəddüd etməkdən qurtarmaq mümkündür. Assimilyasiya isə ən ağrılı və fəlakətli məsələdir.

Milli mədəniyyətin sabitliyinə təsir edən amillərdən biri də submədəniyyət elementlərinin genişlənməsidir. Belə ki, submədəniyyət millətin ümumi mədəniyyətinin bir hissəsi olsa da, müəyyən aspektlərdə ümumiyə qarşı durur, lakin ümumi cəhətlərinə görə dominant mədəniyyətin əsas cəhətləri ilə razılaşaraq, milli mədəniyyətin davamçısı kimi çıxış edir. Submədəniyyət dominant mədəniyyətdən dili, həyata baxışları, davranış xüsusiyyətləri, saç forması, geyimi, adətləri ilə fərqlənir.

Bu fərqlər kəskin olsa da, submədəniyyət dominant mədəniyyətə qarşı tam çıxış etmir. Submədəniyyət dominant mədəniyyətin bir sıra dəyərlərini qəbul edir və ona özünəməxsus xüsusiyyətlər əlavə edir. Submədəniyyətlərin nümayəndələri eyni məkan və zaman çərçivəsinə mütləq daxil deyillər, onlar nisbətən müstəqil mövcud olurlar. Yəni submədəniyyətlər zamana və məkana görə fərqli mövqelərdə olsalar da, mahiyyətcə oxşar ola bilərlər.

Beləliklə, milli təhlükəsizliyin əsas mahiyyəti təkcə ölkə ərazisinin və əhalisinin müdafiə olunması deyil, həm də ideoloji təhlükəsizliyinin təmin edilməsidir.

**Ədəbiyyat**:


1. Feyziyev C.Ə. Sülh fəlsəfəsi-Qafqazda etno-siyasi münasibətlərin mənəvi aspektləri. Bakı, R.J.Poliqraf, 2006, 223 s.
2. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: «Azərbaycan Universiteti Nəşriyyatı», 2001, 357 s.
3. Qasımova K. Sülh mədəniyyəti və zor işlətmək siyasəti. // Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı2009: «Səda».
4. Мамед-заде И. Гражданское общество и национальная идеология. Баку, 1995. 76с.
5. Мехтиев Р. Азербайджан: вызовы глобализации. Баку, «XXI-Yeni nəşlər evi». 2004, 584с.
6. Митрохин С.С. Национальный интерес как теоретическая проблема // ПОЛИС, 1997, №1.


**Mikayıl Əkbərov**

## Multikulturalizm fəlsəfəsi haqqında

Mədəniiyyət bəşəriyyətin inkişafının, intellektual və mənəvi tərəqqisinin əsası sayılır. Mədəniyyət qlobal informasiya cəmiyyətinin formalaşmasına, iqtisadi inkişafa, dövlət idarəçiliyinə, dünyada sülhün bərqərar olunmasına və beynəlxalq münasibətlərin yaxşılaşmasına müsbət təsir göstərə bılir.

İndi dünyada öz mədəniyyətini, milli kimliyini, adət-ənənələrini və özünə xas etnik bənzərliyini saxlamaq istəyən xalqlar səfərbər olmağa başlayıblar. Son zamanlar multikulturalizm termininə kütləvi informasiya vasitələrində daha tez-tez rast gəlmək mümkündür. Multikulturalizm öz milli-mədəni dəyərlərini saxlamaq istəyən cəmiyyətlərin qloballaşma prosesində ortaya qoyduğu yeni nəzəriyyə sayılır. Artıq dövlətlər siyasi və hərbi mübarizədən daha çox etnokultural dəyərlərinin dünya miqyasında təbliğinə daha çox vəsait xərcləməyə başlayıblar.

XXI əsr sürətli qloballaşma prosesi ilə əlamətdar olduğundan multikulturalizmlə bağlı problemlər xüsusi yer tutmağa başlayıb. Multikulturalizm nisbətən yeni anlayışdır və mahiyyəti müxtəlif mədəniyyət və dinlərə mənsub olan xalqların birlikdə yaşamaları deməkdir.

"Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalq-ların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasət hesab edilir" (**8**). Multikulturalizm siyasi termin və nəzəriyyə olaraq yaxın tarixdə ortaya çıxmışdır. Qısa zaman ərzində müasir dövrümüzdə çox populyar termin halına gəlmişdir. Çoxmədəniyyətlilik şəklində dilimizə tərcümə edilən multikulturalizm həm də mütərəqqi demokratik quruluşların milli və etnik azlıqlarla bağlı yürütdükləri yeni bir siyasi konsepsiya hesab edilir.

Multikulturalizm təkcə hakim etnik qrupu tərəfindən deyil, həm də milli azlıqlar və ölkəyə yeni daxil olanlar tərəfindən dəstəklənən mədəni müxtəlifliyə münasibətdə fərqli reaksiyaların rəngarəngliyidir. Multikulturalizmin bu spesifik cəhəti onu son nəticədə cəmiyyətin inkişafına səbəb olan müsbət nəzəriyə kimi meydana cıxarır:

"1). Multikulturalizm – pozitiv sosial təzahürdür. O, cəmiyyətin inkişafı üçün münbit şərait yaradır; etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmlədir;

2). Multikulturalizm – cəmiyyətin mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üçün alternativ siyasət kimi meydana gəlmişdir;

3). Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir;

4). Bölgələrin tarixi inkişafının xüsusiyyətləri multikulturalizmin fərqli modelininin yaranmasını müəyyən etmişdir;
5). Multikulturalizmin müxtəlif modelləri arasında fərqlərin olmasına baxmayaraq, heç şübhəsiz ki, multikultural cəmiyyətinin formalaşmasında və multikultural ətraf mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur" (7). Multikulturalizm ayrıca götürülmüş ölkədə müxtəlif millətlərə məxsus insanların mədəni müxtəlifliyinin qorunması, inkişafı və azsaylı xalqların milli mədəniyyətinin mənsub olduğu dövlətə və bütün dünyaya inteqrasiyası hesab etmək olar. Azad nəzəriyyə olaraq multikulturalizm dünyada müxtəlif xalqların birgəyaşayışının göstərcisidir ki, onsuz humanizm, demokratiya, ölkələrarası beynəlxalq münasibətlər, dövlətlərarası əməkdaşlıq, insanlar arasında qarşılıqlı anlaşma və dostluq mümkün deyil.

Etnik və mədəni müxtəlifliyi sadəcə olaraq tanımaqla iş bitmir, bu müxtəlifliyi qorumaq və inkişaf etdirmək üçün vacib və ədalətli bir mövqe gərəkdir. Hər hansı bir cəmiyyət yalnız multikulturalizmdən yararlanaraq inkişaf edə bilər. Belə olduğu halda azlıq təşkil edən etniklərin hüquqları təmin edilir, onlara ölkənin daxilində və xaricində özünü təmsiletmə və bəzi hallarda isə mədəni idarəetmə hüququ verilir.

Dünyada milli, etnik və dini baxımdan rəngarəng, kosmopolit cəmiyyətlər həmişə mövcud olmuşdur. Yəni, multikulturalizmi sadəcə milli, etnik, mədəni, dini müxtəliflik olaraq anlamaq fikrimcə, doğru deyil. "Multikulturalizmin tədqiqi ilk növbədə kompleks, inzibati yanaşma tələb edir və məsələ təkcə onda deyil ki, o, siyasi, beynəlxalq iqtisadi hüquqi, etik və digər aspektlərə malikdir. Hər bir mədəniyyət problemi inzibati əhəmiyyət daşıyır. İkincisi, multikulturalizmə aid hər bir yanaşma müasir dünyada fəlsəfənin üstün məqsədi haqda eyniliyin dərk edilməsi, qiymətləndirməsi, milli eyniliyin olması, bu eyniliyin dəyişməsinin səbəbi, eyniliyin dərəcəsi və s. kimi məsələlər üzərində yenidən düşünməyə, baş sındırmağa filosofları məcbur edir" (7).
Multikulturalizm müxtəlif sosial və siyasi səbəblərdən unudulub yaddan çıxmış mədəniyyətlərin yenidən dirçəldilib inkişaf etdirilməsinə şərait yarada bilir.

Multikulturalizm qloballaşma şəraitində maddi və mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi deməkdir. Şübhəsiz ki, bunu ancaq demokratik və vətəndaş cəmiyyətlərin bərqərar olduğu ölkələrdə həyata keçirmək mümkündür.
Fəlsəfədə mədəni və dini müxtəlifliyin düşüncə forması olan multikulturalizm ayrı-ayrı mədəniyyətlərə məxsus olan xalqların, millətlərin birgə yaşayış forması hesab edilir. Assimilyasiya ilə ziddiyyət təşkil edən multikulturalizm ikili mədəniyyətlərə aid olan cəmiyyətlərə məxsusdur.

“Multikulturalizmin həm empirizmə, həm nəzəriyyəyə, həm də fəlsəfəyə ehtiyacı var. Multikulturalizmin fəlsəfəsi mədəniyyətdə, insanların şüurunda rasionallığın təsdiqinə can atmalı, bu anlayışı müxtəlif mədəniyyətlərdə müqayisə edib genişləndirməklə humanizm ideallarını təsdiq etməlidir. Buna görə də fəlsəfə müxtəlif təcrübələrin məlumatlarını özündə birləşdirən metadil kimi çıxış etməlidir” (7).

Siyasi baxımdan multikulturalizm hər bir dövlətin mədəni dəyərlərinin və dövlətçiliyinin inkişafının əsaslarından hesab oluna bilər. Müxtəliflilik, müxtəlif mədəniyyətlərin azad şəkildə təmsil olunması sonda tamı möhkəmləndirir,onun inkişafına təkan verir.
Multikulturalizmin bir tərifi də şübhəsiz ki, özünəməxsusluqdur. Dünyanın bəzi xalqları siyasi müstəqilliyi olmadığı halda apardığı siyasi mübarizə və verdiyi minlərlə insan qurbanı hesabına əsrlərlə qazandığı özünəməxsus maddi və mənəvi dəyərləri bu günə qədər qoruyub saxlaya bilib və bəşəriyyətə bəxş edib. Multikulturalizm özünün qiymətləndirmə dəyərinə görə də maraqlıdır. Və xalqların mədəniyyətlərinin hansının daha dəyərli olduğunu göstərmək imkanına malikdir.

Multikulturalizmin meydana gəlməsinin və XX əsrin ikinci yarısından aktuallaşmasının əsas səbəbi xalqların, millətlərin assimilyasiyaya uğrayıb məhv olması təhlükəsidir. İndiyə qədər minlərlə dilin, xalqın və millətin məhv olub sıradan çıxması təhlükənin nə qədər real və ciddi olduğunu bir daha göstərir. Dünya üçün maddi və mənəvi nailiyyət yaradan hər hansı bir xalqın sıradan çıxması, şübhəsiz ki, ən böyük itki sayılmalıdır.

Multikulturalizmin bərqərar olduğu ölkələrdə xalqlar öz maddi və mənəvi dəyərlərini inteqrasiya etdirə bilir və özlərinə məxsus müsbət mədəni nümunələrini dünyaya yeni sərvətlər kimi təqdim etməyi bacarırlar.

Bəziləri elə güman edir ki, bəzi mənəvi dəyərləri saxlamaq üçün tarixi proseslə qloballaşma arasında bir harmoniya tapmaq lazımdır. Əslində müasir tələblərə cavab verməyən, vaxtı keçmiş mənəvi dəyərləri saxlamaq qeyri-mümkündür və multikulturalizm bunu qəbul etmir.

Bəzi xalqlar və ölkələr multikulturalizmin əleyhinə getməklə dünyada inteqrasiya prosesindən kənarda qalır və bəşəriyyətin qazandığı mədəni dəyər və normalardan məhrum olur.
Multikulturalizm hər hansı bir xalqın keçdiyi tarixi proseslərdən, onun rəsmi mövcud olmayan həqiqi sərhədlərindən, həyat tərzindən, nəyə qadir olduğunu və nəyə qadir olacağından xəbər verə bilir. Xalqları və ölkələri maddi və mənəvi, humanist dəyərlərə görə yalnız multikulturalizm fərqləndirə bilir. "Özündə dövlətlərin siyasi tarixini də ehtiva edən multikulturalizm mədəniyyət sahəsində cəmiyyətin siyasi tarixinin üzvü hissəsi və deməli, cəmiyyətdəki etnomilli və konfessional münasibət kimi, həm onun inkişafının nisbi sabitlik dövrünün, həm də müxtəlif xarakterli böhran dövrlərini elmi tədqiqatlarının aktual obyektlərindən biri olub və olaraq da qalmaqdadır" (7).

Müasir qloballaşma şəraitində millətçiliklə üz-üzə qalan multikulturalizmin daha perspektivli, daha əhəmiyyətli olduğu üzə çıxır. Multikulturalizm hər hansı bir xalqın məzmun və formasını, onun hansı maddi və mənəvi dəyərlərə malik olmasını nişan verir. Multikulturalizm həm də hər hansı bir xalqa mənsub olan maddi və mənəvi nailiyyəti bütün dünyanın malına çevirə bilən bir fəlsəfi nəzəriyyədir.

Multikulturalizmin həllində ölkədəki mədəni mühitin böyük rolu vardır. Hər hansı bir ölkədə mədəni mühitin tarixi ənənələri mövcuddursa, orada əsas və etnik mədəniyyətlərin inteqrasiya problemi daha rəvan həll olunur.

Dünyada təhsil və elmdə baş verən inteqrasiya multikulturalizmin həllində mühüm rolu vardır. Müxtəlif ölkələrdə tərcümə mərkəzlərinin yaradılması multikulturalizmə xüsusi töhfələr verir. Multikulturalizmin inkişafı üçün ölkədə mədəni və siyasi azadlıqları artırılması vacibdir. İlk növbədə etnik ayrı-seçkiliyin aradan qaldırılması, dinc yanaşı yaşamaq prinsipinin həyata keçirilməsi lazım gəlir. Ölkələrin Avropaya inteqrasiyası və onun müxtəlif mövcud konsepsiyalara qoşulması multikulturalizmin qorunmasına şərait yaradır.

Multikulturalizm olmayan yerdə nə "dinc yanaşı yaşama", nə də tolerantlıq prinsipləri mövcud ola bilməz. Hər hansı bir ölkədə multikulturalizmsiz bu prinsiplər mövcuddursa, bu əslində super güclərin və Trans Milli Korporasiyaların maraqlarına görə edilib və nisbi xarakter daşıyır. Ölkədə milli sərvətlər tükənən kimi şübhəsiz ki, bu prinsiplər də yoxa çıxır. Ona görə də ən əvvəl ölkədə multikulturalizm məsələsini həm siyasi, həm də hüquqi cəhətdən həll etmək vacibdir.

"Dinc yanaşı yaşama – məhz elə dünyada mədəni siyasət strategiyasının axtarılması problemidir. Lakin mədəni siyasət anlayışı bu gün daha genişdir, çünki öz mədəni özəlliklərinin, mədəni sərvətlərinin bu və ya digər şəkildə təzahürü ilə əlaqədar baxdığımız bütün problemlər çox vaxt sosial konfliktlər sırasında olan problemlərlə bağlıdır" (7).

Mono milli ölkələr heç bir maddi və mənəvi sərvət ortaya qoya bilmədiyi üçün müasir dövrdə sürətlənən qloballaşmanın təzyiqlərindən sağ-salamat çıxacağı sual altındadır. Azərbaycanın qonşusu Ermənistan dövlətinin multikulturalizm məsələsində buraxdığı ciddi səhvlər onun mədəniyyətinin inkişafını yox dərəcəsinə endirib. Məhz bunun nəticəsidir ki, bu ölkənin çox vaxt başqa xalqlardan maddi və mənəvi dəyərləri plagiat etdiyini sosial şəbəkələrdə tez-tez görmək mümkün olur.

